AMEA FOLKLOR İNSTİTUTU
İSMAYILLI RAYON İCRA HAKİMİYYƏTİ

# GÜCÜMÜZ BİRLİYİMİZDƏDİR

**mövzusunda Elmi Konfransın**

# MATERİALLARI

**İsmayıllı şəhəri, 15 dekabr 2017-ci il**

**BAKI – 2018**

**TƏRTİBÇİLƏR:** **Ataş ƏHMƏDLİ**
Filologiya üzrə fəlsəfə doktoru
**Dadaş ƏLİYEV**
AMEA Folklor İnstitutunun doktorantı

**REDAKTORU:** **İlkin RÜSTƏMZADƏ**
Filologiya üzrə fəlsəfə doktoru

**NƏŞRİNƏ MƏSUL:** **Əziz ƏLƏKBƏRLİ**
Filologiya üzrə fəlsəfə doktoru

**"Gücümüz birliyimizdədir" mövzusunda Elmi Konfransın materialları**. Bakı, "Elm və təhsil", 2018. -248 səh.

Kitabda AMEA Folklor İnstitutu və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 15 dekabr 2017-ci ildə İsmayıllı şəhərində keçirilən **"Gücümüz birliyimizdədir"** mövzusunda Elmi Konfransın materialları toplanmışdır.

folklor.az

G 4603000000 Qrifli nəşr
N-098-2018

© Folklor İnstitutu, 2018

# MƏRUZƏLƏR

**Sevil ƏHMƏDOVA**
*İsmayıllı Rayon İcra Hakimiyyəti*
*başçısının müavini*

## ƏLAMƏTDAR İL

Bir neçə gün öncə republikamızda və dünyanın bir çox ölkələrində Azərbaycan xalqının ümummilli lideri, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin anım günü qeyd olundu. Xalqımızın tarixində müstəsna xidmətləri olan Heydər Əliyev ölkəmizi dünyaya tolerant və multikultural bir məkan kimi tanıda bildi. Ulu öndər irqindən, dinindən, siyasi və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsə hörmətlə yanaşmağı tövsiyə edər, özü isə bu bəşəri amallara düzgün yanaşma nümayiş etdirərdi. Bu gün İsmayıllıda səkkizə yaxın xalqın və bir neçə etnik qrupun nümayəndələri yaşayır. Azərbaycan türkləri ilə yanaşı yaşayan lahıc, ləzgi, hapıt, rus, kürd, yəhudi, Axısqa türkləri və digər xalqlar üçün İsmayıllı tarixən vətən olmuş və bu gün də belədir. Ötən 2016-cı il məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Multikulturalizm ili” elan edilmiş, ölkəmizin bütün regionlarında olduğu kimi İsmayıllıda da müxtəlif səviyyəli və səciyyəli tədbirlər keçirilmişdir. Bu tədbirlərdə azsaylı xalqların da nümayəndələrinin iştirakı təmin edilmiş, onların dil və mədəniyyətləri ilə bağlı fikir mübadiləsi aparılmış, mədəni irslərinin qorunması istiqamətində fəaliyyət genişləndirilmişdir. İsmayıllı tolerantlığı və fərqli

mədəniyyətlərin mövcud olması ilə seçilən tarixi məkanlardandır. Bu bölgədə hələ çox qədimlərdən milli və dini fəqliliyə malik xalqlar məskunlaşmış, bu xalqlar birgə güzəran keçirmişdir.

Bu gün İsmayıllı rayonunda yaşayan azsaylı xalqların folklor nümunələri əsasında hazırlanmış kitabın təqdimatına toplaşmışıq. Kitab böyük zəhmət bahasına ərsəyə gətirilmiş və sonra da sizlərə təqdim olunmuşdur. AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun rəhbərliyi, filologiya üzrə fəlsəfə doktoru Ataş Əhmədli və Folklor İnstitutunun doktorantı Dadaş Əliyevin müəllifliyi ilə "Azsaylı xalqların folkloru" kitabının II cildinin çap olunması Azərbaycan folkorunun öyrənilməsi və xalqlarımızın mədəni irsinin qorunması istiqamətində görülmüş ən dəyərli işlərdən biridir. Məlumat üçün deməliyəm ki, iki il öncə bu insanlarla birgə Lahıc qəsəbəsində multikulturalizm və tolerantlıq mövzusunda maraqlı bir tədbir keçirmişik. Əslində bu günkü uğurun bünövrəsi elə o zaman qoyulmuşdur. Bu mənada, mövcud işi dövlətimizin həyata keçirdiyi ideoloji işin tərkib hissəsi kimi qəbul etməliyik. Heç şübhəsiz, bu kitabın nəşri həm də rayonumuza yeni bir uğur qazandırmışdır. Odur ki, görülmüş işə görə ilk öncə Folklor İnstitutuna və onun əməkdaşlarına təşəkkürümü bildirirəm və kollektivin gələcəkdə də rayonumuzla əməkdaşlıq edəcəyinə ümid edirəm. Folklor İnstitutu belə ideyalara dəstək olmasi ilə daima seçilmişdir. Daha sonra bu işə köməyi dəymiş hər bir vətənpərvəri alqışlayıram! Birgə çalışsaq bu istiqamətdə daha böyük nailiyyətlər qazanacağıq. Atalarımız da gözəl deyib: "Güc birlikdədir"!

**Muxtar Kazımoğlu – İmanov**
*AMEA-nın həqiqi üzvü,*
*AMEA Folklor İnstitutunun direktoru,*
*mukhtarkazimoglu@gmail.com*

# XALQ ƏDƏBİYYATINDA AZƏRBAYCANÇILIQ VƏ MULTİKULTURALİZM[1]

## Giriş

Milli və mədəni müxtəliflik baxımından kifayət qədər zəngin olan Azərbaycanda multikulturalizm azərbaycançılığın tərkib hissəsidir. Azsaylı xalqların mədəniyyətini öyrənmək bütövlükdə Azərbaycan mədəniyyətini öyrənmək deməkdir. Azərbaycan mədəniyyətinin tədqiqi və təbliği burada yaşayan azsaylı xalqların mədəniyyətinin tədqiqi və təbliği işindən ayrılmazdır. Multikulturalizmlə azərbaycançılığın bu cür ayrılmazlığı şifahi və yazılı ədəbiyyatımızda özünəməxsus ifadəsini tapıb. Azərbaycançılıq ideyası XX əsrin əvvəllərindən etibarən Azərbaycan yazılı ədəbiyatında aydın şəkildə hiss olunmağa başlayıb. Bu dövr ədəbiyyatımıza əsaslı təsir göstərən "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarında ölkənin taleyi, xalqın bu günü və sabahı ilə bağlı yazılar aparıcı yer tutub. Cəlil Məmmədquluzadənin "Azərbaycan", Əli bəy Hüseynzadənin "Nicat məhəbbətdədir" adlı məqalələri azərbaycançılıq ideyasının ifadəsində proqram səciyyəli əsərlər kimi meydana çıxıb. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında azərbaycançılıq mövzusunda müxtəlif poeziya, nəsr, drama-

-----------------------------------
[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/51/5**

turgiya nümunələri yaranıb. Sovet dövründə azərbaycançılıq ideyasının bədii ifadəsi sovet ideologiyasının verdiyi imkanlar daxilində mümkün olub. Sovet vətənpərvərliyi çərçivəsində olsa da, bu dövrdə yazıçılarımız o taylı-bu taylı Azərbaycanın istiqlal mücadiləsi ilə bağlı qiymətli əsərlər çap etdiriblər. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı bütün başqa cəhətləri ilə yanaşı, həm də milli istiqlal ideyasının, azadlıq və müstəqillik düşüncəsinin ön plana çıxması baxımından fərqlənib. Bütün tarixi mərhələlərdə yazılı ədəbiyyatımız Azərbaycan mövzusuna müraciət edərkən, təbii ki, xalq ədəbiyyatından bəhrələnib.

İstər XX əsrin əvvəlləri, istər sovet dövrü, istərsə də müstəqillik dönəmində azərbaycançılıq məfkurəsinin bədii ifadə yollarının araşdırılması heç də diqqətdən kənarda qalmayıb. Ayrı-ayrı sənətkarlara, həmçinin ayrı-ayrı ədəbi mərhələlərə həsr edilən bir çox elmi əsərlərdə ədəbiyyatşünaslarımız azərbaycançılıq ideologiyasının yazılı ədəbiyyatımızdakı mühüm aspektlərini araşdırmaya cəlb ediblər.

Azərbaycançılığın yazılı ədəbiyyatdakı təzahür aspektlərinə aid müxtəlif elmi əsərlər meydana çıxdığı halda, bu sözləri şifahi xalq ədəbiyyatı barədə söyləmək çətindir. Şifahi xalq ədəbiyyatında azərbaycançılığın necə əks olunması heç də folklorşünaslıqda qənaətbəxş şəkildə araşdırılmayıb. Deməli, folklorumuzda azərbaycançılıq xüsusi tədqiqata cəlb edilməmiş bir mövzu olaraq qalır və həmin mövzunu sistemli şəkildə araşdırmaq bir zərurət kimi qarşıya çıxır.

Həm şifahi, həm də yazılı ədəbiyyatımız xalqlar dostluğu baxımından hərtərəfli öyrənilib və həmin mövzu ilə bağlı xeyli sayda elmi əsərlər yazılıb. Sovet ideologiyasının beynəlmiləlçilik xəttindən irəli gələn həmin əsərlərdə, söz yox ki, multikulturalizmdən bəhs edilməyib və bəhs edilə də bilməz-

di. Çünki multikulturalizmin bir anlayış kimi qədim tarixi olsa da, bir termin kimi son dövrlərdə meydana çıxıb. Azərbaycanda həyat tərzinə çevrilən multikulturalizmə son vaxtlar dövlət səviyyəsində xüsusi diqqət göstərilməsi bu sahədə elmi araşdırmalara da rəvac verib. Yalnız yazılı ədəbiyyatda yox, həm də şifahi xalq ədəbiyyatında multikulturalizm bir çox elmi əsərlərin əsas mövzusuna çevrilib. Buna baxmayaraq, mövzu aktual olaraq qalır və folklorda multikulturalizmin necə və hansı şəkildə öz əksini tapması öz elmi həllini gözləyir.

## Azərbaycançılıq

Azərbaycançılıq düşüncəsinin folklorda hansı istiqamətlərdə əks olunduğunu izləyərkən, hər şeydən əvvəl, onu nəzərə almalıyıq ki, bu düşüncə ümumi vətən anlayışından konkret coğrafi məkana doğru tədrici dəyişmə və inkişaf yolu keçir. Yazılı ədəbiyyatımızda "mənim vətənim haradır?", "mənim milliyyətim nədir?", "mən hansı dildə danışıram?" kimi suallardan başlayan, H.Zərdabi, M.F.Axundzadə, M.Şahtaxtlı, C.Məmmədquluzadə, A.Səhhət, Ü.Hacıbəyov, S.Vurğun, B.Vahabzadə, M.Araz kimi ədiblərin yaradıcılığında mühüm ideya istiqamətinə çevrilən azərbaycançılıq təfəkkürü öz mayasını folklordan, folklorun mühüm bir sahəsini təşkil edən xalq ədəbiyyatından götürür. Yazılı ədəbiyyatımızda "mənim vətənim haradır?" sualına ədiblər "Şərqdir", "İrandır", "Turandır", "Qafqazdır" cavablarının əvəzinə, tədricən "Azərbaycandır" cavabını verirlərsə, bu cür təfəkkür dəyişməsi xalqın özündən gəlir, dəyişən ictimai-siyasi şəraitə uyğun olaraq vətən anlayışına xalqın yeni və fərqli münasibət bəsləməsindən doğulur. Vətən anlayışına xalqın yeni və fərqli münasibəti xalq ədəbiyyatının qismən yığcam və çevik janrlarında diqqəti daha tez

cəlb edir. Belə janrlardan biri bayatılardır. Vətənin insan üçün əziz bir varlıq olması motivi ilə bayatılarda tez-tez qarşılaşırıq:

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı.

Azərbaycan XVIII əsrin sonlarında İran və Rusiya məngənəsində qalıb öz yolunu seçmək məcburiyyəti ilə üzləşdikdə bu məşhur bayatı motivi yeni məzmun çaları qazanmağa başlayır, mücərrəd vətən anlayışını konkret coğrafi məkanlar (Şəki, Şirvan, Qarabağ) əvəz edir:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Nümunə gətirilən ikinci bayatı, rəvayətə görə, Qarabağ hakimi İbrahimxəlil xanın İrana – Fətəli şahın sarayına göndərilmiş qızı Ağabəyim ağa tərəfindən söylənilib. Həmin bayatının birinci bayatıdan başlıca məzmun fərqi ondadır ki, burada Şəki, Şirvan və Qarabağ timsalında vətəndən öz sərhədləri olan, bu sərhədlərlə İrandan ayrılan bir məmləkət kimi bəhs olunur.

Azərbaycanın öz sərhədləri olan bir tarixi-coğrafi məkan, vahid vətən kimi dərk və təsvir edilməsi xalq ədəbiyyatının lirik janrları ilə yanaşı, epik janrları, xüsusən əfsanə və rəvayətlər üçün də səciyyəvidir. Təsadüfi deyil ki, əfsanə və rəvayətlərimizin böyük bir qismi Azərbaycan ərazisindəki yaşayış yerləri (Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Naxçıvan, Gəncə, Lənkəran, Bakı, Şamaxı, Quba, Şəki...); dağ, qaya və qalalar (Şah dağı, Qoşqar, Kəpəz, Qırxqız, Yanardağ, Gəmiqaya, Əlincə, Qız qalası...); çaylar və göllər (Araz, Kür, Arpa çayı, Həkəri, Bərgüşad, Göygöl, Maral göl, Göyçə gö-

lü...) və s. kimi konkret coğrafi məkanlarla bağlıdır. Coğrafi məkan kimi Azərbaycanın nişan verilməsi "Koroğlu" dastanı üçün də səciyyəvi sayıla bilər. "Koroğlu"da baş qəhrəman "Qafın o tərəfindənəm" deyib yerini-yurdunu Qafqazla əlaqələndirirsə, bu fakt həmin dastanda vətən anlayışı altında məhz Azərbaycanın nəzərdə tutulduğunu göstərir.

Unutmaq olmaz ki, folklorda vətən anlayışını Azərbaycan timsalında, Azərbaycanın konkret coğrafi məkanları nümunəsində araşdırmaq nə qədər əhəmiyyətlidirsə, həmin anlayışı Oğuz eli timsalında, Oğuz elinin coğrafiyası nümunəsində araşdırmaq da mifoloji-tarixi baxımdan bir o qədər əhəmiyyətlidir.

"Dədə Qorqud" dastanında "vətən" mənasında Oğuz eli iyirmi dörd sancaq bəyliyini əhatə edir. Bu, vətən torpağının genişliyinin bir göstəricisidir. Yeri gəlmişkən qeyd edək ki, vətən torpağının gündoğandan günbatana qədər uzanan böyük bir ərazini əhatə etməsi türk epik düşüncəsi üçün səciyyəvi bir haldır. "Oğuz kağan" dastanında Oğuz kağanın "günəş – bayrağımız, göy üzü – çadırımız" deməsi bunun bariz nümunəsidir. Bu cür nümunələr türklərin "tək Tanrı, tək xalq" deyib, cahan dövləti qurmaq istəyindən və düşüncəsindən xəbər verir.

"Günəş – bayrağımız" fikri qədim türklərin vətən anlayışı ilə bağlı başqa bir inancını da yada salır. Həmin inancın başlıca mahiyyəti gündoğan tərəfin müqəddəs sayılması ilə bağlıdır: "Dünya düzəni ilə dövlət təşkilatı arasında bir bənzərlik və uyğunluq meydana gəlirdi. Günəşin doğması, batması, gecə-gündüz, yer və göy, uca dağlar, müqəddəs ormanlar dövlət təşkilatında və idarəçiliyində bir simvol mahiyyəti daşıyıb, çox mühüm rol oynayırdı. Dövlətçilik düşüncəsi özünü çox qabarıq olaraq mifologiyada da göstərirdi. Şərq tərəf günəşin doğduğu yer olduğuna görə xüsusi önəm qazanırdı. Halbuki Göytürk dövlətinin Qərb tərəfləri Şərqə nisbətən da-

ha zəngin torpaqları əhatə edirdi. Göytürk dövlətini quran türk tayfaları Qərb bölgələrində yaşayırdı. Əsl Göytürk dövləti qərbdəki on tayfa tərəfindən qurulduğu halda, sonralar paytaxtın gündoğandakı Orhon çayının hövzəsində yerləşən Ötükenə köçürüldüyünü görürük. Böyük Hun dövlətinin, Uyğur xaqanlığının, Çingiz xan imperatorluğunun da paytaxtı məhz Ötükendə idi" (Ögel 1989, 274-275). Bir neçə türk dövlətinin paytaxt olaraq Ötükeni seçməsi bu coğrafi məkanın müqəddəsləşdirilməsini və bu müqəddəsliyin isə, hər şeydən qabaq, günəşlə, gündoğanla əlaqədar olmasını təsdiq edir.

"Dədə Qorqud" dastanında da vətən müqəddəs torpaq, ilahi mənşəli sular, dağlar və ağaclar deməkdir. "Dədə Qorqud" qəhrəmanları ən çətin məqamda göylə bərabər, yerə – torpağa da and içirlər, "göy tanıq olsun, yer tanıq olsun" deyirlər, daşqın sulara, uca dağlara, qollu-budaqlı ağaclara ilahi güc mənbəyi kimi baxırlar.

Türk mifoloji təsəvvüründə uca dağ yerlə göyü birləşdirən dirəkdir. Uca dağ göyə və Tanrıya daha yaxın olan bir məkandır. Qədim türklərdə vətən anlayışı göyə və Tanrıya daha yaxın olan dağ anlayışından başlayır. Bu gün dilimizdə "yurd yeri", "kiçik vətən" mənalarında işlənən "oba" sözü öz mənşəyini məhz həmin inamdan alır. Qədim türklər və monqollar bozqırlarda torpağı, dağ ətəklərində isə daşı üst-üstə qalayıb düzəltdikləri təpəcikləri "oba" adlandırırdılar. "Oba"lar müqəddəs dağları əvəz edir və ibadət yerinə çevrilirdi (Ögel 1994, 133). B.Ögel oba haqqındakı bu qeydlərlə bir tərəfdən vətən adı altında ilk öncə dağların başa düşülməsini, digər tərəfdən də dağların səcdəgaha çevrilməsini diqqətə çatdırır. Mifoloji-etnoqrafik materiallardan məlum olur ki, türk xaqanlarının başçılıq etdiyi möhtəşəm törənlərin (xüsusən qurban törənlərinin) çoxu müqəddəs dağların başında keçirilirmiş (Ru

1998, 119-120). Düşmən təzyiq və təqibi ilə üzləşən Çingiz xan kimi qüdrətli bahadırlar belə ən çətin məqamlarda dağlara sığınmalı olmuşlar (Ru 1998, 122). Ölən xaqanların dağ başında dəfn olunması da dağın müqəddəsliyinə etiqadın mühüm göstəricilərindən biri kimi diqqətə çatdırılır (Ögel 1988, 763).

Dağ obrazında gördüyümüz kimi ağacın da qutsallığı göylə bağlı olmasındadır. Mifoloji baxımdan ağac da dağ kimi göyün dirəyidir. Qədim türk düşüncəsinə görə, göyə dayaq olan dəmir dağlar kimi, göyə dayaq olan dəmir ağaclar da var. Yerdən boy verib qalxan bu cür mifoloji ağacların başı göy üzünə gedib çatır (Ru 1998, 118-119). Türk xalqlarında dünya ağacı ilə bağlı geniş yayılmış adətlərdən biri xüsusi dirəklərin yerə basdırılması və həmin dirəklərə mavi, ağ, sarı rəngli parçaların bağlanmasıdır. Dirəklər, söz yox ki, dünya ağacına, müxtəlif rənglər isə göyün və yerin müqəddəs rənglərinə bir işarədir (Ögel 1994, 44-45). O da məlumdur ki, pir – ağaclar altında, həmin ağacların rəmzi olan dirəklər yanında qurbanlar kəsilib, müxtəlif mərasimlər keçirilib. Çadırlarda keçirilən şaman mərasimləri ağac dirəklərin mifoloji mahiyyətini doğru-düzgün anlamağa kömək edir. Göylər aləminə qalxmağı imitasiya etmək istəyən şaman davul çala-çala, dualar edə-edə çadırın dirəyinə yaxınlaşır və dirək boyu yuxarı dırmanmağa başlayır. Şaman dirəyin başına – çadırın bacasına çatıb dayanır. Bəzi hallarda isə bacadan da keçib çadırın üstünə çıxmalı olur (Ögel 1994, 43). Çadır göy qübbəsinin, çadır dirəyi dünya ağacının rəmzi olduğu kimi, çadır bacası da göyün qapısına bir işarədir. Şaman çadırın bacasına çatmaqla, yaxud o bacadan keçib bir az da yuxarı qalxmaqla göy üzünə, ruhlar aləminə qovuşmağı imitasiya etmiş olur. Ağacın göylə mifoloji bağlılığı hesabınadır ki, türk xaqanları dağ kimi, ağaca da magik güc mənbəyi kimi baxıblar. Ötüken yalnız dağlarına

görə yox, həm də ağaclarına, ormanlarına görə qutsal vətən, qutsal xaqanlıq məkanı sayılıb.

Türk xalqları müqəddəs sayılan ağaclarda Tanrının əlamətlərini axtarıblar. Tanrı tək olduğu kimi, müqəddəs ağac da tək olmalıdır; Tanrı əbədi olduğu kimi, müqəddəs ağac da yaz-qış yarpaqlarını tökməməli, yamyaşıl olmalıdır; Tanrı var olanların hamısından böyük, ehtişamlı, əzəmətli olduğu kimi, müqəddəs ağac da ətrafdakı ağaclardan daha yüksək, daha qollu-budaqlı, daha əzəmətli olmalıdır; Tanrı doğulmayan və doğmayan olduğu kimi, müqəddəs ağac da meyvəsiz olmalıdır; Tanrı sığınılacaq varlıq olduğu kimi, müqəddəs ağac da hər yana kölgə salmalı, insanların sığınacağı bir yer olmalıdır (Ərqun 2002, 5-6).

Qədim türklərin suya tapınması dağa və ağaca tapınması ilə yan-yana, iç-içədir. Yakutlar belə hesab edirlər ki, dünya ağacının kökləri kükrəyib keçən bir sarı suya dirənir və bu su ağaca əbədi güc verir (Ru 1998, 119). Tanrı taxtının yerləşdiyi süd kimi ağ bir dağın başında süd rəngində bir dəniz var (Ögel 1994, 143). Yakutların mifoloji təsəvvürünə görə, Lena və Yenisey çaylarının mənbəyi dünyanın başlanğıcı, bu çayların okeana töküldüyü yer isə dünyanın qurtaracağıdır. Bu çaylar öz mənbəyini cənnətdən alan, yəni göydən enən və bir müddət yer üzündə axdıqdan sonra okeana tökülərək yeraltı dünyaya qovuşan qutsal çaylardır (Ögel 1994, 140). Türk bahadırları dağlara sığındığı kimi, qutsal çaylara da sığınırlar. Çingiz xan ağır məğlubiyyətdən sonra Balcuna adlı çaya sığınır, bu çaydan su içib silahdaşları ilə əhd-peyman bağlayır və yeni döyüşlərə atılır (Ögel 1994, 139).

"Dədə Qorqud" dastanında dağ, ağac və su obrazlarının nə qədər mühüm yer tutduğunu boyların sonundakı ozan alqışları açıq-aydın göstərir:

Yerlü qara dağların yıqılmasun!
Kölgəlicə qaba ağacın kəsilməsün!
Qamın aqan görkli suyun qurımasun!
(KDQ 2000, 45)

Dağ, ağac və su obrazları dastanda qəhrəmanları yüksək mərtəbədə təqdim etmək üçün ozana tez-tez gərək olur:

Qarşu yatan qara dağım yüksəgi oğul!
Qanlu suyum daşqunı oğul!
(KDQ 2000, 69, 71).

Oğuz igidinin uca dağa, daşqın suya tay tutulması kimi, onun dirəyə bənzədilməsi, yəni onun haqqında "dünlügü altun ban evimin qəbzəsi oğul" deyilməsi də, heç şübhəsiz, qəhrəmanı böyütmə, onu uca mərtəbəyə qaldırma əlamətidir. "Dədə Qorqud"da ara-sıra rast gəldiyimiz "Türkistanın dirəyi" və bu gün danışıqda tez-tez işlətdiyimiz "filankəs evimin dirəyidir" bənzətmələri, çox güman ki, kök etibarilə "göyün dirəyi" mifoloji təsəvvüründən törəmədir. Dünya ağacının göy qübbəsinə dayaq olması inancı, ehtimal ki, insanın evə dayaq olması anlayışını doğurur, yəni mifoloji düşüncədən metaforik düşüncəyə keçməyin səciyyəvi bir nümunəsi ortaya çıxır.

Əlbəttə, mövzumuza uyğun olaraq bizi burda maraqlandıran vətən anlayışı ilə bağlı dağ, ağac və su obrazlarının mifoloji tərəfləri, həmin obrazların hansı səviyyədə müqəddəsləşdirilməsi, ideallaşdırılmasıdır. Şübhə yoxdur ki, "qarşu yatan qara dağım" deməklə ozan mifoloji dünyagörüşə uyğun olaraq dağı canlı varlıq, hami ruh kimi təsəvvür edir. "Su Haq didarın görmüşdür" deməklə (KDQ 2000, 47) Qazan xan suyun müqəddəsliyinə, onun sakral aləmlə bağlılığına işarə edir. Ağacın müqəddəs varlıq kimi təqdim edilməsinə gəlincə, dastandakı bu parçanı xatırlatmaq lazım gəlir:

Məkkə ilə Mədinənin qapusı ağac!
Musa Kəlimün əsası ağac!
… Şahi-mərdan Əlinin Düldülinin əyəri ağac!
Zülfiqarın qınıyla qəbzəsi ağac!
Şah Həsənlə Hüseynün beşigi ağac!
… Başın ala baqar olsam, başsız ağac!
Dibin ala baqar olsam, dibsüz ağac!
(KDQ 2000, 50)

Uruzun dilindən verilən bu nümunədə ağac müqəddəs məkanlar və müqəddəs şəxsiyyətlərlə əlaqələndirilməkdən başqa, həm də "başsız"və "dibsiz" adlandırılır və bununla müqəddəsliyin mifoloji kökünə işarə edilir. Jan Pol Runun fikrinə şərik olub biz də belə hesab edirik ki, "başsız" və "dibsiz" adlandırılmaqla dastanda ağacın kökünün və başının bu dünya ilə (profan aləmlə) bağlı olmaması, yəni ağacın adi ağac yox, dünya ağacı olması nəzərdə tutulur (Ru 1998, 118).

Dağın, ağacın və suyun müqəddəs sayılması dastanda Oğuz eli adlı vətəni müqəddəsləşdirməyin, ideallaşdırmağın mühüm bir vasitəsi kimi yadda qalır.

Dövlətçilik təfəkkürü, o cümlədən vətən anlayışı "Koroğlu" dastanında "Kitabi-Dədə Qorqud" dastanında gördüyümüzdən müəyyən qədər fərqli şəkildə ortaya çıxır. Başlıca fərq Koroğlu və silahdaşlarının mövcud İran şahlığını və Osmanlı sultanlığını qəbul etməyib azadlıq uğrunda mübarizəyə qalxması, dövlət içində dövlət yaratmasıdır. Məsələ burasındadır ki, Azərbaycan XVI əsrin sonları, XVII əsrin əvvəllərində İran və Osmanlı dövlətlərinin savaş meydanına çevrilir, mövcud siyasi vəziyyətə etiraz əlaməti olaraq başlayan Cəlalilər hərəkatı "Koroğlu" dastanının yaranmasına təkan verir. Amma "Koroğlu" "Kitabi-Dədə Qorqud"la eyni epik ənənənin məhsulu olduğuna görə bu dastanların ideya-bədii siste-

mində, eləcə də dövlətçilik məsələsinə münasibətində üst-üstə düşən məqamlar istənilən qədərdir. Belə məqamlardan biri Oğuz eli və Çənlibel paralelidir. “Dədə Qorqud”dakı Oğuz eli kimi, “Koroğlu”da da Çənlibel həm bir vətən, həm də bir dövlət rəmzidir. Çənlibeldəki davranış normaları Oğuz elindəki davranış normalarına xeyli dərəcədə oxşardır. Ən başlıca oxşarlıq xalq mənafeyi naminə döyüşə hazır olmaq, döyüşdə misilsiz şücaət göstərib qalib gəlmək, bu çətin və şərəfli yolda ölümdən zərrə qədər qorxmamaqdır.

Azərbaycançılıq düşüncəsinin folklorumuzda əsas istiqamətlərindən biri vətənə məhəbbət hissinin ifadəsi ilə, vətən uğrunda mübarizənin təsviri ilə bağlıdırsa, digər bir istiqamət müstəqil dövlətçilik ideyasının birbaşa və yaxud dolayı şəkildə əks etdirilməsi ilə bağlıdır. “Dədə Qorqud” eposunda Oğuz eli, “Koroğlu” eposunda Çənlibel uğrunda mübarizə başqalarından asılılığın qarşısını almaq məqsədi ilə aparılır. “Dədə Qorqud”-dakı “Oğuz eli” ifadəsinin özündəcə müstəqilliyə işarə edilir. Məlumdur ki, qədim “il/el” sözündən başqa “toplum” mənasında işlənən “bodun/budun” sözü də vardır. Fərq burasındadır ki, “bodun/budun” adlanan toplum siyasi cəhətdən müstəqil ola da bilər, olmaya da bilər. “İl/el” adlanan toplum isə siyasi cəhətdən müstəqil olan toplumdur və onun göz bəbəyi kimi qorunan ərazisi, sərhədləri vardır. “El” sözü “Dədə Qorqud” eposunda da məhz bu cür işlənir. “Dədə Qorqud” eposunda “el” sözünün siyasi müstəqillik mənası daşımasının bir göstəricisidir ki, “Oğuz eli” ifadəsi “Oğuz cəmiyyəti” mənası ilə bərabər, “Oğuz vətəni”, “Oğuz dövləti” mənasını da bildirir. Yəni “Oğuz eli” ifadəsi altında dastançı xalq adlı sosial qurumun, vətən adlı coğrafi məkanın və hakimiyyət adlı siyasi qurumun vəhdətini nəzərdə tutur, bu vəhdətin pozulmazlığını məhz siyasi müstəqillikdə, başqa dövlətlərdən asılı olmamaqda görür.

Müstəqil dövlətçilik düşüncəsinin bu cür birbaşa ifadəsindən başqa, folklorun müxtəlif janrlarında dolayı ifadəsi ilə də qarşılaşırıq. Əgər şifahi xalq ədəbiyyatının hər hansı bir nümunəsində insan ləyaqətindən, insanın əyilməzliyindən bəhs edilirsə, bu, müstəqillik duyğusunun dolayı şəkildə əks etdirilməsi deməkdir. Təsadüfi deyil ki, akademik İsa Həbibbəylinin elmi redaktorluğu və həmmüəllifliyi ilə çap olunan ikicildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında məhz şifahi xalq ədəbiyyatı müstəqillik düşüncəsinin mühüm qaynaqlarından biri kimi nişan verilir. Belə hesab edilir ki, "vətənə gəldim, imana gəldim", "keçmə namərd körpüsündən, qoy aparsın sel səni, yatma tülkü daldasında, qoy yesin aslan səni" tipli atalar sözlərində vətənə bağlılıq, əyilməzlik, milli mənlik hisslərinin ifadəsi vardır və bu hisslər müstəqil dövlətçiliyə aparan hisslərdir (Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı 2016, 39-40).

## Multikulturalizm

Folklorda multikulturalizmin əsas qaynaqlarından biri arxaik düşüncə tərzi, mifoloji görüşlərdir. Bir-birindən çox uzaq məsafələrdə yaşayan, aralarında heç bir genetik və iqtisadi-mədəni əlaqə olmayan xalqların belə ətraf aləmə oxşar mifoloji münasibət bəsləməsi folklorda bəşəri ideyaların güclənməsinə əsaslı təsir göstərir. Dünya xalqlarının mifologiyasında mədəni qəhrəmanın ilahi mənşəyə bağlanması, sehrli qüvvələrlə əlaqələndirilməsi və haqq-ədalət təmsilçisi kimi təqdim edilməsi folkloru milli eqoizm kimi dar çərçivədən çıxarır. Forma baxımından son dərəcə milli olan folklor məzmunca ümumbəşəri mahiyyət daşıyır. Azərbaycan eposu "Dədə Qorqud"da aslan südü ilə bəslənən Basat; Qafqazın azsaylı xalqlarından olan ləzgilərin "Şarvili" eposunda gün işığından törəyən Şarvili; qırğız

eposu “Manas”da almadan törəyən Manas; alman eposu “Nibelunqlar nəğməsi”ndə əjdahanı öldürüb qanında çimən Ziqfrid ilahi mənşə və sehrli qüvvələrlə bağlı qəhrəman kimi məğlubedilməzlik xüsusiyyəti qazanır və haqq-ədalət uğrunda mübarizə aparır. Bu məğlubedilməz qəhrəmanlar əjdaha, Təpəgöz və sair qeyri-adi varlıqlarla yanaşı, insanlarla da vuruşurlar. Epos qəhrəmanlarının vuruşduğu insanlar arasında başqa xalqların və başqa dinlərin nümayəndələri də varmı? Var. Bəs epos qəhrəmanlarının başqa xalqların və başqa dinlərin nümayəndələri ilə vuruşması milli eqoizmə yuvarlanmaq və multikultural dəyərlərdən uzaqlaşmaq deyilmi? Xeyr. Ona görə ki, eposda, bütövlükdə folklorda insanlar dini və milli mənsubiyyətindən daha çox xeyiri və şəri nə dərəcədə təmsil edib-etməməsi ilə, xeyirxah və bədxah olması ilə fərqləndirilir. Epos qəhrəmanının vuruşduğu insanlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, şəri təmsil edən, haqq-ədalətə qarşı çıxan bədxah insanlardır. Mövzumuz Azərbaycan folkloru olduğuna görə misalı Azərbaycan folklorundan çəkək. Və qeyd edək ki, Azərbaycan eposu “Dədə Qorqud”da Qazan xan başqa dinə mənsub Qıpçaq Məliklə vuruşduğu kimi, islam dininə mənsub Alp Aruzla da, yəni doğmaca dayısı ilə də vuruşmalı olur. Çünki Qazan xanın vuruşduğu Alp Aruz da, Qıpçaq Məlik də şəri təmsil edirlər; həm Qıpçaq Məlik, həm də Alp Aruz Oğuz eli adlı xalq, vətən və dövlət üçün təhlükə törədirlər.

Folklorşünaslıqda çoxdan təsdiqini tapmış bir həqiqətdir ki, şifahi ənənə əsasında yaranan, yaşayan və şifahi şəkildə də nəsildən-nəslə ötürülən xalq mədəniyyətinin arxaik qolları və janrları dünya xalqlarının əksəriyyəti üçün ümumi olan ortaq ibtidai təsəvvürləri və mifoloji görüşləri əks etdirir. Mərasimlər xalq mədəniyyətinin müxtəlif janrları əhatə edən arxaik qollarından biridir və bu qolun da digər qədim qollar kimi,

ortaq mənəvi dəyərləri əks etdirməsinin kökündə ətraf aləmlə bağlı ilkin təsəvvürlər, mifoloji görüşlər dayanır.

Ətraf aləmlə bağlı ilkin təsəvvürlər mövsüm mərasimlərində özünü daha qabarıq şəkildə göstərir. Məlumdur ki, mövsüm mərasimlərinin başlıca mahiyyəti ilin ayrı-ayrı fəsillərində söz, musiqi və xüsusi hərəkətlər vasitəsilə təbiətə ovsunlayıcı təsir göstərmək və təbiəti insanın istəyinə uyğun "addım atmağa" sövq etməkdir. Belə mövsüm mərasimlərinin ən geniş yayılanlarından biri "Qodu-qodu" mərasimidir. Yağışlı, duman-çiskinli havaların uzun çəkdiyi vaxtlarda keçirilən "Qodu-qodu" mərasimi Günəşin çıxması məqsədi daşıyır. Uşaqlar boynuna kəhrəba boyunbağı salınmış bir gəlinciyi və yaxud müxtəlif şeylərlə bəzədilmiş bir çömçəni ev-ev gəzdirə-gəzdirə oxuyurlar. Bəzədilmiş gəlincik və yaxud çömçə məhz "Qodu" adlanır. "Qodu, doğrudan da, Günəşin süni surətdə bəzədilmiş, düzəldilmiş bir timsalı, surətidir. Bu, onun geyimindən, bəzəyindən də görünməkdədir. Onun başına mütləq Günəşin rənginə bənzəyən kəhrəba boyunbağı salınır. Alnına mütləq yenə də Günəşin – işığın rəmzi olan güzgü bağlanır. Əyninə Günəş – od, fəcr rəngini xatırladan müxtəlif əlvan rəngli parçalar Salınır. Bütün bu bəzəklərlə o, rəngarəng, parlaq görkəmli, gözəl bir qadına oxşadılır. Bir sözlə, qədim azərbaycanlının Günəş haqqındakı düşüncəsinin insan şəkilli bir təsəvvürü yaradılır" (Təhmasib 2010, 63). Qodunun məhz Günəşi təmsil etməsini oxunan nəğmələrdən də açıq-aydın görmək olur:

Qodu-qodu, hay Qodu-qodu,
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı günü gördünmü?
Yağ verin yağlamağa,
Bağ verin bağlamağa,

Qodu gülmək istəyir,
Qoymayın ağlamağa (Təhmasib 2010, 52-53).

Azərbaycan türkləri ilə eyni coğrafi məkanda, eyni təbii şəraitdə yaşayan və yağıntılı günlərdə Günəşin işığına və istiliyinə eyni ehtiyacı duyan azsaylı xalqlarda da “Qodu-qodu” oyunu və bu oyunla bağlı mərasim nəğməsinin müxtəlif variantları vardır. Bu mərasim avarlarda “Qordi-qordi”, saxurlarda “Qodi”, ləzgilərdə “Qudul” və s. adı ilə tanınır. Avarlarda uzun müddət yağan yağışı kəsmək, günü çağırmaq üçün taxta çömçənin içinə daş qoyub onu kəlağayı ilə bağlayırlar. Bir qızla bir oğlan çömçəni əllərinə alıb qapı-qapı gəzərək oxuyur:

| | |
|---|---|
| Горди-горди гордина, | Qordi-qordi qordina, |
| Горди салам вардина. | Qordi, salam verdimi? |
| Метер можой бакъ щайги, | Sabah sizə günəş olsun, |
| Жекъа нижей няхI магащ. | Bu gün bizə yağ-maqaş. |
| НяхI кьураси вас щайги! | Yağ verənin oğlu olsun! |
| Магащ кьураси яс щайги! | Maqaş verənin qızı olsun! |

Bu sözləri oxuyaraq qapılardan pay yığırlar.

Günü çağırmaq məqsədi ilə keçirilməsinə, kukla bəzədilib gəzdirilməsinə, mərasim adlarının bir-biri ilə səsləşməsinə, qapılardan pay yığılmasına görə avarlardakı bu oyun-mərasimin “Qodu-qodu” oyun-mərasimini xatırlatması göz qabağındadır.

“Qodu-qodu” mərasimindən başqa avarlar və saxurlar arasında uzun müddət yağan yağışı kəsmək, günü çağırmaq üçün maxara bişirilməsi də geniş yayılmışdır. Maxara süd, un və yumurtadan hazırlanır. Onu bişirmək üçün lazım olan ərzaq hər evdən yığılır və bir yerdə qarışdırılaraq bişirilir. Maxara bişirilən zaman sacın üstü qurban kəsilmiş qoyunun

piyi ilə yağlanır, onda niyyətlərinin daha tez hasil olacağına inanılır. Sacın üstünə bişiriləndə maxaranın qıraqları saçaq kimi süzüldüyündən günəşə bənzəyir.

Azərbaycan türkləri arasında günçıxarma mərasimləri ilə yanaşı, yağışyağdırma mərasimləri də keçirilib. "Çömçəxatun" adlı oyun həmin mərasimlərin izlərini yaşatmaqdadır. "Çömçəxatun" oyununun bir variantı belədir: "Uşaqlar bir yerə toplanır, bir-birindən yapışırlar, guya ki, quzudurlar. Taxta çömçə götürürlər, üstünə qara parça salırlar, bir-bir qapıları döyürlər. Kim qapıdan çıxarsa, ondan pay istəyib, həmin qapıda bu nəğməni oxuyurlar:

Çömçəxatun nə istər?
Tanrıdan yağış istər.
Qoyunlara ot istər,
Quzulara süd istər, mə-ə-ə (AFA 1994, 23).

Buna bənzər bir mərasim oyunu Azərbaycanda yaşayan avarlar arasında da qeydə alınıb. Oyunun qısa məzmunu belədir: "12-15 yaşlı bir oğlan uşağını yaşıl otlarla, ağac budaqları ilə bəzəyirlər. Bu uşaq "yağış eşşəyi" adlandırılır. Ayini icra edə-edə bu nəğməni oxuyurlar:

Beş gün dayanmadan yağsın,
Yetim uşaqlar üçün yağsın.
Qaranlıq gecədə şiddətli yağsın,
Yaşlı qadınlar üçün yağsın.
Amin, ay Allah!" (Yaqubqızı 2014, 82-83)

Oğlan uşağının əsas icraçı olması, onun heyvan (quzu, eşşək) donuna girməsi və nəğmələr oxuyub məhz bu yolla təbiətə magik təsir göstərmək istəməsi nümunə gətirilən iki oyunun bir-biri ilə üst-üstə düşən səciyyəvi cəhətləridir.

Daha çox yazda keçirilən və qoyunçuluqda artım və məhsuldarlığa nail olmaq məqsədi daşıyan sayaçı mərasim-

lərinə bənzər mərasimlərə Azərbaycandakı azsaylı xalqlar arasında rast gəlirik. Saxurların keçirdiyi "Quzu buraxma" mərasimi buna misal ola bilər. Quzuların göy ot yeməyə başladığı vaxt keçirilən həmin mərasimdə əsas məsələ pendir, qatıq, süzmə, şor, yağ və s. kimi qoyunçuluq məhsullarının pay kimi ayrı-ayrı adamlara göndərilməsidir (AXF 2014, 125-126). Göründüyü kimi, bir çox başqa mərasimlərdə müşahidə olunan bir cəhət bu mərasimdə də özünü göstərir: qurban vermə. Bəli, pay vermənin digər növlərində olduğu kimi, bu növündə də insanlar pay verməni məhz qurban vermə sayır və bu yolla hami ruhları razı salmaq, onlardan bar-bərəkət qazanmaq məqsədi güdürlər.

Yazda keçirilən mərasimlərdən danışarkən Novruz mərasimlərindən bəhs etməmək, əlbəttə, mümkün deyil. Çünki Novruz mərasimləri öz miqyasına görə daha geniş ərazini və daha çox xalqı əhatə edir. Azərbaycan türklərinin Novruzla bağlı adət-ənənələrini oxşar şəkildə talış, kürd, tat, həmçinin ləzgi, avar, saxur və s. xalqlarda da görmək çətin deyil. Novruz (həmçinin Ramazan, Qurban bayramı) adət-ənənələrinin oxşarlığında həmin xalqların islam etiqadına bağlı olmasının, heç şübhəsiz, öz rolu və təsiri vardır. Bu, öz yerində. Amma o da var ki, Novruz adət-ənənələri oxşar şəkildə xristian etiqadlı udilərdə də özünü göstərir. "Udilər yaz bayramı keçirirdilər ki, bu bayram mart ayının ortalarına təsadüf edir. Bu bayramda udilər özlərinə məxsus "hərsə" (buğda yarmasından bişirilən yemək) bişirir, yumurtanı qırmızı boyayırdılar. Uşaqlar boynuna çanta keçirib həyətləri gəzər, pay umardılar. Novruzgülü yığardılar.

"Novruz gülü, Novruz gülü,
Bir gətir, iki gətir, yumurta gətir!" –

şəklində oxumaqla yazın gəlişini bayram edərdilər. Bayram günü axşamçağı həyətlərdə tonqal qalayıb üstündən tullanar, oxuyardılar:

Ağrım-acım odda qalsın,
Ağrımı-acımı od aparsın!" (Yaqubqızı 2016, 77)

Müsəlman həmvətənləri kimi, xristian udilərin də yaz gələndə doğuluş, törəniş, artım rəmzi olan yumurta boyamaları, tonqal qalayıb təmizlik rəmzi olan odun üstündən tullanmaları multikultural dəyərlərin mühüm göstəricilərindəndir.

Multikultural dəyərlər mövsüm mərasimlərində olduğu kimi, məişət mərasimlərində də qabarıq ifadəsini tapır. Məişət mərasimlərindən olan yas və toy mərasimlərinə ümumi nəzər salsaq, bu fikrin nə qədər əsaslı olduğuna bir daha inanmış olarıq.

Yas yerində ölünü ağlamaq dünyanın əksər xalqları, eləcə də Azərbaycanda yaşayan xalqlar üçün səciyyəvi bir haldır. Təsadüfi deyil ki, Azərbaycan türkləri ilə yanaşı, bu ölkədəki azsaylı xalqlar arasında da ağı demək adəti vardır. Təbii ki, Azərbaycanda toplanıb nəşr olunmuş ağı nümunələri bu ölkədə yaşayan bir yox, bir çox xalqlara məxsusdur. Müxtəlif xalqlara məxsus ağı nümunələri məhz ortaq dəyərlərdən xəbər verir. Bununla bərabər, yas mərasimlərindəki başqa bir ortaq dəyərdən də bəhs etmək lazım gəlir. Həmin dəyər şükranlıq düşüncəsindən doğan bir dəyərdir. Məlumdur ki, ölən adamdan ötrü hədsiz dərəcədə göz yaşı axıdıb, vaxt-bivaxt ağlamağı islam dini Allaha "xoş getməyən" bir əlamət sayır. Belə bir düşüncə tərzi Azərbaycanda yaşayan xristian etiqadlı xalqlar arasında da müşahidə olunur. Məsələn, udilərdə "qaş qaralıb çıraqlar yandırılandan sonra hər cür ağlaşmanı ölünün ruhunun təhqir olunması hesab edirlər. Bu tələb mərhumun üstünə özünü gec çatdıranlara da aiddir.

Əlbəttə, adamları ölü üstündə ağlamaqdan bir qədər çəkindirməyin bir səbəbi vardı. Onların inamına görə, insan ölmür, müvəqqəti və fani dünyadan əbədi dünyaya köçür. Elə buna görə də ölü üstündə hədsiz ağlaşma salmaq lazım deyil" (Keçaari 2004, 21). Bu gün azərbaycanlılar arasında çox işlənən "dünyasını dəyişmək" ifadəsi ölən adamın məhz bir dünyadan başqa bir dünyaya köçməsi mənasını daşıyır və həmin mənaya uyğun olaraq belə hesab edilir ki, ölüm Allah əmridir, qocalığından, cavanlığından asılı olmayaraq, hər hansı əziz adamın ölümünü mümkün qədər səbirli qarşılamaq lazımdır.

Azərbaycanda müsəlmanlar "kilsə də Allahın bir evidir" deyib, xristian adətlərinə ehtiramla yanaşdıqları kimi, xristianlar da müsəlman adətlərinə eyni ehtiramla yanaşırlar. Xeyir-şəri islam dininə mənsub qonşu xalqlarla bir olan udilər "xeyir-şər mərasimlərində donuz ətindən istifadə etmirlər. Hətta toy, nişan, xüsusilə ehsan üçün heyvanları Azərbaycan türklərinə, yaxud ləzgilərə kəsdirirlər ki, ət yeməkləri ilə əlaqədar heç bir narahatlıq yaranmasın. Bu, xalqlar arasında birgə yaşayış və qarşılıqlı hörməti özündə ehtiva edən bir nümunədir" (Keçaari 2004, 57).

Qarşılıqlı hörmət və ehtiram şəraitində yaşayan xalqların toy adətlərinin xeyli dərəcədə üst-üstə düşməsi, müxtəlif xalqlara məxsus toy mərasimlərinin bir-biri ilə yaxından səsləşməsi də tamamilə təbiidir. Gəlin gedən qızın belinin qaynı və yaxud qardaşı tərəfindən qırmızı parça ilə bağlanması, gəlinin üzü qarşısında güzgü tutulması, gəlinin arxasınca su atılması, gəlinin ayağı altında qab sındırılması, qız evindən toyuq oğurlanması və s. kimi adətlər Azərbaycandakı müxtəlif xalqların toy mərasimlərində qarşılaşdığımız adətlərdəndir. Bu adətlərin hamısında nəzərdə tutulan başlıca niyyət gəlinin təzəbəylə birgə xoşbəxtliyə qovuşmasıdır. Xoşbəxtliyin başlı-

ca şərtlərindən birini firavan yaşamaqda görən xalq arzu edir ki, gəlinin ayağı sayalı olsun, o, oğlan evinə özü ilə ruzi-bərəkət gətirsin. Ruzi-bərəkətin açıq-aşkar işarəsi olan hərəkətlər toylarda xüsusi yer tutur. Məsələn, ingiloylarda gəlin oğlan evinə gələndə "əlində xonça olan bir qadın onu qarşılardı. Adətə görə, xonçada bir neçə yandırılmış şam, çörək, yağ və bal olardı. Gəlin evə daxil olan kimi həmin xonça ona təqdim olunardı... Evin yaşlı bir qadını bir qaşıq balı gəlinin ağzına qoyar, əlinə xəmir verər, başına bir neçə barama qoyardı. Bal gəlinin evə şirinlik gətirməsinə, xəmir gəlinin o gündən ailənin çörək bişirən bir üzvü olmasına (həm də ayağının ruzili olmasına) dəlalət edir, barama isə gəlinin evində xeyir-bərəkətin və həmişə ipək parçaların olmasına işarə idi" (Yaqubqızı 2016, 92). Toy mərasimində bərəkət və bolluğun geniş yayılmış rəmzlərindən biri şax bəzəmədir. 1-1,5 metr hündürlüyündə olan ağacın bahalı hədiyyələr, meyvələr, konfetlər, müxtəlif şirniyyat növləri ilə bəzədilməsindən ibarət olan bu adət Krım tatarlarında, qaqauzlarda, Anadolu türklərində, özbəklərdə, Azərbaycanın ayrı-ayrı bölgələrində, həmçinin Şirvanda lahıclar arasında qeydə alınıb (Xürrəmqızı 2002, 122).

Dünya ağacı inamına gedib çıxan şax bəzəmədə əsas elementlərdən biri almadır. Şax bəzəmə adətinin səciyyəvi olmadığı bölgələrdə belə, alma toy mərasiminin müxtəlif mərhələlərində xüsusi rəmzi mahiyyət daşıyan vasitə kimi diqqəti cəlb edir. Azərbaycan nağıllarında tez-tez rast gəldiyimiz sehrli alma yeyib cavanlaşma, almadan övlad törəmə motivlərini xatırlasaq, toy mərasimlərində alma ünsürünün məhz həyatvericilik, nəsil artırma inamları ilə bağlı olmasına bir daha inanmış olarıq. Həmin inamın bir əlaməti olaraq Azərbaycanın Naxçıvan bölgəsində gəlinə təzəbəyin alma atması, Şəki-Zaqatala bölgəsində elçilik zamanı qızın razılığının alma vasitəsilə alınması

adətlərinə rast gəlirik: “Almanı bir boşqaba qoyub gələcək gəlinə göndərərdilər. O, adətən, almanı iki para bölüb yarısını yeyər, ikinci yarısını isə oğlana çatdırmaq üçün məclisə qaytarardı. Bu, razılıq əlaməti hesab olunurdu. Əksinə, qız almanı yemədən bütöv, əl vurmadan geri qaytarsaydı, bu, sövdanın baş tutmaması hesab olunardı” (Keçaari 2003, 16). Başqa xalqlarla müqayisədə udilər üçün daha çox səciyyəvi olan bu adət alma ilə bağlı başqa bir adəti də yada salır. Bu, ingiloylar arasında qeydə alınan “almaya güllə atmaq” adətidir: “İngiloylarda qapının ağzına bir ağac basdırırlar. Ağacın başına alma keçirilmiş olur. Adətə görə, oğlan evindən gələn kişilərdən biri almanı tüfənglə vurmalı, bundan sonra qız həyətinə daxil olmaq hüququ qazanılardı” (Yaqubqızı 2016, 101). Bu adətdə almanın güllə ilə vurulması, çox güman ki, almanın magik həyatvericilik gücünün qazanılması deməkdir.

Toy mərasimləri üçün səciyyəvi olan inamlardan biri də təzə ailə quran cavanları bədnəzərdən, bədxah qüvvələrdən gələ biləcək xəta-bəladan qorumaqdır. Bu niyyətlə icra olunan ayinlər sırasında, heç şübhəsiz, üzərlik yandırma daha geniş yer tutur. Bununla bərabər, o cəhət də qeyd olunmalıdır ki, azsaylı xalqlar arasında bədxah qüvvələrdən qorunmağın “Kitabi-Dədə Qorqud” boylarına gedib çıxan xüsusi adətləri də vardır. Uca bir yerə bərkidilmiş heyvan kəlləsini nişangaha çevirmək belə adətlər sırasındadır: “Kənddəki cavanlar ətrafdakı ağaclardan birinin başından bir heyvan kəlləsi asırlar. İnama görə, nəhs ruhlar evlənən oğlana mane olmaq üçün əjdahadan istifadə edərək onun xeyir işini pozmaq istəyirlər. Həmin kəllə də əjdahanın rəmzidir və elə “əjdaha” da adlanır... “Əjdahaya” növbə ilə atəş açırlar. Kəlləni sərrast atəş ilə yerə salan, yaxud dağıdıb tökən qalib hesab olunur...

Maraqlıdır ki, 1951-ci ilin fevral ayında böyük şair Səməd Vurğun kənddəki (Qəbələnin Nic kəndindəki – M.K.) toyların birində iştirak etmiş, sərrast atəşi ilə ağacdan asılan kəlləni tikə-parça etmişdir. Toyun bu məqamı şairin xüsusilə xoşuna gəlmiş, mərasimi Bamsı Beyrəyin toyuna bənzətmiş, qədim ənənələri qoruyub saxladıqlarına görə udilərə təşəkkürünü bildirmişdir" (Keçaari 2003, 59). "Bamsı Beyrək" boyunda oxatma yarışı ilə yaxından səsləşməsi udilərdəki "əjdahaya" atəşaçma adətinin təsadüfi olmadığını və ortaq Azərbaycan dəyərlərindən xəbər verdiyini göstərir.

Azərbaycan folklorunda başqa xalqlara və başqa dinlərə rəğbətlə yanaşmağın parlaq səhifələri var. "Dədə Qorqud" eposunun adlı-sanlı qəhrəmanlarından olan Qanturalının xristian qızı Selçan xatunu sevməsi və öz sevgilisi yolunda buğa, buğra və aslan kimi 3 vəhşi heyvanla vuruşmaqdan çəkinməməsi belə parlaq səhifələrdən biridir. Haqqında danışdığımız "Qanturalı" boyunda "Selcan xatuna dini baxımdan heç bir ögeylik sərgilənmir. Əksinə, onun qəhrəmanlığının təsvirində məhrəm bir münasibət ifadə olunur. Selcan xatun ailə namusu, qəbilənin şərəfi, mənəvi-əxlaqi təmizlik və qorxmazlıq kimi dəyərləri yüksək tutan oğuz qadınlarının mühitində tam doğmalaşmış birisidir. Bu keyfiyyətlərin hamısını azərbaycanlı oxucu onun da timsalında görür. Və buna görə də Dədə Qorqud mühitində yaşayanlar xristian Selcan xatunu müsəlman oğuz qızlarından, məsələn, Banuçiçəkdən fərqləndirmək istəmir" (Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları 2016, 10). "Dədə Qorqud" dastanının "Bamsı Beyrək" boyunda başqa bir xristian qızı ilə tanış oluruq. Bu qız Bayburt qalasının bəyinin qızıdır. O, həmin qalada dustaq olan Beyrəyə vurulur və Beyrəyi dustaqlıqdan – əsirlikdən qurtarır. Beyrək əsirlikdən xilas olub Oğuz elinə dönəcəyi təqdirdə

qayıdıb həmin xristian qızını "halallığa alacağına" and içir. Oğuz elinə gəlib sevgilisi Banuçiçəyə qovuşan Beyrək andına xilaf çıxır və dastanın 12-ci boyunda Beyrək faciəvi şəkildə ölür. Kamal Abdulla bu ölümü Beyrəyin öz andına xilaf çıxması, verdiyi sözə əməl etməməsi ilə əlaqələndirir və xatırlatdığımız əhvalatları multikultural dəyərlər baxımından belə dəyərləndirir: "Sonuncu "İc Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy"da məhz Beyrəyin həlak olması qəhrəmanın öz andına, verdiyi sözə xilaf çıxmağının nəticəsi kimi ortaya çıxır. Çünki Beyrək sözündən dönmüşdü. Söz də onu cəzalandırır. Əslində, bu məqama multikultural münasibətlər sisteminin işığında nəzər salsaq, belə demək olar: başqa bir dinin, millətin nümayəndəsinə olsa belə, verdiyi sözə xilaf çıxan oğuz cəngavərini Oğuz əxlaqı, Oğuz adəti ayrıseçkilik salmadan cəzalandırır" (Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları 2016, 12).

Dədə Qorqud eposunda xristian qızlarının təsvirində başqa bir mühüm cəhət də ifadə olunur: xristian qızları ayrı-ayrı Oğuz igidlərini ürəkdən sevməklə bərabər, bütövlükdə Oğuz elinə rəğbət bəsləyir və bunu öz hərəkətləri ilə sübut edirlər. Beyrəyi əsirlikdən xilas etmək əslində Oğuz elinə xidmət etmək deməkdir. Çünki Beyrək sıradan bir nəfər yox, Oğuz elində adlı-sanlı bahadırlardan biri, bəylər bəyi Qazan xanın sağ əlidir. Belə bir adamı sevmək, heç şübhəsiz, həmin adamın mənsub olduğu el-obanı sevmək mahiyyəti də daşıyır. Bunun həqiqətən belə olduğunu Selcan xatun – Qanturalı münasibəti daha qabarıq şəkildə göstərir. Trabzon təkuru öz qızını bir Oğuz igidinə verməsindən peşman olub Qanturalının dalınca qoşun göndərdikdə həmin qoşunla döyüşdə Qanturalı ilə bərabər Selcan xatun da qəhrəmancasına vuruşur.

Məhəbbət mövzusu Azərbaycan folklorundakı multikultural dəyərləri öyrənmək baxımından çox səciyyəvidir. Bu mövzu həm klassik Azərbaycan poeziyasında, həm də Azərbaycan dastanlarında daha çox sufizm fəlsəfəsi əsasında təqdim edilir. Sufizm fəlsəfəsinə görə, gözəl qızın sifətində-simasında Allahın zərrəsi öz əksini tapır. Gözəl qızı sevmək Allahı sevməkdir, gözəl qıza can atmaq Allaha can atmaqdır. Allahı sevmək, Allaha can atmaq, Allaha qovuşmaq idealı ilə yaşayan sənətkar elə bir mənəvi mərtəbəyə ucalır ki, həmin ucalıqda dini və milli ayrıseçkiliyə yer qalmır, sənətkar müsəlman gözəli ilə yanaşı, xristian gözəlini də eyni dərəcədə vəsf edir. Xristian gözəlini vəsf etməyin ən bariz nümunəsini "Əsli-Kərəm" dastanında görürük. Həmin dastanda müsəlman oğlu Kərəmin dəlicəsinə sevdiyi və yolunda hər cür əzaba qatlaşıb öz canından keçdiyi gözəl – xristian dininə mənsub, erməni qızı Əslidir. Maraqlıdır ki, xristian qızını sevməkdə Kərəmə öz doğmaları arasında etiraz edən yoxdur. Görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib bu barədə yazır: "Dastanda məsələ çox aydın, ciddi və möhkəm qoyulmuşdur. Bu pak və ülvi məhəbbətə mane olan, onları məhv edən, onları yandırıb külə çevirən din və onun təəssübkeş xadimləridir. Nə Kərəm, nə Əsli, hətta nə də Ziyad xan (Kərəmin atası – M.K.) bu dini ayrılığa məna vermirlər. Əslində Ziyad xan heç əvvəldən buna əhəmiyyət verməmiş, əhd-peyman bağlamağı da o təklif etmişdi. Xalq da bu din ayrılığına maneə kimi baxmır. Kərəmin gəzdiyi bütün ellər, obalar, şəhərlər, kəndlər bu sevgini alqışlayır, ona kömək etməyə çalışırlar. Hətta quşlar, heyvanlar, cansız qayalar, çaylar, meşələr, xaraba şəhərlər və s. belə Əslidən Kərəmə xəbər çatdırır, onlara kömək əli uzadır" (Təhmasib 1972, 278). Deməli, "Əsli-Kərəm" dastanında multikultural dəyər islam dininə mənsub olan bir oğlanın bir

xristian qızına dərin məhəbbəti ilə məhdudlaşmır. Dastanda multikultural dəyər bütövlükdə bir xalqın qonşu xalqa, onun dini etiqadına ehtiramla yanaşmasını da əhatə edir.

Azərbaycan şifahi xalq ədəbiyyatında bu mövzunun başqa bir səciyyəvi nümunəsi "Şeyx Sənan" əfsanəsidir. Həmin əfsanədə Şeyx Sənan adlı bir müsəlman ruhanisi gürcü əsilli xristian qızına o dərəcədə aşiq olur ki, bu eşqi hər cür dindən, məzhəbdən üstün tutur. Hadisələrə mənəvi yüksəklikdən qiymət verməyi bacaran sənətkar məhəbbət mövzusunu geniş miqyasda götürür, fərdə məhəbbəti bütövlükdə həmin fərdin mənsub olduğu dinə və xalqa məhəbbət kimi təqdim edir. Aşıq Alının misralarını yada salmaq istəyirik. Aşıq Alı deyir:

Nakəs adam bu dünyada çox olar,
Mərd igidin gözü-könlü tox olar.
Qonşunu yox istəyən özü yox olar,
Onunçün aləmi var istər könlüm.

Aşıq Alının "Könlüm" rədifli bu qoşmasında bir misra multikultural dəyərlər baxımından diqqəti xüsusi olaraq cəlb edir: "Qonşunu yox istəyən özü yox olar". Bu misra məşhur bir atalar sözünü yada salır: "Yaxın qonşu uzaq qohumdan yaxşıdır". Aşıq Alının ayrıca qeyd etdiyimiz misrasında və xatırladığımız atalar sözündə "qonşu" sözü, heç şübhəsiz, "qonşu xalq" mənasında da başa düşülə bilər və o cür də başa düşülməlidir.

Multikulturalizm və tolerantlığın özünəməxsus ifadəsini xalq gülüşündə, bu gülüşün aparıcı janrlarından biri olan lətifələrdə müşahidə edirik. Lətifə qəhrəmanı başqa xalqların nümayəndələrindən qabaq öz xalqının nümayəndələrinə gülür. Başqa xalqların və başqa dinlərin nümayəndələrinə lətifə qəhrəmanı düşmən kimi yox, dost kimi gülür. Bu cür Azərbaycan lətifələri Özgədən əvvəl Özünə gülə bilmək kimi sağlam düşüncənin məhsuludur. Öz xalqı ilə yanaşı, Özgə xalq-

ları da sevmək, Öz dini ilə yanaşı Özgə dinlərə də hörmət və ehtiram bəsləmək lətifələrin, bütövlükdə folklorun bizə aşıladığı, təlqin etdiyi mühüm bəşəri dəyərlərdəndir.

## Nəticə

1. Folklorumuzda azərbaycançılığın əsas istiqamətlərindən biri ümumi vətən anlayışından konkret coğrafi məkana doğru dəyişikliyin özünü göstərməsidir. Vətən anlayışına xalqın yeni və fərqli münasibəti xalq ədəbiyyatının qismən yığcam janrlarında diqqəti daha çox cəlb edir. Vətənin insan üçün əziz bir varlıq olması motivi ilə bayatılarda tez-tez qarşılaşırıq. Azərbaycan XVIII əsrin sonlarında İran və Rusiya məngənəsində qalıb öz yolunu seçmək məcburiyyəti ilə üzləşdikdə bayatılardakı ümumi vətən anlayışını tədricən konkret coğrafi məkanlar (Şəki, Şirvan, Qarabağ) əvəz edir. Azərbaycanın öz sərhədləri olan bir tarixi-coğrafi məkan kimi dərk və təsvir edilməsi lirik janrlarla bərabər, xalq ədəbiyyatının epik janrları üçün də səciyyəvidir. Təsadüfi deyil ki, əfsanə və rəvayətlərimizin böyük bir qismi Azərbaycan ərazisindəki yaşayış yerləri (Şuşa, Naxçıvan, Gəncə, Lənkəran, Bakı, Şəki...); dağ, qaya və qalalar (Qoşqar, Kəpəz, Qırxqız, Gəmiqaya, Qız qalası...); çaylar və göllər (Kür, Araz, Arpaçayı, Həkəri, Göygöl, Göyçə gölü..) və s. kimi coğrafi məkanlarla bağlıdır. Coğrafi məkan kimi Azərbaycanın nişan verilməsi “Koroğlu” dastanı üçün də səciyyəvi sayıla bilər. “Koroğlu”da baş qəhrəman “Qafın o tərəfindənəm” deyib yerini-yurdunu Qafqazla əlaqələndirirsə, bu fakt həmin dastanda vətən anlayışı altında məhz Azərbaycanın nəzərdə tutulduğunu göstərir.

2. Azərbaycançılığın folklorumuzdakı digər əsas istiqaməti müstəqil dövlətçilik hisslərinin ifadəsi ilə bağlıdır. Atalar

sözü və məsəllərdə, bayatılarda, gəraylı, qoşma, təcnis və s. kimi aşıq yaradıcılığı nümunələrində insanın yurda bağlılığı, mərdanəliyi, əyilməzliyi öz əksini tapırsa, bu, müstəqillik düşüncəsinin dolayı ifadəsi deməkdir. Müstəqillik düşüncəsinin nisbətən birbaşa və qabarıq ifadəsini "Dədə Qorqud" və "Koroğlu" eposlarında görürük. Xalqın öz varlığı uğrunda mübarizəsindən bəhs edən eposda vətənin azadlığı aparıcı ideyaya çevrilir. "Dədə Qorqud" eposunda "Oğuz eli" ifadəsindəki "el" sözünün siyasi cəhətdən müstəqil toplum mənası daşıması bir daha göstərir ki, Oğuz igidləri vətənin siyasi müstəqilliyini qorumaq üçün canlarından keçməyə hazırdılar. Koroğlunun dəlilərlə birlikdə məskən saldığı Çənlibel də Oğuz eli kimi müstəqil cəmiyyət və dövlətin rəmzidir, ora düşmən ayağının dəyməsi həm Koroğlu, həm də dəlilərdən ötrü ölümə bərabərdir.

3. Azərbaycan folklorunu multikulturalizm baxımından araşdırmaqda vacib məsələlərdən biri milli və mədəni müxtəlifliyin arxaik köklərini üzə çıxarmaqdır. Araşdırmalar göstərir ki, folklorda multikulturalizmin kökü mifoloji görüşlərə gedib çıxır. Ayrı-ayrı xalqların mifologiyasında mədəni qəhrəmanın ilahi mənşəyə bağlanması, sehrli qüvvələrlə əlaqələndirilməsi və haqq-ədalət təmsilçisi kimi təqdim edilməsi mifologiyadan qidalanan folkloru milli eqoizmdən uzaqlaşdırır, forma baxımından son dərəcə milli olan folklor məzmunca ümumbəşəri mahiyyət daşıyır. Azərbaycan eposu "Dədə Qorqud"da aslan südü ilə bəslənən Basat, ləzgi eposu "Şarvili"də gün işığından törəyən Şarvili ilahi mənşə və sehrli qüvvələrlə bağlı qəhrəman kimi məğlubedilməzlik xüsusiyyəti qazanır və haqq-ədalət uğrunda mübarizə aparır. Epos qəhrəmanlarının vuruşduğu qüvvələr arasında başqa xalqlara və başqa dinlərə mənsub adamların olması folkloru heç də milli eqoizmə yuvarlada bilmir. Ona görə ki, eposda, bütövlükdə

folklorda insanlar dini və milli mənsubiyyətindən daha çox xeyiri və şəri nə dərəcədə təmsil edib-etməməsi ilə, xeyirxah və bədxah olması ilə fərqləndirilir.

4. Şifahi ənənə əsasında yaranan, yaşayan və şifahi şəkildə də nəsildən-nəslə ötürülən xalq mədəniyyətinin arxaik qolları və janrları dünya xalqlarının əksəriyyəti üçün ümumi olan ortaq ibtidai təsəvvürləri əks etdirir. Mərasimlər xalq mədəniyyətinin müxtəlif janrları əhatə edən arxaik qollarından biridir və bu qolun da digər qədim qollar kimi, ortaq mənəvi dəyərləri əks etdirməsinin kökündə ətraf aləmlə bağlı ilkin təsəvvürlər dayanır. Ətraf aləmlə bağlı ilkin təsəvvürlər mövsüm mərasimlərində öz izlərini saxlamaqdadır. “Günəşi dəvət” belə mərasimlərdəndir. “Qodu-qodu” və “Qordi-qordi” adları ilə Azərbaycan türkləri və avarlar arasında keçirilən bu mərasimdə söz, musiqi, xüsusi hərəkət və oyunlar vasitəsilə təbiətə magik təsir göstərmək, yağışın kəsməsinə, Günəşin çıxıb havanın isti keçməsinə nail olmaq məqsədi güdülür.

Azərbaycan türklərinin Novruzla bağlı adət-ənənələri oxşar şəkildə talış, kürd, tat, həmçinin ləzgi, avar, saxur və b. xalqlarda da müşahidə olunur. Müsəlman həmvətənləri kimi, xristian udilərin də yaz gələndə doğuluş, törəniş, artım rəmzi olan yumurta boyamaları, tonqal qalayıb üstündən tullanmaları multikultural dəyərlərin mühüm göstəricilərindəndir.

5. Multikultural dəyərlər mövsüm mərasimlərində olduğu kimi, yas və toy kimi məişət mərasimlərində də qabarıq ifadəsini tapır. Müxtəlif xalqlara məxsus ağı nümunələrinin yazıya alınması yas mərasimindəki ölünü ağlamaq adətindən xəbər verir. Yas mərasimlərində müxtəlif xalqlar üçün ortaq olan başqa bir cəhət ölüyə hədsiz ağlamağın günah sayılmasıdır.

Qarşılıqlı hörmət və ehtiram şəraitində yaşayan xalqların toy adətlərinin xeyli dərəcədə üst-üstə düşməsi tamamilə

təbiidir. Gəlin gedən qızın belinin qaynı və yaxud qardaşı tərəfindən qırmızı parça ilə bağlanması, gəlinin üzü qarşısında güzgü tutulması, gəlinin arxasınca su atılması, gəlinin ayağı altında qab sındırılması, qız evindən toyuq oğurlanması, şax bəzənməsi və s. Azərbaycandakı müxtəlif xalqların toy mərasimlərində qarşılaşdığımız adətlərdəndir.

6. Azərbaycan folklorunda multikulturalizmin təzahürü baxımından səciyyəvi olan mövzular sırasına məhəbbət mövzusu da daxildir. Xalq ədəbiyyatının məhəbbət mövzulu nümunələrinin bir çoxu Azərbaycan türkünün xristian gözəlini ürəkdən sevməsinə həsr olunub. "Dədə Qorqud"dakı "Qanturalı" boyunun baş qəhrəmanı məhz xristian gözəlini sevir və onunla evlənir. Məhəbbət mövzusu folklorumuzda bəzən sufizm fəlsəfəsi əsasında təqdim edilir. Allahı sevmək, Allaha can atmaq, Allaha qovuşmaq idealı ilə yaşayan sənətkar elə bir mənəvi mərtəbəyə ucalır ki, həmin ucalıqda dini və milli ayrı-seçkiliyə yer qalmır, sənətkar müsəlman gözəli ilə yanaşı, xristian gözəlini də eyni dərəcədə vəsf edir. Xristian gözəlini vəsf etməyin ən bariz nümunəsini "Əsli-Kərəm" dastanında görürük. Kərəmin xristian qızını sevməsinə valideynləri mane olmur. Bütün el-oba Kərəmin vüsala qovuşmasına yardım etməyə çalışır. Deməli, "Əsli-Kərəm" dastanında multikultural dəyər islam dininə mənsub olan bir oğlanın bir xristian qızına dərin məhəbbəti ilə məhdudlaşmır. "Əsli-Kərəm" dastanında multikultural dəyər bütövlükdə bir xalqın qonşu xalqa, onun dininə ehtiramla yanaşmasını da əhatə etmiş olar.

7. Xristian qızının müsəlman oğluna saf məhəbbəti müsəlman oğlunun mənsub olduğu el-obaya bağlılığın bariz ifadəsinə çevrilir. "Dədə Qorqud" eposunda xristian qızları Oğuz igidlərini sevməklə bərabər, bütövlükdə Oğuz elinə rəğbət bəsləyir və bunu öz hərəkətləri ilə sübut edirlər. Xristian qızının

Beyrəyi əsirlikdən xilas etməsi əslində Oğuz elinə xidmət etmək deməkdir. Çünki Beyrək sıradan bir nəfər yox, Oğuz elində adlı-sanlı bahadırlardan biri, bəylər bəyi Qazan xanın sağ əlidir. Belə bir adamı sevmək, heç şübhəsiz, həmin adamın mənsub olduğu el-obanı sevmək mahiyyəti daşıyır. Bunun həqiqətən belə olduğunu Selcan xatun – Qanturalı münasibəti daha qabarıq şəkildə göstərir. Trabzon təkuru öz qızını bir Oğuz igidinə verməsindən peşman olub Qanturalının dalınca qoşun göndərdikdə həmin qoşunla döyüşdə Qanturalı ilə bərabər Selcan xatun da qəhrəmancasına vuruşur.

Qeyd edilən və təhlilə cəlb olunan bütün bu kimi faktlar folklorda multikultural dəyərlərin azərbaycançılıq düşüncəsi ilə sıx bağlı olduğunu göstərir.

## ƏDƏBİYYAT


1. AFA 1994 – Azərbaycan folkloru antologiyası, I cild (Naxçıvan folkloru). Bakı, Sabah, 1994
2. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı, Mütərcim, 2016
3. AXF 2014 – Azsaylı xalqların folkloru, I kitab / Tərtib edəni Mətanət Yaqubqızı. Bakı, Elm və təhsil, 2014
4. Ərqun 2002 – Ərqun M. Türk ağacının "Dədə Qorqud" oğuznamələrindəki izləri // "Dədə Qorqud" jurnalı, 2002, №1, s. 3-18
5. Xürrəmqızı 2002 – Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı, Səda, 2002
6. Keçaari 2003 – Keçaari G. Udilərdə ənənəvi toy mərasimləri. Gəncə, Agah, 2003
7. Keçaari 2004 – Keçaari G. Udilərdə ənənəvi yas mərasimləri. Gəncə, Agah, 2004

8. KQD 2000 – Kitabi-Dədə Qorqud ensiklopediyası, 2 clilddə, I cild. Bakı, Yeni Nəşrlər Evi, 2000

9. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, I cild. Bakı, Elm və təhsil, 2016

10. Ögel 1988 – Ögel B. Türk kültürünün gelişme çağları. İstanbul: Türk Dünyası Araştırmaları vakfı, 1988

11. Öge 1989 – Ögel B. Türk mitolojisi. I cilt. Ankara: Türk Tarih Kurumu basımevi, 1989

12. Ögel 1994 – Ögel B. Türk mitolojisi. II cilt. İstanbul: Milli Eytim basımevi, 1994

13. Ru 1998 – Ru J.P. Türklerin ve moğolların eski dini. Türkceye çeviren A.Kazancıgil. İstanbul: İşaret yayınları, 1998

14. Təhmasib 1972 – Təhmasib M.H. Azərbaycan xalq dastanları. Orta əsrlər. Bakı, Elm, 1972

15. Təhmasib 2010 – Təhmasib M.H. Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri / Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild. Bakı, Mütərcim, 2010

16. Yaqubqızı 2016 – Yaqubqızı M. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm. Bakı, Elm və təhsil, 2016

## Azerbaijaniism and multiculturalism in folklore

### Summary

Azerbaijaniism ideology in the folklore basically shows itself in the conception of native land and in the expression of statehood feelings. At the end of the 18th century when Azerbaijan faced with the challenge of choosing its own way to Iran and Russia the abstract native land concept was replaced by the concrete geographical areas (Sheki, Shirvan, Garabag). In the epos “Koroglu” the main hero’s saying “I am from the other side of Gaf” and mentioning his place as the Caucasus in that

epos the conception of native land is showed just Azerbaijan. But in the epos “Dede Gorgud” the word “el” (“land”) in the word expression “Oghuz eli” shows that it carries the independent society meaning according to the political point and Oghuz heroes are ready to give up their lives for protecting the political independence of the native land. Chanlibel where Koroglu lived with his brave men is the symbol of the independent society and state as the Oghuz area, the enemy’s visit to that place is equal to the death of Koroglu or brave men.

The root of the multiculturalism in folklore goes to the mythological thoughts. The ceremonies celebrated with the rising of the Sun and the rain, Novruz ceremonies are celebrated by Azerbaijan Turks and the limited nations living in Azerbaijan in the similar forms. Such similarity also shows itself in wedding and mourning traditions. In the mythology of the different nations the cultural hero’s connection to the divine origin, being associated with the magic powers and being introduced as the representative of the justice separates the folklore nourished from the mythology from the national egoism and gives the common public content to it. According to the multicultural values one of the most characteristic subjects is love. In the part of “Ganturali” of the epos “Dede Gorgud”, in the epos “Asli-Karam” the mutual love of the son of Muslim with the Christian daughter doesn’t become limited with the love of two individuals. This love expresses the respect and esteem of the Azerbaijan nation to the neighboring nations.

**Key words:** Azerbaijaniism, independence, national and cultural varieties, multiculturalism, myth, epos, ceremony, nationality, common public.

## Азербайджанизм и мультикультурализм в фольклоре


### Резюме

В фольклоре идеология азербайджанизма выражается в основном понятием родина и отображением чувств государственности. В конце XVIII века, когда Азербайджан, оставшийся в тисках Ирана и России, был вынужден выбрать свой путь, общее понятие родины в баятах постепенно заменяют конкретные географические названия (Шеки, Ширван, Карабах). Если главный герой эпоса "Короглы" словами "Я из той стороны Кафа" связывает свои корни с Кавказом, то этот факт показывает, что в этом дастане под понятием родина подразумевается именно Азербайджан.

Выражение слова "эль" в словосочетании "Огуз эли" из эпоса "Книга моего Деда Коркута" независимого государства в политическом смысле еще раз показывает что, Огузские герои готовы пожертвовать своей жизнью за политическую независимость родины. Ченлибель, где Короглы со своими храбрецами обосновались, является символом независимого общества и государства, как и Огуз эли, вход врагов туда равносильно смерти для Короглы, а также его храбрецов.

Корни мультикультурализма в фольклоре восходят к мифологическим воззрениям. Обряды вызывания дождя и солнца, обычаи и традиции праздничного комплекса Новруз проводятся аналогичным образом как у Азербайджанских тюрков, так и у многих малочисленных народов, проживающих на территории Азербайджана. Такая идентичность также наблюдается и в свадебных и похоронных обрядах. В мифологии отдельных народов связь культурного героя с божественным началом и магическими сила-

ми и представление его как глашатая справедливости отдаляет фольклор от национального эгоизма, придает ему общечеловеческое содержание.

Одной из характерных тем в аспекте мультикультуральных ценностей является любовная тематика. Взаимная любовь мусульманина и христианки в Песне Гантуралы Эпоса “Книга моего Деда Коркута” и “Асли-Керем” не ограничивается любовью двух индивидов. Эта любовь выражает уважение азербайджанцев к соседним народам.

**Ключевые слова:** азербайджанизм, независимость, национальное и культурное разнообразие, мультикультурализм, миф, эпос, обряд, национальность, общечеловеческое

**Ramazan Qafarov**
*Filologiya elmləri doktoru,*
*AMEA Folklor İnstitutu,ramazanqafar@yandex.com*

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI TARİXİ VƏ ƏDƏBİ MƏNBƏLƏRDƏ[1]

Azərbaycan ənənəvi mədəniyyətin ən önəmli nümunələrinin yarandığı və yayıldığı bir ölkədir. Yurdumuz qədim adət və ənənələrin, xalq inanclarının, mifoloji dünyagörüşünün, əfsanə, nağıl, dastan möcüzələrinin, mərasim və bayramların ənənəvi şəkildə müasir dövrə qədər gəlib çatdığı nadir bir mədəniyyət ocağıdır. Bu qədim, zəngin və rəngarəng ənənəvi mədəniyət nümunələri müasirlik və qloballaşma şəraitində müəyyən təsirlərə məruz qalmış, yerli şəraitdə və mühitlərdə öz yaşamını davam etdirmək istəyən bəzi ənənəvi mədəniyyət formaları passivləşməyə və unudulmağa başlamışdır. Azərbaycanın müxtəlif bölgələrində mövcud olan ənənəvi mədəniyyt nümunələrini sosial təcrübədən və yaddaşlardan öyrənmək mümkündür. Əgər bu iş indi görülməzsə, o zaman həmin dəyərləri nə ənənədən, nə də yaddaşdan qeydə almaq mümkün olacaq. Bu mənada günümüzün aktual məsələlərindən biri də müstəqil dövlətimizin özünəməxsus ənənəvi mədəniyyətinin, sosial-mədəni institutlarının və mənəvi konseptlərinin azərbaycançılıq ideologiyası kontekstində öyrənilməsidir. Ona görə ki, bu amillərlə milli birliyin, həmrəyliyin və dövlət quruculuğunun milli-mənəvi əsasları gücləndirilir, sürətlə müasirləşən və

------------------------------

[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/51/5**

qloballaşan dünyada bu dəyərlərin yeri və rolu dəqiq müəyyənləşdirilir. Eləcə də azərbaycançılıq ideologiyasının aktivləşdirilməsi və populyarlaşdırılması yolları aşkarlanıb tədqiqata cəlb edilir.

Müasir dövrdə azərbaycançılıq ideyalarını yaşadan, özündə ortaq dəyərləri ehtiva edən ənənəvi mədəniyyət nümunələrinin qaynaqlarının aşkarlanması məqsədi ilə iki istiqamətdə tədqiqat aparılmışdır: birincidə *etnoqrafik yönümlü sahə tədqiqatları* vasitəsi ilə Azərbaycanın müxtəlif bölgələrində məskunlaşan sakinlərlə görüşlər, müsahibələr keçirilmiş, ənənədə, yaddaşda yaşayan mənəvi dəyər konseptləri və mədəni institutlar aşkarlanıb qeydə alınmış, sistemləşdirilmiş, öyrənilmiş və təbliğ edilmişdir. İkincidə *arxiv və qədim yazılı mənbələr* araşdırılmış, Azərbaycanın ənənəvi mədəniyyəti ilə bağlı arxivlərdəki materiallar və əski çağlarda yazı yaddaşına köçürülmüş mətnlər aşkarlanıb tədqiqata cəlb edilmişdir. Bu zaman ənənəvi mədəniyyətin iki aspekti: **müasirlik və qloballaşma** şəraiti nəzərə alınmışdır. Ona görə ki, hər iki faktorun təsiri ilə ənənəvi mədəniyyətin aldığı zədələr və itkilər nəticəsində mədəni institutların zəifləməsi müşahidə olunur, desakralizasiya prosesləri baş verir. Beləliklə, tədqiqatın əsas məqsədi odur ki, müasirlik şəraitində azərbaycançılıq ideologiyasını möhkəmləndirən dəyərlər aşkarlanıb diqqətlə öyrənilsin. Azərbaycançılıq ideologiyasının aktivləşdirilməsi metodları ilə bir sırada onun ənənəvi mədəniyyətdəki mövcud sosial-mədəni davranış stereotipləri, mənəvi konseptləri müəyyənləşdirilsin. Beləcə müasirləşmə faktorunun mənfi və müsbət təmayüllərini diqqətdə saxlamaqla azərbaycançılıq ideyasının ənənəvi əsaslarının gücləndirilməsi istiqamətində səmərəli iş aparılmışdır.

Azərbaycançılıq ideyasının rüşeymləri çox əski çağların mədəniyyət və incəsənət materiallarının içərisində əridilmişdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Xalqın əski mifoloji düşüncəsində;
2. Ritual və inanclarında;
3. İlkin ədəbi-tarixi yazılı abidələrdə;
4. Dini təsəvvürlərdə və müqəddəs kitablarda;
5. Arxeoloji qazıntıların yekunlarında;
6. Yurdumuzun qədim tarixi, mədəniyyəti və etnoqrafiyasına aid yunan, ərəb, İran, hind və Çin mənbələrindəki məlumatlarda;
7. Nağıl, dastan, əfsanə və başqa folklor qaynaqlarında;
8. Yazıya alınmış qəhrəmanlıq eposlarında;
9. Klassik ədəbi irsdə, qədim dövr şair, filosof və mütəfəkkirlərin əsərlərində;
10. Azərbaycan xalqının mədəniyyətini tədqiq edən Avropa və Asiya alimlərinin tədqiqatlarında;
11. XIX-XX əsr rus və Azərbaycan mətbuatında;
12. Azərbaycan folklorşünaslarının araşdırma və toplularında.

Azərbaycançılıq ideologiyasının ən əski qaynaqları – ulu əcdadlarımızın dünyagörüşü sistemləri, ritual-mərasim örnəkləri xalqımızın ululuğunu, dünyanın ilk sakinləri sırasında durduğunu göstərən dəlillərdəndir ki, onların əski yaşayış məskənlərində (Azıx mağarası, Qobustan qayalıqları, Gəmiqaya və s.) yaranması şübhəsizdir. Oradakı daşlar, qayalar ulu babalarımızın ən qədim rituallarının, adət-ənənələrinin, dünyagörüşünün, kultlarının şahidləridir. Şahid qayaların bir neçəsinin üstündə ibtidai əcdadlarımızın əlləri ilə yonulan günəş, insan, heyvan şəkilləri və qəribə fiqurlar, naxışlar bu günədək qorunub saxlanmışdır. Qobustan qayalarında insanların

birliyinin rəmzi kimi qol-qola tutub rəqs edən toplumun rəsmi əks olunmuşdur.

Milyon il əvvəllər – hələ mədəniyyətin və təkamülün göstəriciləri nəzərə çarpmayan çağlarda insanların dünya, həyat, zaman, məkan və kəmiyyətlə bağlı görüşlərinin əsasını primitiv təbiət obrazları təşkil etmiş, ilkin mədəniyyət və bədii yaradıcılıq forması kimi mifologiyanın bəzi ünsürləri meydana gəlmiş və ulu əcdad varlıqların necə yaranması barədə sorğuya cavab axtarılmışdır. Din, elm, incəsənət, ədəbiyyat və fəlsəfi düşüncənin tarixi köklərində duran miflərin arxaik ritualları sintezi bayram və şənlikləri, davranış və münasibətləri, adətləri nizamlamışdır. Gecə və Gündüz, Günəş və Ay, Göy və Yer, Su və Odun mifologiyada izləri – simvollaşmış obrazları bütün zamanlarda inkişafın özülündə durmuş, ən çətin anlarda insanın ümid, inam yeri, təsəllisi və yardımçısına çevrilmişdir.

Qədimlərdə elm, incəsənət və din sintez şəklində olmuş, inkişafın müəyyən mərhələsində bir-birindən ayrılmışdır. Hər üçünün vahid kökü var ki, bunu müasir elm mif, yaxud mifologiya adlandırır. Dünyanın ilkin təsəvvürlər toplusu sayılan mifologiya elə bir müdriklik zirvəsidir ki, əhəmiyyətini, dəyərini, heç vaxt itirməyəcək. Çünki mifologiyanın tipik universal obrazları – arxetiplər insanı zamanın çox dərin qatlarına aparır. Orada bütün maddi və mənəvi yaranışların rüşeymlərini tapmaq mümkündür.

Dünyanın tam modeli ilk dəfə mifologiyada əks etdirilmişdir. Bütün millətlərin vahid dünya evinin sakinləri kimi düşünülüb bir mərkəzdən idarə olunması ideyası da birinci olaraq ən əski təsəvvürlərdə özünə yer tapmışdır. Ulu əcdadın düşüncəsində canlı-cansız bütün varlıqlar Göylə Yerin izdivacından törəmişdir. Kainatdakı iri cisimlərdən tutmuş torpaq

üzərindəki ən kiçik həşaratlaradək – hər birinin mənşəyi bir nöqtədə birləşir. Və elə bir varlıq yoxdur ki, onun mifoloji sistemlərdə öz yeri, fərqli cəhəti, xüsusi funksiyası göstərilməsin. Canlı-cansız – hər şey yaranıb fəaliyyət dövrünü keçdikdən sonra kökünə dönür.

Mədəniyyət ünsürləri, ictimai münasibətlər, tayfalararası əlaqələr inkişafın başlanğıcından xəbər verir. A.Berdsonun 1932-ci ildə mənbəyini – tarixi köklərini din və əxlaqla bağladığı "açıq cəmiyyət" ideyası da ilk olaraq mifik görüşlərdə özünə yer almışdır. Eləcə də Türkün ulu babası Oğuzun haqqa, ədalətə əsaslanan xaqanlığında qapalı, total idarəçilikdən əsər-əlamət nəzərə çarpmır. Hər şey ağlın köməyi ilə həyata keçirilir, güc, zorakılıq, hiylə ancaq şərə qarşı tətbiq edilir. Mifoloji görüşlərdə **vahid dünya dövləti yaratmaq ideyasını** ilk həyata keçirən şəxs **Oğuzdur**. Dahi Nizami Gəncəvi isə "İskəndərnamə" əsərində məhz Şərqi və Qərbi birləşdirib tarixdə birinci gerçək dünya imperiyası yaratmaq təşəbbüsünü irəli sürən makedoniyalı İskəndərin obrazını yaratmış və ilk növbədə türk mifoloji təfəkkürünün ən möhtəşəm abidəsindən – "Oğuz kağan" dastanından gen-bol faydalanmışdır. Bu gün beynəlxalq terrorizm əleyhinə mübarizə ən vacib problemlərdən biri kimi gündəmə çıxarılır, onu aradan qaldırmaq üçün bütün vasitələrə əl atılması məqbul sayılır. Qəribədir ki, Kıl-Barakların mənfur əməllərindən bezən Oğuzun gördüyü tədbirlər də vəhşiliyə, barbarlığa son qoymağa yönəlmişdi. Və Nizami son poemasında *"azad və xoşbəxt cəmiyyət"* ideyası ortaya atmışdı. Bu, indiyədək tədqiqatçılar tərəfindən intibah şairinin utopiyası kimi xarakterizə edilirdi. Lakin bir cəhət unudulurdu ki, şairin bütün əsərlərindən qırmızı xətlə keçən atəşpərəstlik məsələləri həmin təsvirin də əsasında durur. **"Avesta"dakı** *"Yim haqqında mif"* mətnində xeyir tanrısı Ahur-Məzd pey-

ğəmbər Zaratuştra "qızıl dövr"də yaranan bərəkətli dünya ölkəsindən danışaraq deyir ki: *"4. Onda, ey Zaratuştr, mən – Ahur-Məzd ona dedim: – "Əgər sən mənim yolumda İnamı öyrənib qorumaqdan imtina edirsənsə, ey Yim, dünyanı genişləndir, yer üzünün gözətçisi, qoruyucusu və öyrədicisi ol. (Mənim yaratdıqlarımı inkişaf etdir, onların qayğısına qal, müdafiəçisi və qoruyucusuna çevril).*

*5. Bu sözümə həmin gözəl Yim cavab verdi, ey Zaratuştr: – "Mən sənin üçün yaratdığın dünyanı genişləndirərəm. Yer üzünün qoruyucusu, xilaskarı, öyrədicisi olaram. Mənim hökmranlığımda soyuq küləklər, bürkü, bərk istilər, xəstəliklər və ölüm olmaz..."* (Авеста 1993, 196-197)

Yimin dünya hökmranlığında əmin-amanlıq, haqq-ədalət hökm sürür, bolluq-bərəkət o qədər artıb çoxalır ki, hamı firavan yaşayır, paxıllığa, hərisliyə ehtiyac duyulmur. Doğruluq, düzlük hamının amalına çevrilir. İnsanlar həmişə cavan qalırlar və dərd-sərdən uzaqdırlar. Pis işlər, oğurluq, qətl, qarət barədə heç kəsdə təsəvvür yoxdur. Nizaminin "utopiya"-sının əsasında məhz "Avesta"dan alınan bu motiv durur. Maraqlıdır ki, şair atəşpərəstlərin müqəddəs kitabında olduğu şəkildə yaxşı və pis ölkələri qoşalaşdıraraq yanaşı təsvir edir. "İqbalnamə"nin *"İskəndərin şimala çatması və Yəcuc səddini tikməsi"* fəslində əvvəl şərin təmsilçiləri diqqət mərkəzinə çəkilir. Şair göstərir ki:

"Bu dağın dalında, bu daşlıqda
Dəniz kimi geniş bir çöl görürsən,
O çöldə Yəcuc adlı bir xalq
Bizim kimi insandan doğulmuşdur, lakin divə bənzəyir,
Şirlər kimi ürəkləri daş, caynaqları almazdır,
Bəd təbiətli qurdlar kimi rəngləri tutqundur,
Tükləri başlarından ayaqlarına tökülür,

Üzlərində burundan bir nişan görünmür..."

(Nizami 1981, 578-579)

Bu epizodların türkün yaratdığı qədim "Oğuz kağan" dastanında rastlaşdığımız Kıl-Baraklar haqqındakı təsvirlərlə üst-üstə düşməsi təsadüfi deyil. Nizami əsərlərini yaradanda, ilk növbədə, mənsub olduğu soyun şifahi və yazılı epik ənənəsinə üz tuturdu. Yəcucların ölkəsinin əksini təşkil edən diyarı birinciyə qarşı qoyması sübut edir ki, dahi şair ulu babaları midiyalıların yaratdığı **"Avesta"** motivlərinə də yaxşı bələd idi. Orada məsələlərin daha qlobal şəkildə meydana atıldığını anlayıb müasirlərinə tövsiyə edirdi ki, *azad və xoşbəxt cəmiyyət yaratmaq üçün bütün xalqlar türkün ədalət bayrağı altında birləşməlidir*. Nizami öz müasirlərinə Yimin (Cəmşidin) idarəçiliyini bir qədər yeniləşdirərək, təkmilləşdirərək aşağıdakı formada təqdim edir:

"Əyrilik pərdəsində bizim işimiz yoxdur,
Doğruluqdan başqa heç bir şey bilmirik.
Dünyada əyrilik qapısını bağlamışıq.
Dünyadan bu cür doğruluqla xilas olmuşuq..."

(Nizami 1981, 584-585)

Atəşpərəstlərə görə, düzlük Ahur-Məzdin sifətidir ki, insana keçən ən gözəl keyfiyyətdir. "Avesta"da göstərilir ki, yalan danışmaq böyük günahdır. Qədim Midiyada ən ağır cəzanı yalançılara verirdilər. Əksər tədqiqatçılar da təsdiqləyirlər ki, dünyanı qəzalardan yalnız Nizaminin təsvir etdiyi şəkildəki azad idarəçilik xilas edə bilər. Şair öz müasirlərinə bildirirdi ki, bütün münasibət və əlaqələri məhəbbət, eşq əsasında qurmaq; bərabərləşmənin mayasında mənəvi dəyərləri əsas götürmək; var-dövlət hesabına təbəqələşmədən uzaq qaçmaq; etika, əxlaq normalarında ancaq humanizmə söykənmək; yeni ailənin ocağını qalayanda alqı-satqı prinsipindən əl çəkmək; beynəlmiləl-

ləşmədə milli amilləri inkar etməmək və idarəçilik işinə kamilləşməklə girişmək lazımdır.

**Dünyanın klassik vahid dövlətçilik modelinin şərhi** əski mədəniyyətlərdəki mifologiyaya əsaslanaraq irəli sürülmüşdür. Məsələn, *"Qızıl milyard"* nəzəriyyəsinə görə, ekoloji tələ işə düşməmişdən qabaq bolluq timsalı olan postindustrial cəmiyyətlər mövcud imiş. Atəşpərəstlərin, eləcə də hind və yunanların mifoloji görüşlərinə diqqət yetirəndə aydınlaşır ki, lap başlanğıcda dünyanın **"qızıl dövrü"** olmuşdur. "Avesta"da cəmiyyətin yaranıb inkişaf etməsinin üç əsas dövrü göstərilir:

a) Xeyirin hökranlığı ilə yalnız işığın, istinin, Günəşin, həmişə gündüzün mövcud olduğu **qızıl dövr** – birincidir;

b) gecənin, zülmətin göy üzünü bürüməsi, soyuqların düşməsi, sərt küləklərin əsməsi, quraqlıq və aclığın başlaması, ölüm hadisələrinin baş verməsi ilə **Xeyirlə Şərin daim mübarizəsi dövrü** başlanır ki, peyğəmbər Zaratuştr həmin çağlarda yaşayıb vuruşmuşdur, bu, ikincidir;

c) **Xeyir Şər üzərində qələbə çalandan sonra** yenidən təbiət xoşhallaşacaq, ölüm yer üzündən silinəcək, insanlar pis əməllərlə məşğul olmayacaq, düzlüyü sevəcək, yalan danışmayacaqlar, bu dövr üçüncüdür. Göründüyü kimi, ilkin çağların **vaxt və zaman bölgüsü** məhdud dairədə qırılmır, dünyanın dağılıb təzədən qurulması şəklində deyil, eyni dünya çevrəsi daxilində ardıcıllıqla, lakin çox böyük mərhələlərlə – yaxşılıqdan pisliyə və təzədən yaxşılığa doğru enib-qalxmaqla təsəvvürə gətirilir.

Qədim inkişaf etmiş mədəniyyətlərin bəzilərində zaman bölgüsü eyniköklü təsəvvürlərə söykənir. Məsələn, hindlilərdə də zaman üç mərhələdən ibarətdir: a) çiçəklənmə və uğurlarla müşaiyət olunan qızıl dövr, b) hər şeyin xarablaşmağa

başladığı dövr və v) məhv olma dövrü. Lakin "Avesta"da hindlilərin inamından fərqli olaraq zaman sonsuz göstərilir:

- varlıqların meydana gəlmə mərhələsi, ancaq işığın, uğurun, bolluğun, xeyirin mövcudluğunu şərtləndirən mərhələ (qızıl dövr),
- Şərin hökmranlığı ələ almasıyla fəlakətlərin, müharibələrin başladığı mərhələ (mübarizələr dövrü) və
- Xeyirin Şər üzərində qələbəsindən sonrakı əmin-amanlıq mərhələsi (ilkin zamana qayıdış).

Bir məsələ də diqqəti cəlb edir ki, böyük və kiçik zaman bölgülərinin hamısında insan və onun taleyi ön planda durur. Zoroastrizm təliminə görə, kainatın mövcudluğu iki əks qüvvənin – xeyirlə şərin (Ahur-Məzdlə Anqro-Manyunun) daim qarşıdurması əsasında müəyyənləşir. Bu səbəbdən gecə gündüzlə, soyuq isti ilə, həyat ölümlə əvəzlənir. Dünyanın yaranması, inkişaf mərhələləri çox böyük zamanla müşayiət olunur. Bu, on iki min ilə bərabərdir. İ.Braginski və A.O.Makovelskidən (onlar yuxarıda verdiyimiz kimi zamanı üç dövrə ayırırlar) fərqli olaraq V.V. Yevsyukov yazır ki, "on iki min illik dövr özü də atəşpərəstlikdə hərəsi üç min illik olan dörd mərhələyə bölünür" (Евсюков 1990, 119). Həmin mərhələlər aşağıdakı şəkildə xarakterizə edilir:

**Birinci mərhələdə,** Azərbaycan atalar sözündə deyildiyi kimi, "Xeyir Şərlə qardaşdır", hər ikisi qonşuluqda – yerüstü və yeraltı dünyalarda bir-biriylə əlaqə yaratmadan mehriban yaşayır;

**İkincidə,** heç kim və heç nə arasında fərq qoymadan Xeyir işıqlı dünyada hökmranlıq edir;

**Üçüncüdə,** Şər – Anqro-Manyu hakimiyyəti ələ keçirir və dünyanı öz xeyrinə dəyişdirməyə çalışır;

**Dördüncüdə,** Xeyirlə Şər qüvvələr arasında həlledici müharibə baş verir, birincinin qələbəsi ilə nəticələnir. Yenidən dünyada əmin-amanlıq bərpa olunur. İşıq göydən qaranlığı qovur, Günəşin meydanı genişlənir.

Prinsipcə, bu təsnifatla əvvəlkilər arasında elə də böyük fərq nəzərə çarpmır. Sadəcə olaraq, Ahur-Məzdin yer üzündə və Anqro-Manyunun yer altında bir-birilərindən xəbərsiz öz təbiətlərinə uyğun varlıqlar yaratmaqla məşğul olduqları üç min ildə qarşıdurma baş vermir. Hər iki məkanda dinclik hökm sürür, lakin gələcək müharibələr, toqquşmalar üçün zəmin hazırlanır. Atəşpərəstlik görüşlərində cüt rəqəmlərin – "iki" (xeyir-şər) və "dörd"ün (su, od, torpaq, hava – ikisi xeyirdir, ikisi şər) təklərlə – "bir", "üç"lə müqayisədə üstünlüyünü nəzərə alsaq, V.V.Yevsyukov haqlıdır. Çünki dualizmə əsaslanan görüşdə mühüm məsələ – dünyanın tam yaşı heç vaxt tək sayla müəyyənləşə bilməzdi. Atəşpərəstlikdə dörd mərhələyə bölünən zamanın ikisi Xeyirin, ikisi isə Şərin üstünlüyü ilə başa çatmalıdır.

Zamanın bütövlükdə böyük mərhələlərə bölünməsinin iki mədəniyyətə – Qərb və Şərqə aid ən xarakterik təsnifatları (atəşpərəstlik, hind və yunan) nəzərdən keçirdikdə birincinin (atəşpərəstlərin) daha mükəmməlliyi göz qabağındadır. Çünki "Avesta"ya görə, həyat daim iki halın mübarizəsi ilə davam edir. İnkişaf bir nöqtədə dondurulub təzədən başlamır.

Sakral zamanla emprik zamanın bir-biri ilə əlaqə və bağlılığından danışan Mirça Eliada da zaman məsələsində üç aspektin olduğunu göstərir: a) gerçək həyatda nə özünə yer alırsa, hamısının mifik zamanda prototipi olur; b) emprik zamanda meydanda olanlar ilkin yaranışların nümunəsi əsasında yaranır; v) tərəqqi dağıntıların içərisindən keçir – təzədən xaosa qayıdılır ki, sonra ondan yeni yaranışlar törəsin" (Элиаде 1995, 209).

Azərbaycan mifoloji görüşdərində insanların açıq formada şərə meyl etməsi dünyada köklü dəyişikliklə nəticələnir: *"Qabaxlar göy yerə yaxın idi. Adamlar bir-birini öldürüb qan tökürdülər, bərəkətin qədrini bilmirdilər. Bunu görəndə tanrının qəzəbi tutdu, göyü yerdən uzaqlaşdırdı"*. Mifin başqa variantında məsələ daha kəskin qoyulur: *"Əzəli yer üzündə heş nə yoxuydu. Elə vaxd öz-özünə cəlif keçirmiş. Sonra heyvanlar, cücülər, otdar, ağaşdar yarandı. Lap axırda Allah adamları yaratdı. Bullar yer üzündə o qədər artıf törədilər ki, dünya bullara darrığ elədi, insannar başdadılar bir-birinə pisdih, paxıllığ eləməyə. Bunu görəndə Göy acıxlanıf yerdən aralandı. O vaxtdan da bərəkət azalıf, çörəh daşdan çıxır"* (AMM 1988, 35). Deməli, dünyaqurma haqqında başlanğıcda yaranan mifoloji obrazların mahiyyətini, gizli kodlarını açmaqla gələcək haqqında dolğun nəticələr əldə etmək, vahid dünya dövləti yaratmağın daha təkmil və asan formalarını tapmaq mümkündür. Ona görə ki, mifoloji model və sistemlərdə dünyanın gələcəyi – sonu haqqında irəli sürülən fərziyələr heç də müasir alimlərin əsərlərində göstərilənlərdən az və əhəmiyyətsiz deyil. Optimist, realist və pessimist qənaətlərə **exatoloji (axırıncı varlıqlar, hər şeyin bitməsi, dünyanın sonu) miflərdə** də rastlaşırıq. Eləcə də dünyanın xəritəsini dəyişən qüdrətli qüvvələr, xaos, bəabərsizlik sindromu, əhali artımının nizamlanması, mədəni sivilizasiya dəyişiklikləri, ətraf mühitin böhranı və digər problemlərin də mifologiyada özünəməxsus şəkildə həlli yolları göstərilir. Bu səbəbdən də azərbaycançılıq ideologiyasının qaynaqları, ərəfəsi, ilkin mənbəyi kimi ən əski təsəvvürlər diqqətlə nəzərdən keçirilməlidir.

Göründüyü kimi, folklor bütün mədəniyyət amillərinin, o cümlədən yazılı ədəbiyyatın ərəfəsidir. İlk yaranma dövründə onun əsas qida mənbəyinə, bünövrə daşlarına, özülünə və

tikinti materialına çevrilmiş, sonrakı tarixi inkişaf mərhələrində isə ən sadiq yol yoldaşı olmuşdur. Folklorun yazılı ədəbiyyata təsiri deyəndə, ilk növbədə, yazıçı və şairlərin əsərlərində poetik şifahi xalq yaradıcılığı nümunələrindən necə istifadə edilməsi başa düşülür. Lakin məsələnin köklü şəkildə anlamı, ümumiyyətlə, bədii ədəbiyyatın mənşəyinin üzə çıxarılması, onda müxtəlif ədəbi proses və istiqamətlərin formalaşıb inkişaf etdirilməsi deməkdir. Bir qədər də dəqiq ifadə etsək, yazılı ədəbiyyatın folklorla əlaqəsi, bağlılığı onun xəlqiliyidir.

Şifahi xalq yaradıcılığının yazılı ədəbiyyatın özülü, qida mənbəyi və hərtərəfli (mövzu, süjet, forma, məzmun, üslub cəhətdən) təsir obyekti olmasını bütün tədqiqatçılar qəbul edirlər. Ona görə ki, yazılı ədəbiyyat folklor nümunələri əsasında meydana gəlmiş, ilkin ədəbi növ və formalar xalq yaradıcılığından hazır şəkildə almışdır. Lakin yazılı ədəbiyyat tam müstəqillik əldə edib professional söz sənəti kimi öz ənənə və qanunları ilə inkişaf etməyə başladığı, özünün xüsusi janr sistemi formalaşdığı çağlardan sonra da folklorla əlaqəsini, bağlılığını kəsməmiş, əksinə, daha sıx şəkildə nağıl, epos, dastan süjet və motivlərindən, xalq deyim tərzindən, onun bədiilik üsullarından yaradıcılıqla faydalanmışdır. Beləliklə, cəsarətlə demək olar: lap qədimdən yaşadığımız günlərədək keçilən böyük yolda yazıb-yaradan elə bir şair, yazıçı tapmaq olmaz ki, folklordan mayalanmasın. Tarixin bütün aşırımlarında yazılı ədəbiyyat folklorla yanaşı addımlamışdır. Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, yeri gələndə folklor da yazılı ədəbiyyatdan təsirlənmiş, onun mövzularını öz yolu ilə yaşatmışdır. Deməli, "Folklor və yazılı ədəbiyyat" problemi ilə iki əsas məsələyə aydınlıq gətirmək lazım gəlir: a) yazılı ədəbiyyatın folklordan qidalanması və b) yazılı ədəbiyyatın folklora təsiri. Yazılı ədəbiyyatın folklorla əlaqəsi problemi o halda düzgün və

elmi həllini tapar ki, məsələyə ümilikdə, daha geniş mənada, tarixi aspekdə yanaşılsın, bədii yaradıcılığın xəlqiliyi kimi araşdırılsın. Məhz sonuncunun düzgün dərk edilməsi yazıçının folkloru öz yaradıcılıq süzgəcindən keçirməsini və əksinə, onun yazdığı əsərin təzədən xalq yaradıcılığına adlamasını izah etməyə imkan verir.

Azərbaycan ədəbiyyatşünaslığında bu sahədə çox iş görülmüş, Nizami Gəncəvidən üzü bəri əksər yazıçı və şairlərin yaradıcılığında poetik şifahi xalq yaradıcılığı nümunələri ilə qarşılıqlı əlaqəsinə sanballı monoqrafiya və məqalələr həsr edilmişdir. Ədəbiyyatın xəlqiliyini əsaslandıran amillər və ayrı-ayrı söz sənətkarlarının bədii üslubunun mayasında folklorizmlərin mövcudluğu onu göstərir ki, yazının meydana gəlməsi ilə şifahi ədəbi ənənənin, yaradıcılıq prosesinin fərdiləşməsi hadisəsi baş vermiş, söz söyləyənlər xüsusi stasusa malik olub düşündüklərini yazı yaddaşına ötürmək imkanı əldə etmişlər.

Beləliklə, ilkin ədəbi-tarixi abidələrdə, dini kitablarda, arxeoloji qazıntılar zamanı tapılan müxtəlif məişət əşyalarının, silah və sursatların üstündə mif motivlərini əks etdirən işarə, naxış və qrafik şəkillərə təsadüf olunur ki, onların mif sistemlərinin bərpasında və eləcə də azərbaycançılıq ideologiyasının meydana gəlməsində böyük əhəmiyyəti vardır. Bu işarələr nənə-babalarımız tərəfindən sonralar xalçaların üzərinə köçürülmüşdür. Azərbaycanın qədim toxumalarında dünyanın yaranması haqqında mifik təsəvvürün bütöv mətnlərinin əks olunması şübhəsizdir. Onların kodunun açılması yolunda uğurlu addımlar atılır. Ancaq buna baxmayaraq, təəssüf ki, torpaqlarımızda aramsız qanlı müharibələr getdiyindən, ox-yaydan, qılıncdan daha çox musiqiyə, şeirə, sənətə üstünlük verən ulularımızla yanaşı, onların yaratdıqları abidələr də ya məhv edilmiş, ya da başqa ölkələrə aparılmışdır; bu zaman ancaq yadların özlərinə

sərf edən hissələr perqamentlərdən, əlyazma kitablardan götürülmüş, orijinal mətnlər isə oda qalanmışdır. Məsələn, ilkin olaraq on iki min inək dərisi üzərində qızıl hərflərlə Azərbaycan ərazisində yerləşən qədim Midiyada madayların (qədim türk etnosudur) dilində yazıya alınan "Avesta" Makedoniyalı İsgəndər tərəfindən Yunanıstana göndərilmiş, avropalıların ürəklərinə yatan hissələr yunan dilinə çevrildikdən sonra orijinal mətn məhv edilmişdir. Sonradan midiyalılara məxsus bu nəhəng abidənin cüzi hissəsi ancaq qədim pəhləvi dilində bərpa edilmişdir. Bununla xalqımızın neçə min illik tarixinə kölgə salınmışdır. Ona görə də yurdumuzun qədim tarixi, etnoqrafiyası, mədəniyyətinə aid məlumatları yunan, ərəb, İran, hind, Çin və başqa ölkələrin əski sənədlərinin arasından axtarmaq, damcı-damcı da olsa, tapıb illərlə boş qalan susuz gölləri doldurmaq lazımdır.

## ƏDƏBİYYAT


1. AMM 1988 – Azərbaycan mifoloji mətnləri, Tərtib edəni Arif Acalov, Bakı, Elm, 1988.
2. Nizami 1981 – Nizami Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə fil.e.d. Vaqif Aslanovundur. Bakı, Elm, 1981.
3. Авеста 1993 – Авеста: Избранные гимны; Из Видевдата /Пер. с авест. И.Стеблин-Каменского. М 1993.
4. Евсюков 1990 – Евсюков В.В. Мифы о мироздании. М., Мысль, 1990.
5. Фрэзер 1980 – Фрэзер Дж. Золотая ветвь. Исследование магии и религии. Пер. с англ. М.К.Рыклина. М.: Политиздат, 1980.
6. Элиаде 1995 – Элиаде Мирча. Аспекты мифа. (Первые публикации в России), М., Инвест-ППП, 1995.

## The Azerbaijan statehood ideology in the historical and literary sources


### Summary

In the investigation it is shown that the sources in the traditional culture of Azerbaijan statehood ideology are drawn into the research in the ancient mythological thinking of the nation; in the ritual and beliefs; in the initial literary-historical monuments; in the religious ideas and holy books; in the results of the archeological excavations; in the information about the ancient history, culture and ethnography of our country in Arabic, Persian, Indian and Chinese sources; in tale, epos, legend and other folklore sources; in the written heroic eposes; in the classical literary heritage, in the works by the poets, philosophers and thinkers of the ancient period; in the investigations about the culture of Azerbaijan nation carried out by the Europe and Asia scientists; in the $19^{th}$-$20^{th}$ century Russian and Azerbaijan press, in investigations and collections of Azerbaijan folklorists.



**Key words:** Azerbaijan statehood ideology, the traditional culture, myth, epos, tale, legend, the written monuments, the idea of formation of the single state, the national unity and solidarity


## Идеология азербайджанства в историко-литературных источниках


### Резюме

Исследование показывает, что идеология азербайджанства находится в традиционной культуре. Начальном стадии цивилизации эту идеологию можно встретить в мифологи-

ческой мысли людей, в ритуалах и убеждениях, литературно-исторических памятниках, религиозных фантазиях и священных книгах, археологических раскопках, греческих, арабских, иранских, индийских и китайских источниках, связанные с древней историей, культурой и этнографией нашей страны, а так же сказки, легенды, героических эпосах и других фольклорных источниках. Источником идеология азербайджанства является и классической литературной наследии, произведения древних поэтов, философов и мыслителей, научные произведении европейских и азиатских ученых, изучающих культуру азербайджанского народа. Российская и азербайджанская пресса в XIX-XX вв. Основном в статье анализириются фольклорные материалы и произведения Азербайджанской классической литературы.

**Ключевые слова:** идеология азербайджанства, традиционная культура, мифы, эпос, сказка, легенды, письменные памятники, идея создания единого государства, национального единства и солидарности.

**İlkin Rüstəmzadə**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutu, ilkinrustamzade@mail.ru*

# AZƏRBAYCAN DOMLARI: YAYILDIĞI COĞRAFİYA, TƏSƏRRÜFATI VƏ MƏİŞƏTİ[1]

Azərbaycanın müxtəlif rayonlarında yerli əhalinin qaraçı adlandırdığı fərqli topluluqlarla qarşılaşmaq mümkündür. Şəhər mərkəzi və ətraf yaşayış məntəqələrində yaşayan bu topluluqlar zahiri görünüşləri, yaşam tərzləri, xarakterik cizgilərinə görə yerli əhalidən fərqlənmiş, məhz bu fərqli cəhətlərinə görə də həmişə diqqəti öz üzərlərinə çəkmişlər. Vaxtilə köçəri həyat sürmüş bu topluluqları qaynar şəhər həyatı, daşdan, kərpicdən tikilmiş təmtəraqlı evlər cəlb etməmiş, onlar təbiətin qoynunda, keçədən salınmış alaçıqlarda yaşamağa üstünlük vermişlər. Azərbaycanın elə bir bölgəsi yoxdur ki, onlar orada düşərgə salmasın, alaçıqlarını qurmasınlar. Bu topluluqların azad həyatları, yaşam tərzi folklorda, ədəbiyyatda yeni-yeni personajların, xarakterlərin yaranmasına səbəb olmuşdur. Qaraçı adlandırılan bu topluluqlar kimlərdir? Onların məişəti, təsərrüfatı haqqında biz nə bilirik?

Öncə qeyd edək ki, qaraçı bu topluluqlara kənardan, yeri əhali tərəfindən verilən addır, əslində onlar özlərini fərqli adlarla tanıdırlar. Balakən, Zaqatala, Qax və Qəbələ rayonlarında yaşayanlar özlərini pars, Yevlax rayonunda yaşayanlar kürd, Ağsu, Ağdaş, Ağdam, Ağcabədi, Bərdə və Yevlax rayonunun Fəxrəddin Kərimov, Yeni Yevlax və Mehdi Hüseyn

----------------------------

[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/51/5**

küçələrində yaşayanlar isə özlərini dom adlandırırlar. Fərqlilik təkcə bu tayfaların adında deyil, onların zahiri görünüşündə, dillərində, adət-ənənələrində də özünü göstərir. Özlərini pars adlandıranlar fars, Yevlax rayonunda yaşayanlar kürd, domlar isə Azərbaycan dilində danışırlar. Köçəri həyat zamanı bu tayfalar arasında müəyyən yaxınlıqlar yaranmış, bir-birilərini yaxşı tanımışlar, bununla belə özləri də ayrı-ayrı topluluqlar olduqlarını iddia edirlər.

Parslar Balakən rayonunun Hənifə kəndinə tabe Gülüzanbinə və Məlikzadə yaşayış məntəqələrində, Zaqatalanın Çobankol, Qaxın Güllük və Qapıçay kəndində məskunlaşmışlar. Onların Azərbaycanda məskunlaşması keçən əsrin 60-ci illərinə təsadüf edir. Balakən ərazisində yaşayan parslar vaxtilə rayonun Şöytəlibinə adlanan ərazisində meşə kənarında qazmalarda yaşamışlar. Torpaqdan bir otaq enində qazılan, üstü qamış və torpaqla örtülən bu qazmalar çox güman ki, onların qışlaq yeri olmuşdur. Çünki oturaqlaşmamışdan əvvəl onlar köçəri həyat sürmüş, əsas getdikləri yer isə Gürcüstan ərazisi olmuşdur. Qaraçıların oturaqlaşması haqqında qərar çıxandan sonra onlar əvvəl buna qarşı çıxmış, hətta bir çoxları "atam ev-eşik qurub ki, mənim də evim olsun" deyib oturaqlaşmaq istəməmişdir. Onları məskunlaşmağa məcbur etmək üçün yaşadıqları qazmalar yandırılmış, ondan sonra tədricən onlar üçün ayrılmış torpaq sahəsinə köçməyə başlamışlar. Yaşlı sakinlərin dediyinə görə, öncə parsların ağsaqqalı Əlixan kişi məskunlaşmış, ona baxıb digər parslar da tədricən qazmalardan çıxaraq onlar üçün ayrılmış ərazilərə köçmüşlər.

Qax və Zaqatala rayonlarındakı parslar Balakən parsları ilə eyni kökdəndir. Onların Balakən ərazisini tərk etməsi keçən əsrin 60-cı illərində Gülüzanbinədə yaşayan parslarla Məlikzadə parsları arasında düşən qan davası ilə bağlıdır. Hə-

min dava nəticəsində hər iki tərəfdən həlak olanlar, yaralananlar, həmin hadisəyə görə həbsə düşənlər olmuşdur. Davanı başladanlar – Məlikzadə ərazisində yaşayan pars ailələri gecəylə rayonu tərk edərək Qaxın Güllük kəndinə gəlmişlər. Onların bir qismi sonradan dolanışıq məqsədi ilə kərpic zavodunda işləmək üçün Qapıçay kəndinə köçmüşlər.



**Qürbət adlanan qövmlə görüş zamanı. Balakən rayonu, Hənifə kəndi**

Parslar özlərini *fars qaraçısı* adlandırır, öz aralarında isə bir-birinə *qürbət* deyə müraciət edirlər. Gündəlik məişətdə fars dilindən istifadə edirlər, bir çox adət-ənənələri də (halva gecəsi, xuna-xuna və s.) fars adət-ənənələrinə yaxınlığı ilə seçilir. Parsların içərisində iki tayfanın olduğu söylənilir: bunlardan biri Azərbaycan ərazisində yaşayan parslar, digəri isə gürcü parslarıdır. Gürcüstanla bağlı olan parsların Tiflis ətrafından –

Kutaisi, Batumidən gəldikləri söylənilir. Deyilənə görə, həmin nəsillərin yaşlı nümayəndələri gürcü dilini təmiz bilirdilər.

Kürd dilində danışan və xalq arasında qaraçı adı ilə tanınan digər topluluq isə Yevlax və Bərdə rayonlarında məskunlaşmışdır. Gəncə, Qazax, Ağstafa tərəfdə də onlara məxsus ailələrin yaşadığı qeyd olunur. Ümumi olaraq özlərini Zilan kürdü adlandırırlar, amma müxtəlif tayfalardan ibarətdirlər: məsuri, olamə, geloi, quzayi, polati, əloi, bukəvəndi, salmanlı, cəlali. Bu tayfaların hamısı kürd dilində danışır, amma onlar arasında ləhcə fərqlərinin olduğu söylənilir.

## A. Azərbaycan domları

Domlar Azərbaycanda indiyə qədər qaraçı adı ilə tanınmışlar. Amma müşahidələr göstərir ki, qaraçı onların əsl adı deyil, yerli əhali tərəfindən verilən addır. Qaraçı adı Azərbaycan və Qafqaz ərazisində işlənmiş, dilənçiliklə məşğul olan tayfalara şamil edilmişdir. Qaraçı adının bu xalqın öz adı olmadığını onların qaraçı adını qəbul etməmələri, qaraçı deyilməsini özləri üçün alçaqlıq, təhqir hesab etmələri də sübut edir. Bu xalqın yerli əhali tərəfindən verilən adla adlandırılması əslində ilk hadisə deyil, digər ölkələrdə də bu təcrübə ilə sıx-sıx qaşılaşılır. Xəlbir, ələk düzəltdikləri üçün farsalar onları *ghyrbal bend*, ermənilər *maghagordz* adlandırmışlar. Ermənistan ərazisində yaşayan və poşa adlandırılan qrup da domlarla eyni mənşəlidir. O zaman sual yaranır. Bəs qaraçı adı haradan yaranıb? Qaraçı sözü ilə bağlı fərqli ehtimallar söylənilir. Bunların içərisində gerçəyə daha yaxın olanı qaraçı sözünün onların gəldiyi məkanın adı ilə bağlı olmasıdır. Bu sözün Kəraçi şəhərinin xalq arasında dəyişikliyə uğramış şəkli olduğu söylənilir, bəzi domlar da bundan çıxış edərək özlərinin

Kəraçi şəhərindən gəlmə olduqlarını iddia edirlər. Digər ehtimala görə, qaraçı onlara dərilərinin rənginə görə verilən addır. Üçüncü bir ehtimal isə, onların Qara ilə Çin adlı bacı-qardaşdan törəməsi haqqında əfsanəyə söykənir. Deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, qaraçı adı onlara kənardan verilmişdir, bu xalq özünü dom adlandırır.

Domlar Ağsu, Ağdaş, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarında və Dəli Məmmədli şəhərində məskunlaşmışlar. Dəqiq sayları bəlli olmasa da yerli icra nümayəndələrinin və özlərinin verdiyi təqribi rəqəmlərə görə Ağsu rayonunda 48 ailə, Ağdaş rayonunda 250 ailə, Yevlax rayonunda 87, Ağdam rayonunda 101 ailə (Ağcabədi rayonundakı domların sayı barədə əlimizdə dəqiq məlumat yoxdur) olduğu ehtimal olunur.

Domlar fərqli-fərqli tayfalardan, özlərinin təbiri ilə desək, təbəqələrdən təşkil olunmuşlar: əmirlilər, qaralar (onlara həm də şirməmmədlilər deyilir), sarılar, bədirkilər, leştanlılar, iranlılar və s. Tayfalar çox vaxt nəslə görə deyil, ya rənginə, ya da coğrafi mənsubiyyətinə görə adlandırılmışdır. Məsələn, ən böyük nəsillərdən olan qaralar, sarılar dərisinin rənginə, bakılı, iranlı, leştanlılar isə coğrafi mənsubiyyətinə görə adlandırılmışdır. Coğrafi mənsubiyyət zamanı onların hansı əraziyə aid olduqları deyil, haradan gəldikləri əsas götürülmüşdür. Hətta nəsil mənsubiyyəti məlum olan tayfalar da çox vaxt gəldikləri yerə görə tanınmışlar. Məsələn, Ağsu rayonunda məskunlaşan Əmirli tayfası digər domlar arasında bakılı, Bərdə rayonunda məskunlaşan temirxanlılar iranlı kimi tanınır. Əmirli tayfasının Bakılı adlandırılması vaxtilə Mərdəkan, Bilgə, Buzovna tərəfdə olmaları ilə əlaqədardır. Bədirkilər Ağdam şəhərində məskunlaşmış, şəhər işğal olunduqdan sonra böyük əksəriyyəti Bakı şəhərinə köçmüşlər. Leştanlılar Ağcabədi, qaralar Ağdaş, Bərdə və Dəliməmmədlidə, sırovlular Ağdaş şəhərində məskun-

laşmışlar. Sırovluların Qaxetiya ilə bağlı olduğu, aclıq illərində oradan gəldikləri söylənilir.

Azərbaycan domlarının məskunlaşması 1956-cı ildən sonraya təsadüf edir. Ağsu domlarının nümayəndəsi Şaməddin Cəbiyev Ağsu rayonuna düşmələrini belə söhbət edir: "1956-ci ildə bizim köç Çayqaraqoyunlu kəndinin yaxınlığında oba-oba düşmüşdü. Şamaxı rayonunun katibi Allahyarlı qara zim maşınla oba-oba gəzib Əmirlinin böyüyü Məşədi Əhməd kişini xəbər alır. Bizim camaat onu Məşədi Əhmədin alaçığına yönəldir. O, alaçığa gələndə biz tez yerə xalça döşədik, altına döşəkcə saldıq. Samavar qaynatdıq, armudu stəkanda çay süzdük. O, söhbətə başladı ki, Məşədi Əhməd kişi, Şamaxının katibi Allahyarlı mənəm. Xruşov qərar[1] çıxardıb, əgər öz xoşunuzla oturaqlaşsanız malınız, dövlətiniz sizin, zor tətbiq etsəniz, hər şeyiniz əlinizdən alınacaq, xam torpaqlara (Qazaxıstana – İ.R.) sürgün olunacaqsınız. Məşədi Əhməd də 1949-cu ildə tutulmuş, sənədi olmadığına görə xam torpaqlara sürgün olunmuşdu, oranın ləzzətini bilirdi. Ona görə Allahyarlı belə deyəndə qayıtdı ki, yoldaş Allahyarlı, xam torpaqlara getmək mənə lazım deyil, məni Ağsuya yaz". Beləliklə, 1956-cı ildən başlayaraq Ağsu rayonunda dom ailələri üçün torpaq sahəsi ayrılır və orada məskunlaşdırılır. Ağdaş domlarının da məskunlaşması həmin dövrə düşür. Ağdaş domları oturaqlaşmaları haqqında qərarı Yevlax rayonu Qarxun kəndinin yaxınlığında düşərgə saldıqları zaman öyrənirlər. Yevlax domlarının dediyinə görə, qaraçıların oturaqlaşması haqqında qərar çıxandan sonra onlara köç etməyə imkan vermə

-----------------------------

[1] SSRİ ərazisində yaşayan qaraçıların oturaqlaşdırılması haqqında qərar 1956-cı ilin oktyabrında SSRİ Ali Sovetinin sədri K.Voroşilov tərəfindən verilmişdir. Həmin qərarın icrası əsasən N.Xruşovun dövrünə təsadüf etdiyi üçün domlar arasında Xruşovun adı ilə əlaqələndilmişdir.

mişlər, hamı Qarxunun ətrafına yığılmışdı. Aralarında çoxlu mal-qarası olanlar var idi. Onlar mal-qaralarını Qaraoğlan, Qarxun kəndlərinin otlaq sahələrində otarırdılar ki, bu da həmin kəndin sakinlərinin ciddi narazılığına səbəb olurdu. Həmin adamlar örüş sahəsi olmadığı üçün mal-qaralarını satmaq məcburiyyətində qalmışlar. Ondan sonra Yevlax ərazisində, bir qisminə isə Bərdə rayonunda yer ayrılmış və onlar orada məskunlaşdırılmışlar. Məskunlaşan zaman hər tayfa hansı rayonla sıx əlaqələri, dostları, tanışları varsa, o rayonu seçmişdir. Oturaqlaşan zaman dövlət onlara müəyyən imtiyazlar da vermiş, beş il müddətinə onları hərbi xidmətdən azad etmişdir. Oturaqlaşdıqdan sonra yaşlı nəsil uzun müddət oturaq həyata uyğunlaşa bilməmiş, köçəri həyatı arzulamışdı. Amma hökumətin qorxusundan, xam torpaqlara sürgün oluna biləcəklərindən ehtiyat edərək bu həyatla barışmış və yavaş-yavaş oturaq həyata alışmışlar.

## B. Köçəri həyatı

Domlar bir qədər də əvvəl qeyd etdiyimiz kimi köçəri həyat sürüblər, amma bu köçərilik bizim başa düşdüyümüz kimi nə məqsədsiz köçərilik olub, nə də yazılı ədəbiyyatda vurğulandığı kimi bu xalqın azadlıq, sərbəstlik istəklərindən irəli gəlib. N.Q.Demeter haqlı olaraq vurğulayır ki, köçəriliyin qaraçıların azadlığa, sərbəstliyə düşkünlükləri ilə heç bir əlaqəsi yoxdur, sırf iqtisadi təməllərə dayanır (Demeter 2000). Məlumdur ki, qaraçılar ələk, xəlbir, şadara kimi bir çox məişət əşyalarının istehsalı ilə məğul olmuşlar, istehsal etdikləri əşyaları sata bilmək üçün isə onlara yeni-yeni bazarlar lazım idi. Ayı oynadanların yeni məkanlara, fala baxanların yeni müştərilərə ehtiyacı var idi. Bu ehtiyac onları bir böl-

gədən digərinə köç etməyə, özlərinə yeni bazarlar, yeni məkanlar axtarmağa sövq etmişdir. Köçərilik təsərrüfat fəaliyyəti ilə bağlı olduğu üçün oturaq həyata keçdikdən sonra da bu xususiyyət aradan qalxmamış, başqa bir formada yenə davam etdirilmişdir. Son dövrlərə qədər domlar səyyar şəkildə kənd-bəkənd gəzərək istehsal etdikləri əmək alətlərini satmaqla məşğul idilər. Hazırladıqları təsərrüfat əşyalarını sata bilmək üçün məskunlaşdıqları rayonun sərhədlərindən də kənara çıxırlar. Dilənçilik, falçılıqla məşğul olan qadınlar isə başqa rayonlara üz tutaraq öz məşğuliyyətlərini sürdürürlər. Bu faktlar bir daha onu göstərir ki, domların köçəriliyi sırf təsərrüfat fəaliyyəti ilə bağlı olmuşdur.

Dom camaatının köçü yaz qabağı, mart ayında başlayır, payızın axırlarına qədər davam edirdi. Novruz bayramını artıq çadırlarda qeyd edirdilər. Onlar dəstələr halında köç edirdilər. Hər bir dəstə ən yaxın ailə üzvlərindən təşkil olunurdu. Məsələn, Şaməddin Cəbiyevin dediyinə görə, onların dəstəsi beş ailədən – öz ailəsi, xalası oğlunun ailəsi, üç də Məşədi Əhmədgilin ailəsindən (özü, oğlu və qardaşının ailəsi) ibarət idi. Dəstə üzvlərinin köçü bir olur, düşərgə saldıqda da alaçıqlarını bir-birinə yaxın qururdular. Müxtəlif dəstələr halında köç etmələrinə baxmayaraq, tayfanın köç marşurutu bir idi. Kimsə ümumi köçdən ayrılıb başqa istiqamətə getmək istəyirdisə, öncə tayfa ağsaqqalından icazə alıb sonra köç edirdi.

Dəstənin böyükləri, ağsaqqallar at üstündə köç edir, digərləri isə piyada onların arxasınca gəlirdilər. Qadınlar körpələrini kürəklərinə şəlləyir, digər uşaqları isə eşşəyin belində fərməcin üstündə oturdurdular. Ağır yüklərini eşşəyə, qatıra yükləyirdilər. Dom camaatı mal-qaranı qorumaq üçün iri itlər saxlayırdı. İtlər yerli əhaliyə narahatçılıq verməsin deyə əsasən çay kənarında, kənd ətrafında düşərgə salırdılar. Qaraçıların

çay kənarında düşərgə salmaları “Qaraçını çay qırağında axtar” məsəlində də qalmışdır. Onların əsas düşərgə yerləri Girdiman, Türyançay, Araz çaylarının qırağı olmuşdur, nəinki domlar, rus siqanları da Azərbaycana gəldikdə Türyançay çayının kənarında düşərgə salmışlar. Domlar bir həftə, on gün düşərgə saldıqları yerdə qalır, istehsal etdikləri əmək alətlərini – ələk, xəlbir, şadara, həmçinin digər rayonlardan aldıqları ərzaqları – düyü, şabalıd, qoz, fındıq və s. kəndlərdə, Ağsu, Ağdaş, Kürdəmir və s. bazarlarında satır, sonra yenidən köçə başlayırdılar. Köç səhərə yaxın, hava işıqlanar-işıqlanmaz başlayırdı. Hər tayfanın öz köç marşurutu vardır. Məsələn, Ağsu domları Ağsu, İsmayıllı, Qəbələ istiqamətində köç edirdilər. Ağdaş ərazisində yaşayan domlar isə İrəvandan, Kəlbəcərdən, Şərurdan belə gəzmiş, Göygölün üstündə alaçıqlar qurmuş, yayı isə Şəki şəhərində keçirmişlər. Bərdə domlarının köç yeri isə Qarabağ, Xoşbulaq, Kəlbəcər, Gədəbəy olub.

Köçəriliyin bir qayda-qanunu da vardır ki, köç zamanı bir tayfa başqa bir tayfanın üstünə gəlirdisə, heyvanları, mal-qaraları narahatçılıq yaratmaması üçün ondan bir qədər aralıda düşərgə salırdı. Gələn tayfanın ağsaqqalı ondan əvvəl düşərgə salmış tayfanın ağsaqqalını, adamlarını qonaq çağırır, səhəri gün isə o biri tayfanın ağsaqqalı onları qonaq çağırırdı.

Domların əsas nəqliyyat vasitəsi at, eşşək olub. Köç vaxtı alaçığın çubuqlarını, özlərinin yükünü atların, eşşəklərin üstünə yükləyirdilər. Sonralar furqonlar çıxsa da, dom camaatı furqonlara o qədər də maraq göstərməyib, çünki Azərbaycanın relyefi üçün furqonlar əlverişsiz idi: dağlıq, təpəlik ərazilərdə qatırın, eşşəyin getdiyi yolları furqonlar gedə bilmirdi.

Eşşək domların ən sevimli heyvanı idi: yolda-irizdə onların əlindən tutur, köçün bütün ağırlığını o çəkirdi. Ona görə də domlar bu heyvana xüsusi sevgi bəsləmiş, ona xüsusi

diqqət və qayğı göstərmişlər. Eşşəyi o qədər sevmişlər ki, başqa heyvanların xəstəliyi, ölümü onları o qədər üzməzdi, amma eşşəyin ölümü onların belini bükərdi. Domların eşşəyə olan bu sevgisi "qaraçının eşşəyi öldü, elə bil özü öldü" məsəlində də əksini tapmışdı. Eşşəyə olan bu sevginin, məhəbbətin nəticəsidir ki, qız yaxın qonşuya gəlin köçsə belə, həmin beş addımlıq yolu da mütləq eşşəyin belində aparılmışdı.

Domların köçü oktyabrın axırına – yağışlar başlayana qədər davam etmiş, qışı isə aran rayonlarında keçirmişlər. Ağsu rayonundakı domlar Kürdəmir rayonunun Kəngərli kəndində kirvələrinin, yaxın tanışlarının evində qışlamışlar. Dost-tanışları yazda ot biçilən zaman onların mal-qaraları üçün ayrıca taya vurmuş, qışda həmin tayanı onlara satmışdılar. Ağdaş rayonundakı domlar da Hüşün, Mürsəl, Hacılı kəndindəki dostlarının, tanışlarının evində qalmış, qışlamağa ev tapmadıqda isə Kür qırağında alaçıq qurub orada qışlamışlar. Qışlamaq üçün Kürqırağını seçmələrinin səbəbi orada mal-qaralarını otarmaq üçün örüş sahələrinin, yanacaq üçün odunun olması idi. Yevlax domları Göyçayın Bığır kəndində qışlamışlar. Bərdə domları isə qış sərt gələndə aran rayonlarında dostun-tanışın evinə sığınmışlar, mülayim keçəndə isə Bərdə rayonunun Gərənə kəndinin yaxınlığındakı düzənlik ərazidə qışlamışlar. Qışladıqları dövrdə də boş qalmamış, dom qadınları qışladıqları rayonun bazarında digər bölgələrdən aldıqları ərzaqları satmaqla, kişilər isə bütün qışı ələk, xəlbir toxumaqla məşğul olmuşlar. Yazqabağı köç başladıqda harada düşərgə salırdılarsa, hazırladıqları məişət əşyalarını yaxın kəndlərə apararaq orada səyyar şəkildə satırdılar. Ələklərin, xəlbirlərin daha rahat daşınması üçün onların xüsusi yığılma texnologiyası var idi: ələkləri kiçikdən böyüyə doğru bir-birinin içərisinə keçirməklə yığırdılar ki, bu üsulla on ələyi bir bağlamada qablaşdırmaq

mümkün olurdu. Qablaşdırılmış ələklər həm az yer tutur, həm də onların daşınması rahat olurdu.

Domlar əsasən at, eşşək, qatır, oturaqlıqdan əvvəlki dövrlərdə isə iri buynuzlu mal-qara saxlamışlar. Xırda buynuzlu mal-qara köçəri həyat üçün əlverişli olmadığından onları saxlamağa maraq göstərməmişlər.

Domlar on-on iki metr uzunluğunda, beş metr enində alaçıqlarda qalırdılar. Alaçıqların keçələrini keçi tükündən yer hanasında özləri toxuyurdular. Çadırı toxumaq üçün keçi tükünü yerli camaatdan alır, onları cəhrədə əyirib, sap halına salıb çadırlar toxuyurdular. Çadırların keçələri 10-12 metr uzunluqda olurdu. Onun vasitəsi ilə alaçığın üstü örtülür, alaçığın yan tərəfi isə yelənilərlə tutulurdu. Təzə çadırların gözü açıq olduğu üçün yağan yağış əvvəlcə içəri damırdı, amma yağış dəydikdən sonra keçə şişir və deliklər tutulduğu üçün içəri bir damcı da dammırdı. Çadırların içərisinə torpağın üstünə köhnə paltarları, əskiləri atır, onun üstündən də xalça və gəbələrini salırdılar. Çadırın divarlarından isə xalçalar asırdılar. Kənardan baxanda adi qara çadır kimi görünsə də, içəri girən özünü başqa bir aləmdə hiss edirdi. Alaçığın ortasında ocaq qalayırdılar. Qışda havalar soyuq keçdikdə soyuqdan donmaması üçün mal-qaranı da çadırın içərisinə salır, bir küncdə onlara yer ayırırdılar. Daha imkanlı domlar isə alaçıq deyil, muxrolar qururdular. Muxrolar alaçığa nisbətən daha iri idi. Muxro quranlar xüsusi bir eşşək saxlayırdı, çünki muxronun çubuqları həddindən artıq uzun olduğu üçün onu ancaq eşşəyin belində daşımaq mümkün idi. Ağdam domlarından olan Lotu Kərim deyilənə görə köç vaxtı üç muxro qururdu: biri ailəsi üçün, biri ərzaq saxlamaq üçün, biri də qonaq-qara üçün.



**Ağdaş domları ilə görüş zamanı. Ağdaş rayonu, Məşəd küçəsi**

Köçəri həyat sürmələri, çölçülükləri domların həyat təcrübəsini xeyli artırmışdı. Mal-qaranı vəhşi heyvanlardan necə qorumaq lazımdır, ayı hücum çəkərsə, onunla necə mübarizə aparmaq lazımdır və s. köçəri həyatın bütün çətinliklərinə sinə gərmək üçün kifayət qədər təcrübə əldə etmişlər. Köçəri camaatın qarşılaşdığı əsas təhlükələrdən biri canavarların onların mal-qarasına hücum etməsi idi. Deyilənə görə, canavarın yeganə qorxduğu heyvan ilandır. Ona görə də mal-qaranı canavardan qorumaq üçün onların boynuna sicim bağlayıb sicimin ucunu açıq buraxırdılar. Canavar heyvanın arxasınca yerdə sürünən sicimi ilan zənn edib qorxusundan heyvana yaxın düşə bilmirdi. Meşə kənarından, dağlıq ərazilərdən keçdikdə qarşılaşdıqları təhlükələrdən biri də ayının onlara hücum etməsi idi. Amma ayı da onlar üçün elə bir

təhlükə törətmirdi. Çünki ayının ən zəif yerinin qulağı olduğunu bilir, ayı ilə mübarizə zamanı onun qulağını ələ keçirməklə asanlıqla onu ram edirdilər.

Köçəri həyat domları daha sağlam və gümrah etmişdir. Köçəri həyatın çətinlikləri, əzab-əziyyəti onları o qədər möhkəmləndirmişdi ki, onların arasında xəstə adama çox nadir hallarda rast gəlinirdi. Bu gün də onlar arasında yaşı yüzü haqlayan, bununla belə öz gümrahlığını, şuxluğunu itirməyən insanlara rast gəlmək mümkündür. Köçəri həyat sürdüklərindən onlar yolu-izi yaxşı tanımış, mənzilə daha tez çatmaq üçün kəsə yollara yaxşı bələd olmuşlar. Hətta belə bir xatirə danışırlar ki, Sovet dövründə Qəbələdən fındıq aparmağın qadağan olunduğu vaxt onlar Qəbələdən satmaq üçün fındıq alırlar. Nic kəndindən olan tanışlarından şəhərə yoxlama gəldiyini öyrənirlər. Aldıqları fındıqlarla birlikdə ələ keçsələr həbs oluna bilərdilər. Ağdaşdan yuxarıda Savalan adlanan ərazidə şlanqbaum qoyulduğundan əsas yolla getmək təhlükəli idi. Bunu nəzərə alıb onlar çadırlarını söküb gecəylə kənddən kəndə keçməklə, kəsə yollarla Qəbələdən çıxmağı bacarmışlar.

## C. Domların məşğuliyyəti

Tədqiqatçılar vurğulayırlar ki, hansı ölkədə yaşamalarından asılı olmayaraq domların məşğul olduğu sahələr demək olar ki, hamısında eynidir: ənənəvi sənətkarlıq, ticarət, musiqi və rəqs, heyvan əhilləşdirmək, fala baxmaq və dilənçilik. Domların həyatının ayrılmaz parçası olan, onların özləri ilə assosasiya olunan bu sənət sahələri həm də domları birləşdirən bir amil kimi çıxış edir (Demeter 2000). Sadaladığımız sənət sahələrinin bəziləri başqa xalqlar arasında olsa da, onlar domlarla o qədər özləşmişdir ki, ələkçilik, xəlbirçilik, falçılıq dedikdə göz

önünə ilk növbədə qaraçılar gəlir. Hindistandan çıxdıqları dövrdən başlayaraq ta bu günə qədər bu sənət sahələri onlar arasında mövcud olmuş, bəzi sənət sahələri dövrün, zamanın tələbinə uymayaraq sıradan çıxdığı halda, yuxarıda qeyd olunanlar onların həyatının ayrılmaz parçasına çevilmişdir.

Azərbaycan domlarının da hansı rayonda məskunlaşmalarından asılı olmayaraq, məşğuliyyət sahələri demək olar ki, hamısında eynidir. Kişilər əsasən ələkçilik, xəlbirçilik, alver, musiqi, küçə aktyorluğu və ovsunçuluqla, qadınlar isə dilənçilik, falçılıq, çöpçülük və baxıcılıqla məşğul olmuşlar. Ağdaş domları arasında vaxtilə misgərliklə məşğul olan insanlar olsa da, bu sənəti Lahıcda misgərlər yanında çalışmaqla öyrənmişlər. Ona görə də misgərlik burada kök sala bilməmiş, yaşlı insanlar dünyasını dəyişdikdən sonra unudulmuşdur. Əkinbiçin haqqında isə, ümumiyyətlə, təsəvvürləri olmadığından oturaqlaşdıqdan sonra da bu sahəyə maraq göstərməmişlər.

Tayfaların məşğuliyyət sahələrinə diqqət yetirsək, görərik ki, onlar müəyyən sahələr üzrə ixtisaslaşmışlar. Başqa sözlə, tayfalar arasında əmək bölgüsünün olduğu gözə çarpır. Məsələn, ələkçilik, xəlbirçiliklə əsasən əmirli və bədirki tayfaları məşğul olmuşlar, Bərdə domları arasında bu sənət sahələrinə rast gəlinmir. Qaralar tayfası sözə, musiqiyə xüsusi vurğunluqları ilə seçilir, bir qədər aşağıda bəhs edəcəyimiz saz ifaçıları da məhz bu tayfa mənsubları arasından çıxmışdır. Bərdə rayonunda yaşayan iranlılar əsasən ticarətlə, yenə həmin rayonda məskunlaşan Ziynət tayfası isə falçılıqla məşğul olmuşdur. Ağcabədi ərazisində yaşayan leştanlılar isə it boğuşdurmaq, xoruz döyüşdürməklə ad çıxarmışlar.

Domların ən sevimli sənəti ənənəvi sənətkarlıq – ələkçilik, xəlbirçilik, dəmirçilik və s. olub. Təsadüfi deyil ki, Azərbaycanda qaraçı ələyi adla tanınmış, keyfiyyətinə, toxunuşuna

görə digər ələklərdən seçilmişdir. Bu sənəti öyrənmək üçün kiminsə yanına şəyird getməyə ehtyac yox idi, elə evdə atalarının, böyüklərinin əlinə baxmaqla bu işi öyrənmişlər.

Ələk setka, sağanaq və kövər adlanan üç hissədən ibarətdir. Ələyin setka hissəsi vaxtilə at yalından hazırlanırdı. Atın tükünü yerli camaatdan alır, onu sabunla yuyub təmizləyirdilər. Kargah adlanan alətdə həmin tüklərdən ələyin setka hissəsini toxuyurdular. Ələyin sağanaq hissəsi isə kərki adlanan alətlə söyüd ağacından yonulub hazırlanırdı. Toxunuşuna görə ələyin iki növü vardır: yalınqat və cütqat ələk. Yalınqat ələklər bir qat, cütqat ələklər isə ikiqat at tükdən toxunurdu. Adi ələklərdən fərqli olaraq, cütqat ələklər sifarişlə toxunurdu. Cehizlik üçün nəzərdə tutulan belə ələklərin setkasına muncuqlar taxmaqla ona xüsusi bəzək də vurulurdu. Müasir dövrdə ələyin setka adlanan hissəsi hazır şəkildə satın alınır, onun sağanaq və kövər adlanan hissələri isə fənərkadan[1] xüsusi mişar adlanan alətlə kəsilməklə düzəldilir. Daha sonra fənərkanın kənarları dairə şəklində qatlanaraq mismarla bərkidilir. Fənərkanı qatlamağın özünün müəyyən qaydası vardır. Tərs üzünə qatlandıqda qırıldığı üçün onu şaxına – düz üzünə qatlayırlar. Sağanaq hazır olduqdan sonra onun altına setkanı qoyub kövər adlanan hissə sağanağa geydirilir.

Ölçüsünə görə ələkdən daha iri olan xəlbir isə qoyun və mal dərisindən çəkilən köşədən hazırlanırdı. Öncə qoyun və mal dərisindən köşələr kəsilir, həmin köşələr çarmıxa çəkilib qurudulur və ondan setka toxunurdu. Setkanı toxuduqdan sonra gözləri açılırdı. Setkanın gözünü yoxlamaq üçün kirbit dənəsini başıaşağı onun içinə buraxırdılar. Əgər xəlbirin gözü

-----------------------------

[1] Fənərka – dik materialı




**Ələk ustası Əliyev Əhliman Allahverdi oğlu. Ağdaş şəhəri, Məşəd küçəsi, miliyyəti dom**

kirbiti tutub saxlayırdısa, demək buğdanı da saxlayacaqdır. Bundan əlavə, domlar şadara da düzəldiblər. Şadara xəlbirdən gözlərinin daha iri olmasına görə seçilir. Buğda öncə şadaradan keçirilir, qılçıqları orada təmizlənir, sonra xəlbirdə ələnirdi. Ələkçilik sənəti bu gün əsasən Ağdaş domları arasında yaşadılır, az miqdarda Ağsu və Ağdam domları arasında da qalmışdır. Ağdaş domları hazırladıqları ələkləri Bakıda Sədərək ticarət mərkəzinə topdan qiymətə verir, Azərbaycanın bir çox rayonlarına göndərirlər. Hətta Gürcüstanda kirayə ev tutaraq orada ələk istehsal edib satan ailələr də vardır.

Domlar əslində işlək camaatdır. Özlərinin təbiri ilə desək, dəyirmanın boğazından ölü salsan, diri çıxarlar. Ona görə də domlar haqqında söylənilən “onlar tənbəldir, işdən qorxurlar”

kimi fikirlər özünü doğrultmur. Bu camaat o dərəcədə fərasətlidir ki, hər şeydən çörək qazanmağın yolunu bilir. Onların ən yaxşı bildiyi sahələrin başında isə alver gəlir. Özlərinin dediyinə görə, alveri birinci cuhud, ikinci də dom bilir. Köçərilik dövründə domlar əsasən qatır, qoz, fındıq, düyü alveri ilə məşğul olmuşlar. Müəyyən bir bölgəyə köç etdikdə ora üçün xarakterik olan ərzaq məhsullarını alır, digər bölgələrdə onu satırdılar. Əmirli tayfasının qadınları Bakı ilə əlaqələri olduğu üçün oradan bir səfərdə əlli cüt, yüz cüt qaloş, toplarla parça alıb, Qəbələdə fındığa, qoza, düyüyə dəyişirdilər. Ordan aldıqarı qozu, fındığı, düyünü isə aran rayonlarında satırdılar. Yevlax domları da aldıqları qaloşu, şalı Qəbələnin Nic kəndində, şəhərin mərkəzində müəyyən ailələrə verir, verdikləri malın qarşılığında da payız vaxtı qoz, fındıq, şabalıd alırdılar. Aldıqları məhsulları da Kürdəmirin, Ağsunun, Hacıqabulun, Salyanın bazarlarında satırdılar.

Qatır ticarəti də domlar arasında geniş yayılmışdır. Qatır haqqında onlardan qeydə alınmış əfsanələr, qatırla bağlı söylənən atalar sözü və məsəllər bu heyvanın domların keçimində nə qədər mühüm rol oynadığını göstərir. Qatır atla eşşəyin cütləşməsindən törəyən qısır bir heyvandır. Onu hər at qarnında saxlamadığı üçün çox az tapılan heyvan idi. Ona görə də kiminsə ata eşşək göstərdiyini xəbər tutanda elə qarnında ikən qatırı behləyir, doğulduqdan, bir müddət də anasının yanında mayalandıqdan sonra onu satın alırdılar. Qatırın qısırlığı haqqında domlar belə bir əfsanə danışır: "*Süleyman peyğəmbər Allahın məsəli, əla Məhəmmədin və ali Məhəmməd, yer kürəsində nə ənni-cinni vardısa, hamısının dilin bilirdi, hamısı da bunun çaarığına gəlirdi. Günnərin bir günü Süleyman peyğəmbər çıxıb taxta, deyib: "Bu heyvannarı mən yoxluyacam. Görək kim mənim çaarığıma tez gəlir, kim gej gəlir". Bü-*

*tün heyvanlar bunun çaarığına gəlib, amma qatır gələndə Süleyman peyğəmbərin çuxasının ucunu basdıyıfdı. (Pis heyvandı da, öz pisliyini göstərməlidi). Süleyman peyğəmbər fikirrəşib ki, bu mənim çuxamın ucunu basdadı, mən buna necə qarğıyım? Deyif, ey heyvan, get, səni bala üzünə həsrət olasan".*

Yük daşımasına görə qatır ən yaxşı nəqliyyat vasitəsi hesab olunub, Şəki, Gorus rayonlarında odun daşımaq üçün ona böyük ehtiyac duyulurdu. Domlar aldıqları qatırı həmin rayonlarda o dövrün pulu ilə on altı qızıla satırdılar. Qatırın baha olması domlardan qeydə aldığımız bir məsəldə də özünü göstərir. Deyilənə görə, yüz heyvanın içində bir dənə qatır olsun, canavar sürüyə soxulduqda heç bir heyvana toxunmaz, bircə o qatırı tapıb yeyər. Ona görə domlarda belə bir məsəl çəkilir ki, canavar haradan bilir qatır bahadır? Özlərinin dediyinə görə, qatır alveri edəndə elə vaxt olub bir səfərdən neçə kisə dolusu pulla qayıdıblar. Sual oluna bilər ki, qaçaq-quldurun tüğyan etdiyi dövrdə bu qədər pulu necə saxlaya biliblər? Yaşlı sakinlərin dediyinə görə, pulları qaçaq-quldurların əlinə keçməməsi üçün onları yorğan-döşəyin, eşşək palanının içində gizlədirdilər, yaxud uzun bir parçanın arasına yığıb kəmər kimi bellərinə sarıyırdılar. Çox vaxt da pulları qadınlar üstlərində gəzdirirdi, çünki qaçaq-quldurlar alaçığı basdıqda qadınların üstünü axtarmazdı.

Xalça alveri də qaraçılar arasında geniş yayılmışdır. Deyilənə görə, hələ oturaqlaşmamışdan əvvəl köçəri həyat sürdükləri dövrdə bu işlə məşğul olublar. Xalça alverini domlar arasına Ağdaş domlarından olan Ağasəf, Ağamirzə kişi gətirib. Onlar Yevax rayonunda yaşayan cuhudlarla əlaqələr qurmuş, Bərdədə həftə bazarından aldıqları xalçaları onlara satmışlar. Bərdə domlarının ağsaqqalı Hətəm kişi də onlarla kirvə olduğundan bu sənəti onlardan öyrənmişdi. Bu şəkildə bir-birinə öyrətməklə xalça

alverini domlar arasında yaymışlar. Domlar xalça alveri ilə o qədər məşğul olmuşlar ki, bu sahədə peşəkarlaşmışlar. Azərbaycanın hansı bölgələrində xalça toxunur, həmin xalçaların fərqli xüsusiyyətləri, toxunuşundan tutmuş üstündəki naxışına qədər onu tanıyırdılar. Xalça işini incəliyinə qədər elə bilirdilər ki, gözəyarı baxmaqla onun dəyərini, qiymətini təyin edirdilər. Hətta xalça alveri ilə məşğul olan digər şəxslər də almaq istədikləri xalçanın dəyərini müəyyən etmək üçün bəzən onlara müraciət edirdilər. Domlar təkcə xalçanı tanımırdılar, eyni zamanda onu bazarlamağın ustası idilər, aldıqlarının ən azı iki qatı bahasına satırdılar. Azərbaycan folklorunu çox gözəl bildikləri üçün bazarlama zamanı yeri gəldikdə folklor mətnlərinə müraciət edir və onu daha da qədimləşdirməklə baha qiymətə satırdılar. 1979-cu ildə Gürcüstanda xalça sexinin açılması və sexin əhalidən xalça alması xalça ticarətini daha da genişləndirmişdi. 1989-cu ildən sonra xalçanın qiymətinin qalxması (bir xalça satdıqda onun qiymətinə bir jiqulu almaq olurdu) nəticəsində domların xalça alverindən gələn gəlirləri o qədər artır ki, onun hesabına özlərinə ikimərtəbəli evlər tikir, müəyyən rahatlıqlar yaradırlar.

Sovetlər dağıldıqdan və sərhədlər bağlandıqdan sonra xalça ticarəti ölür, amma özlərinin dediyi kimi, Allah bir tərəfdən bağlayanda digər tərəfdən də açır. Xalça ticarəti öləzidikdən sonra domlar onluq qızılların, qədim sırğaların, boyunbağıların, kəmərlərin alveri ilə məşğul olmağa başlamış, son dövrlər isə dəmir alveri geniş yayılmışdır. Günü bu gün də dom kişiləri səyyar şəkildə kəndlərə düşərək əhalidən istifadəsiz, yararsız dəmir əşyaları 6 qəpikdən alır, 12 qəpikdən zavoda təhvil verirlər.

Domlar arasında dilənçilik, falçılıqla həyatlarını sürdürən insanlar da vardır. Dilənçiliklə domların hamısı deyil, yalnız müəyyən ailələr məşğul olmuşlar. Bizim söhbət etdiyimiz

bir çox ailələr, xüsusən də domlara ağsaqqalıq etmiş, sayılıb-seçilən şəxslərin ailələrində dilənçiliklə məşğul olan olmamışdır. Domlarda dilənməyə ancaq yaşlı qadınlar gedirdi. Qadınlar dilənməyə gedərkən kişilər onlara axşama kimi möhlət verir, deyilən vaxtda evə dönmədikdə onları döyürdülər. Dilənməyə gedəndə də tək gedilmir, iki-iki, üç-üç gedilir, dilənçilikdən əldə edilən pullar da kişiyə verilirdi.

Dilənçilik əslində ehtiyacdan irəli gəlmir. Çünki domlar arasında hər cür rahatlığı olan, bununla belə dilənçiliyi tərk etməyən şəxslər də vardır. Onlardan yazıya aldığımız bir nağıl da dilənməyin imkansızlıqla bağlı olmadığını göstərir. Nağılda deyilir ki, padşahın oğlu bir qaraçı qıza aşiq olur, onunla evlənmək istəyir. Ata qaraçıların dilənçiliklə məşğul olduğunu, bunun da onların adına xələl gətirəcəyini söyləyib oğlunu fikrindən daşındırmaq istəyir. Amma oğlu onunla razılaşmır və özünə belə haqq qazandırır ki, ola bilsin kasıbdırlar, ehtiyac üzündən dilənçilik edirlər. Bizdəki var-dövlət, imkan onlarda olandan sonra dilənməzlər. Ata nə qədər çalışsa da, oğlunu fikrindən döndərə bilmir və oğlan qaraçı qızı ilə evlənir. Axırda ata haqlı çıxır. Məlum olur ki, nə qədər var-dövləti olsa belə, qaraçı dilənməyini tərgitmir. Domlardan qeydə alınmış bu nağılın özü də göstərir ki, dilənçiliyin imkansızlıqla, kasıbçılıqla heç bir əlaqəsi yoxdur, hansısa bir təsəvvürdən irəli gəlir. Amma dilənçiliyin arxasında duran təsəvvür unudulduğundan onların özləri də onun hansı inamla bağlı olduğu haqda doğru-düzgün məlumat verə bilmirlər. Dilənçiliyin haradan gəldiyini xəbər aldıqda müəyyən variant fərqləri ilə eyni əfsanəni danışırlar. Domlardan qeydə alınmış həmin əfsanədə deyilir ki, vaxtilə dom camaatını oturaqlaşdırmaq üçün onlara əkməyə buğda veriblər. Əkin haqqında anlayışları olmadığından onlar buğdanı qovurub əkiblər. Nəticədə başqalarının buğdası bitib,

amma onların buğdası bitməyib. Onda onları qarğayıblar ki, çörək atlı olsun, siz piyada. Deyilənə görə, o vaxtdan da dom xalqı bir qarın çörəyinin dalınca çöllərə düşüb. Eyni əfsanəyə müəyyən variant fərqləri ilə Azərbaycan ərazisində yaşayan qaraçı adlandırılan digər topluluqlar arasında da rast gəlinir. Əslinə qalsa, domlar hansı ölkəyə gediblərsə, həmin xalqın folklorundan istifadə etməklə özlərinin köçəriliyi, dilənçiliyi haqqında müəyyən əfsanələr uydurublar. Qovrulmuş buğdanın əkilməsi də Azərbaycan folklorundan götürülmüş bir motivdir, Bəhlul Danəndə haqqında lətifələrdə, həmçinin bir çox folklor nümunələrində bu motivə rast gəlinir. Həmin əfsanənin dilənçiliyin arxasında duran təsəvvürlə heç bir əlaqəsi yoxdur.

Tədqiqatçılar dilənçiliyi hindlilərin karma haqqında dini-fəlsəfi təsəvvürləri ilə əlaqələndirirlər (Demeter 2000). Karma iudaizmdə insanın bu dünyada tutduğu əməllərinin məcmusunu ifadə edir. Karma konsepsiyasına görə insanın gördüyü işlər, tutduğu əməllər onun gələcək taleyini müəyyən edir. İnsanın yaxşı əməlləri çox olarsa, öldükdən sonra onun ruhunun daha yüksək zümrəyə sahib insanların bədənində dünyaya gələcəyinə, karması pis olan insanların ruhunun isə daha aşağı zümrəyə sahib, hətta heyvanların bədənində dünyaya gələcəyinə inanılır. Eyni təsəvvürə Azərbaycanda Zəngilan rayonunun Sobu kəndindən qeydə alınmış ruh qurbanı haqqında etnoqrafik məlumatda da rast gəlinir. Həmin məlumata görə insan öldükdən sonra onun ruhunun pis, murdar bir heyvanın bədəninə keçməməsi üçün ruh qurbanı kəsilir. Ruh qurbanının burada oynadığı rolu karma konsepsiyasında dilənçilik yerinə yetirir. Kasta sistemində dilənməyə karmanı yaxşılaşdıran vasitə kimi baxılmış, ondan imtina isə cəza kimi qavranılmışdır. Buna görə də dilənçilik Hindistanda vacib və zəruri məşğuliyyət kimi qəbul olunmuşdur.

Çölçülüklərinin olmasına baxmayaraq, domlar arasında əxlaqsızlıq, kiminsə pis yola düşməsi, ayağı sürüşgənlik kimi faktlara rast gəlinmir. Dom qadınları həmişə ayaqlarını topuğa qədər örtən uzun tuman, qolları görünməməsi üçün uzunqol kofta geyinmişlər. Azərbaycan domlarında əxlaq və namus məsələsinə dair təəssüflər olsun ki, bir fakt əldə edə bilmədik, amma rus siqanları ilə bağlı müəyyən əhvalatlar söylənilir. Eyni mədəniyyətin daşıyıcısı olduqlarına, həm də domlarda namus məsələsinə münasibəti öyrənməyə kömək edəcəyi görə həmin faktı burada qeyd etmək istəyirəm. Yaşlı insanların dediyinə görə, keçən əsrin yetmişinci illərinə qədər Azərbaycan ərazisinə rus siqanları gəlir, Türyançay çayının sahilində, Yevlax rayonunda düşərgə salırdılar. Onlar, əsasən, dəmirçilik sənəti ilə məşğul olur, düzəltdikləri kənd təsərrüfatı və məişət əşyalarını – nal, zincir, dəhrə, balta, kərki, həmçinin maşa, sacayaq, rəzə kimi əşyaları mərkəzi bazarlarda satırdılar. Söyləyicinin dediyinə görə, rus siqanlarının bir dəstəsi də Bərdə rayonunda Qarabağ kanalının üstündəki açıq ərazidə düşərgə salmışdı. İstehsal etdikləri kənd təsərrüfatı alətlərini Bərdə bazarına çıxararaq satır, qazandıqlarını da arağa, içkiyə verib ya bazarda, ya da aparıb çadırlarında içirdilər. Bir siqan qadını, görünür dilənmək məqsədilə harasa getmişdi, geri qayıdanda bazar artıq dağılmışdı, ərini tapa bilmir. Bərdə-Yevlax yoluna çıxır ki, rastına maşın düşsə, düşərgə saldıqları yerə qədər getsin. Qadının geyimi köhnə olsa da, özü gözəl idi. Bir sürücünün buna gözü düşür, düşərgələrinə aparmaq adı ilə onu maşına alır. Bunu yoldan çıxartmaq istəyir, qadının çığır-bağır saldığını görüb maşını kimsəsiz bir yerə sürür. Qadını yerə yıxdıqda burnuna murdar bir qoxu gəlir. Məlum olur ki, qadın öz ismətini qorumaq üçün altını batırır, həmin nəcisi bütün bədəninə, üzünə-gözünə sürtür. Kişi ondan sonra onu tərk edir.

Ümumiyyətlə, domlarda at və arvad həmişə namus hesab olunub. Ona görə də onlarda boşanma hallarına çox nadir hallarda rast gəlinir. Əgər boşanma olurdusa, bu, nəsillər arasında ciddi düşmənçiliyə səbəb olurdu. Domların sayılıb-seçilən adamları ən gözəl atı minirdilər. Deyilənə görə, əmirlilərin ağsaqqalı Məşədi Əşrəf kişinin ağ bir atı olur. Kolxoz sədrlərindən biri Məşədi Əşrəf kişidən atı ona satmasını xahiş edir. Məşədi Əşrəf ona başqa at verməyə razı olur, amma namusa bərabər tutulduğu üçün öz atını satmaq istəmir. Ata xüsusi sevgi, məhəbbət Balakən, Qax rayonlarında yaşayan özünü qürbət adlandıran topluluqlar arasında da müşahidə olunur. Onlarda ata o qədər vurğunluq olub ki, harada yaxşı bir at olduğunu eşitsəydilər, nə yolla olur-olsun o atı gətirərdilər. Gəlini aparmaq üçün oğlan evindən gələn atı mütləq eyvana qaldırardılar, at eyvana qalxmasaydı gəlini onun üstünə mindirməzdilər.

Güclü musiqi duyumlarının nəticəsidir ki, domlar hansı ölkədə olmalarından asılı olmayaraq musiqi və rəqslə məşğul olmuşlar. Onlar arasında vaxtilə gözəl kamança, saz ifaçıları olmuşdur. Bu sənətlə məşğul olan insanların böyük əksəriyyəti artıq dünyasını dəyişsə də, cavanlar arasında musiqiyə maraq hələ də qalmaqdadır. Domların musiqi duyumu o qədər güclü inkişaf etmişdir ki, ustad yanına getmədən, müəllim görmədən, kamançanın, sazın simlərini tərpətməklə həmin alətlərdə ifa etməyi öyrənmişlər. Bərdə domlarının ağsaqqalı Hətəm kişi gözəl saz ifaçısı idi, Aşıq Ədalətlə bir yerdə saz ifa etmişdi. Bərdə domları arasında Aşıq Qənbər, Aşıq İbrahim, Ağdaş domlarından Hüseynqulu kişi, qaralar tayfasına mənsub olan və bu gün də Dəli Məmmədlidə yaşayan Aşıq Paşa gözəl saz ifaçıları olublar. Domların arasında ən məşhur saz ifaçısı isə Qaraçıoğlu İbrahim (İbrahim Əliyev) idi, 1928-ci ildə aşıqlar qurultayının təşkilində yaxından iştirak etmiş, beynəlxalq təd-

birlərdə Azərbaycanı uğurla təmsil etmişdir. Qaraçıların məxsus olduqları ölkənin folklorunun ən gözəl ifaçıları olduğu tədqiqatçılar tərəfindən də vurğulanmışdır (Demeter 2000). Azərbaycan domları da gözəl ifaçılıqları ilə seçilsələr də, onların yeni bir nümunə yaratmaları, Azərbaycan folklorunu yeni örnəklərlə zənginləşdirmələrinə dair əlimizdə fakt yoxdur.

İfaçılıqları ilə yanaşı domlar arasında gözəl səsə sahib insanlar da olmuşdur. Belə insanlar vaxtilə dərvişlik edərək, nohə oxuyaraq pul qazanmışlar. Ağdaş domlarından olan və cavan ikən faciəli şəkildə öldürülən Sabir gözəl səsə sahib bir xanəndə kimi tanınmış və toylarda xanəndəlik etmişdir.

Domlar yuxarıda sadalanan sənət sahələrindən əlavə, ovsunçuluq, falçılıq, çöpçülüklə də məşğul olublar. Bu sənət sahələri haqqında məlumat əldə etmək olduqca çətindir, çünki həmin sənətlə məşğul olan şəxslər öz sənət sirlərini açmaq istəmirlər. Xəbər aldıqda da cavabları bu olur ki, sənət sirlərini açmağı Allah onlara qadağan edib: "Allah deyib, mən bu çörəyi sənə vermişəm, sən niyə onun sirrini açırsan?" Amma bu sənətlə məşğul olan şəxslərlə oturub-duran adamlardan əldə etdiyimiz məlumatlar göstərir ki, əslində domların ovsunçuluğu, falçılığı və çöpçülüyü müəyyən kələklər üzərində qurulub.

Ovsunçuluq domların hələ qədim dövrdən məşğul olduqları sənət sahələrindən biridir. Bizans dövrünə aid yazılı mənbələrdə domların məşğul olduqları sənət sahələri arasında onun da adı çəkilir. Ehtimal olunur ki, domlar ovsunçuluqla Hindistanda yaşadıqları zaman da məşğul olmuş, ayı oynatmaq isə sonradan meydana çıxmışdı (Demeter 2000).

Ovsunçuluq haqqında bizə məlumat verən söyləyici özü bu işlə məşğul olmayıb, amma bu sənətlə məşğul olan Xosrov, Həbiş, Bəxtiyar, Seyfəddin kişi kimi ilan tutan şəxslərlə çox oturub-durmuş, bu sənətin müəyyən kələklərini onlardan öy-

rənmişdi. Onun dediyinə görə, ovsunçuluqla məşğul olan şəxslər özləri evlərində ilan saxlayır, kəndlərə ilan tutmağa gedəndə həmin ilanların bir neçəsini torbanın içərisinə salıb özləri ilə aparırdılar. Bununla belə təsəvvür yaradırdılar ki, guya həmin ilanları digər kəndlərdən tutub gətiriblər. İlanın birini əvvəlcədən ya qoltuqlarında, ya da paçalarının arasında gizlədirdilər. Öncə evin ətrafına dolanıb evin içində ilan olduğunu söyləyirdilər. Sonra evə baxmaq bəhanəsi ilə içəri girib qoltuqlarında gizlətdikləri ilanı içəri buraxır, çölə çıxmaması üçün çıxanda da qapını örtürdülər. Evin ətrafına cız çəkirdilər. Ev sahibini paltarının altında ilan gizlətmədiyinə əmin etmək üçün paltarını soyunub tuman-köynəkdə qalırdılar. Daha sonra hasa ilə qapını döyüb oxuyurdular:

İlannar haya gedər,
Hay verməz, haya gedər.
Ey heyvan, bedəsilə can vermə
Əməlin zaya gedər.

İlan başdan əyridi,
Qələm qaşdan əyridi.
Əyri qonşu düz getsə,
Gənə başdan əyridi.

Ey heyvan, ənovusan, talxasan, afısan, gürzəsən, Allah sənə nəhlət eləsin. Ey heyvan, yazda-yayda otduyan heyvanların dilindən, dodağından vurursan, atlının dabanından vurursan, piyadanın gözündən, otundan, suyundan avara salırsan, Allah sənə nəhlət eləsin. Bunu deyib evə girir, qabaqcadan içəri buraxdıqları ilanı tutub çölə çıxarırdılar. Başqa birisi onu öz evinə apardıqda isə kələklərinin üstü açılmaması üçün "Bu ilan yeddi günün səfərinə gedib. Yeddi gündən sonra gəlib tutaram", – deyib aradan çıxırdılar.

Çöpçülər haqqında isə onların uşağın uda biləcəyi müəyyən əşyaları (təbii ki daha inandırıcı olması üçün mövsümə xarakterik əşya olardı) qabaqcadan qoltuqlarının altında gizlətdikləri söylənilir.

Bu xüsusiyyəti domların hamısına şamil etmək istəməzdim. Ola bilsin müəyyən adamlar pul qazanmaq məqsədilə bu yola baş vursunlar, amma domlar arasında təbabətdən başı çıxan, türkəçarə üsullarla müalicə etməyi bacaran kifayət qədər adamlar var idi. Ona görə də onların həkimə ehtiyacı olmurdu, bir şeyə ehtyac olanda da özləri özlərini müalicə edirdilər. Xalq təbabətini o qədər gözəl bilirdilər ki, ağlagəlməz üsullarla xəstəni sağaldırdılar. Bir söyləyicinin dediyinə görə, uşaq vaxtı boğazı şişdiyi üçün onu yaşlı bir qadının yanına aparmışlar. Qadın bir qurbağa tutub gətirmiş, onun nəfəsini bunun ağzına vermiş, onunla da həmin xəstəlik aradan qalxmışdır. Belə insanlar heyvanların müəyyən orqanlarından qara magiya məqsədi ilə də istifadə etmişlər. Bir söyləyicinin dediyinə görə, bir dəfə canavarın dal qılçasını evə gətirdiyi üçün anası onu ciddi danlamış, ayağı ya aparıb suya atmağı, ya da basdırmağı tapşırmışdı. Qadının qurd ayağına bu qədər ciddi təpki verməsinin səbəbi qurd ayağından pis niyyətlə – kimdənsə hayıf çıxmaq, qisas almaq üçün istifadə olunması idi. Deyilənə görə, qurd yağını adama sürtəndə o qudurur, qurd ayağını vuranda isə bədəni iflic olurdu.

Domlar arasında kəndbəkənd gəzərək ayı oynadan, qaval çalıb söz qoşan şəxslər olub. Maraqlıdır ki, bu şəxslər müxtəlif tayfalara məxsus olsa da, hamısı Lotu Kərim adlandırılıb. Lotu Kərim əslində bədirki tayfasında ayı oynatması, qaval çalması ilə tanınan məşhur şəxs olub. Bu insanın ünü, şöhrəti o qədər yayılıb ki, sonralar bu işlə məşğul olan digər şəxslər də domlar arasında Lotu Kərim adı ilə tanınıb. Lotu Kərimin oğlu, qaval

çalıb söz qoşması ilə tanınan Umud, Ağsu domlarında ayı oynadan Həsənağa da xalq arasında Lotu Kərim kimi tanınıb.

Lotu Kərim adına vaxtilə Ağcabədi rayonundan topladığımız Hacı Qara haqqında rəvayətlərin birində də rast gəlirik və mətndə Hacı Qaranın xəsisliyinin Lotu Kərimlə bağlı olduğu söylənilir. Deyilənə görə, Lotu Kərim kəndbəkənd gəzərək ayı oynadıb pul qazanırmış. Ləmbəran kəndində də ayı oynatdıqdan sonra pul verməsi üçün Hacı Qaraya yaxınlaşır. Hacı Qara onu acılayır ki, yekə kişisən, get özünə yaxşı bir sənət tap. Bu hadisədən sonra Lotu Kərim Hacı Qaranın əlindən yanıqlı qalır və hara gedirsə, Haca Qaranın xəsisliyi, onun arvadının tənbəlliyi haqqında qoşduğu sözləri ifa edir. Deyilənə görə, Hacı Qaranın xəsisliyi haqqında söz-söhbət də buradan yaranır. Ağdaş domlarından qeydə aldığımız və Lotu Kərimin Hacı Qaranın arvadına qoşduğu şeir nümunəsi olmasaydı, şifahi mətndir deyib burada söylənən fikirlərə o qədər də əhəmiyyət verməmək olardı. Amma həmin şeir parçası bu rəvayətin özündə də bir həqiqət olduğunu göstərir. Həmin şeirdə deyilir:

Pis arvadın qaydasıdı,
Yatar-yatar gözü şişər.
Dağda darağını itirər,
Aranda qonşuları gəzər.
Ləmbəranlı Hacı Qaranın arvadıdı.

Ellərə tütün gərək,
Qəlyana tütün gərək.
Haşa burdan, pis arvadın olunca
Qapıda bir itin gərək.

Uşağı qoyub beşiyə,
Qıçdarı çıxıb eşiyə.

Kişi bir kilo ət alıb
Onu da verib pişiyə.

Ayı oynadanlar ayını körpə vaxtlarından əhilləşdirməyə başlayırdılar. Həmin ayı ilə kəndlərdə, şəhər meydanlarında kütlə qarşısında çıxış edərək müəyyən nömrələr göstərirdilər. Ayıya müəyyən əmrlər verir, ayı da onların əmri ilə əlini gözlərinin üstünə qoyur, mayallaq aşır, ayaq üstə oynayırdı və s.

Qarabağ zonasında Lotu Kərim adı ilə məşhur olan Umud imkanlı bir adam olub, sürü ilə qoyunu, ilxısı, onları otaran nökərləri, atlarına baxan mehtəri olub. Dom camaatı adi alaçıqda qaldığı halda, o, muxro qurardı.

Lotu Kərimin gözəl şeiriyyəti var idi. Qaval çala-çala bədahətən sözlər oxuyur, müəyyən adamlara tərif deyirdi. Təriflədiyi şəxslər də ona yaxşı hörmət edirdilər. Ona hörmət etməyən kolxoz sədrləri, müəyyən tanınmış adamlar haqqında həcvlər qoşur, onları bəzəyirdi. Ona görə də kolxoz sədrləri, tanınmış adamlar Lotu Kərimin qorxusundan, adlarına söz çıxardacağından ehtiyat edərək ona hörmət edirdilər. Lotu Kərimə məxsus olduğu deyilən bir şeirdən bu aydın görünür:

Almaram, mən almaram,
Qazan-qavala salmaram.
Lotudu yalan deyən
İki erkəkdən əskik olsa,
Mən almaram, almaram.

## D. Dom taborları və idarəçilik prinsipi

Domlarda vaxtilə hər tayfanın öz ağsaqqalı var idi və tayfa həmin ağsaqqal tərəfindən idarə olunurdu. Şirməmmədli tayfasının ağsaqqalı Hüseynqulu kişi, sarıların ağsaqqalı Al-

lahqulu kişi, əmirlinin ağsaqqalı Məşədi Əşrəf, Bərdə domlarının ağsaqqalı Hətəm kişi, Yevlax domlarının ağsaqqalı Eyvaz kişi, bədirkilərin ağsaqqalı isə Qnyaz kişi idi. Yerli əhali domlara rəhbərlik etmiş şəxsləri şah, xan kimi səciyələndirərək onları qeyri-adi səlahiyyətlərə malik, avtoritar şəxs kimi qələmə verir. Əslində isə tayfa ağsaqqalının səlahiyyəti şahın, xanın səlahiyyətləri ilə qətiyyən müqayisəyə gəlməz, onlara sadəcə mənsub olduğu tayfanın mənəvi böyüyü kimi baxmaq lazımdır. Ağsaqqal müəyyən söz sahibi olsa da, təkbaşına qərar vermirdi, digər ağsaqallar da yığılır, bir yerdə məsləhətləşərək qərar qəbul edirdilər.

Ağsaqqallıq seçki ilə müəyyən olunmur, insanlar özlərinin müəyyən müsbət keyfiyyətləri ilə bu adı qazanırdılar. Domlarda belə bir söz var: ağsaqqal olmaq üçün öncə gərək alçalasan ki, camaat da səni ucalda. Yuxarıda adını sadaladığımız şəxslər də ağsaqqallığı məhz bu keyfiyyətləri ilə qazanmışlar. Dom camaatından biri xəstəxanaya düşdükdə əlində bir işi olsa belə, onu kənara qoyub mütləq həmin adama baş çəkmişlər. Yas düşdükdə ölünün qırxı çıxana qədər həmin məclislərdə iştirak edib, ev yiyəsi ilə birlikdə yasa gələnlərin başsağlığını qəbul etmişlər. Məhz bu cür müsbət tərəflərinə görə camaat onu ucaltmış, onu ağsaqqal saymışdır.

Tayfa içində ağsaqqala xüsusi hörmət vardır. Köç zamanı camaat öncə ağsaqqalın çadırını söküb qatıra yükləyir, onun atlarını yəhərləyir, sonra gəlib öz yükünü yığırdı. Toy-mərəkə olanda ağsaqqal olan məclisə uşaq girməzdi, uşaq girərdisə, onun valideynini cərimələyirdilər. Qız-gəlinlər ağsaqqal görəndə həya edir, onun yanında danışmırdılar. Ağsaqqala hörmətin səviyyəsini təsəvvür etmək üçün bir misala diqqət yetirək. Əmirli tayfasının ağsaqqalı Məşədi Əşrəf 1955-ci ildə sürgündən qayıtdıqda Ağsu domları hələ oturaqlaşmamış-

dı, Girdiman çayının sahilində düşərgə salmışdılar. Məşədi Əşrəf sürgündən gələndə Ağsu domları onu qarşılamaq üçün – magistral yoldan alaçığa qədər olan məsafəyə (deyilənə görə ən azı 500 metr olardı) gəbə döşəmişdilər. Ağsaqqala hörmət o qədər güclü idi ki, onun dediyi qanun idi. Ona görə də rəsmi dairələr, dövlət qurumları domlarla bağlı bir işləri olduqda onların ağsaqqalına müraciət etmiş, onun əli ilə iş görmüşlər. Oturaqlaşan zaman da ilk öncə onların ağsaqqalları oturaqlaşmış, digər camaat da ona baxıb məskunlaşmışdır.

Ağsaqqal olan şəxs həm də natiq olmalı, gözəl danışığı ilə seçilməli idi. Ünsiyyətdə olduğumuz şəxslər sarıların ağsaqqalı Allahqulu kişinin, Şirməmmədlilərin ağsaqqalı Hüseynqulu kişinin, Əmirlinin ağsaqqalı Məşədi Əşrəf kişinin natiqlik qabiliyyətini xüsusilə vurğulamışlar. Deyilənə görə, bir dəfə camaat Hüseynqulu kişinin çox danışmasından şikayətlənir. Deyirlər ki, nə vaxt məclis oldu Hüseynqulu kişi məclisi alır əlinə, yalan-doğru, bildi-bilmədi elə hey danışır. Bu söhbət Hüseynqulu kişinin qulağına çatır. Bir dəfə yas məclisində əli ilə ağzını tutaraq bir kəlmə belə danışmır. Camaat görür ki, o danışmasa, məclis yaxşı keçməyəcək, günahlarını boyunlarına alaraq ondan məclisi ələ alıb söhbət etməsini xahiş edirlər. Məşədi Əşrəf haqqında deyilirdi ki, o danışanda camaat o qədər diqqətlə ona qulaq asırdı ki, uçan milçəyin vızıltısı belə eşidilirdi.

Ağsaqqalın tayfanın idarəsində rolu böyük idi. Ağsaqqal qan yatırdır, küsülü insanları barışdırır, müəyyən bir istək, xahişlə kimin qapısına gedirdisə, onun xahişi yerə salınmırdı. Dom camaatının rəsmi dairələrlə, polislə bir işi olduqda onun dalınca ağsaqqal gedir, rəsmi dairələrin də domlarla bağlı işi olduqda ilk növbədə ağsaqqala müraciət edirdi. Ağsaqqal həmişə tayfanın maraqlarını müdafiə edirdi. Heç vaxt öz tayfa-



**Ağdaş domlarının ağsaqqalı Hüseynqulu kişinin qəbri və qəbri üstündə tikilmiş kümbəz**

sına mənsub şəxsin həbsə düşməsinə imkan vermir, tutulan,həbs olunan olduqda rəsmi dairələrlə dil tapıb onu azad etdirirdi. Ağdaş domlarının ağsaqqalı Hüseynqulu kişi haqqında deyirlər ki, birinin bir şeyə ehtiyacı olanda Hüseynqlu kişi öz cibinin pulu ilə onu alıb verir, borcunu qaytarmağa isə tələsdirmirdi. Yaxud hansısa kişi tənbəllik edib işə getmirdisə, onu məcburi evdən çıxardıb çörək qazanmağa göndərirdi. Toy eləmək istəyənlər də öncə ağsaqqala məsləhət edir, onun münasib gördüyü tarixdə toy edirdi. Ağsaqqalın razılığını almadan toy edən olduqda isə o, öz tayfasının adamlarına toya getməyə icazə vermirdi.

Bəzi domlarda ağsaqqallıq nəsildən-nəslə ötürülmüşdür. Məsələn, bədirkilərin ağsaqqalı Qnyaz kişi, Bərdə domlarının ağsaqqalı Hətəm kişi məhz atalarından sonra tayfaya ağsaqqallıq etmişlər. Hüseynqulu kişinin oğul varisi olmadığından ondan sonra Ağdaş domlarına ağsaqqallığı sarıların böyüyü Allahqulu kişi etmişdir. Ağsaqqallıq mütləq nəsildən nəslə

ötürülməlidir deyə bir qanun yoxdur. Çünki kimin ağsaqqal olmasına şəxsin özü deyil, camaat qərar verir, təklifi ona camaat edir. Ona görə də yuxarıda adı sadalanan şəxslər ağsaqqal olmaq üçün lazımi tələblərə cavab verdiklərinə görə camaat bu təklifi onlara götürmüşdür.

Ağsaqqallıq institutu təkcə domlar üçün xarakterik deyil, Yevlax ərazisində məskunlaşan kürddilli, Balakən və Qaxda yaşayan farsdilli topluluqlar arasında da ağsaqqallıq institutuna rast gəlinir. Son dövrlər ağsaqqallıq institutunun dağıldığı müşahidə olunur ki, domlar arasında bir çox mənfi halların – narkotik vasitələrə meyillik, oğurluq, cinayət hallarının artmasını yaşlı nəsil bununla əlaqələndirir.

## E. Etnik xüsusiyyətlər

Yaşadıqları ölkənin dilini, dinini, adət-ənənəsini qəbul etməsi bir xalqın assimilyasiya olunması üçün kifayət qədər tutarlı amillərdir. Amma maraqlıdır ki, bu xüsusiyyətlərin hamısı domlarda olduğu halda onlar nəinki assimilyasiya olunur, əksinə, öz kimliklərini qoruyub saxlamışlar. Domlar yerli əhali ilə nə qədər eyni dili, adət-ənənəni daşısalar da, heç vaxt özünü yerli əhalidən saymamışlar. Özlərindən olmayanlara *tayı* deməklə özlərini onlardan fərqləndirmişlər. Tayı dedikdə hansısa bir qövmü deyil, irq, milliyyət ayrıseçkiliyi qoymadan dom olmayan hər kəsi nəzərdə tutmuşlar. Bu cür yanaşma təkcə Azərbaycan üçün deyil, digər ölkələrdə yaşayan siqanlar üçün də xarakterikdir. Məsələn, Avropa ərazisində yaşayan və domlarla eyni mənşəli olan romlar da özlərindən olmayanları *qaco* adlandırmışlar. Dom dilində sünni-şiə məzhəbinə mənsub şəxsləri ifadə edən sözlərin olması onu göstərir ki, domlar həm də dini mənsubiyyətinə görə özlərini digər-

lərindən fərqləndirmiş, sünni məzhəbinə mənsub insanları *pincilə*, şiə məzhəbinə mənsub olanları isə *pancım* (özüm) adlandırmışlar. Dünyanın dom – tayı, pancım – pincilə kimi qütblərə ayrılması qaraçı kimliyinin qorunub saxlanılmasının, itməməsinin əsas səbəblərindən biridir.

Domlar ətraf dünyaya qapalı olmuşlar, yad adamı heç vaxt öz içərilərinə buraxmamışlar. Buna görə də onlar keçən əsrin 70-ci illərinə qədər ancaq öz içərilərindən evlənmişlər: nə kənardan qız almış, nə də kənara qız vermişlər. Bu qayda-qanunları pozanları isə öz aralarından qovmuşlar. Ali təhsilli bir domun dediyinə görə, vaxtilə özü kimi oxumuş, savadlı bir qızla ailə qurmağı xəyal etmişdi. Amma atası anası ilə ona ismarıc göndərmişdi ki, elə bilsin bir stəkan zəhərdir: ya götürüb zəhəri içsin, ya da xalası qızı ilə evlənsin. Söyləyicinin dediyinə görə, bu sözdən sonra atasının məsləhət gördüyü qıza göz qoymuş, münasib olduğunu gördükdən sonra onunla evlənmişdir. Ondan fərqli olaraq qardaşı yerli əhalidən qız qaçırmışdır, buna görə atası onu evdən qovmuşdur. Əmisi oğlu yerli əhalidən evləndiyi üçün atası, əmisi onunla ünsiyyəti kəsmişdilər. Ehtimal olunur ki, tayfadaxili – endoqam nigahlar Hindistandakı kasta sistemindən irəli gəlir. Domlar Hindistandan çıxdıqdan sonra kasta sistemindən irəli gələn bir çox xüsusiyyətlərlə yanaşı, endoqam nigahları da qoruyub saxlamışlar.

Domlar nə qədər qapalı qövm olsalar da, ağzıbütöv, sirr batıran camaat olub. Köçərilik zamanı qana düşən, düşmənçilik edib onlara sığınanlar olmuş, onları heç vaxt ələ verməmiş, onlara yiyə çıxmışlar.

Domlar həddən artıq çılğınlığı, davakarlıqları ilə seçilir. Dilimizdə bir deyim kimi işlənən "qaraçı davası" heç də boş yerdən yaranmamış, özünün müəyyən əsası vardır. Qaraçılar dava edərkən, özlərinin dediyinə görə, gözləri o qədər dönür

ki, daş demir, ağac demir, əllərinə nə keçir bir-birinin üstünə yağdırırlar. Ona görə də qaraçı məhəlləsində dava düşəndə heç bir polis cəsarət edib o məhəlləyə gedə bilmir. Ağdaş folklor örnəklərini toplayarkən həmsöhbət olduğum təqaüdə çıxmış polis işçisinin dediyinə görə qaraçılar yaşayan məhəllədə dava düşdükdə bölmədə polis tapılmazdı. Hamı aradan çıxardı ki, birdən kimisə ora göndərərlər. Ora gedən adamın da oradan sağ-salamat qayıtması mümkün deyildir. Ona görə də gözləyər, ara sakitləşəndən sonra hadisə yerinə gedərdilər. Qaraçılar arasında ən güclü davalardan biri keçən əsrin səksəninci illərində Ağdaş rayonunda şirməmmədlilərlə sarılar tayfası arasında düşmüşdü. O qədər güclü dava olmuşdu ki, tərəfləri yanğısöndürən maşından təzyiqli su sıxmaqla bir-birindən ayırmaq mümkün olmuşdu. Yaşlı sakinlərin dediyinə görə, həmin davada ən azı 18-20 nəfərin başı yarılmışdı. Davaya qarışan tərəflər arasında düşmənçilik müəyyən müddət davam etmiş, sonralar hər iki tayfa ağsaqqallarının Hüseynqulu kişinin evində yığışaraq bir-birinin əlini sıxması ilə düşmənçilik aradan qaldırılmış, barışıq əldə olunmuşdur.

Domlar davanı əsasən ağacla edirdilər. “Qaraçıya ver ağacı, başqasına ver tapancanı” atalar sözü də əslində domların ağac davalarının nə qədər ustası olduğunu göstərir. Çomağı dözümlüyünə görə zoğal ağacından hazırlayırdılar. Çomaq üçün düz, uc hissəsində fır olan ağac seçilirdi. Gün ağacı çatlatdığı və əydiyi üçün kəsilən ağacı kölgə yerdə qabıqlı şəkildə qurudurdular. Quruduqdan sonra ocaqda ütüb qabığını soyur, qırmızı rəng alması üçün toyuq piyi ilə yağlayırdılar. Ağacın ucunu deşib qayış taxırdılar. Döyüş vaxtı həmin qayışı biləkərinə dolayırdılar ki, ağac əllərindən çıxmasın. Çomaq daim onların üstündə olurdu: qayışı çiyinlərinə keçirib onu qoltuqlarının altında gəzdirir, çomağın ucunu isə şalvar-

larının kəmərlik yerində saxladıqları xüsusi dilə keçirirdilər. Çomaq çuxa və ya pencəyin altında qaldığından kənardan baxanda onların üstündə ağac olduğu bilinməzdi. Döyüş zamanı ağacı qoltuqlarından çıxardaraq döyüşə atıldıqları üçün ona həm də *qoltuqdan çıxarma* deyilir. Döyüş vaxtı rəqibin endirdiyi dəyənəklərin gücünü zəiflətmək üçün pencəklərini sol qollarına bəlgə eləyib qabağa verirdilər.

Kənardan baxanda mədəni səviyyələri aşağı, geri qalmış qövm təsiri bağışlasa da, domları tanıdıqdan sonra onlar haqqında insanın fikri dəyişir. Domları tanıyan, onlarla yoldaşlıq edən, kirvəlik edən insanlar onların dostluğunu, dostluğa sadiqliyini yüksək qiymətləndirmişlər. Domlar dostluq etdiyi insanlarla münasibəti ya qohum olmaqla, ya da kirvəliklə möhkəmləndirmişlər.

Bu tərəfləri ilə yanaşı domlar arasında mənəm-mənəmlik, bəhsə-bəhslik də geniş yayılmışdır. Domlar yaşayan məhəllələrdə olduqda ilk növbədə adamın diqqətini ikimərtəbəli evlər cəlb edir. Çoxlarının bəlkə də o qədər böyük evlərə ehtiyacı yoxdur, amma bir-birinin bəhsinə, "filankəs tikdirib mən niyə tikdirməyim" düşüncəsi ilə özlərinə o cür evlər tikiblər. Bəhsə-bəhslik qəbir üstünün götürülməsində də özünü göstərir. Azərbaycanın bir çox bölgələrində qəbrin üstünü götürmək üçün ilinə qədər gözlənilir, torpaq tam yerə oturduqdan sonra götürülür. Amma dom camaatında ölünün qırxı çıxmamış qəbrin üstü götürülür, həmin müddətdə qəbrin üstünü götürməyən ailələrə isə pis baxılır. Qəbrin üstü götürüldükdə bu münasibətlə müəyyən adamlar dəvət edilir, qəbr ziyarət olunur, üstündə Quran oxudulur, qəbiristanlıqdan qayıtdıqdan sonra evdə ehsan verilir.

Domlar arasında təhsil, savadlılıq olduqca aşağı səviyyədədir. Qız uşaqlarını çox erkən yaşlarında ad eləyirlər, ad elədikdən sonra onları məktəbə buraxmırlar. Oğlan uşaqlarını

da, adətən, doqquzuncu sinifə qədər oxudurlar. Nadir hallarda onlardan 11-ci sinifə uşaq gəlib çatır. Ağdaş rayonunda yaşayan domlar 8 saylı orta məktəbə gedirlər. Bu məktəbi 2016-2017-ci təhsil ilində cəmi iki nəfər bitirmiş, 2017-2018-ci təhsil ilində isə 11-ci sinifdə cəmi bir dom uşağı oxuyur. Davamiyyətsizlik elə bir hal alır ki, məktəb müəllimləri bu uşaqları məktəbə yığmaq üçün qapılarda qalır. Ona görə də məktəb rəhbərliyi çox vaxt onları məktəbə götürməkdə maraqlı deyil, götürəndə də uşağı məktəbə göndərəcəklərinə dair valideynlərinin dilindən yazılı iltizam alırlar. Amma bu da vəziyyətdən çıxış yolu olmur, Orucluq, Qurban bayramları gələndə dom uşaqlarının əksəriyyətini sinifdə tapmaq olmur.

Domların təhsilə maraq göstərməmələri əslində onların məşğul olduqları sənət sahələri ilə bağlıdır. Ənənəvi sənətkarlıq, ticarət, falçılıq, dilənçiliklə məşğul olan bu camaat üçün oxumaq, məktəb qurtarmaq lazım deyil. Azdan-çoxdan hərfləri tanımaq, müəyyən qədər hesabdan anlayışı olmaq da kifayət edir. Digər tərəfdən, təhsil alan, xüsusən də ali məktəb bitirən domlar ənənəvi məşğuliyyət sahələrindən uzaqlaşır, domlar üçün xarakterik olmayan müəllimlik, sürücülük, tamadalıq kimi peşələrlə məşğul olurlar. Nəticədə onlar özlərinin qaraçı kimliklərini itirir, ənənəvi məşğuliyyət sahələrinə münasibətləri dəyişir. Belə ki, adi domların normal hal kimi qəbul etdiyi dilənçiliyə, falçılığa təhsilli domlar artıq mənfi münasibət bəsləyir, bunların pis bir vərdiş olduğunu söyləyirlər. Göründüyü kimi, təhsil almaq, savadlanmaq nə qədər yaxşı iş olsa da, bir o qədər də bu xalqın öz kimliyindən uzaqlaşmasına, assimilyasiya olunmasına yol açır. Domların təhsilə maraq göstərməməsi, təhsildən yayınmalarının bir səbəbini də burada axtarmaq lazımdır.

Domlarda insanlar iki ad daşıyır: sənəddə bir ad yazılır, amma həyatda başqa bir adla tanınır. Məsələn, rəsmi sənəddə

adı Aydın olan şəxs həyatda Coşqun, Loğman – Vətən, Ələddin – Vasya, Baxşeyiş – Fəzail, Abbasqulu – Burxan, Şakir – Fəzail və s. adlandırılır. Təkcə kişilərdə deyil, qadınlarda da ikiadlılıq müşahidə olunur. Məsələn, sənəddə adı Məhbubə olan şəxs həyatda İnsaf adlandırılır. İkinci bir ad hansısa əlamətə görə verilmədiyi üçün onlara ləqəb demək mümkün deyildir. Sonradan verilən ad o qədər populyarlıq qazanır ki, insanların sənəddə olan adını demək olar ki, heç kəs bilmir, ancaq taxma adları ilə tanınırlar. Maraqlıdır ki, bu xüsusiyyət digər ölkərlərdə yaşayan domlar arasında da müşahidə olunur. Avropada bir dönəm siqanların ikinci bir ad daşımaları hətta qadağan olunmuşdur (Demeter 2000). İkinci adın verilmə səbəbini soruşsaq da, domlardan təxminedici cavab ala bilmədik. Uşağı şər ruhlardan qorumaq, doğulan uşaq sağ qalmırsa, Əzrayılı aldatmaq üçün yeni doğulan uşağa ikinci bir adın qoyulması bizim ənənədə də olub. Ola bilsin domlar arasındakı ikiadlılıq da həmin təsəvvürdən irəli gəlir.

Domlara xas olan və tayfa idarəçiliyindən irəli gələn bir çox xüsusiyyətlər yerli əhali tərəfindən təəccüblə qarşılanır. Bunların içərisində ən önəmlisi domların bir-birinə həyan durması, çətin məqamda bir-birinə dəstək olmalarıdır. Yerli camaatın dediyinə görə, öz içərilərində bir-biri ilə dava edirlər, amma yerli əhali ilə münaqişələri olduqda yumruq kimi birləşib bir-birinə kömək olurlar. Yerli camaatın domlardan bəhs edərkən vurğuladığı bir cəhət də bu camaatın etdiklərinin mütləq qarşılığını gözləmələridir. Məhz bu cəhətə görə bir çox domlar öz camaatından deyil, yerli əhalidən kirvə tutmağa üstünlük verirlər. Bunu da onunla izah edirlər ki, yerli əhali gətirdiyini deyən deyil, amma domlar bir şey gətiribsə, mütləq onun qarşılığını tələb edir, vermədikdə də arada inciklik yaranır. Bir dom qadınının onun yasına gəlməyən yerli sakindən

qırğınlığını dilə gətirərkən dediyi sözlər “özü gələ bilmir, göz yaşını dəsmala büküb göndərsin” bunun ən bariz ifadəsidir. Əgər bu camaatdan bir nəfər xəstəxanaya düşürsə, böyüklü-kiçikli bütün qohum-əqraba o xəstəxananın qarşısına yığılır. Bəzən o qədər tünlük yaranır ki, xəstəxana rəhbərliyi onları xəstəxanadan uzaqlaşdırmaq üçün polis çağırmaq məcburiyyətində qalır. İrad tutanda da özlərinə haqq qazandırırlar ki, mən onun xəstəsinin üstünə getmişəm, o da mənim xəstəmin üstünə gəlməlidir. Domlar haqqında söylənilən bu fikirlər əslində tayfa idarəçiliyindən, özünü qorumaq instinktindən irəli gəlir. Bu xüsusiyyətləri tayfa münasibətlərinin güclü olduğu digər qövmlərdə də müşahidə etmək mümkündür.

## F. Domların dili

Domların əsas danışıq dili Azərbaycan dilidir. Onlardan toplanan folklor materialı və onların dilinin təhlili göstərir ki, domlarda vahid bir dialekt yoxdur, hər kəs məskunlaşdığı bölgənin, ərazinin ləhcəsinə uyğun danışır. Bununla belə, məişətdə öz aralarında istifadə etdikləri müəyyən dilləri vardır ki, ona dom dili deyirlər. Dom dilinə əslində müstəqil bir dil kimi baxmaq mümkün deyil, çünki dil üçün lazım olan tələblərə cavab vermir. Bu dildə leksik şəkilçi, özünəməxsus qrammatik şəkilçilər yoxdur. Sözlər arasındakı qrammatik əlaqələr Azərbaycan dilinin şəkilçiləri hesabına yaradılır, cümlələr Azərbaycan dilinin sintaktik quruluşu əsasında qurulur. Dom dilinin o qədər də güclü söz ehtiyatı yoxdur. Bu dilə dair 200-ə qədər söz, ifadə və cümlə yazıya almışıq, bir qədər də dərin toplanılsa, bu dilə məxsus sözlərin sayı 500-600-ü güclə keçər. Cavan nəsil bu dilə məxsus yalnız müəyyən sözləri, ifadələri bilir. Həmin dildə cümlələr qurmaq, fikirlə-

rini ifadə etməyi isə bacarmırlar, amma yaşlı nəslin nümayəndələri bu dildə sərbəst cümlələr qura bilirlər.

Söz ehtiyatı az olduğundan bu dildə hər cür fikri ifadə etmək mümkün deyildir, yalnız məişətdə, qonaq-qara yanında çay gətir, yemək hazırla və s. bu kimi tapşırıqların verilməsində istifadə olunmuşdur. Bu dildə mücərrəd məfhumları, etik anlayışları ifadə etmək üçün sözlər yoxdur. Ən qəribəsi də odur ki, gündəlik həyatda qarşılaşdıqları bitkiləri və heyvanları ifadə etmək üçün kifayət qədər söz ehtiyatı yoxdur. Söz ehtiyatının azlığı üzündən bəzən bir sözlə bir neçə məfhumu ifadə ediblər. Məsələn, toyuq, xoruz, hinduşka kimi fərqli quş cinsləri bir adla *duvaye* sözü ilə ifadə olunur. Cücə əvəzinə balaca toyuq anlamına gələn *qıtı duvaye* sözü işlədilir. *Ovla* sözü həm gəl, həm də gətir mənasında, *çin* sözü həm kəsmək, həm də doğramaq anlamında işlədilir. Dom dilində tüfəngə *diləndaz* deyilir, tapanca məfhumunu ifadə etmək üçün isə balaca tüfəng anlamına gələn *qıtı diləndaz* sözündən istifadə edilir.

Dom dili demək olar ki, Azərbaycanda yaşayan bütün domların hamısında işlədilir, amma müəyyən dialekt fərqləri müşahidə olunur. Məsələn, Ağsu, Ağdaş domları *güldə* sözünü çay, Bərdə domları isə qənd anlamında işlədilər. Sözün tələffüzündə də fərqlər vardır: Ağsu, Ağdaş domları *güldə*, Bərdə domları isə *gildə* şəklində tələffüz edirlər. Yaxud Ağsu, Ağdaş domları ataya *baha*, Bərdə domları isə *daya* deyirlər.

Domlar arasında işlədilən bu dil qədim dom dilinin qalığı hesab olunur. Yad dillərin güclü təsirinə məruz qalmasına, ciddi təhriflərə uğramasına baxmayaraq, bu dilin, tədqiqatçıların fikrincə, Hindistanın şimal-qərb hissəsindəki dialektlərlə sıx qohumluğu vardır (Patkanova 1887, 44). Amma ötən zaman ərzində yaşadığı ölkənin hakim dilinin təsiri ilə o, ciddi dəyişikliyə uğramış, özünün qrammatik şəkilçilərini, əksər söz-

ləri itirmiş, qalan sözlər isə təhriflərə məruz qalmışdır. Öz dillərində ancaq gündəlik həyatda işlədilən ən adi əşyaları ifadə edən sözləri saxlamış, digər sözləri isə başqa xalqlardan almışlar. Hindistanı tərk etdikdən sonra keçdikləri yol, olduqları ölkələr onların dilində öz izlərini qoymuşdur. Ona görə də dom dilində türk, fars və s. dillərdən alınma sözlərin olması təbiidir.

## G. Domların mənşəyi

Domların mənşəyi ilə bağlı müxtəlif fikirlər söylənilib. Onlar ilk dəfə XV əsrdə Qara dəniz sahillərindən keçməklə Avropaya qədəm basmışlar. Onlar haqqında yazılan ilk tədqiqatlarda bu xalqın mənşəyi Misirlə əlaqələndirilmişdir. Sonralar domların dilinə dair nümunələrin toplanması, hind dili ilə müqayisə edilməsi onların dilinin qədim sanskrit dilinə yaxınlığını üzə çıxarmışdır. Bundan sonra domların Hindistan mənşəli olmaları haqqında fikir daha ağırlıq qazanmışdır.

Domların Hindistanı tərk etdikləri tarix haqqında müxtəlif fikirlər söylənilir. Ümumi qəbul olunmuş fikir belədir ki, onlar ən azı min il bundan əvvəl Hindistanı tərk etmək məcburiyyətində qalmışlar. İran, İraq və Suriya ərazisinə gələnlər özlərinin *dom*, Avropaya üz tutanlar *rom,* Ermənistan, Türkiyə ərasizində yaşayanlar isə özlərini *lom* adlandırmışlar. *Dom/ rom/lom* sözlərindəki birinci səsin dəyişməsi dialekt fərqliliyindən qaynaqlandığı ehtimal olunur. Ç.Leland, F.Brokqauz, K.Patkanova və digər tədqiqatçılar bu xalqların etnik mədəniyyətləri arasındakı bənzərliyə, dillərindəki oxşar sözlərə dayanaraq onların eyni mənşəli olduğunu söyləmişlər (Patkanova 1887, 110).

Bir qədər əvvəl qeyd etdik ki, domlar özləri ilə bağlı heç bir folklor örnəklərini saxlamamışlar, ona görə də folklordan, adət-ənənədən çıxış edərək onların mənşəyi haqqında fikir

söyləmək mümkün deyil. Amma etnik mədəniyyətin özündə onların Hindistan mənşəli olduğunu göstərən kifayət qədər əsaslar vardır. Bunların içərisində ən mühümü domların Hindistandakı kasta sistemindən irəli gələn bir çox xüsusiyyətləri bu gün də özlərində qoruyub saxlamalarıdır. Endoqam nigahlar, tayfalar arasında əmək bölgüsü, yad adamlarla ünsiyyətdən qaçmaları və s. məhz kasta sistemindən irəli gələn təsəvvürlərdir. Bundan əlavə, bu tayfalar arasında Hindistana xüsusi vurğunluq hiss olunur. Balakən, Qax rayonlarında məskunlaşan və özünü qürbət adlandıran tayfalar arasında bu, daha çox müşahidə olunur. Onlar yeni doğulan uşaqlara Cimi, Şaka, Racu, Qanqa, Qamit, Rail kimi hind kinolarının baş qəhrəmanlarının adlarını qoyurlar. Hind kinolarının o qədər vurğunudurlar ki, sovet dövründə bu kinoları klubda izləmək üçün neçə kilometrlik yolu piyada gedirdilər. Toylarda əsasən hind mahnılarına rəqs edir, cavan qızlar alınlarına döymə vuraraq özlərini hind qızlarına bənzədirlər. Bu kimi xüsusiyyətlər göstərir ki, bu tayfaların Hindistanı tərk etmələrindən əsrlər keçməsinə, bu müddət ərzində dilini, dinini itirmələri, adət-ənənələrini unutmalarına baxmayaraq, Hindistana bağlılıq, vurğunluq bu və ya digər şəkildə yenə özünü büruzə verir.

Məqalənin əvvəlində qeyd etmişdik ki, Azərbaycanda qaraçı adlandırılan topluluqların məişətində, təsərrüfatında, etnik mədəniyyətində müəyyən bənzərliklərin olmasına baxmayaraq, özlərini fərqli adlarla tanıtmış, antropoloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənmişlər. Həmin fərqliliklərə dayanaraq K.Patkanova Hindistanı bir deyil, bir neçə qövmün tərk etdiyini söyləyir (Patkanova 1887, 139). Balakən və Qax rayonlarında məskunlaşan, özünü qürbət adlandıran tayfa da domlarla eyni mənşəli olsa da, fərqli bir qövmdür. Ona görə də özlərini domlardan fərqləndirmiş, fərqli adla tanıtmışlar.

Yevlax və Bərdə rayonlarında yaşayan, kürd dilində danışan topluluqlara gəldikdə isə, onların məişətində digər qaraçı topluluqları ilə bənzərlik gözə çarpsa da, daha dolğun fikir söyləmək üçün ayrıca araşdırmaya ehtiyac vardır.

## Nəticə

Domlar haqqında Azərbaycan cəmiyyətində yüzillər boyunca mənfi təsəvvürlər formalaşmışdır. Onlar uşaq oğurluğunda günahlandırılmışdır. Həmin təsəvvürün nəticəsidir ki, bir çox rayonlarda analar sözə baxmayan, nadinc uşaqlarını qaraçı ilə qorxutmuşlar: "Küçəyə çıxmayın, yoxsa qaraçı gəlib sizi oğurlayar". Domlar arasında uşaq oğurluğunu təsdiq edəcək hansısa fakta rast gəlinmir. Yanız Ağdaş domlarının İrəvana köç zamanı yoldan tapdıqları kimsəsiz bir uşağı övladlığa götürmələri məlumdur. Həmin uşaq sonradan ata-anasının kim olduğunu öyrənsə də, onların yanına getmək istəməyib domlar arasında qalmağa üstünlük vermişdir. Ola bilsin ki, uşaq oğurluğuna dair vaxtilə bir-iki hadisə baş verib. Çünki çoxuşaqlığın geniş yayıldığı bir mühitdə kiminsə uşağının olmaması yaxşı hal kimi qarşılanmır, "quru ağac" deyə ətrafın ciddi tənəsi ilə qarşılanır. Belə ailələr həmin tənələrdən yaxa qurtarmaq üçün yaxın qohum-əqrəbadan kimisə övladlığa götürmüş, övladlığa götürməyə uşaq olmadıqda isə, ola bilsin, uşaq oğurluğuna baş vurmuşlar. Qaraçılar haqqında söylənilən həmin fikir də çox güman ki, buradan qaynaqlanır. Avropa qaraçıları da vaxtilə uşaq oğurluğunda, adam əti yeməkdə günahlandırılaraq təqiblərə məruz qalmışlar, amma onlar haqqında söylənilən fikirlərin heç biri öz təsdiqini tapmamışdır (Patkanova 1887, 13). Başqa etnik qruplar (məsələn, cuhudlar) haqqında da buna bənzər təsəvvürlərin söylənilməsi xalqlar arasındakı dözümsüzlükdən, özündən olmayanı, fərqlənəni özündən itmək, kənarlaşdırmaq istəyindən irəli gəlir.

Etnik mədəniyyətdə, məişətdə, təsərrüfatda müəyyən fərqliliklərin olması, heç bir xalqa önyarğı ilə yanaşmağa əsas vermir. Yadıma gəlir ki, bir dom qadını söhbət zamanı tanınmış sənət adamlarından biri haqqında öz incikliyini dilə gətirmişdir. Səbəb də həmin şəxsin müsahibələrinin birində qaraçıların adını ermənilərlə bərabər hallandırması, “ermənilər də qaraçı kimi bir millətdir” ifadəsini işlətməsi idi. Qarabağ döyüşlərində şəhid vermiş bir xalqın bu cür fikirləri içinə sindirə bilməməsi başa düşüləndir. Onlara bu cür münasibət bəsləmə, onları aşağılamaq bu insanları incidir, narahat edir, onları içlərinə qapanmağa, yad adamlara qarşı ehtiyatla yanaşmağa sövq edir. Unutmaq olmaz ki, Azərbaycan ədəbiyyatının, musiqisinin yayılması və təbliğində bu camaatın danılmaz xidmətləri olmuşdur. Onlar deyildiyi kimi tənbəl, faydasız deyil, zəhmətkeş bir xalqdır. Doğrudur, etnik mədəniyyətdən irəli gələn bir çox fərqliliklər onların ayağında buxov olub, cəmiyyətə adaptasiyasına mane olur. Amma dom uşaqlarında təhsilə maraq oyatmaqla, axıra qədər oxuyub savadlanmalarına yardımçı olmaqla, həm onları ayqlarını qandallayan buxovdan azad etmək, həm də cəmiyyət üçün faydalı, yararlı olmalarını təmin etmək olar.

## ƏDƏBİYYAT

1. Ozkan 1997 – Ali Rafet Özkan. Çingene hayat tarzı ve inancı // “Akademik araştırmalar” sosial bilimler dergisi, sayı 4, 1997, s. 80-86

2. Demeter 2000 – Деметер Н.Г., Бессонов Н.В., Кутенков В.К. История цыган: новый взгляд. Москва: ИПФ “Воронеж”, 2000, 334 с.

3. Papazyan 1901 – Папазьян В.М. Армянские боша (цыгане). Этнографический очерк // Этнографическое обозрение. М., 1901. Т. XLIX, № 2. с. 93-158.

4. Patkanova 1887 – Патканова К.П. Цыганы. Несколько слов о наречиях закавказских цыган: Боша и Карачи. СПб., 1887, 145 с.

## Azerbaijan doms: geography, economy and life

### Summary

"Dom"s known as with the names gipsy, "sigan", "posha", "chingene" etc. consists the eastern branch, they have settled especially in the territories of Arabic countries, Iran, Caucasus, Turkey, Syria and Israel.

Till the 50s years of the last century Azerbaijan doms lived the nomadic life as the other nations, only in 1956 they had been settled in the territory of USSR with the chairman of Supreme Soviet of USSR K.E.Voroshilov's order about the settling of gypsies living. The citizenship was given to doms after having the sedentary life and they were drawn into the military service. Though their nationality was written in the identification card the "Azerbaijanian", because of the differences in the ethnic culture there is a serious gulf between the local nation and them. The main reason of this gulf is our unknown information about them, our definite stereotypes coming from the tradition. Looking through their cultural level it is seen as if they are wild, in fact, they are very hospitable, devoted and faithful. We believe that this article will help to destroy the definite stereotypes existing in Azerbaijan society about the doms and to understand them much better.

**Key words**: dom, gypsy, foreign country, the system of "casta", sieve-making, endogamy marriages, double name, the institution of leadership, the language of dom

## Азербайджанские домы: география распространения, хозяйство и быт


### Резюме

Домы составляют восточную ветвь народа называемого цыганами, поша, джингене и др., в основном проживают на территории арабских стран, Ирана, на Кавказе, Турции, Сирии и Израиля. До конца 50-х годов прошлого века Азербайджанские домы вели кочевую жизнь, и перешли на оседлую жизнь лишь после указа об оседлости цыган, проживающих на территории СССР, изданный председателем Верховного Совета СССР К.Э.Ворошиловым от 1956 года. После перехода на оседлую жизнь домы получили гражданство и были привлечены к обязательной военной службе. Несмотря на то, что в удостоверении личности они были показаны азербайджанцы, существует глубокая пропасть между ними и местным населением, из-за разницы в этнической культуре. Но основной причиной возникновения этой пропасти является то, что мы не зная их, основываемся на некоторые традиционные стереотипы. Насколько бы они издалека не выглядели бы дикими, с низким культурным уровнем, на самом деле домы очень гостеприимны, верны в дружбе, привязаны к семье. Верим что, эта статья, посвященная домам, поможет разрушить стереотипы, существующие в Азербайджанском обществе, также поможет правильно понять и принять их.



**Ключевые слова:** домы, цыгане, чужбина, ситоводство, система каст, эндогамные браки, двоеимя, институт старейшин, язык домов.

**Ataş Əhmədli**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi,*
*atesehmedli@gmail.com*

**Cabbar Süleymanov**
*Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin*
*Şövkət Ələkbərova adına mədəniyyət evinin direktoru,*
*Cabar1957@bk.ru*

# AZƏRBAYCANLI AZSAYLILAR VƏ AZƏRBAYCAN FOLKLORU

(Şimal-şərq bölgəsi örnəkləri əsasında)

## Giriş

Qədim mədəni mərkəzlərdən olan Dərbənd, Quba, Şabran və o cümlədən, Azərbaycanın şimal-şərq hissəsində yerləşən şəhərləri istər miladdan öncə, istərsə də sonrakı tarixi dönəmlərdə vaxtaşırı baş verən hərbi-siyasi yerdəyişmələrin, böyük köç etmələrin, ticarət, səyahət və digər təyinatlı gediş-gəlişlərin kəsişdiyi məntəqələrinə çevrilmişdir ki, bu da öz növbəsində həmin orientdə sosial həyatın dirçəlməsinə və yüksəlişinə öz təsirini göstərmişdir. Özəlliklə də, orta əsrlərdə Səfəvilərin əraziyə hərbi-siyasi yürüşlərinin baş verdiyi dönəmlərdə burada iri mərkəzlər yaradılmış, tikinti və bərpa işləri daha da sürətlənmişdir. Önəmlisi odur ki, həmin tikililərin meydana gəlməsinin özü maraqlı hadisələrlə ilişkəlidir və həmin hadisələr də (mətndən öncəki təfərrüatlar) sonrakı yaradıcılıq üçün mənbə olmuş, ən əsası isə folklor qəliblərində təkmilləşərək yeni məzmun və mündəricə qazanmışdır. Bir sözlə,

regionda maddi mədəniyyət abidələrinin meydana gəlməsi burada mövcud şifahi söz sənətinin (əfsanə, rəvayət, dastan, nağıl kimi janrların) təkmilləşməsinə də stimul vermişdir.

Quba da qatılmaqla Azərbaycanın şimal ərazilərində Qafqaz-İber dillərində danışan bir sıra azsaylı xalq yaşayır. Həmin kiçik xalqlara misal olaraq Şahdağ qrupu xalqlarından buduqları, qrızları və xınalıqları qeyd etmək olar. Digər müsəlman mənsublu tat əhali isə ərazidə daha geniş miqyasda yayılmışdır. Onlar əsasən şimaldan üzü Abşeron yarımadasına uzanan Xəzərətrafı ərazilərdə məskundurlar. Dağ yəhudiləri kimi məlum xalq isə tarixən Qırmızı qəsəbədə oturaqlaşmışdır. Onların bu ərazidə mövcud olması daha əvvəlki dönəmlərlə bağlıdır və hesablamalara görə bu dönəm iki min ilə yaxın bir dövrü əhatələyir. (Alimlər dağ yəhudilərinin türk tayfası kimi bildiyimiz xəzərlərdən törəmə olduqlarını iddia edirlər). Bütün bu xalqların azərbaycanlılarla (oğuz türkləri ilə) əlaqələri tarixən təşəkkül tapmış dostluq və qohumluq münasibətlərinə əsaslanır. Əlavə edək ki, ərazidə nominal həddə ruslar da məskunlaşmışdır. Quba rusları XVIII əsrin sonunda dinə və kilsəyə qarşı çıxdıqlarına görə buraya sürgün edilmiş malakanların varisləri hesab olunur. Bundan başqa ərazidə Qafqaz dillərinə mənsub olan ləzgilər, ceklər kimi azsaylı xalqlar və digər etnik qruplar da mövcuddur.

Uzun müddətdir ki, bu xalqlar Azərbaycan türkləri ilə mədəni və qohumluq əlaqələri zəminində inteqrasiyadadır. Bu da Azərbaycanda tolerantlıq ənənəsinin hələ çox-çox əvvəllər mövcud olduğundan xəbər verir. Bu əlaqələr həmin xalqların sosial-mədəni inkişafını təmin etməsi ilə yanaşı, həm də dövlətçiliyimizin inkişafını şərtləndirməsindən dolayı əhəmiyyətli hesab olunmalıdır. Ümumi cəhətlərinə görə oxşar təzahürlənsə də maraqlıdır ki, hər bir azsaylı xalqın özünəməxsus səciy-

yəsi, adət-ənənəsi və folklor yaradıcılığı vardır. Öncə bu xalqların daha çeşidli bərqərar olduğu Quba ərazisinə diqqətimizi yönəldək.

Tarixi qaynaqlarda Quba toponiminin türk mənşəli olduğunu əsaslandıran kifayət qədər fakta rast gəlmək mümkündür. Məsələn, Qubanın qıpçak mənşəli tayfadan olduğunu, Çerik (Qırğızıstanda ərazidir) tayfası tərkibinə daxil olan nəsillərdən sayıldığını, Fərqanə vilayətindəki Quba adlı şəhərlə eyni toponimik mahiyyət daşıdığını, Qarabağın aran hissəsindəki Quba toponimi ilə bağlılığını və s-ni bu mənbələrdən bilmək olur (Böyük Qafqazın toponomiyası, 82-83).

Siyasi coğrafiyasına görə Quba və ona bitişik ərazilər bir vaxtlar dövlətçilik tariximizdə mühüm mərhələ təşkil etmiş antik dövr Qafqaz Albaniyasının tabeliyində olub. Sonralar Şirvanşahlığın nəzarəti altına keçən bu ərazilər uzun müddət Şirvan şahları tərəfindən idarə olunub. Daha sonra isə həmin ərazilər Səfəvi dövlətinin tərkibində olmuş və xanlıqlar dövrünədək bu sürə davam etmişdir. XIX əsrin əvvəllərindən etibarən isə vəziyyət kökündən dəyişdi. Belə ki, digər şimal ərazilərimiz kimi bu bölgə də Çar Rusiyası tərəfindən işğal olundu. XX əsrin əvvəllərinədək davam edən bu asılılığa Azərbaycanda çağdaş Cümhuriyyətin yaranması ilə son qoyulmuşdur. Qeyd üçün deyək ki, rusların işğalınadək bu bölgə müstəqil Quba xanlığı tərəfindən idarə olunub. A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində Qubanın adı o dövrün mərkəzi şəhərlərindən biri kimi qeyd olunur (Bakıxanov 1951, 13). Bu anlamda Quba və ətrafı artıq o dövrdə mədəni mərkəz kimi tanınırdı. İnzibati mərkəz kimi yüksəlişi təbii ki, şəhərin sosial-mədəni yüksəlişini də təmin etməli idi. Mədəniyyətin ən qədim qatları isə folklor və özəlliklə etnoqrafiyaya dair bilgilərə dayanıqlıdır.

**Tatlar** Azərbaycanda ən geniş yayılmış etnik qrupdur. Daha çox oturaq olduqları ərazilər Bakı (Abşeron yarımadası), Quba, Xızı, Şabran (Dəvəçi) və İsmayıllı rayonlarıdır (Həvilov 1991, 37). Azərbaycanlılarla (oğuz türkləri ilə) birgə yaşayışa yiyələnmələri onların mənəvi yaradıcılıq sahələrinə də təsirsiz qalmamış, vəsf etdikləri, məzmun və mahiyyət baxımından əksər hallarda eynilik təşkil etmişdir. Odur ki, ənənələrinə bağlı olmalarına baxmayaraq, söyləmək mümkündür ki, həmin xalqlar daima yerli (aborogen) xalqla sıx təmasda olmuş və bir çox yaradıcılıq aktlarında onlarla ortaq iştirak etmişlər. Xüsusən də tat qadınları məişət işləri görən zaman türk xalqlarına məxsus bayatı, nəğmə düzüb-qoşar və səsləndirərdilər. Məsələn:

Nehrəm gəl, nehrəm,
Evimə qonaq gəlibdi.
Aşım yavan qalıbdı,
Nehrəm gəl, nehrəm.

## Qodu-qodu mərasimi

**Tat** – əkinçiliklə məşğul olan əhali el arasında belə adlanarmış. Belə əhali üçün havanın necə olacağı başlıca şərt idi. Ritualın icrası bundan ibarət idi ki, ağac götürülərdi və qadın formasında bəzədilərdi. Əgər yağışa ehtiyac var idisə onu yaşıl rəngdə bəzəyər və qapı-qapı gəzdirərdilər. Sonra da cavan qızlar aşağıdakı misraları deyərdilər:

Qudu-qudu xoş gəldi,
Ardınca yağış gəldi.

Cavanlar çaylara gedərdilər, oradan çay daşı götürüb gələrdilər. Sonra da həmin daşla bulağın ağzını örtərək aşağıdakı misraları deyərdilər:

Çay daşı, çaxmaq daşı,
Xuda versin yağışı.

Elə olur ki, yağış çox yağır, hər tərəfi su basır. Belə halda onlar qodunu qırmızı rəngli parça ilə bəzəyərdilər. Bu isə artıq yağışın kəsilməsinə istəyi ifadə edirdi. Əski təsəvvürdə qırmızı rəng günəşin rəmzi idi. Ritual bayatı söylənilməklə müşaiyət olunardı. Üzlərini səmaya tutub həmin bayatıları avazla oxuyardılar:

Qodu qodunu gördünmü?
Qoduya salam verdinmi?
Ay dolanıb, batmağa,
Yaxın gəlib, yatmağa,
Yağış yağıb, islanıb
Gün gərək qurutmağa.

**Toy adətləri**: Mağar quran zaman şax gətirilər, həmin şaxdan kəsib mağarı qurardılar. Ağacın qol-budağı ilə isə mağarı bəzəyərdilər. Qızlar bir yerə yığışar, ayinlər keçirərdilər. Oğlan evindən qız evinə xına gətirilərdi. Gəlin xınalanardı, sonra da yerdə qalan qızlar xınadan əllərinə yaxardılar. Elçilik, qızgördü, xınayaxdı eynilə azəri turklərində olduğu kimidir.

Tatların dini bayramları da aborigen xalqdakından heç nəyi ilə fərqlənmir. Qurban və Ramazan bayramlarını bu mənada qeyd etmək olar. Novruz bayramı da elə bir fərqli səciyyədə keçirilmir. Səməni yetişdirilir, şirniyyatlar bişirilir, süfrəyə çərəz qoyulur və s. Çərşənbədə su üstünə gedərlər, çaydan bir dolab su gətirib, ev-eşiyi yuyar, yığışdırarlar. Bayram günü kim yatardısa onun paltarını döşəyinə tikərdilər. Qızlar bəxtlərinin açılması anlamında rituallar keçirərdilər.

Ərazi üzrə tatlar Qubada daha çox yayğındır və yerli əhali ilə sıx assimilyasiya olunublar. Sosial və mədəni həyatın bütün sferalarında bunun əlamətləri hiss olunmaqdadır. Toy,

yas demək olar ki, eyni ilə keçirilir. Folklorları isə ümumtürk folklorunun tərkib hissəsidir desək, yanılmarıq. Nağıl, bayatı və atalar sözü kimi janrlarda bu mahiyyət aydın təsbit olunmuşdur. Qeyd üçün deyək ki, mərasimləri sərgilədən elementlər bu folklorda daha üstün mövqedədir.

Xatırladaq ki, Quba çoxmillətli ərazidir. Bu xüsusiyyət Qubada yaranan folklorda da təzahürlənməkdədir. Özəlliklə lətifələrdə bu hal daha qabarıq büruzə verilir. Bəzi hallarda lətifə qəhrəmanları tat, digər halda kumuk, ya da buduk və s. azsaylılardan olur. Əslində bu yaradıcılıq prosesi həmin qrupların mental xüsusiyyətlərinə əsaslanır ki, digər məziyyətlər öz yerində, bu cəhət baş (etnik) qəhrəmanına ("etnik oppozisiya"lılığa) görə mövzunu səciyyələndirməyə imkan yaradır. Qəhrəmanı tat olan bir lətifəyə diqqət çəkək: "Bir tat qonşu kəndə kisə ilə qənd almağa gedir. Yolu cəspərdən – sıldırımlı qayalıqdan keçir. Kisəni eşşəyinə yükləyib geri qayıdan tat həmin sıldırımı keçəndə bərk tufan başlayır. Külək eşşəyi qayadan atır, qənd dərəyə düşüb islanır. Özü isə imkan tapıb qayaların arasında gizlənir. Bu vaxt ildırım çaxır. Tat baxır ki, eşşək qayadan yıxılıb ölüb, qənd də ki ələ gələsi deyil.  Üzün göyə tutub deyir: "Külək əsdirdin, eşşək qayadan düşüb öldü, yağış yağdırdın, qənd islanıb heç oldu, indi də əlində çıraq axtarırsan ki, məni tapıb öldürəsən?!" ("Azərbaycanlı tatlar" , sənədli film)

**Aşıq yaradıcılığı:** Tatlar üçün aşıq yaradıcılığı o qədər də səciyyəvi deyil. Ancaq istisna hallarda onların arasında bu sahəyə də meyl göstərənlərin olduğunu araşdırma zamanı müəyyənləşdirə bildik. Bu anlamda Qubanın Xaltanlı kəndindən olan Tağı bu sahədə özünü sınamış, aşıq ruhunda şeirlər yazmış, bədahətən sözlər qoşmuşdur. Doğulduğu obasının adını özünə təxəllüs götürmüş aşığı el arasında Xaltanlı Tağı deyə çağırarlarmış. Bölgədə aşıq haqqında bir çox məzəli əhvalatlar

dolaşmaqdadır və onlardan birini burada qeyd etməyi lazım bildik. Deyilənə görə, Tağı çox kasıb olduğu üçün vaxtikən ailə qura bilməmişdir. Bunların da kəndində Xəlil adlı varlı bir bəy yaşayırmış. Tağı gedib Xəlil bəyə müraciət edir ki, ondan borc pul alsın və özünə toy etsin. Şair təbli olduğu üçün Tağı sözünə şeirlə başlayır:

Xəlil ağa səni deyib gəlmişəm,
Eşitmişəm aşığa şərafətin var.
Kasıbı dikəldən, acı doyduran,
Kəbeyi-Beytullahdan ziyarətin var.

Xəlil ağa aşığı dinləyir, amma əvvəlcə bir şey başa düşmür. Tağıya deyir ki, mətləbini aydın açıqlasın. Tağı sözünə şeirlə davam edir:

Başda ipək çarşab, dərayi-bafta
Arif olan geyməz, qoymaz zər-bafta
Nadan deyər, hər şeyin ucuzu gərək.

Xəlil bəy başa düşür ki, bunun sonrası ona baha başa gələcək. Odur ki, bəri başdan əlin atır cibinə və beş qramlıq bir qızıl çıxardıb verir Tağıya. Kasıb olsa da Tağı çox ürəyi geniş adam olub. Bura gələndə el-oba adəti üzrə Xəlil bəyə bir arı şanı sovqat da gətiribmiş. Tağı anlayır ki, bu beş qramlıq qızıl gətirdiyi şanını ödəməyəcək, nəinki artıq ola. Odur ki, pulu götürmür, şanıya da məhəl qoymayıb, sonda aşağıdakı misraları söyləyərək Xəlil bəylə vidalaşıb oradan çıxır:

Qarğadan qaz olmaz, quzğundan ördək.
Ətdən quyruq olmaz, dalaqdan böyrək.
Köhlən at tövləsində bəslənsə eşşək
Tükü təmiz olar, özü at omaz.

(“Azərbaycanlı tatlar”, sənədli film).

Azərbaycanda məskunlaşmış **yəhudilərin** böyük bir qismi əsasən Qubada (Qırmızı qəsəbədə) oturaqlaşmışdır. Yəhudi

qövmünün də özünəməxsus folkloru və etnoqrafiyası vardır. Özəlliklə dini bayramları müsəlman qövmündən olanların bayramlarından seçilməkdədir. Bu mənada onların özünəməxsus "qurban kəsmə" mərasimləri vardır. "Yum Küpür" adlanan bu mərasim əsasən günahların bağışlanması günü kimi onların arasında qeyd olunur. Belə bir inam mövcuddur ki, (indiki, olsun ki, keçmişdə yaşanmış və gələcəkdə baş verə biləcək) günahlardan hifz olunması üçün insan mütləq qurban kəsməlidir. Bu məqsədlə oğlan uşaqları üçün xoruz, qız uşaqları üçün isə toyuq kəsilir. "Yum Küpür" bu qövmün arasında "Roşa Şana" (Yeni il) kimi qeyd olunan bayramdan təxminən on gün sonra keçirilir. Əsasən sentyabr-oktyabr aylarında keçirilən "Roşa Şana" gəzən bayramlara aiddir. Yetişəcək növbəti ildə əvvəlki illə müqayisədə bayramın keçirilməsi dövrü fərqli ola bilir. Bu fərq təxminən 18 gün civarında olur. Ümumiyyətlə, yəhudi bayramlarının böyük əksəriyyəti gəzən təqvimlə ilişkəlidir. "Yum Küpür"də bir gün oruc da tutulur. Qeyd üçün deyək ki, yəhudi xalqı bir il ərzində cəmi altı gün oruc tutur. Bunun da birincisi yeni ilin – "Roşa Şana"nın başlanğıcına təsadüf edir.

**Dəfn adətləri** bir, yeddi, otuz gün mərasimi ilə müşaiyət olunur. Adət üzrə mərhumun ili on bir ayda da keçirilə bilir. Ancaq bu o halda mümkün hesab olunur ki, hüzür yiyəsi ölən adam üçün hər il ehsan vermək istəyində olsun. Digər illərdə ehsan nəzərdə tutulmursa, o zaman mərhumun ili on iki ayın tamamında keçirilir.

**Pesax** əsasən aprel ayında keçirilən müqəddəs dini bayramdır. Bayram adətən səkkiz gün çəkir. Tipologiyasına görə xristianların "Pasxa", müsəlmanların "Novruz"u ilə müqayisə oluna bilər. Bayramda hər şey təzələnər. Hətta bayrama qədər istifadə olunmamış ərzaqlar belə bir qayda olaraq evdən yığışdırılır. Paylanılası paylanır, evdə qalanı isə Pesax qurta-

ranadək üzə çıxarılmır. Yəhudilərin pritçalarında (rəvayətlərində) bayramları haqqında ətraflı məlumat verilmişdır.

**Şabran** rayonu Böyük qafqazın şimal-şərqində yerləşir. Rayonun təxminən beşdə bir hissəyədək ərazisi şərqdən Xəzər dənizi ilə əhatə olunmuşdur. Bu cəhət ərazinin yerləşdiyi mövqeyi daha da əlverişli etmişdir. Mərkəzi şəhər də daxil olmaqla, rayon əvəllər Dəvəçi (Dəvəçibazar) adlanmışdır. Bizim eranin ikinci əsrində Ptolomeyə aid mənbədə şəhərin adı Şapothrenae kimi qeyd olunur. Digər mənbələrə görə Şabran şəhəri erkən orta əsrlərdə Şərvan vilayətinin mərkəzi və Massaget Arşakilərinin siyasi mərkəzi olmuşdur. Son illər ərzində ciddi arxeoloji işlər aparılmış ərazidə bir çox əhəmiyyətli tarixi qatlar üzə çıxarılmışdır. Tarixdən vilayət kimi bildiyimiz və eynilə şəhər tipli mövcud olmuş Şəraban (Şəbran) ərazisindən kifayət qədər maddi sübutlar aşkarlanmışdır ki, bu da ərazinin əhəmiyyətli inkişaf dövrü keçirdiyini bir növ əsaslandırır. Bəzi mənbələrdə Şabranın Sasani hökmdarı I Xosrov Ənuşirəvanın dövründə (531-579) salındığı bildirilir.

Bundan başqa hazırda ərazidə bir çox maddi sübutlar mövcuddur ki, bunlar da ərazinin mühüm tarixi və mədəni inkişaf mərhələlərindən keçdiyini vurğuladır. Bu tarixi-mədəni abidələrdən Çıraqqala özəlliklə qeyd olunmalıdır. Memarlıq üslubu qalanın müdafiə məqsədi üçün tikildiyini bəlli edir. Qalanın baş bürcünün üzərində tonqal yandırılarmış ki, bu da düşmənin yaxınlıqda olduğunu xəbər vermək üçün edilərdi. Rəvayətə görə Çıraqqala sözü də buradan yaranmışdır.

Ərazinin belə əhəmiyyətli tarixə malik olması şübhəsiz ki, onun zəngin qeyri-maddi irsə də məxsus olduğuna dəlalət edır.Şabranın musiqi ilə müşaiyət olunun kaloritli folkloru vardır. Əsasən bu musiqi "Çıraqqala" zurnaçılar xalq kollektivinin ifasında təqdim olunur. Kollektiv sırf multikultural

zəmində təşkil olunmuş, burada aparıcı xalqdan başqa tat, ləzgi və digər azlıqların da nümayəndələri yer almışdır. “Şabran yallısı”, “Cəngi” kimi musiqi və rəqs ifaları onların repertuarında daha üstün mövqedədir. Fikrimizcə, həmin musiqinin azərbaycançılığa təməl olması bunu şərtləndirmişdir. Qeyd üçün deyək ki, “Çıraqqala” zözü ərazidə çox yayğındır və məğrurluq rəmzi daşıdığına görə bu ifadə  müxtəlif sahələrə sirayət etmiş, geniş işləklik qazanmışdır.

Rayonda həmçinin “Xınayaxdı” adı ilə tanınan xaql kollektivi də fəaliyyət göstərir. Dağbilici kənd mədəniyyət evinin nəzdində yaradılan və etnik azlıqların da təmsil olunduğu bu kollektivin özünəməxsus repertuarı vardır. Əsasən folklor tərtibatlı mahnı və rəqs ifaları kollektivin repertuarında üstün mövqedədir. Toy mərasimlərimizin əsas tərkib hissələrindən olan “elçilik”, “nişan”, “xınayaxdı” ritualları, o cümlədən əkinçilik həyatı ilə bağlı kompleks mərasimlər kollektivin repertuarında daha geniş təbliğ olunmaqdadır.

Şabran ərazi baxımından Quba-Siyəzən orientinə düşdüyündən bu orienti əhatələyən tematika da  ərazinin folklor düzənində üstünlük qazanmışdır.

Qeyd üçün deyək ki, Azərbaycanda bir çox müqəddəs yerlər və ziyarətgahlar vardır ki, həmin yerləri qeyri millətlərdən və dinlərdən olan insanlar da ziyarət edirlər. Bu səciyyəli yerlərdən biri də “Beş barmaq”dağında yerləşmiş və “Xıdır Zində” kimi bizə tanıdılmış ziyarətgahdır. Tarix və Zaman diktə edir ki, bu səciyyəli yerlər təkcə ziyarətgah funksiyası daşımamış, həm də bəşəri mahiyyət kəsb etməsilə insanlığı cəzb etmişdir.

Özəlliklə də Xızır peyğəmbərlə əlaqələndirildiyindən bu yer insanlığa daha maraqlı və cazibədar görünür. Bu haqda ərazidə çoxlu əfsanə və rəvayətlər də dolaşmaqdadır. Önəmlisi

odur ki, istər aparıcı etnos olsun, istərsə də yerli azlıqlar, ərazinin bütün sakinləri bu səpkili örnəkləri əcdadlarının "mənəvi mirası" hesab edir, onlara "sakral dəyər" kimi yanaşırlar. Belə örnəklərdən birinin qısa süjeti ilə tanış olaq: "El yaddaşında belə söz-söhbət gəzir ki, Beşbarmaq dağı bir vaxtlar üç qardaşın məskəni, yurd-yuvası imiş. Qardaşlar bir-birinə can deyib, can eşidərlərmiş. Böyük qardaş – Xıdır Zindənin sözü ortancıl qardaş Xıdır İlyas və kiçik qardaş Xıdır Nəbi üçün qanun imiş. Günnərin bir günü Xıdır Zində Xıdır Nəbiyə tapşırır ki, bəs susuzluqdan ciyərim yanır, al bu xəlbiri, get mənə su gətir. Xıdır Nəbi xəlbir əlində su gətirmək üçün Xəzərə tərəf cumur. Xəlbiri suya salır, nə qədər əlləşirsə su götürə bilmir. Böyük qardaş da gözləyə-gözləyə qalır. Bu dəfə ortancıl qardaşını (Xıdır İlyası) su dalınca göndərir. Eynilə ortancıl qardaş da gəlib çıxmır. Böyük qardaşlarının tapşırığını yerinə yetirə bilməyən qardaşlar xəcalətli olduqları üçün Allaha yalvarıb-yaxarırlar ki, onları daşa döndərsin. Xıdır Zində dağı ilə Xəzərdə üzbəüz dayanmış sal qayalar əfsanəyə görə daşa dönmüş qardaşlardır" (QŞFÖ, 2013, 66-67).

## Nəticə

Beləliklə, Azərbaycanın Şimal-Şərq hissəsindəki mövcud təbii-sosial və mədəni şəraiti ötəri də olsa gözdən keçirtdik. Araşdırmamızdan məlum oldu ki, müxtəlif xalqların ortaq yaşadığı bu sosial-kulturoloji sfera ənənəsinə dayanaqlı olduğu üçün bu günkü səviyyəyə yüksəlmişdir. Araşdırma onu da əsaslandırdı ki, nə qədər inteqrasiya olunsalar da, kiçikliyindən asılı olmayaraq, bölgədə məskunlaşmış hər bir xalqın özünəməxsus yaradıcılıq sahələri də vardır. Önəmlisi odur ki, tolerantlıq hissinin bölgədə güclü olması burada məskunlaşmış

qeyri-islami dinə mənsub olanların da (məs. yəhudi, rus və qeyrilərinin) müsəlmanlarla əmin-amanlıq şəraitində yaşamasını təmin etmişdir. Bu həm aparıcı etnosun onlara münasibətini bariz şəkildə ortaya çıxarır, həm də azərbaycançılıq ruhunun bölgədə bərqərar olmasına, bu ideyanın həmin xalqlara təbliğ və təlqininə geniş imkanlar açır. Düşünürük ki, bölgədə yaşayan xalqlar məhz bu xəttə dayanaqlanmaqla sosial-mədəni və digər münasibətlər zəminində bir-biri ilə daha sıx inteqrasiya oluna bilər. Qeyd üçün deyək ki, qazanılmış ortaq dəyərlərin saxlanılması və gələcəyə daşınmasını sığortalamasından dolayı həm də bu xətt olduqca əhəmiyyət kəsb edir.

Bölgənin folklor düzəni olduqca zəngin və rəngarəngdir. Ümumən götürdükdə epik yaradıcılığa aid nümunələr bölgədə daha yayğındır. Lirik səpkili örnəklər əsasən mərasimlərlə ilişkəli təşəkkül tapmış və sonra da genişlənmişdir. Tək-tək aşıq mövzularına rast gəlinsə də, ümumiyyətlə aşıq sənəti bölğə üçün səciyyəvi deyil. Dağ yəhudiləri və xristianlar istisna olunmaqla yerdə qalan müsəlman qövmündən olan xalqların dini mahiyyət daşıyan ənənəvi mədəniyyəti, inancları, ritual və mərasimləri bir-birinə olduqca yaxındır. Bu da onlara bütöv bir mədəni sistemin oxşar komponentləri kimi yanaşmamıza imkan yaradır.

Beləliklə, araşdırmamızdan bəlli oldu ki, tarixən bölgədə təşəkkül tapmış ortaq ənənəvi yaradıcılıq sahələri hazırda funksionallığını saxlamaqdadır. Digər halda əmin olduq ki, beynəlmiləlçilik, tolerantlıq, əmin-amanlıq və bu kimi bəşəri təmayüllərin bölgədə daha erkən bərqərar olması həmin yaradıcılıq ilişkələrinin buradakı təşəkkülünü şərtləndirmişdir. Araşdırma bizə belə bir qənaəti də təlqin etdi ki, ortaq mədəni sistemin daşıyıcısı olmalarından dolayı, həm də bu xalqlar sosial həyat, məişət tərzinə, bir çox davranış stereotiplərinə və ümumi düş-

mənə qarşı mübarizə əzmlərinə görə də ortaq mövqeyə yiyələnə bilmişlər. Bütün bunlarsa onu vurğuladır ki, bu inteqrasiya davam etdikcə bölgədə ortaq yaradıcılığa meyl də səngiməyəcək, qazanılan dəyərləri qoruma və gələcəyə daşıma instinkti onlarda daha da güclənəcək.

## ƏDƏBİYYAT


1. Həvilov 1991 – Həvilov H. Azərbaycan etnoqrafiyası, Bakı, Elm, 1991
2. Bakıxanov 1951 – Bakıxanov A. Gülüstani-İrəm, EA nəşr., Bakı, 1951
3. QŞFÖ 2013 – Quba-Şabran folklor örnəkləri, 1-ci kitab, Bakı, 2013
4. Böyük Qafqazın toponimiyası 1993 – Böyük Qafqazın Cənub-Şərq hissəsinin toponimiyası, Bakı, Elm, 1993
5. "Azərbaycanlı tatlar", sənədli film, İctimai TV, 2008.


## Azerbaijanian limited nations and azerbaijan folklore

(On the base of the examples from the North-East region)

### Summary


From the investigation it is known that as this social-culturological sphere common living of the different nations connected to the traditional values it has risen to today's level.

In the investigation it is also based on that the more it is integrated with the aborigine nation not depending on their smallness, the more each nation living in the region has own activity fields.

The main thing is that having the feeling of tolerance in the region has secured living in peace and employment with the

Muslims and the nations (for example, Jew, Russian and others) belonging to the different religions. It gives great opportunity to establish the Azerbaijanism spirit in the region, the propaganda and suggestion of this idea to those nations. We think that the nations living in the region can integrate more closely with one another in any relations with just this point.

## Малочисленные азербайджанцы и Азербайджанский фольклор

(На основе образцов северо-западного региона)


**Резьюме**

Из нашего исследования стало известно, что эта социально-культурологическая сфера, в которой совместно проживают разные национальности, достигла текущего уровня опираясь на традиционные ценности.

Исследование также пояснило, что каждая национальность проживающая в регионе, как бы не интегрировались с аборигенной национальностью, независимо от своей малочисленности, имеет своеобразную творческую деятельность.

Важно то, что значительность чувства толерантности в регионе, обеспечило проживание принадлежащих к неисламской религии (например, евреев, русских и прочих) в условиях мира с мусульманами и их занятости. Это открывает широкие возможности на установление духа азербайджанства в регионе, а также на пропаганду и внушение этой идеи тем же национальностям. Мы считаем, что опираясь именно на эту линию, национальности проживающие в регионе могут наиболее тесно интегрироваться друг с другом на почве любых отношений.

**Dadaş Əliyev**
*AMEA Folklor İnstitutunun doktorantı*

# HAPITLAR VƏ ONLARIN FOLKLOR ƏNƏNƏLƏRİ

Hapıtlar Qafqaz xalqlarının Nax-Dağıstan qrupunun Şahdağ yarımqrupuna daxil olub, Azərbaycan Respublikasının avtoxton əhalisi sayılırlar. Dini inanclarına görə müsəlman olan hapıtlar əsasən Qubanın Haput və İbrahimhapıt, Xaçmazın Şıxhaput, Qəbələnin Məlikli və Sileyli, İsmayıllının Hacihətəmli və Mollaisaqlı, Ağdaşın Hapıtlı və Ovculu kəndlərində, həmçinin Bakı və Sumqayıt şəhərlərində yaşayırlar. Kompakt halda isə bu azsaylı xalq yalnız Quba rayonunun Haput, Ibrahimhapıt, İsmayıllı rayonunun Hacıhətəmli və Mollaisaqlı, qismən də Gideyli kəndlərində yaşamaqdadırlar. İsmayıllıda Hapıt adında kənd olsa da, maraqlıdır ki, orada hapıtlar yaşamır. İmişli rayonunda günümüzədək Haput qəbiristanlığı qalmaqdadır.

İsmayıllıda hapıtlar yaşadıqları Hacıhətəmli və Mollaisaqlı kəndlərinin əhalisinin əksəriyyətini təşkil edir. Hapıtlar vaxtilə Mollaisaqlıya yaxın olan İmamlı kəndində yaşasalar da, hazırda bu kəndlərdə hapıt yoxdur. XX əsrin ortalarında Azərbaycanın Ağdaş, Qəbələ, Şəki, Ucar, Zərdab, Tovuz, Qazax, Ağstafa və Oğuz rayonlarının müəyyən kəndlərində az sayda da olsa hapıtlar yaşayıb. Azərbaycanin digər bölgələrində azsaylı xalq kimi yaşayan hapıtların çoxu doğma ana dilləri olan hapıt dilini unutmuş və hazırda Azərbaycan dilində danışırlar. Bəzi mənbələrə görə, “XIX əsrin ortalarında Göycay qəzasında 736 nəfər hapıt ailəsinin məskunlaşdığı Haputlu Məlikli, Haputlu Mollaqasımlı, Haputlu Gidəyli, Haputlu Kürd, Haputlu İmamlı, Haputlu Hacı Qətəsi, Haputlu

Nətəs Qacar, Haputlu Hacatamlı kəndləri var idi” (https://www.facebook.com/252222131568170/).

1980-ci illərdə İsmayıllı rayonu ərazisindəki epiqrafik abidələr öyrənilərkən məlum oldu ki, hapıtlar XVI-XVII əsrlərdə rayonun indiki Qalacıq kəndi ərazisində də yaşayıblar. Tədqiqatçı Ağaqasım Qasımov tərəfindən Qalacıq kəndi ərazisindəki Pirdavud qəbiristanlığında oxunmuş 14 kitabənin hamısında “hapıt” sözünə rast gəlinməsi bunu təsdiq edir. Həmin qəbirlərin baş daşlarına həkk olunmuş kitabələrdən belə məlum olur ki, orada dəfn olunanların hamısı hapıt etnosuna mənsub insanlardır (https://www. facebook.com / 2522221315 68170/).

Hapıtlar Azərbaycanın Qafqaz dil ailəsinə mənsub hapıt dilində danışırlar. Buranın sakinlərinin əsli Qubanın Hapıt kəndindəndir. Belə rəvayət edirlər ki, Qubanın Hapıt kəndində yaşamış Hacı Hətəm və Molla İsaq adlı şəxslər İsmayıllıya qışlaq məqsədilə köçüb gəlmiş, burada daimi məskən salmış və əsasən də heyvandarlıqla məşğul olmuşlar. Burada yaşayan hapıtlar öz tarixi vətənləri ilə əlaqələrini çoxdan itirsələr də, dil, adət-ənənə və mədəni özəlliklərini qoruya bilmişlər. Mollaisaqlı kəndində 1000, Hacıhətəmli kəndində isə 3400 nəfərə yaxın hapıt yaşayır. Kənd ailələrində danışılan əsas dil hapıt dili olsa da, məktəb, idarə və təşkilatlarda aparıcı dil Azərbaycan dilidir. Mollaisaqlı nisbətən çökəkdə, Hacıhətəmli təpəlikdə yerləşir. Hər iki kəndin iqlimi bir-birinə yaxındır: yayı isti, qışı mülayim keçir. Əhali XVIII əsrin sonu və XIX əsrin əvvəllərində bura qışlaq məqsədilə gəlib məskunlaşsa da, artıq indi köçəri həyat tərzi keçirmir. Hapıtlar çox zəhmətsevər insanlardır, əsas məşğuliyyətləri kənd təsərrüfatıdır. Əkinçilikdə taxılçılıq, bostan bitkiçiliyi və meyvəçilik (nar, üzüm, əncir), heyvandarlıqda əsasən maldarlıq və qismən qoyunçuluq üstünlük təşkil edir. Qadınlar arasında corabçılıq və xalçaçılıq geniş yayılıb.

Əslən Hacıhətəmlidən olan milliyyətcə hapıt ziyalı Xeyrulla Ağayev də özünün qeyd etdiyi kimi mənsub olduğu xalqın və doğulub boya-başa çatdığı Hacıhətəmli kəndin tarixi ilə bağlı bir sıra mülahizələrini şifahi şəkildə belə bölüşür: "Rusiya arxivlərindəki materiallardan məlum olur ki, Hacıhətəmli kəndi 1760-cı ildə salınıb, 1821-ci ildən Hacıhaputlu adlanan kənd həm də 1893 və 1903-cü illərin rus hərbi xəritələrində eynən belə göstərilib. 1918-ci ildən Göyçay qəzasına daxili olan Hacıhaputlu kəndi Hacatamlı adlanmağa başlayıb və 1980-ci ildən də bu ad yenidən dəyişərək Hacıhətəmliyə çevrilmişdir. Burada yaşayan Qafqazın qədim xalqlarından biri kimi hapıtların 3 min ilə yaxın tarixləri vardır" (İnformator - 2). Bu dili araşdıran yerli və xarci tədqiqatçıların bir qismi onu sadəcə qrız dilinin bir ləhcəsi, digərləri isə ləzgi və qrız dili ilə qohumluğu olan müstəqil bir dil hesab edir. Səfəvilər dövləti zamanında müasir Türkiyənin şərqində Haputlu bəylərbəyliyinin olması hapıt etnosunun türklərlə qohumluğunu söyləməyə əsas verir (Qeybullayev 1994, 10). Hər iki kəndin məhz XVIII əsrin sonu XIX əsrin birinci yarısında meydana gəlməsi mübahisə doğurmasa da, Mollaisaqlı kəndində aparılmış arxeoloji qazıntılar zamanı burada – İrəmə adlanan yerdə hapıtların, yaxud hapıtlardan çox əvvəl yaşayış məskəninin olduğunu sübut edən maddi mədəniyyət abidəsi aşkarlanıb. "Şıxdərə tədqiqat kompleksi" adlandırılmış bu abidə haqqında məlumatlar əslən İsmayıllı rayonundan olan arxeoloq Fazil Osmanov tərəfindən 1963 və 1974-cü illərdə aparılmış arxeoloji araşdırmalar nəticəsində əldə edilmişdir. Hapıtların bir xalq kimi məskunlaşdığı məkanların tarixini araşdırmış tarixçi alim prof. Qafar Cəbiyev də "Girdiman tarixi" monoqrafiyasında albanlarla yanaşı, udinləri və hapıtları da bu ərazinin (*burada İsmayıllı rayonun da daxil olduğu*

*Girdiman knyazlığı* – kursiv bizimdir) avtoxton sakinləri kimi təqdim etmişdir (Cəbiyev 2010, 287).

Tarixçi alim Q.Qeybullayev qeyd edir ki, Azərbaycanın şimal-qərbində olan qədim Hereti dövlətinin herlər adlanan sakinləri hapıtların ulu əcdadıdır. VII əsrə kimi özlərini “her ”adlandıran bu xalqın Gürcüstan və Azərbaycan sərhədində Hereti dövlətinin mövcudluğunu təsdiq edən prof. Q.Qeybullayev “Azərbaycan xalqının milli təşəkkül tarixi” kitabında müasir qrız və hapıtların əcdadlarının həmin dövlətdə yaşamış herlər olduğu fərziyyəsini irəli sürüb: ”Qonşu qafqazdilli etnik qrup – buduq və qrızları qered, hapıtları isə hered adlandırırlar” Daha sonra alim fikrini belə davam etdirir: ”Herlərin müəyyən hissəsi (mümkündür ki, xınalıqlıların və buduqluların əcdadları ilə birgə) məlum olmayan səbəblərə görə Alazan və İori çaylarının vadilərindəki əsas məskənlərini tərk etmiş və dağ aşırımlarını keçərək hazırkı yaşadıqları yerdə - Azərbaycanın şimal-şərq hissəsində məskunlaşmışlar... (Qeybullayev 1994, 94) Buna sübut olarq İ.Məsimov yazır: “...hapıtların arasında belə bir rəvayət dolaşır ki, onların əcdadları bügünkü məkanlarına şimal-qərbi Azərbaycandan – Herna şəhərindən ərəblərin Azərbaycana hücumu zamanı gəlmişlər” (Məsimoğlu 2010, 7). Bununla bağlı prof. M.Paşayeva yazır: “Bu, hapıt rəvayətlərində adı çəkilən Hərna şəhərini Qafqaz Albaniyasında yaşayan hərlərin yaşadığı Hərənta və Hornabuc şəhərləri ilə əlaqələndirməyə əsas verir. Görünür, ərəblərin hücumlarından qorunmaq üçün hər tayfalarının bir qismi dağlara çəkilərək indiki Qrız, Hapıt, Ərgüc kəndlərini salmışlar. Deməli, aparılan tədqiqatlar sübut edir ki, hapıt və qrız adları onların vaxtilə yaşadıqları alban bölgələrinin adlarını yaşadırlar, bu bir daha onların kökünün hərlərdən olduğunu

və hazırda yaşadıqları kəndlərə Heretidən gəldiklərini bir daha təsdiqləyir" (Paşayeva 2016, 200).

Bizim araşdırmalarımızdakı bu fikirlər bəzi gürcü alimlərinin fikirləri ilə uyğun gəlməsə də, aşağıdakıları qeyd etmək lazımdır: "er" etnonimi qədim zamanlarda bir çox tayfalara, o cümlədən iberlərə aid olub. "Şübhəsizdir ki, er etnoniminin daşıyıcıları alban qəbilələrindən biri olub və elə buna görə də gürcü mənbələrində Eri gürcü qəbiləsi hesab olunmur" (Qeybullayev 1994, 95). Hapıtların əcdadlarının məhz er yaxud her olduqlarını və onların tarixi vətənlərinin Gürcüstan və Azərbaycan sərhədində mövcud Ereti (Hereti) olduğunu maddi sübutlarla dəqiqləşdirmək məsələsi fikrimizcə, gələcək tarixi araşdırmaların obyekti olacaqdır. Quba rayonunda yaşayan qrızllıları hapıtlarla eyni etnos hesab edən alimlər də az deyil. Tarix ü.e.d. prof. Məhəbbət Paşayeva "Şahdağ xalqlarının foklor ənənələrində alban izləri" məqaləsində yazır: "Şahdağ xalqları Azərbaycanın qədim dövləti olan Qafqaz Albaniyasında Alban tayfa ittifaqına daxil olan hər və qat kimi alban tayfalarının birbaşa varislərindəndir. Xınalıqlılar qat tayfalarından, qrızlar və hapıtlar isə hər tayfalarındandır. Hapıt və qrızları eyniləşdirənlər belə bir faktla razılaşmalıdırlar ki, hapıtlular (hapıtlar) özlərini hər, qrızlılar isə hered adlandırırlar" (Paşayeva 2016, 199).

Həm qrızların, həm də hapıtların eyni dil qrupuna daxil olmalarına baxmayaraq onları fərqli etnoslar kimi səciyyələndirmək lazımdır:

– birincisi, hapıtlar sayca qrızlılardan çoxdurlar;

– ikincisi, dillərinin lüğət tərkibi və qrammatik quruluşu fərqli olması ilə seçilir;

– üçüncüsü, onların yayılma və məskunlaşma arealı müxtəlifdir.

Dillərin əmələ gəlməsi haqqında dünya dilçilik elmində çoxlu sayda fərziyyə mövcud olsa da, əksər dilçilərin ümumi fikrinə görə, əvvəlcə “ulu dil” (Abdullayev 2010, l46) olmuş, ondan dialektlər əmələ gəlmiş və daha sonra həmin dialektlər müstəqil dillərə çevrilmişdir. Mümkündür ki, əvvəlcə nisbətən daha çox yayılmış ləzgi dili olmuş, digər Qafqaz dilləri olan avar, buduq, xınalıq, qrız, saxur, rutul, habelə hapıt dili də bu yolla yaranmışdır. Bu halı digər dil ailələri haqqında, o cümlədən türk dilləri ailəsi haqqında da söyləmək olar. Bu fikrə şərik çıxan dilçi alim A.Axundov belə yazır: “Tarixən müəyyən ictimai, iqtisadi səbəblər nəticəsində bir kökdən ayrılmış qohum dialektlər yavaş-yavaş inkişaf edərək, bir-birinə qohum olan müstəqil dillərin əmələ gəlməsinə səbəb olmuşdur” (Məmmədov1980, 274).

Uşaqlığı Dağıstanda keçmiş və bir sıra Qafqaz xalqlarının dilinə bələd olan klassik Azərbaycan şairi Seyid Əzim Şirvani şeirlərinin birində Hapıtların varlığı haqqında belə bəhs etmişdir:

Mülki-Şirvanda bir haputlu nam,
Vardı bir qəryə, xəlqi xeyli əvam.
Molla Kazım adında bir şair –
Ki, haman qəryədən olub zahir,
Bu hadisə olubdur ol havi,
Dedi: “Əl-öhdətü ələr-ravi”
Xilqəti-aləm oldu çünki tamam,
Hər güruh etdi bir dilə iqdam.
Qaldı yerdə haputlu sərgərdan.
Etdilər ərz, key xudayi-cahan,
Xah rumivü, xah rusivü zəng,
Xah tatarü türkü hindü firəng,
Bir zəban hər güruhə etdin əta,

Bizə də bir zəban ver, ey mövla!
Bu xitab oldu rəbbi-izzətdən-
Ki, düşün siz bu günə niyyətdən.
İzzətim həqqi qalmayıb bir dil
Ki, onunla sizi edim xoşdil.
Hər nə gəlsə, gedin dəhanüvüzə
Onu cari edin zəbanüvüzə (Şirvani 2005, 21).

Hapıtlar elmi ədəbiyyatlarda haputlular, haputlar və hapıtlar şəklində təqdim olunur. Lakin biz bu qarığıqlığı aradan qaldırmaq məqsədilə kimin bu dili necə adlandırmasından asılı olmayaraq, bu azsaylı xalqı hapıtlar, dillərini isə hapıt dili adlandırmağı məqsədəuyğun hesab etdik. Azərbaycan dilinin dialektlərində həm hapıtdı (hapıtmaq), həm də hər sözü "tələsik, vaxtından tez" mənalarında işlənir.

Bir çox araşdırıcılar tərəfindən hapıtlar Qafqaz Albaniyasında yaşamış 26 tayfadan biri hesab edilir. Bunu təsdiq edən iki əsas səbəb göstərilir:

– birincisi, hapıtlar da bu ərazinin əzəli sakinlərindəndir, çünki onlar albanların sıx məskunlaşdığı ərazidə yaşayırlar;

– ikincisi, hapıtların özlərinə məxsus dili var. Bəzi zahiri xüsusiyyətlərinə görə hapıt dilinin udin və ləzgi dillərinə yaxın olduğu güman edilir. Çünki həmin etnoslar əsrlər boyu yanaşı yaşayıblar, bir-birinə təsir edib və bir-birindən nələrisə əxz ediblər (https://www. facebook.com / 2522221315 68170/).

Maraqlı bir faktdır ki, hapıtların dilində yalnız 29-dək sayları var. 29-dan sonra onlar Azərbaycan dilində saymağa başlayırlar. Bununla əlaqədar vaxtilə Strabon albanlar haqqında yazırdı ki, onlar 100-dən yuxarı say bilmirlər (Страбон 1964, 476). Bir məsələni unutmaq olmaz ki, Qafqaz Albaniyası ərazisində yaşamış bizə məlum etnoslardan yalnız hapıtların 100-dən yuxarı sayları yoxdur.

Daha maraqlı bir məsələ Kür çayının adının mənşəyi ilə bağlı filologiya üzrə fəlsəfə doktoru Sevda Qasımovanın araşdırmasında irəli sürülür: “Hapıt və qrız dillərində çaya “kür” deyilməsi tədqiqatçılarımıza imkan verib ki, uzun müddət Kür çayının etimologiyası üzərində gedən mübahisəyə son qoysunlar və Zaqafqaziyanın ən böyük çayının öz adının qədim alban tayfalarının birinin dilindən aldığını sübut etsinlər (Qasımova 2016, 72).

Hapıtların folkloru məsələsinə keçməzdən əvvəl onu qeyd edək ki, İsmayıllı rayonundakı hər iki hapıtdilli kənddə bilinqvizm dil şəraiti hökm sürür. Bu yaşayış məntəqələrinin sakinləri iki dildən – Azərbaycan və hapıt dillərindən sərbəst şəkildə istifadə etməyi bacarsalar da, bu dillər zaman, məkan, məqsəd və situasiya baxımından fərqli şəkildə funksionallaşır. Hapıtların dilində qalın saitlərin və ya kar boğaz samitlərinin zənginliyi, səslənişi və oxşar mənalı sözlərin varlığı onun ləzgi və xınalıq dilləri ilə bir qrupa daxil olduğunu təsdiqləyir. Bu dil tam ədəbi dil kimi formalaşa bilməsə də, onun leksikasında etimologiyası maraq doğuran sözlər az deyil. Əslən Mollaisaqlı kəndindən hapıt ziyalısı ldırım Məsimoğlu “Haputlular” kitabında hapıt dilində oğurluq mənası ifadə edən “günəhə” sözünü “Qurani-Kərimdə” tez-tez keçən “günah” sözü ilə əlaqələndirir (Məsimoğlu 2010, 7).

Qeyd edildiyi kimi hapıtlar artıq 2 əsrdən artıqdır ki, İsmayıllı rayonu ərazisində məskunlaşmış və yerli əhali ilə qaynayıb qarışmışlar. Hapıtlar Azərbaycan ərazisində yaşayan azsaylı xalqlardan biri kimi öz milli identikliyini, özlərinə məxsus dil və mədəniyyət ənənələrini qorumuşlar. Bununla əlaqədar azsaylı xalqlarla bağlı əsaslı tədqiqat işləri aparmış tarixçi alim prof. Qəmərşah Cavadov yazır: “Əgər biz min illər boyu doğma Azərbaycan torpağında bu azsaylı etnosların

ərimәsinә, assimilyasiyaya uğramasına yol vermәyib bu günümüzәdәk yaşatmışıqsa, şübhәsiz, bu, Azәrbaycan xalqının humanistliyini vә böyüklüyünü tәsdiq edәn danılmaz faktdır. Azәrbaycan tәkcә özünü azәrbaycanlı sayanların deyil, elәcә dә özünü bu torpağın övladı hesab edәnlәrin vәtәnidir. Qafqazdilli azәrbaycanlılar öz amalları, qeyrәtlәri vә bütün dönәmlәrdә verdiklәri şәhidlәri ilә bunu sübuta yetirmişlәr... Bu gün Azәrbaycan dünya tәcrübәsi vә sivilizasiyası prinsiplәri әsasında inkişaf edәn demokratik respublikadırsa, bura tәkcә çoxsaylı vә türkdilli azәrbaycanlıların deyil, elәcә dә müxtәlif dil ailәlәrinә mәnsub olan azsaylı udi vә xınalıqlıların, avar vә lәzgilәrin, talış vә kürdlәrin, tat vә dağ yәhudilәrinin, saxur vә ingiloyların, haput vә buduqluların da eyni dәrәcәdә Vәtәnidir" ( Cavadov 2000, 18-19).

Hapıtlara aid edilәn folklor örnәklәrini toplayarkәn vә araşdırarkәn әsas çәtinlik ondan ibarәt idi ki, indiyә qәdәr bu azsaylı xalqın nә tarixi, nә dili, nә dә folklor әnәnәlәri sistemli şәkildә öyrәnilmәmişdi. Düzdür, Mollaisaqlı vә Hacıhәtәmli kәndlәrinin vә burada yaşayan әhalinin Qafqaz Albaniyası tarixindә tutduğu mövqeyә görә müәyyәn fikirlәr söylәmiş vә qәnaәtlәrә gәlmiş tarixçi alimlәr Qәmәrşah Cavadov, Qafar Cәbiyev, Qyasәddin Qeyullayev vә Fazil Osmanovun xidmәtlәrini unutmaq olmaz. Amma hapıtların dili vә folklor nümunәlәrinin toplanması vә bu kimi mәsәlәlәri tәdqiqata cәlb edәnlәr arasında Mollaisaqlı kәnd mәktәbinin coğrafiya müәllimi İldırım Mәsimov, Hacıhәtәmlidәn ziyalı jurnalist "Neft daşları" qәzetinin redaktoru Xeyrulla Ağayev, AMEA Folklor İnstitutunun әmәkdaşı Atәş Әhmәdli, İsmayıllı 3 saylı mәktәbin direktor müavini fil.ü.f.d. Sevda Qasımova vә bu yazının müәllifi tәrәfindәn müәyyәn işlәr görülmüş, kiçik hәcmdә dә olsa, hapitlara hәsr olunmuş yazılar dәrc etdiril-

mişdur. Düşünürəm ki, bu özünəməxsus xalqın haqqında gələcəkdə hərtərəfli tədqiqat işləri meydana çıxacaqdır.

Bu gün Hacıhətəmli və Mollaisaqlı kəndlərində yaşayan hapıtlar folklor ənənələrini yaşadaraq özünəməxsus folklor nümunələri (mahnı, atalar sözləri, tapmacalar, rəqslər, toy və yas adətləri, müxtəlif xarakterli mərasimlər, inanclar, rəvayətlər və s.) yaratmış və bunları müxtəlif səviyyəli mədəni-kütləvi tədbirlərdə öz folklor qrupu vasitəsilə geniş tamaşaçı kütləsinə çatdırmaqda davam edirlər.

Hapıtların folklor ənənələri haqqında, təəssüflər olsun ki, sistemli bir formada toplanmış folklor örnəkləri və həmin toplanmış nümunələr əsasında yazılmış tədqiqat işi yox dərəcəsindəddir. Hapıtlar haqqında araşdırmalar fərqli jurnalistlər tərəfindən səthi şəkildə aparılıb və bu haqda yazılar mətbuat orqanlarında müxtəlif vaxtlarda, əsasən də tanıtım məqsədilə çap olunmuşdur. Bu yazıların bəziləri hapıtları qrızlarla eyniləşdirilməsi, bəziləri isə azsaylı xalqların dil və mədəniyyətinə diqqətsizliyin olduğunu gündəmə gətirmək kimi bədniyyətli və qərəzli məqsədlərlə yazılıb. Düzdür, dünya dil müstəvisində elə proseslər var ki, dilimizi nə dərəcədə qorumağımızdan, onu hansı səviyyələrdə işlətməyimizdən asılı olmayaraq qüdrətli dillərin təsiri ilə kiçik dillərin əriməsi və sonda tamamilə yox olması təhlükəsi hər an qalır. Amma bu, o anlama gəlməməlidir ki, bu prosesə qarşı durmaq lazım deyil. Nə qədər ki bu mümkündür ki, hər bir azsaylı xalqın nümayəndəsi və bu xalqların dil və mədəniyyətinə maraq göstərən şəxs buna cəhd etməlidir. Ən azı bu görülən işlər tarixin yaddaşı üçün olduqca əhəmiyyətlidir. Çünki azsaylı xalqların dil və mədəniyyətinə diqqət, həmin xalqların nümayəndələrinin özünəməxsus dil və mədəniyyətinə sevgisini, hər bir etnosun özünü çoxmillətli cəmiyyətin tam dəyərli və bərabərhüquqlu üzvü kimi hiss etməsini şərtləndirir. Şahdağ xalq-

larının tarixini araşdırmış prof. M.Paşayevanın fikrincə, Şahdağ xalqlarından biri sayılan hapıtlar "bütövlükdə Azərbaycan etno-mədəni mühitində formalaşaraq Azərbaycn xalqının etnik tarixində özünəməxsus yer tutmuşlar" (Paşayeva 2016, 201).

Hapıtların tarixi, onların yaşadığı yaşayış məntəqələri və onlara məxsus sözlü və musiqili mədəniyyət ənənələri haqqında ilkinlərdən olaraq kiçik də olsa, bir kitab ərsəyə gətirmiş Mollaisaqlı kənd məktəbinin coğrafiya müəllimi İldırım Məsimov "Haputlular" kitabında mütaliəsi, eşidib-gördükləri və şəxsi axtarışları əsasında əldə etdiyi məlumatlar və qənaətlərini oxucuları ilə səmimiyyətlə bölüşmüşdür. 2017-ci ildə çapdan çıxmış "Azsaylı xalqların folkloru" kitabının II cildi hazırlanarkən və bu məqalə yazılarkən İ.Məsimovun adı çəkilmiş kitabından və verdiyi şifahi informasiyadan müəyyən qədər istifadə olunmuşdur.

İsmayıllı rayonunda yaşayan tədqiqatçı alim fil.ü.f.d Sevda Qasımova hapıtların dili ilə bağlı maraqlı araşdırmalar aparmış, işlədiyi məktəbdəki yuxarı sinif şagirdlərinin köməyi ilə hapıt dilinin kiçik bir lüğətini hazırlamış, bir sıra sözlərin və toponimlərin mənşəyini araşdırarkən hapıt dilinin imkanlarından yararlanmağın mümkünlüyünü qeyd etmişdir. Habelə hapıt dili ilə yanaşı funksional olan digər dillərin leksik və qrammatik səviyyədə qarşılıqlı zənginliyini və daha geniş işlənmə dairəsinə mailk olan Azərbaycan dilinin güclü təsirinə düşdüyünü konkret nümunələrlə təsdiqləmişdir. Alimin üstün cəhəti ondadır ki, o, hapıt dilində danışanlarla gündəlik həyatda ünsiyyət saxladığı adamlar kimi onlarla görüşür və onların azsaylı xalq kimi dillərinin İsmayıllı rayonunda işlənən digər dillərlə qarşılıqlı əlaqələrinin öyrənilməsi istiqamətində əhəmiyyətli iş görür.

Mövcud olan çap və toplanmış folklor materiallarından istifadə edərək məqalənin imkanları çərçivəsində hapıtların

folklor mədəniyyətindən söz açacaq və Azərbaycanın bu qədim avtoxton və zəhmətsevər xalqının ölkəmizin ümumi etnik palitrasında yerini bir daha göstərməyə çalışacağıq.

Hapıtların folkloru toplanarkən daha çox əfsanələr, mahnılar, bayatılar, laylalar, maraqlı əhvalatlar, atalar sözləri, lətifələri, mövsüm və məişət mərasimləri ilə bağlı materiallar diqqətimizi çəkdi və elə həmin nümunələri tədqiqata cəlb etməyi qərarlaşdırdıq.

Hapıtlar islamdan qabaq müxtəlif inanc sistemlərinə malik olmuşlar. Bunu həm onların andlarında, həm də mərasimlərində görmək mümkündür. Andlar hər bir xalqın gündəlik məişətində özünə möhkəm yer etmişdir. Folklorşünas M.Yaqubqızı "Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm" kitabında bununla əlaqədar belə yazır: "Bütün andlar insanlarda düzlüyü, düz danışmağı təlqin edirdi. Əks halda insanın təsəvvürünə görə onlar Allah-Təala tərəfindən ən qorxulu cəza ilə – ölümlə cəzalandırılacaqlar" (Yaqubqızı 2016, 67).

Türklərdə vaxtilə mövcud olmuş tanrıçılıq inancını təsdiq edən belə bir and var: "Qoqu vər". Göyə and olsun mənasını verən bu and əslində Allah haqqı kimi qəbul edilir. (İnformator 2) İşığa, oda və ocağa içilən and hapıtlarda işığın zülmətə, xeyrin şərə üstün gəlməsini əsas vasitə olaraq ifadə edir. Oda və ocağa and içən insanlar bu varlıqları həyat rəmzləri kimi qəbul edir və paklandırıcı xüsusiyyətlərə malik olduğuna inanırdılar. Hapıtların digər andları müqəddəslərin adı və pirlərlə bağlı idi. "Həzrət Baba qəbrini ziyarətə gedənlər çox olduğundan "Həzrət Baba haqqı" deyərək, and içirlər. Bundan əlavə digər analoji andlara da rast gəlinir: "İsrafil babanın ocağına and olsun", "Dərviş baba haqqı", "Ərəb ocağı haqqı" və s" (İnformator 1).

İnsanların sakral dünyaya nüfuz etmək istəyi onların arasında ovsunlar, alqışlar və qarğışların əmələ gəlməsinə səbəb olmuşdur. Hapıtların arasında belə bir inanc yaşayır: əgər Hacıhətəmli və Mollaisaqlı kəndləri arasındakı ərazidə yerləşən İrqsuz baba pirinin üstündə Allah adına qurban kəsilsə, dərhal yağış yağacaq. Məsələ ondadır ki, bu dəfələrlə sınaqdan çıxıb. Qurbanlıq pirə gətirildikdən sonra dualar oxunrur ki, bu da ovsun səciyyəsi daşıyır.

Alqışlar və qarğışlar folklor janrı kimi səciyyələndirilərkən onlarda müsbət və mənfi emosiyaların xüsusi nitq etiketləri vasitəsilə ifadə olunması nəzəri fikirlərdə həmişə qeyd plunur. Onlarda hər bir yaradıcı xalqın milli psixologiyasının əsas cəhətləri özünü az, ya da çox dərəcədə göstərir. Hapıtlar arasında maraqlı səslənən alqış və qarğışlardan bir neçə nümunəyə baxaq: kişilər üçün "Görüm sinənə ağ tük çıxsın" alqışı uzun və sağlam ömür arzusu ilə söylənir, "Dırnağın uzanmasın" qarğışı kiməsə ölüm arzusu ilə deyilir (İnformator 3). Digər bir qarğış, "Saçın kəsilsin" ərgən qız üçün ən ağır bir qarğış hesab edilir. Bu qarğış fil.ü.f.d. M.Yaqubqızının "Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm" elmi əsərində təhlil edilmiş, qarğışın arxasında duran mahiyyət eynən hapıtlarda olduğu kimi mənalandırılmışdır. Bu qarğışa görə gəlin getmiş qızı rüsvayçılıq gözləyir: toy gecəsi bakirə çıxmamış qızın saçları kəsilər, tərsinə ulağa mindirilər və atası evinə geriyə yola salınardı.

Uşaqlarda qorxu və gözdəymə halları ilə bağlı maraqlı ayinlər var. Qorxmuş uşağın başı üzərində soyuq su doldurulmuş bir qab tutulur və suyu həmin qabdan uşağın başına tökürlər. Bu zaman ocaqda ayrıca olaraq qızdırılmış ərsin qəfildən qabın içinə salınır, su kəskin şəkildə fışıldayır. Bundan diksinən uşaq aldığı qorxu hissini bu anda biruzə verir. Yaxud qorxmuş uşağı pilləkənin aşağısında dayandırırlar, yuxarıda dayanmış və

əlində soyuq su olan qab tutmuş kim isə suyu qəfildən, gözləmədiyi halda uşağın üzünə sıçradır. Su sıçratma qəfil olduğundan gözlənilməzlik effekti qorxunun "çıxmasın" səbəb kimi şərtləndirir. Bunu nəql edən qadınlar bu üsulların əksər vaxtlar özünü doğrultduğunu söyləyirlər. Bəzən dünyagörmüş qadınlar Bakının Maştağa və Buzovna kimi qəsəbələrində yayılmış çildağ üsulundan istifadə edirdilər. Təbii ki, "hər əldə bir səbəb var" deyimi burda yerinə düşürdü (İnformator 3).

Gözdəymə ilə bağlı bir sıra ayinlər keçirilir. Gözdəyməyə qarşı üzərlik toxumları qatılmış duzdan bir çimdik götürülür, göz dəymiş adamın başının və çiyinlərinin ətarfında dolandırılır, sonra ocağa atılır. Bu zaman yenə belə bir ovsun söylənir: "Uşağa dəyən göz bu duz kimi çırta-çıtla yansın, ovulub töküləün" Bundan başqa gözdəyməyə qarşı xəmirdən yeddi kündə tutulur, içi duzla doldurulduqdan sonra odda yandırılır. Mahiyyəti bundan ibarətdir ki, xəmirin içində duz gözü təcəssüm edir. Bu içi duz olan xəmir kündələrin sayının 7 olması da bu rəqəmin müqəddəsliyi və sakral mahiyyəti ilə bağlı ola bilər. Digər bir "bədnəzər götürmə" ayini zamanı yeddi küçədən yığılmış çubuqlar soğan qabığı və üzərliklə qarışdırılır, sonra həmən tərkib evi və orda yaşayan ailəni pis gözdən qorumaq niyyətilə yandırılır. Hapıtlar dağdağan ağacından bir parça üstlərində gəzdirməklə bəd gözün təsirindən qurtulacaqlarının mümkünlüyünə inanırlar. Dağdağan ağacı o zaman təsirli olur ki, onu səhər tezdən xoruz banlamamış kəsəsən. Bu da ona görədir ki, o kəsilən zaman heç kim bunu görməməlidir" (İnformator 3).

Azərbaycanın Qafqaz mənşəli xalqlarının yaşadığı əksər bölgələrdə, xüsusən də yaşadıqları kənd evlərinin qapısının yan dirəklərinin başına və çəpər payalarının ucuna inək və at kəllə sümükləri keçirilərdi. Bu kəllə sümükləri çəpərdən həyətlərə boylanıb baxmaq istəyənlərin bəd nəzərlərini yayındırmağa xid-

mət edirdi. Bu adət hələ də bəzi kəndlərdə, o cümlədən hapıtların yaşadıqları Mollaisaqlı və Hacıhətəmli kəndlərində qalmaqdadır. Hətta bununla əlaqədar bir lətifə də hapıtlar arasında dolaşır: “Bir gün Əhməd adlı bir kişi qəssabdan evinə ət almaq istəyir. Qəssab soruşur ki, ətli yerindən verim, yoxsa sümüklü ət istəyirsən? Kişi də qayıdır ki, sən mənə yumşaq yerindən ver. Sümük lazım olsaydı, çəpərlərin üstündə nə çox inək kəlləsi.Elə çıxıb orada sümük yalayardım” (İnformator 3)

Qubanın həm etnik, həm də təbii-coğrafi yerləşmə baxımdan unikal bir kəndi olan Xınalıq kəndindəki əksər evlərin həyət çəpərlərinə vurulmuş payaların ucuna taxılmış heyvanların kəllə sümüklərinin iki mənasını yerli sakinlər belə izah edirlər: birincisi, bu kəllələr evi və orda yaşayan ailəni pis gözdən qoruyur, ikincisi, bu payalara taxılmış kəllələr əsasən həmin evin təsərrüfatında çoxlu nəsil vermiş inəyin, yaxud atın kəllələri olurdu, çünki bunu edən ailə düşünürdü ki, bununla ailənin bərəkəti qaçmayacaq, əksinə daha da artacaq.

Hapıtlara aid məişət mərasimlərinə əsasən toy və yas adətlərini aid etmək lazımdır. Hapıt ailələrində yeni ailənin qurulmasında valideynlərin sözü həlledici olardı. Əvvəlcə qız evinə qadınlar “eşitdirmə”yə gedər, sonrakı gəliş üçün razılıq alardılar. Bundan sonra oğlan tərəfindən ağsaqqallar “dualama”ya gedərdiər. Onlar özləri ilə üzük, qırmızı bir yaylıq və bir qoç aparardılar. Qız və oğlann evinin ağsaqqalları “söz kəsdi” edərdilər. Daha sonra oğlan evində ən yaxın qohumların iştirakı ilə nişan olardı, bu məclisə qız evindən adamlar dəvət olunardı. Toylar qədimdə 3, bəzən də 7 gün çəkərdi. Toya qədər bir çox mərhələlər olardı. Qız toyuna yaxın qıza bazarlıq (qızıl əşyalar, geyim və şirniyyat) və toy xərci aparılardı. “Xınayaxdı” olardı, hətta həmin xınadan oğlan evinə aparılar, oğlanın əlinə də yaxılardı.

Cehiz oğlan evinə aparılmazdan əvvəl ağsaqqalların iştirakı ilə siyahıya tutulardı. Gəlinin anasına süd pulu verilərdi. Gəlin gündüz saat 11-12 radələrində at ,yaxud araba ilə gətirilərdi. 2-3 saatlıq yeməkdən sonra çalıb-oyamaq başlanırdı. Üç, yaxud yeddi günlük toylarda adətən həmin günlər yüngül yemək və çalıb oynamaq məclisləri keçirilərdi. Axşam bəy tərif edilər və bununla da toy başa çatardı.

Yas mərasimləri Azərbaycanın müsəlman əhalisinin yaşadığı digər bölgələrindən demək olar ki, ciddi heç nə ilə fərqlənmirdi. Ölünün 3, 7 və 40-cı günü verilən ehsanlar və oxunan Quran surələri insanların fikrincə, mərhumın günahlarının bağışlanmasını asanlaşdırır.

Doğum mərasimlərinə uşağı 40-dan çıxarma, ilk ongünlükdə adqoyma mərasimi keçirilərdi.Bu münasibətlə düyü unundan halva bişirilərdi. Uşağın ilk dişini çıxarması da ailə içində xüsusi qeyd olunardı” (İnformator 1).

Məişət mərasimlərinin müəyyən qismi el bayramlarının keçirilməsindən ibarətdir. Əksər bayramlar Azərbaycanın digər bölgələrində olduğu kimi keçirilir. Hapıtlar həm keçmişdə, həm də Azərbaycan müstəqillik qazandıqdan sonra dini bayramları daha təntənəli keçirməyə əməl etmişlər. Qurban bayramında kəndin əksər ailələri qurban kəsirlər. İmkansız ailələrə hər kəs qurbanlıq göndərməyə çalışır.

Ramazan bayramı əvvəllər fərqli keçirmiş, belə ki kənddəki kişilər səhər tezdən bütün evlərə baş çəkər, bir-biri ilə bayramlaşardılar, lakin indi kəndin kişi əhalisi yalnız keçən Ramazan bayramından bu bayrama kimi vəfat etmiş şəxslərin ailələrinə gedir, onlara başsağlığı verər və sonra isə bir-birinin evlərinə bayramlığa gəlirlər (İnformator 3).

Sovet dövründə Novruz bayramına qoyulmuş qadağalar müəyyən qədər onun təntənə ilə keçirilməsinə imkan vermirdi.

Novruz bayramına bir ay qalmış çərşənbələr qeyd olunardı. Yaxınlıqda axar su olmadığı üçün cavanlar kəndin ərazisindəki təpəliklərdə təkəmseyrək bitmiş arçan adlı həmişəyaşıl ağacdan tonqal qalayardılar. Milli və dini fərqlərə malik xalqların məişətinə baxdıqda maraqlı faktlarla üzləşmək olur. Məsələn, Novruz bayramında lahıclar ardıc ağacından tonqal qalayır, xaçpərəst ruslar küknar ağacını İsa Məsihin doğum günü üçün bəzəyirlər. Ümumi cəhət odur ki, hər üç halda istifadə olunan ağaclar həmişəyaşıl ağaclardır. Novruz bayramı xüsusən təntənə ilə keçirilir. Çərşənbələr mahiyyəti etibarilə demək olar fərqlənmir.Qulaq falına da çıxanlar olur.

İndi də hapıtların folklorunda ümumazərbaycan folkloruna xas olan bir sıra janrlara aid nümunələrə nəzər yetirək:

Hapıtlar arasında Həzrət Baba pirinə inam çox güclüdür. Babadağ İsmayıllı rayonunun dağlıq ərazisinin ən yüksək nöqtəsi kimi, həm də bir çox əfsanələrin əsas obyektidir. Bu əfsanələrin müxtəlif variantları uzun illər jurnalist kimi çalışmış şair Məmmədmirzə Rzayev tərəfindən toplanılmış və "Olmuş əhvalatlar, lətifələr və rəvayətlər" kitabına daxil edilmişdir. Qeyd edim ki, Mollaisaqlı kəndində Babadağ haqqında eşitdiyim əfsanənin motivləri Azərbaycan Folklor Antologiyasının Şirvan folkloruna həsr olunmuş XI cildinin 104-cü səhifəsində verilmiş və elə İsmayıllı rayonundan toplanmış "Həzrət Baba" əfsanəsi ilə yaxından səsləşir: "Həzrət Baba dağda kotanla yer əkirmiş. Allahın mələyi Cəbrayıl ondan nə etdiyini soruşur. O da: – əkin əkirəm, – deyir. Cəbrayılın "Belə daşkəsəkdə əkin olmaz" sözlərinə – Həzrət Baba belə cavab verir: – Əgər Allah-taalanın könlü olsa, elə burda da bitər.

Ona qulaq asmayan Həzrət Baba buğda əkir amma yerində balqabaq bitir. Balqabağı kəsəndə içindən buğda dənləri tökülür. Sonra iki hamar daşı götürüb buğda dənlərini daşların

arasında un edir. Çörək bişirmək istəyən Həzrət Baba su tapmır. Ətrafına baxır və bu vaxt kənarda dayanan Musa peyğəmbəri görür. Musa peyğəmbər əlindəki əsa ilə yerə vurur. Həmin yerdən su qaynamağa başladı" (AFA 2005, 104) Həmin bulaq indi də "Musa bulağı" adlanır. Hapıtların inancına görə Həzrət baba ziyarətinə 7 dəfə gedən adam Həccə getmiş kimi qəbul edilir. Dağa qalxan sərt yolda "Musa bulağı", "Aman evi" və "Şeytana daş atdı" kimi yer adları var. Dağın ətəyində "Nənə qəbri" olan yerdə Qurbangah yerləşir. Burda ya yerinə yetmiş, ya da gələcək niyyətləri xatirinə qurbanlar kəsilir. Övlad həsrəti ilə gələn bəzi gəlinlər Həzrət Baba pirinin yerləşdiyi dağın zirvəsində uşaq beşiyi asmaqla övlad həsrətində və arzusunda oluqlarını bildirirlər.

Folklorda real tarixi şəxsiyyətlərlə bağlı yaranan əhvalatlar rəvayətə çevrilir və sonralar dildən – dilə dolaşır. Belə rəvayətlərdən biri İslamın müqəddəslərindən olan imam Əli ilə bağlıdır. Rəvayətin süjeti həm də Ə.Firdovsinin "Rüstəm və Söhrab", "Koroğlu" dastanındakı "Dərbənd səfəri" süjetilə ortaq cəhətlərə malikdir. Rəvayətin qısa məzmunu belədir: Həzrət Əli Qəbələyə gəlir və buranın hökmdarının qızı ilə evlənir. Gedəndə arvadına bilərzik verir və tapşırır ki, oğlum olsa adını Murad qoyarsan, bu bilərziyi də qoluna taxarsan. İl keçir və Həzrət Əlinin oğlu olur, adını dediyi kimi Murad qoyurlar. Həzrət Əli özü bu yerlərdən keçib şimala gedir və qayıdanda uşaqların "tura döydü" oynadığını görür (bu oyunda dairəvi cızıq çəkilir, dairənin içinə bir əşya qoyulur, həmin əşyanı götürmək istəyən tura-qayış ilə vurulur) Həzrət Əli görür ki, uşaqlardan biri qalan doqquz uşağın hamısını döyür, odur ki, istəyir o da həmin uşaqla oynasın. O bacarmayanda hirslənir, yapışır uşağın qolundan bütün gücü ilə kənara atır. Atanda uşağın qolunda bilərziyi görüb tanıyır və "Ko Murad,

Ko Murad...” – deyə çığırır. Amma gec olur, uşaq elə zərblə yerə dəyir ki, bir az çırpınır və ölür. O vaxtdan həmin yer Ko Murad adlanır”. Bu nümunə qəhrəmanının reallığına görə rəvayətə, hadisələrinin təsvirinə görə isə əfsanəyə daha çox oxşayır. Rəvayətin qələmə alındığı variantını bura əlavə etsək, ondan doğan təəssürat daha da dolğunlaşır və əsl folklor mənzərəsi üzə çıxır: “Qutqaşında Çuxur Qəbələ ilə Tala kəndi arasında köbər var. Bu köbərdə həm də palıd ağacları əkilib. Köbər bir kilometr yarım (1,5 km) olar. Köbərin üssü bütöy maladı. Dağa bənzər bu yerin adı Ko-Murad olub. Rəvayətə görə, Həzrət Əli bu yerlərə gəlib çıxıb. Bırdakı hökmdarın qızın alıb. Bir neçə ay bırda qalannan sora qoşun çəkdi başqa yerə. Rusiyaya keçə bilmədi. Bir xeyli vaxtdan sora qayıtdı gəldi. Həzrət Əli gedəndə şahın qızına bilərzik vermişdi. Dedi, oğlan olsa, adını Murad qoyarsan.

Həzrət Əli gəlib gördü ki, on uşaq “tura döydü” oyniyır. (Cız çəkilir dairəvi, tura qayışdan, kəndirdən olur, ora mərə qoyulur. Mərədən şey götürmək istiyillər) Bir uşaq da doqquz uşağı döyür. Der a bala, mənnən də oyniyarsan? Der, babaynan da oyniyaram. Der, gir içəri, mənnən oyniyax. Girir içəri. Oğlan turanı qoyur əyağın altına. Əli nə qədər elir, turan çıxarda bilmir. Bı qəzəblənir, uşağın qolunnan tutub atır. Atanda gördü, bilərzik uşağın qolundadı. Ko Murad, ko Murad deb qışqırır. Gec olur, uşaq yerə çırpılıb ölür” (Azsaylı 2017, 178).

Hapıtların özünəməxsus nağılları demək olar ki, çox azdır. Olanlar da həcmcə çox kiçik olmasilə bərabər, nağıl janrına xas olan özəlliklərə və tələblərə cavab vermir. Müəyyən qədər təhsili olan yaşlı qadınlar və kişilər kiçik nağıllar danışırlar ki, onların da əksəriyyəti nağıl kitablarında yer almış keçəllər və şahlarla bağlı nağıllardır. Danışılan nağıllarda yerli şəraitə uyğun özəl bir keyfiyyətə rast gəlmədiyimizdən

digər janrlardan söz açmağı məqsədəuyğun hesab etdik. Hapıtları arasında baməzəliliyi və hazırcavablığı ilə fərqlənən şəxslər az deyildi. Belərindən biri özü sadəlövh təsir bağışlayan, amma bədahətən deyimləri ilə fərqlənən Dəli Yusif adında bir şəxs idi. Dəli Yusiflə bağlı lətifələr təkcə İsmayıllının Mollaisaqlı kəndində deyil, həm də Hacıhətəmli, Kürd Eldarbəyli, Gideyli və Göyçay rayonunun Bığır, Qarabaqqal kəndlərində indi də yaddaşlarda yaşayır. Belə lətifələrdən bir neçəsini burada təqdim edirik:

Dəli Yusiflə bağlı lətifələrdə onun nə qədər səmimi olduğunu və bizə də öz sərrast və yerində deyilmiş replikası ilə dərs verdiyini izləyə bilirik. Məsələn, "Xaraba qalmazdı ki?" lətifəsində deyilir: "Bir dəfə kəndin hörmətli ağsaqqalı Lətif əfəndi deyir ki, ay Yusif, gedin oğlum Cərulla ilə sahədən qızılgül kolu gətirin, həyətə əkin.

Yusif bərkdən şaqqanaq çəkib deyir:

– Ay Əfəndi, neçə ilin oxumuş alimi, beş kəndin qazisisən... Yenə də bir şey bilmirsən. Mən qızılgül əkən olsaydım, dədəmin həyəti xaraba qalmazdı ki (Azsaylı 2017, 186).

Yaxud başqa lətifədə qəhrəmanın doğru məntiqi onu dinləyəndə maraq doğurur: Bir dəfə Yusifdən soruşurlar:

– Ay Yusif, anan necə qadın idi?

– Dəli inəyin dəli balası olar, – deyə ürəkdən gülməyə başlayır (Azsaylı 2017, 187).

Hapıtların arasında özlərinin yaratdıqları məsəllər də az deyil: artıq bəlli olduğu kimi, hər bir məsəl müəyən bir əhvalatın nəticəsi kimi ortaya çıxır. Məsələn,tənbəl Yəhya haqqında əhvalatla bağlı məsəl belə yaranıb: ömründə bir dəfə meşəyə gedən tənbəl Yəhya bir balta çaldı, o da ayağına dəydi. Yarası da gələn yaya sağalar" (Azsaylı 2017, 184 ).

"İki qardaşın darı əhvalatı" nda danışılır ki, darı əkən qardaşlardan kiçiyi deyir ki, məhsul yaxşı olsa, yarısını kasıblara paylayacaq. Məhsul yığılır, kiçik qardaş verdikləri sözü qardaşına xatırladanda o imtina edir. Gecə güclü yağış yağır, sel daşır və qardaşların həyətdə yığdıqları darını yuyub aparır. Bu vaxt şimşək çaxır. Bunun nə olduğunu soruşanda kiçik qardaş deyir ki, "bu Allahın işığıdır, həyəti işıqlandırır ki, harda darı qalıb, sel onu da yuyub aparsın" (Azsaylı 2017, 185). Lətifəyə oxşar bu əhvalatdan çıxan nəticə budur ki, verilən söz yerinə yetirilməlidir, əks təqdirdə haqq öz yerini tapacaq, vədinə xilaf çıxan cəzasını alacaq.

Hapıtların öz dillərində söylədikləri maraqlı atalar sözləri az deyil: Bu atalar sözləri müxtəlif həyat situasiyalarında işlədilir. Məsələn, **Xotili lemr dığ cahır sur qordabu** – Xotəkli eşşəyə çayır (ot) çatmaz. atalar sözünün əsasında çox istəyən olanda hamıya çatmaz məntiqi dayanır. **Əsine xaldıkir xal şeerded, xal qələr şe.** – Qoyma xaldan xal olmaz, xal başdan gərək. atalar sözündə insanda bir bacarıq əzəl başdan olmalıdır məntiqi dayanır. Bu atalar sözü azərbaycanlıların "Quyuya su tökməklə quyuda su olmaz" misalına çox uyğundur. **Xarar icirə uləc qəyçırde.** – İt yediyini qusacaq. atalar sözü isə mənfi xüsusiyyətli adamlar haqqında deyilir və nə görübsə, nə eşidibsə, əslində nə varsa, necə yaşayırsa, onu da gc-tez büruzə verəcək. **Təzəc qəcinci xəd qəy şere.** – Təzə bardağın suyu soyuq olar. atalar sözündə bir yerə kimsə təzə gələndə ya da ki vəzifəyə yeni şəxs təyin olunanda həmin adamlar özlərini ləyaqətli, bacarıqlı və yaxşı adam kimi qələmə vermək istəyirlər.**Vin hələ vin-a tur duz lip,çıxan əcin.** – Sən hələ adını düz de, sonra danış. **Vin-ə tur lip, lipi də tiye-vin.** – Adını de, deyim kimsən." Atalar sözləri hələ qədim yunan mifologiyasında və yunan filosoflarının möhkəmlənmiş təsəvvürlərinə

görə insanın adı ilə onun xarakteri arasında müəyyən bir əlaqə vardır. Sokrat deyirdi ki, "səsini çıxar, deyim kimsən".

Yuxarıda tənbəl Yəhya ilə bağlı bir məsəl göstərmişdik, amma belə məsəllər heç də az deyil, məsələn: **Unə qızdırma zovər varan yov**. – Bunun qızdırması məndən də çoxdur. **Het ulə qəydə**. – Qoy heç olmasa yeyim ölüm kimi deyimlər müəyyən məqamlarda fikrin təsdiqlənməsi üçün köməkçi vasitədir.

Hapıtlardan toplanmış lirik növə aid nümunələr içərisində mahnılar, bayatılar və laylalar da maraqlıdır: Onlar mahnıları lahıclar və türklər kimi mani adlandırırlar. Belə manilərdən birinə baxaq:

| | |
|---|---|
| Qələr əsikən cəb cico | Başdan ayağa çiçəkdir, |
| İçə huynir heç hala dəd | Suyundan heç harda yoxdur, |
| İçə xuynir heç hala dəd | Çörəyindən heç yerdə yoxdur, |
| Yə kumuğənəd kum haloyo | Bizim kənd kimi kənd harda var?! |
| | |
| Sündürüm lürdəd uc vəcə. | Heç kim deməz bu mənimdir, |
| Ləc ənicə luc yəəcə. | Bu, onundur, bu, onundur, |
| Siyesə rovəc xurəcə. | Hər nə varsa, Allahındır. |
| Yə kumuğənəd kum haloyo. | Bizim kənd kimi kənd harda var? |

( Azsaylı 2017, 178)

"Mani"də kəndin gözəlliyindən, onun gül-çiçəklərindən, suyundan və çörəyindən danışılır. Bir anlığa sadalanan məziyyətlərə baxdıqda Azərbaycan kəndində elə görmək istədiklərimizi görə bilirik, bu kəndin saf suyu, əlvan çiçəkləri və pak çörəyi bu kənddə hamı üçün birdir, heç kim: "**Ləc ənicə luc yəəcə.** – Bu, onundur, bu, onundur. "Demir, burda "**Siyesə rovəc xurəcə.** – Hər nə varsa, Allahındır.",-deyə oxuyurlar. Mahnının hər bəndinin sonunda doğma kəndlərinə dərin sevgi aşılayan: "**Yə kumuğənəd kum haloyo.** – Bizim kənd kimi kənd harda var?!" misrası təkrar işlənir. Maninin konkret me-

lodiyası yoxdur, adətən musiqi alətləri olmadan oxunur, əl çalınmaqla müşaiyət olunur.

Azərbaycan folklorunu lirik növünün şah janrı hesab edilən bayatının təsiri altında hapıtların da bir neçə yaratdıqları bayatısını qeydə aldıq. Bayatılardan birinin maraqlı cəhəti ondan ibarətdir ki, bu 4 misralıq kiçik bir şeir parçasında Azərbaycan kəndlərinin bəzilərində hələ də yaşanan su problemi dilə gətirilir. Odur ki, həmin bayatını təqdim etməyi məqsədəuyğun hesab etdik:

Əzizinəm əc lurə,
Əc lurə hey uc lurə.
Dünya həyc bağ-bağat
Yin qayçubun xad lurə.

Əzizinəm o deyə,
O deyə, hey bu deyə,
Dünya oldu bağ-bağat,
Biz qırıldıq "su" deyə.

(Azsaylı 2017, 180)

Sayı çox olmasa da, hapıt laylasında Azərbaycan dilində rast gəlinən laylalara məxsus janr və məzmun tələblərinə uyğunluq hiss olunur. Digər halda, hapıtca səslənən bir layla ona görə bizə maraqlı göründü ki, çoxlu folklor nümunələrinə malik lahıclarda və ləzgilərin ana dillərində nəzm formasında laylalara rast gəlmədik. Odur ki, bu səciyyədə olan bir nümunəni təqdim edirik:

Laylay lure zın zıv-əz
Şəfa işi dərdi məz.
Laylay a cicci bala,
Və dərdə işi nikri-bəz.
Laylay, a ququ bala,
Laylay, a cicci bala.

Laylay dedim mən sənə,
Şəfa olsun dərdlərinə.
Laylay, a cici balam,
Dağlar qalsın dərdinə.
Laylay, a ququ bala
Laylay, a cici bala.

(Azsaylı 20173,181)

Laylada həmçinin Azərbaycan laylalarına xas olan forma xüsusiyyətləri – hecaların sayı, qafiyə quruluşu və laylanın

nəqarətində xüsusi sözlərin (ququ, laylay, cicci) seçilməsi kimi cəhətlər özünü aşkar şəkildə göstərir. Layladakı özəlliklər əsas məqsədə – körpənin yatırılmasına bir **vəsilə** funksiyasını yerinə yetirməyə xidmət edir.

Hapıt folklorunun toplanmış örnəkləri bu zəhmətkeş və bütün ruhları ilə soyköklərinə, yaşadıqları yurdlarına bağlı, doğma Azərbaycanımıza sadiq xalqın şifahi ədəbiyyat ənənələri və onların poetik təfəkkürünün səciyyəsi haqqında ümumi təsəvvür yaradır. Ümumazərbaycan folklor mədəniyyətinə bu xalqın öz gücü müqabilində verdiyi töhfələri folkor gülüstanımızda rəngi və ətri fərqli olan bir gülə bənzətmək olar. Azərbaycan elm və mədəniyyətinə layiqli töhfələr vermiş şair Baba Vəzioğlunu, Vaqif Məhəmmədəli Abdullayev, Vaqif Bağıyev və Şəfiqə Tahirova kimi alimləri, Xeyrulla Ağayev və Anar Vəziroğlu kimi jurnalistləri, əsl ziyalı İldırım Məsimovu, şair Elsevər Məsimi və b. göstərmək olar.

Azərbaycan Respublikasının əhalisinin ümumi sayının çox cüzi bir hissəsini təşkil edən hapıtların tarixi, dili və mədəniyyəti ilə bağlı aparılmış araşıdırmadan sonra aşağıdakı nəticələrdən danışmaq olar:

– hapıtlar Şahdağ Nax-Dağıstan milli-etnik qrupunun nümayəndələrisi kimi Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyasının avtoxton əhalisinə aiddur;

– hapıtların dili ləzgi dil qrupuna daxil olmasından dolayı qrız dilinə daha yaxın xüsusiyyətlərə malik olsa da, müstəqil bir dil hesab edilməlidir. Çünki müqayisə olunan dillərin leksik tərkibinin və qrammatik quruluşlarının fərqliliyi bunu söyləməyə əsas verir;

– hapıtların folklor ənənələri kifayət qədər zəngindir, məişət (toy və yas) və mövsüm mərasimləri, lətifə və atalar sözləri,

mahnı və laylaları, alqış, qarğış, and və ovsunları, müxtəlif deyim və sınamaları, bayatıları və s. hapıtlar haqqında ümumi təsəvvür yaratmasına və ümumazərbaycan folkorunda bir xalq kimi onların da yerinin müəyyənləşdirməsinə geniş imkan yaradır.

– İsmayıllı rayonunda yaşayan azsaylı xalqların folklorunun toplanması və elmi şəkildə sistemləşdirilərək öyrənilməsi Azərbaycan Respublikasında aparılan milli siyasətin əsasını təşkil edən tolerantlığın və multikulturalizmin bariz şəkildə nümayişi kimi qiymətləndirilməlidir.

– Dəfələrlə qeyd edildiyi kimi, azsaylı xalqların dil və mədəniyyətinə diqqət, bu xalqların özünəməxsusluğuna sevgi ifadə etməsilə yanaşı, həm də bu etnoslarun özlərini çoxmillətli cəmiyyətin tam dəyərli və bərabərhüquqlu üzvü kimi hiss etmələrini şərtləndirir.

## ƏDƏBİYYAT

1. Abdullayev 2010 – Abdulayev K. (Kamal Abdulla ) Dilçiliyə səyahət. Bakı, “Mütərcim”, 2010, 200 s.

2. AFA 2005 – Azərbaycan Folklor Antologiyası, XI kitab, (Şirvan folkloru) Bakı, “Səda” nəriyyatı, 2005, 443 s.

3. Azsaylı 2017 – Azsaylı xalqların folkloru, II cild, Bakı, Elm və təhsil, 2017, 196 s.

4. Cavadov 2000 – Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, “Elm”, 2000, 440 s.

5. Cəbiyev 2010 – Cəbiyev Q. Girdiman tarixi (IV-IX əsrlər). Bakı, “Şərq-Qərb”, 2010, 616 s.

6. Qasımova 2016 – Qasımova S. İsmayıllı rayonunda dil əlaqələri, “Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri” Beynəlxalq konfransın materialları Bakı, 8-9 sentyabr 2016-cı il Bakı, “Mütərcim”, 2016. s. 69-73

7. Qeybullayev 1994 – Qeybullayev Q.“Azərbaycan türklərinin təşəkkül tarixi” Bakı, “Azərnəşr”, 1994, 248 s.

8. Məmmədov1980 – Məmmədov N., Axundov A. Dilçiliyə giriş (Ali məktəblər üçün dərslik). Bakı, “Maarif”, 1980, 315 s.

9. Məsimoğlu 2010 – Məsimoğlu İ. Haputlular. Bakı, “Şəms” nəşriyyatı, 2010, 84 s.

10. Paşayeva 2016 – Paşayeva M. Şahdağ xalqlarının folklor ənənələrində alban izləri // “Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri” beynəlxalq konfransın materialları. Bakı, “Mütərcim”, 2016, s. 198-201

11. Şirvani 2005 – Şirvani Seyid Əzim,Seçilmiş əsərləri Üş cilddə. III cild, Bakı, “AVRASİYA PRESS”, 2005, 288 səh.

12. Yaqubqızı 2016 – Yaqubqızı M. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm. Bakı, “Elm və təhsil”, 2016, 184 s.

13. Rzayev 2015 – Rzayev M. Olmuş əhvalatlar, lətifələr və rəvayətlər. Bakı, 2015, 605 s.

14. Страбон 1964 – Страбон География в 17 книгах. Перев. с греческого и коммент. Г.А. Стратановского. Москва, Наука, 1964

**Vebresurs:**

https://www.facebook.com/252222131568170/photos/pb.252222131568170.-2207520000.1457151635./310279909095725/?type=3

**İnformator**

1. Abdullayev Şakir Paşa oğlu, 1936-cı il təvəllüdlü, təhsili ali, təqaüdçü, İsmayıllı rayonu Mollaisaqlı kənd sakini, milliyəti hapıt

2. Ağayev Xeyrulla, 1959, ali təhsilli, “Neft daşları” qəzetinin redaktoru, Bakı şəhər sakini, milliyyəti hapıt

3. Məsimov İldırım, 1954, ali təhsilli, İsmayıllı rayonu Mollaisaqlı kənd orta məktəbinin müəllimi, milliyəti hapıt

## Haputs and their folklore traditions


### Summary

The article contains information on the haputs that, as the indigenous autochthonous population of the Republic of Azerbaijan, are included in the Shahdag subgroup of the Nakh-Daghestan group of the Caucasian peoples. Here, folklore traditions are analyzed on specific examples and thoughts about the place of the haputs in the general Azerbaijan folklore culture are summarized.



**Keywords:** haputs, Nakh-Dagestan group, folklore traditions


## Хапуты и их фольклорные традиции


### Резюме

В статье дана информация о хапутах, которые как коренное автохтонное население Азербайджанской Республики входят в Шахдагскую подгруппу Нах-Дагестанской группы Каказских народов. Здесь на конкретных примерах изучены фольклорные традиции и обобщены мысли о месте хапутов в общеазербайджанской фольклорной культуре.



**Ключевые слова:** хапуты, Нах-Дагестанская группа, фольклорные традиции

**Qalib Sayılov**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi,*
*qalibsayilov@mail.ru*

# MULTİKULTURALLIQ VƏ TOLERANTLIQ: İSLAMİ DƏYƏRLƏR ƏSASINDA FORMALAŞAN FOLKLOR VƏ DİN MÜNASİBƏTLƏRİ MODELİ[1]

## Giriş

Bəşərin, insanlığın yaşıdı olan din və onun genezisi, əsasları və qayəsi tarix boyunca mübahisə predmeti olmuşdur. Deistlər də, ateistlər də, dindarlar da, dini rədd edənlər də istər-istəməz bu problemin içərisində tərəf kimi formalaşmışlar. Dini müxtəliflik fransız dilindən tərcümə olunaraq dilimizdə yer almışdır.

İnsan sosiologiyasının bütün sahələrini əhatə edən İslam dini yüz illər boyu mənsub olduğu xalqların örf-adətini və ictimai əsaslarını tənzimləyici mövqedən çıxış etmişdir. Dinin əsas mahiyyəti isə milli-mənəvi dəyərlərin hamisi olaraq, təsir qüvvəsi nə qədər böyük olursa olsun, xarici təzyiqlərə qarşı mənsublarını bir fanus kimi qorumuşdur. Müsəlman xalqlarının mədəniyyətləri tarixin hər dövründə İslam ilə ucalmış, onun saf və humanitar ideyalarına sadiq qaldıqları qədərincə yüksəlmişdir.

## Dini-mədəni müxtəliflik və tolerantlıq

On doqquzuncu əsrdə Qanıx-Həftəran mədəniyyəti məhz belə bir nümunəvi yol keçmişdir. Azərbaycan coğrafi ərazi

-----------------------------
[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/51/5**

baxımından bir sıra dünya ölkələrindən kiçik olsa da, bəşər tarixinə töhfələri baxımından böyük mənəvi dəyərlərə sahibdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra, mədəniyyətlərin və milli-mənəvi dəyərlərin çeşidli tərzləri tədqiqat sahəsinə çevrildi. Ənənəvi İslam və xalq yaradıcılığının predmetinə çevrilən təsəvvüf məhz bu dəyərlərdəndir (Niyazov 2016, 24).

Azərbaycanın şimal-qərb hissəsində yerləşən tarixi Car-Tala bölgəsi (indiki Qax, Zaqatala, Balakən) keçmişdən bu günə genetik əsaslara bağlı tarixi və mənəvi irs nümayiş etdirmişdir. Bölgədə İslam dininə malik olan müxtəlif etnik qruplar yaşayır. Müxtəlif mədəniyyət tiplərinin daşıyıcılarının eyni bir inanca sahib olmaları onların birgə və yanaşı yaşamaları üçün stimul ola bilər. Lakin burada müxtəlif dini inanclara malik toplumlar da onlarla bərabər dinc və barış içərisində həyatlarını davam etdirməkdədirlər.

Epoxal dönəmlər dəyişdikcə sivilizasiyalar da "mənəvi özünüdərkin sınağından" keçir. Etnik-mədəni, mənəvi-sosial dəyişmələr isə qlobal kontekstdə baş verir. Dəyişmələr və inteqrasiyalar tarixinə nəzər salsaq, doktrinöncəsi özünəqayıdışın maraqlı tiplərinin şahidi olarıq. Belə ki, yüzillərin sonunda böyük dəyişmələrin baş verəcəyi dönəmlərdə "dünya gücləri" yeni etnik, milli və dini nəzəriyyələr, konsepsiyalar düzənləyirlər. Dizayn etdikləri kodeksləri əvvəlcə elm kimi millətlərə və xalqlara "sırıyır", daha sonra həmin nəzəriyyələri ideoloji savaş müstəvisində önərirlər.

İslamın dünyaya bəxş etdiyi insan haqları, zimmi haqları, bəşəri ədalət kimi nümunəvi əxlaqı mənimsəyib, öyrənib və öyrəndikdən sonra "özününküləşdirib", məqsədinə və mənafeyinə uyarlaşdıraraq bu və digər adlarla gündəmə gətirirlər. "Banan ölkələr" adlanan, ikinci dərəcəli hesab olunan,

əsasən də müsəlman ölkələrinə “ixrac” olunan bu “elm” təəssüflər olsun ki, elmdə ən yüksək adları mənimsəyən “ziyalılar” tərəfindən bəh-bəhlə qarşılanır, mahiyyəti anlamadan onlar tərəfindən təşviq olunur.

Son dönəmlər humanitariyada tolerantlıq, multikulturalizm və b. isimlərlə gündəmi məşğul edən yeni konseptlər prioritet hesab oluna bilər. Lakin “demokratiyanın lokomativi” qərbin elmi podiuma gətirdiyi bu “yenilik” əslində İslamın təməllərindən biridir və 1400 il öncə İslam peyğəmbəri Məhəmməd (s.a.s.) tərəfindən Allahın əmri kimi söylənilmişdir. Bu həqiqəti görməmək mənəvi korluqdur.

Biz islamı öyrənsək, müxtəlif dinlərin və inancların daşıyıcılarına münasibəti görmüş olarıq. Yeganə din islamdır ki, heç bir zora ehtiyac görmür və insanlara nümunəvi əxlaqı təlqin edir. Bu gün multikulturallıq deyilən anlayışın düzgün anlamı İslamın içərisindən gəlməsi ilə səciyyələnir. Səriştəsizlikdənmi, savadsızlıqdanmı bilmirəm, bəzən bunu İslama qarşı qoymaq istəyənlər mahiyyəti dərindən dərk edə bilmirlər. Dini müxtəliflik və etnos münasibətləri daim aktual tədqiqat istiqamətlərindən biri olaraq qalır. Onu folklorşünaslığın prioritet mövzusuna çevirən problemin ictimai şüurun inkişafı ilə şərtlənən dinamikasıdır. “Etnos-din” problemi heç vaxt sabit idrak çərçivəsində qalmayaraq, daim inkişaf edən və dəyişən baxışlar sisteminin predmetinə çevrilir. İctimai şüurun antropoloji-humanitar sahələrində baş verən istənilən dəyişikliklər dünya elm məkanının harasında baş verməsindən asılı olmayaraq, “etnos-din” probleminə baxışları dəyişir.

Etnik məkanda dini-mədəni müxtəliflik və tolerantlıq problemi öz mahiyyəti etibarilə dünyagörüşü ilə sıx əlaqədədir. İctimai şüur formalarının inkişaf tarixinə materialist və idealist

baxışlarla şərtlənən yanaşmalar problemin həllinin eyni zamanda ən fərqli, müxtəlif, zidd, hətta bir-birini tam inkar edəcək variantlarının mövcudluğunu mümkün edir. Etnik məkan və dini müxtəliflik mövzusu xalq inanc və sınamaları kontekstində incələnməsi folklorşünaslığın prioritetinə çevrilməkdədir.

Müasir Azərbaycan folklorşünaslığı özünün nəzəri-metodoloji bazası etibarilə XX əsr sovet folklorşünaslıq elminin üzərində formalaşmışdır. Sovet elmi bütövlükdə materializm ideologiyasına əsaslanan marksist-leninçi fəlsəfədən çıxış edirdi. Azərbaycan sovet folklorşünaslığı da bu cəhətdən ümumsovet folklorşünaslığının məhəlli sahələrindən biri olmaqla bütünlüklə materialist dünyagörüşünə əsaslanır və folklor-din münasibətlərinə də istisnasız olaraq bu baxış bucağından yanaşırdı.

## Folklor və din

Marksist-leninçi fəlsəfəyə görə, folklor və din ictimai şüurun formaları kimi "yüksək təşəkküllü materiyanın xassəsi olan" insan şüurunun məhsuludur. "Allah" ideyasını uydurma hesab edən marksist-leninçi fəlsəfə bəşər düşüncəsinin inkişaf tarixinin zahiri konstatasiyasını aparmaqla hər cür idraki fəaliyyəti çərçivəyə salır və "özündəmaddə" (öz-özündən yaranan və bütün varlığı özünə aid olan) hesab etdiyi varlıq aləminin insan idrakına "fenomenal" görünəcək bütün təzahürlərini həmin çərçivədən qavramağa və izah etməyə məcbur edirdi.

Azərbaycan folklorşünaslıq elmi öz tarixi boyunca "folklor-din" problemini heç vaxt fundamental tədqiqatların mövzusuna çevirməyərək, bu sahədə "mərkəzdən" (Moskvadan) gələn ideoloji "ustanovkalarla" kifayətlənirdi. Keçən

əsrin 30-40-cı illərində bu istiqamətdə yazılmış məqalələr isə xalq kütlələrinin sovet idealları ruhunda tərbiyə edilməsinə xidmət edən ideoloji-təbliğati yazılar olmaqdan irəli getməyib, heç bir elmi əhəmiyyət daşımırdı. Keçən əsrin 60-70-ci illərindən bu təbliğat istiqaməti də arxa plana keçməklə Azərbaycan folklorşünaslığında "folklor-din" problemi ümumiyyətlə tədqiqat istiqaməti kimi tamamilə unuduldu və bununla da folklorun öyrənilməsinin mühüm bir sahəsində bu günə qədər davam edən boşluq yarandı. Milli müstəqilliyin qazanılması bu mövzu üzərindəki ideoloji-fəlsəfi çərçivəni qaldırsa da, əsrin dörddən birini əhatə edən müddət ərzində bu istiqamətdə gözə çarpacaq dəyişiklik baş vermədi. Bunun əsas səbəblərindən biri müstəqillikdən sonra özünün sovet ideoloji-fəlsəfi əsaslarından məhrum olmuş Azərbaycan humanitariyasının fəlsəfi-metodoloji baza etibarilə ümumiyyətlə dayanıqsız duruma düşməsi və eklektik ideyalar, nəzəriyyələr, təlimlər və baxışlar ümmanında bu günə kimi çırpınmasıdır. Lakin bu fəlsəfi-ideoloji qeyri-müəyyənliyin özü gerçəkliyi idrakın inkişafında zəruru mərhələdir və bu mərhələnin ən əsas xüsusiyyəti sosial-humanitar elmlərə "özünüaxtarış" imkanını təqdim etməsində ifadə olunur. Bunu Azərbaycan folklorşünaslıq elmində son onilliklərdə meydana çıxan bir sıra fundamental araşdırmaların nümunəsində açıq-aydın görmək olur. Azərbaycanda folklor həmin tədqiqatların nümunəsində artıq "etno-kosmik düşüncə modeli, etnik özünüifadə və davranış kodu" kimi tədqiq olunur, "folklor materiallarının materiya modelində təhlili təcrübələri" meydana çıxır və ən başlıcası, "mifologiya və din teoinformasiyanın səviyyələri" kimi götürülməklə vahid teoqonik-fəlsəfi sistem daxilində ümumiləşdirilir. Bu da öz növbəsində "folklor-din" kimi mürəkkəb fəlsəfi-

metodoloji əsaslara və nəzəri-elmi struktura malik bir problemi vulqar sosioloji baxışlardan tamamilə azad yeni baxış müstəvisinə gətirməyə imkan verir.

"Folklor" və "din" düşüncə konseptləri olaraq bir-birindən ayrılmaz anlayışlardır. Folklor etnosun bədii özünüifadə kodların biridir. Lakin bu, folklorun sonrakı inkişaf mərhələlərində gəlib çıxdığı keyfiyyət müəyyənliyidir. Qədimlərə doğru folklor, din, fəlsəfə və s. bir-birindən ayrılmaz olub, vahid sinkretik ictimai şüurun təzahür formaları idi. İctimai şüurun inkişafında zamanla fəlsəfə, folklor, din, incəsənət... aktual üzvlənmə keçirərək bir-birindən ayrılır, lakin bu, onları bir-birinə bağlayan telləri ümumiyyətlə aradan qaldırmır: vaxtilə sinkretik sistem daxilində birgə olan folklor və din daha sonra vahid ictimai şüur sistemi daxilində daim bir-biri ilə əlaqədə olan, biri digəri ilə qidalanan etnik özünüifadə və davranış kodlarına çevrilir. Dünyagörüşü, yaradılış ideologiyası və sosial-mədəni davranış sistemi olan din bədii özünüifadə kodu olan folklora daim təsir edir və folklor janrları zamanla dini özünütəşkilin formaları (dini rəvayətlər, əfsanələr və s.) kimi çıxış edir.

## Folklor və islam dini

Azərbaycan etnik məkanında dini-mədəni müxtəliflik və tolerantlıq probleminin ən aktual sahələrindən biri "Azərbaycan folkloru və İslam dini" mövzusudur. Vəhy dini olan islam VIII əsrin sonları – IX əsrin əvvəllərindən Azərbaycan dini-fəlsəfi, ideoloji-mədəni düşüncə sisteminə daxil olmağa başlayır. İdeologiyaların, fəlsəfi sistemlərin qarşılaşmasını, mübarizəsini və qovuşmasını nəzərdə tutan bu proses üç mühüm münasibətlər modeli ilə əlamətdardır:

1. İslamaqədərki "folklor-din" münasibətlər modeli;

2. İslamla yeni mərhələyə qədəm qoyan “folklor-din” münasibətlər modeli;

3. İslami dəyərlər sistemi əsasında yenidən formalaşan “folklor-din” münasibətlər modeli.

Bu “tarix” zahirən mərhələlərin bir-brini əvəz etməsi kimi sadə təsir bağışlasa da, əslində, çox mürəkkəb problemdir. Problemin mürəkkəbliyi həm də Azərbaycan din tarixinin sistemsiz və eklektik öyrənilməsi ilə bağlıdır. Hələ bu günə kimi elmi fikir dövriyyəsində zərdüştilik-tanrıçılıq münasibətlərini ümumiləşdirən bir tədqiqat ortada yoxdur. Digər tərəfdən, folklorun əski milli ideoloji ənənələri, politeist mifoloji-dini dəyərləri mühafizə etməsi onu dini dünyagörüşlərinin bir-birini əvəz etdiyi məlum tarixi xronikalara sığışdırmağa imkan vermir. Folklor düşüncəsi “özünəməxsus immun kodları” (janr, ifadə vasitələri) ilə öz “milli” avtonimoyasını (əski ənənələr bağlılığını) daim qorumağa və saxlamağa çalışır. Bu da öz növbəsində “Azərbaycan folkloru və İslam dini” mövzusunu göründüyündən daha çətin, daha mürəkkəb problemə çevirir. Lakin problemin mürəkkəbliyinin hansı dərəcədə olmasından asılı olmayaraq, Azərbaycan folklorşünaslığının müasir səviyyəsi bu mürəkkəbliyi aradan qaldırıb, “folklor-din” probleminin nəzəri-fəlsəfi, idraki-metodoloji əsaslarının yaradılmasını tələb edir. Bu, zamanın Azərbaycan folklorşünaslıq elminin qarşısında qoyduğu tələb və təxirəsalınmaz vəzifədir. Çünki folklorşünaslıqda xüsusilə aşıq poeziyası və məhəbbət dastanlarının tədqiq sahəsində ciddi nəzəri-metodoloji boşluqlar və fəlsəfi-idraki yanlışlıqlar meydana çıxmışdır. Problemin aktuallığı folklorşünaslıqda bu yanlışlıqların get-gedə axına və qarşısıalınmaz prosesə çevrilməsi təhlükəsi ilə bağlıdır. Elmi tədqiqat öz mahiyyəti və strukturu etibarilə metodologiyaya bağlıdır və daim

onu tələb edir. “Folklor-din” problemi ilə bağlı yaranmış nəzəri-metodoloji boşluq və fəlsəfi-idraki yanlışlıqlar artıq koranə metodologiyaya çevrilməkdədir. Bu da öz növbəsində “Azərbaycan folkloru və İslam dini” mövzusu da daxil olmaqla bu istiqamətdə fundamental-monoqrafik tədqiqatların aparılmasını zərurətə çevirir.

Darvinizm mahiyyətini 40-50 il ərzində itirdi. Dinə qədərki tarix anlayışı da elmdə öz yerini saxlaya bilmədi. Deməli, din insanlıq tarixi ilə, bəşərin mövcudluğu ilə həmyaşdır. Din bütün zamanlarda mübahisə mövzusu olmuşdur. Mübahisənin əsas tərəfləri isə dindarlar və ateistlərdir. Ən sonda ateistlər də Allahın varlığını təsdiq etdilər. Din nədir? İman nədir? Küfr nədir? Əvvəlcə bu ifadələrə aydınlıq gətirilməlidir. Dinə münasibətdə fərqli mədəniyyətlərin və cəmiyyətlərin irəli sürdükləri fikirləri nəzərdən keçirək. Tümer Günay “Din” adlı əsərində: “Din şüurlu hər kəsi, nəbinin bildirdiyi gerçəkləri mənimsəməyə çağıran ilahi bir qanundur” söyləmişdir. Deməli, din ilahi bir qanundur, insanların dizayn edəcəyi, fikirləşə biləcəyi amil deyildir.

Bəzi sapı özümüzdən olan cahillər “islamafobiyadan” söz açaraq yanlış istiqaməti anladırlar. İslam dininə məxsus olan birisinin İslam fobiyasından bəhs etməsi nə dərəcədə məntiqə uyğundur? Nədir İslam fobiyası? Qeyri-müsəlmanların işğalçılıq siyasətinə don geyindirmək, haqsızlıqlarına haqq qazandırmaq oyunundan başqa bir şey deyildir. Yadınızdadırsa, vaxtilə ermənilər bu termini daha çox işlədirdilər. Bunlar hər hansı bir yadellinin müsəlman ölkələrinə saldırı öncəsi informasiya dövriyyəsinə daxil etdiyi ifadələrdir. Baxaq görək, İslamda ksenofobiyaya meyil varmı? İslam peyğəmbəri haqqında İncilə müraciət edək. “...Allahın səltənəti

sizdən alınacaq, Onun meyvələrini yetişdirəcək bir xalqa veriləcək. Bu daşın üstünə yıxılan parçalanacaq, o da kimin üzərinə düşsə, onu toza döndərəcək" (İncil 1996, Təkvin 21).

"Rəbb sizə başqa bir Faraqlit göndərəcəkdir, ta ki, daima sizinlə birgə olsun" (İncil 1996, Matta,42).

"O sizə hər şeyi öyrədəcək və sizə söylədiyim hər şeyi yadınıza salacaq" (İncil 1996, Bab:14, ayə 15).

"...Mən getməsəm, Faraqlit gəlməyəcək... Və O gələndə günah, yaxşılıq və hökm üçün dünyaya hakim olacaq" (İncil 1996, Bab:14, ayə 7-8).

Yuxarıdakı nümunələrə diqqət etsək, Allah rəsulu Məhəmmədin İncildəki kodlarını görərik. Sonuncu ayələrdə Faraqlit kimi keçən isimin əsli yunan olan Priklitosdur, ərəbcə tərcüməsi Əhməd kəlməsinin qarşılığıdır ki, Qurani-Şərifdə peyğəmbərimizin İncildəki adının Əhməd olduğu xəbər verilir (Qurani-Kərim 2016, Saf surəsi, 61, 1).

Çağdaş nəzəriyyəçilərin "islamafobiyası"nın uydurma olduğu bu nümunələrdən aydın görünmürmü?

İslamın nuru Qurani-Kərim qeyri-müsəlmanların haqqının qorunması alanında nədən bəhs edir? Baxaq görək burada bir fobiya vardır və ya İslama qarşı haqsız böhtanlar nədən qaynaqlanır.

Allah-Təala Quranda belə buyurur: "Allah din xüsusunda sizinlə savaşmayan və sizi yurdunuzdan çıxarmayan kimsələrə yaxşılıq etməyinizi və dəyər vermənizi yasaqlamaz. Allah qədir bilənləri sevər. Allah sadəcə, din xüsusunda sizinlə savaşmış, sizi yurdunuzdan çıxarmış və çıxarılmanıza dəstək vermiş kimsələrlə dostluğunuzu yasaq etdi. Onlara yaxınlıq edənlər zalımlıq etmiş olarlar" (İncil 1996, 8-9).

Quran qeyri-müsəlmanlara qarşı ədalətli olmanı tövsiyə edir, amma

1) dinimizdən ötrü bizimlə savaşanları;

2) vətənimizə basqın edənləri;

3) bizə qarşı savaşanlara dəstək verənləri –

bu cizgiləri tapdayanlarla dostluq edilməz.

Bizə qarşı savaşanlara Allah belə əmr etmişdi: “Sizə qarşı savaş açanlarla Allah yolunda savaşın. Haqsız bir kimsəyə təcavüz etməyin. Allah haqsız savaşanları sevməz. Təcavüzkara qarşı döyüşün, onları tutduğunuz yerdə öldürün. Sizi çıxardığı yerdən siz də onları çıxarın. Fitnə öldürmədən betərdi” (Qurani-Kərim 2016, Bəqərə, 2).

İslamda birgə yaşamaq və digər konfeksiyalara münasibət olduqca dəyərli və başqa dinlərə nümunə olacaq bir durumu nümayiş etdirir. Məlum olduğu kimi İslamda iki əsas bayram vardır ki, hər ikisinin də mahiyyəti bəşəri və humanitar səciyyəsilə təşviq olunmalıdır. Bu gün İslam dünyasının sevinclə qeyd etdiyi Qurban bayramının tarixi bəşər tarixi qədər qədimdir. Tanınmış ilahiyyətçi alim Əhməd Niyazovun ətraflı təqdimatında Qurbanın mahiyyəti tolerantlıq baxımından elmi dövriyyəyə işıq tutmaqdadır. Alim qeyd edir ki, Qurban ibadətində əsas olan üsuluna və şərtlərinə uyğun bir heyvanın ibadət və qulluq məqsədilə kəsərək qanının axıdılmasıdır. Heyvanın kəsildiyi andan etibarən möminin bu ibadəti yerinə yetirilmiş hesab edilir. Uca Allah buyurur:

“Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan sizin təqvanızdır” (Qurani-Kərim 2016, 22-37).

Həm ayə, həm də Hədisi-şərifə görə qurban ibadətinin yerinə yetirilmə və məqbul olmağı kəsim anıdır. Kəsilmiş qurbanlıq heyvanın ətinin paylanması bu ibadətin rüknlərin-

dən deyil. Ona görə onun ətindən varlı, yoxsul, müsəlman və qeyri-müsəlman hər kəsə verilə bilər. Müsəlman hansı ölkədə yaşayırsa yaşasın, kəsdiyi qurbanın ətindən müsəlman olmayan yəhudi, xristian və s. qonşularına da verilə bilər.

Həzrəti Ömər (Allah ondan razı olsun) da qurban kəsdikdə ilk olaraq qonşuluqda yaşayan müsəlman olmayana göndərmişdir. Hətta əmin olmayana qədər ki, qurban payı qonşuya çatmayıb, özü yeməzmiş. Peyğəmbər (s.a.s.) də bir çox yəhudi ilə ünsiyyət qurmuşdu. Yəhudi Abdullah ibn Səlam, peyğəmbərliyindən əmin olmaq üçün Həzrəti Məhəmmədlə (s.a.s.) söhbət etmiş, məhz bu söhbətin nəticəsi olaraq islamı qəbul etmişdi.

Tarixdə "Mədinə Vəsiqəsi" adı ilə tanınan məşhur bir müqavilə var ki, bu müqavilə də İslamın daha tolerant, müxtəlif inanclara dözüm və sayğısının bariz nümunəsidir. Hələ heç bir toplum özündən olmayanlarla belə ədalətli davranmamışdır. Yalnız İslam dini və onun peyğəmbəri bütün bəşərə ədalətli olmuşdur.

"Mədinə Sənədi" yəhudilərə əmin-amanlıqla yaşama və mülkiyyət hüququ vermişdi. Müsəlman olmamaları onların hüquqlarını məhdudlaşdırmırdı. "Mədinə Sənədi"nə əsasən müsəlmanlarla qeyri-müsəlmanlar, o cümlədən yəhudilərin arasında əlaqələr müəyyənləşdirilmiş, yəhudilər də İslam dövlətinin vətəndaşları hesab edilmişdilər. Bu gün isə yəhudilər Fələstində İslam torpaqlarını işğal edir və minlərlə müsəlmanı qətlə yetirirlər. İndi fobiya haradadır? İslam fobiyadır, yoxsa, islama qarşı fobiya düşünülərək həyata keçirilir?

"Mədinə sənədi"nə görə yəhudilər sərbəst etiqad və dövlət tərəfindən himayə edilmə hüququna sahib idilər. Əslən ərəb kəlməsi olan millət kəlməsi, ərəb dilində din mənasında

istifadə olunmuşdur. Qurani-Kərimdə də eyni ilə, millət kəlməsi din mənasında işlənmişdir (Qurani-Kərim 2016, Bəqərə 130, Ali İmran 95, Yusif 38, Nəhl 123, Sad 7). Millət kəlməsini qısa şəkildə ifadə etmiş olsaq, bu bir dinə mənsub olan xalqın dini adət və ənənələrini əks etdirən davranış mənzuməsidir. Osmanlı dövründə və dövlətində də millət kəlməsi din olaraq istifadə olunmuş və Osmanlı dövləti fərqli millətlərə qarşı siyasətində din faktorunu əsas almışdır. Çox millətlilik və ya çox mədəniyyətlilik Qərb dünyasında tərəflərin bir-birinə qarşı hörmətlə, xoş görmək və ya fərqlilikləri görməzdən gəlmək olaraq İmanuel Kant ve John Lockun fəlsəfi görüşlərində dilə gətirilmişdir (Locke 1990, 19-21, 55). Bu görüşlər ilk növbədə ictimai rəy əsasında fərdi düşüncələrin formalaşmasını əsas görmüşdür. Fərdi düşüncə və fikirlərin ictimai ehtiyac və zərurət qarşısında assimilyasiya olması prinsipinə əsaslanan bu qarşılıqlı ehtiram, fərqli mədəniyyət mənsublarının da bölgədə aktiv rol alması və haqq hüquqlarının təmin olunması baxımından daha da şəkillənmişdir.

## Dini-mədəni müxtəliflik

Çox mədəniyyətlilik, demək olar ki, sosiolojidən siyasət elmlərinə, fəlsəfədən tədris elmlərinə qədər bütün sahələrin üzərində durduğu təməl prinsiplərdəndir. Bu prinsiplər praktik və normativ olaraq iki təməl kateqoriyada təhlil oluna bilər. Praktik, teorik və normativ əsaslara görə aparılan bu təhlillər çox mədəniyyətliliyin ictimai sinif, sosial təbəqə, dini, əxlaqi, fərqli etnik mənsubiyyət tərkiblərindən qaynaqlanan bir sistemə sahib olduğunu ifadə etməkdədir. Demək olar ki, dünyada Koreya və İslandiyanı çıxmaq şərti ilə, bütün ölkələr

çox mədəniyyətliliyə ev sahibliyi etməkdədir (Coşkun 2012, 34) Burada bir haşiyə çıxmış olsaq bəhs etdiyimiz tədqiqat Türkiyədəki əxlaq dərsini tədris edən müəllimlər, ilahiyyatçılar və tədris sahəsindəki mütəxəssislər arasında aparıldığını qeyd etməyimiz yerinə düşər. Bu məqsədlə çox mədəniyyətliliyə sahib olan dilbər guşəmizin tədris sahəsindəki təmsilçilərimizə müxtəlifliyi, fərqliliyi bir zənginlik olaraq aşılaması və qarşı tərəfin görüş, düşüncə əxlaq və davranışlarına öz sərhədlərini keçmədiyi təqdirdə hörmət və ehtiramı aşılamağı öyrətmələri tövsiyə olunur. Başımızın tacı olan böyüklərimiz üzrlü saysın, amma xüsusilə bölgədəki hüzurun təmin olunması üçün də hər iki tərəfə qarşı fərqli düşüncə, fikir qarşısında hörmət və ehtiramın aşılanması tələb olunur. Burada məsələni bir az da qəlizləşdirərək, cəmiyyətin islah olunmasının kimlərin üzərində öhdəlik və vəzifə borcu olması məsələsini də dilə gətirmiş olsaq, əl və dil birliyi ilə bütün sahələrdə olan mütəxəssislərin toplu səyi nəticəsində cəmiyyətin bütün fərdləri sahiblənməli və mədəniyyətimizin ən gözəl nümunələri ilə nəsiblənmələridir. Nevzat Tarhanın "*Cəmiyyət Psixologiyası*" adlı əsərində dilə gətirdiyi kimi ifratçılığı əslində gənclik, zəka və düşüncədə formalaşan artıq enerjinin, fərqli düşünmə və əksər hallarda səmimiyyətdən qaynaqlanan daha çox savab qazanma istəyinin müsbət məcraya çevrilməsi ilə çox mühüm nəticələrin hasil olmasına yönəltmək olar (Tarhan 2012). Bunun üçün də ifrata və ya təfriqə meyillənən gənclərimizi də bizdən bilib, onlara böyük ailəmizin bir parçası olaraq daim səbr və təmkinlə xeyri aşılamalı və pislikdən çəkindirməliyik. Yenə də xüsusilə üzərində israr etməklə cəmiyyətin bütün sahələrində olan fərdlərin, mütəxəssislərin əl və

dil birliyi ilə bunun mümkün olduğunu ifadə etməyimiz zəruridir (Gündoğdu 2008, 34).

Çox mədəniyyətlilik artıq qloballaşma, dünyada beyin gücü və beyin köçünün artması, iş imkanlarının dəyişməsi, fərdiləşmə və s. əsaslar çərçivəsində "mən və digəri" düşüncəsinin səbir, xoş görmə kimi klassik ifadələrin yerini Poperin dilə gətirdiyi qarşı tərəfi ancaq mənfi deyil, eyni zamanda müsbət bir şəxsiyyətə, müsbət əxlaqi keyfiyyətlərə sahib bir fərd olaraq qəbul olunması iddiasına əsaslanır. Bu müddəalar UNESCO-nun 1995-ci ildəki "Xoş Görü Təməlləri Bəyannaməsi" ilə müxtəlif mədəniyyətlərin zənginliyinə, bəşəriyyətə hörmət və ehtiramın dilə gətirilməsi də ifadə olunmuşdur.

Mövzu ilə əlaqədar müsəlmanların Avropada inteqrasiyası və şərqdə kimlik, düşüncə, din və adətlər mənzuməsində fərqlilik göstərən mədəniyyətlə tanışlığı mövzusu əsas alınaraq işlənmişdir. Müsəlmanlar VIII əsrdə İberiya yarımadasında Əndəlus dövlətini və mədəniyyətini qurmaqla həm özlərini tanıtmış, həmçinin fərqli mədəniyyətlə tanışmışdır. Buna görə də Avropa qanunu dəyənək siyasəti, demokratiyanı təzyiqlə, mənəviyyatla maddiyyatı, ağılla əfsanələri birlikdə toplayan miras üzərinə qurulduğu da ifadə olunmalıdır. Bu günün Avropasına gəlincə isə bu keçmişə aid tarixi simvol və əfsanələrə referans olmadan, gələcəyə və gələcəkdəki vətəndaşı olan xalqların hüzurunu təmin etmə vəzifəsini əsas bilir. Qərbin sahib olduğu bu tarixi miras xalqların inteqrasiyası ilə mədəniyyətlərin tanışmasında ya Huntigtonun ifadə etdiyi kimi mədəniyyətlərin toqquşması kimi (Samuel 2002) ya mədəniyyətlərin güclü və zəif tərkib əsaslarına görə bir-biri qarşısında əzilməsi, ya da assimilyasiyası kimi təzahürlərlə ortaya çıxmışdır (Perşenbe-Karai 1943).

Doğrusunu etiraf etsək, özümüzü isbat etmək üçün çox vaxt fərqli mədəniyyətlərdən misallara, xüsusilə də Qərbdən aldığımız ilhama ehtiyac duyuruq. Halbuki, özümüzün tarixi mirasımıza diqqət etsək, Osmanlı mədəniyyətində çox mədəniyyətliliklə əlaqədar sözlü deyil, canlı örnəklərin sahibi olduğunu ifadə edə bilərik. Osmanlı imperiyası böyük əksəriyyəti müsəlmanlar olan bölgədə xristianların ortodoks və katolik, yəhudilərin Rabbani, Karai, Samiri məzhəbləri, müsəlmanların şiə və sünni məzhəbləri kimi fərqli düşüncə və görüşdə olan insanları özündə cəmləyirdi. Statistik məlumatlara görə, Sultan Süleyman Qanuninin (1520-1566) dövrünə təsadüf edən nüfuz qeydlərində, ölkə əhalisi təqribən 12 milyon olaraq bildirilmiş, bunların 58%-i müsəlmanlar, xristianlar 41 %, yerdə qalan 1% qismi isə yəhudilər qeyd olunmuşdur. Çox maraqlıdır ki, 1831-ci ilin nüfuzunda Rumelidə yaşayan xalqın 38 % müsəlmanlar, 60 % xristianlar, Anadoluda yaşayanların 83% müsəlmanlar və 15 %-i isə xristianlardır (Perşenbe-Karai 1943, 215).

Ümumiyyətlə, çox millətlərlə yaşamaq ya onların güclü təsir, mədəniyyət altında assimilyasiya olub tamamilə tarixdə yox olması, yaxud fərqli millətlərin eyni məqsəd və hədəf üçün iş birliyində olub onların mədəni irslərinə sahib çıxıb, hörmət və ehtiramla yanaşmaqla mümkün olmuşdur. Sadə bir misalda dünyanın ən zəngin və müxtəlif mədəniyyət sahibi olan Balkan bölgəsini dörd yüz il heç bir münaqişəsiz idarə edən Osmanlının çəkilməsi ilə, irqçiliyin nəticəsi olaraq Avropanın ortasında və dünyanın gözü önündə Serebnitsa soyqırımı həyata keçirilmişdir (Karpat 2001, 513). Örnəklər arasında Qubadakı qazıntılar əsnasında ortaya çıxan məzarlıq, xalqımızın başına gətirilən milli zəmində fərqli soyqırımlar, tarixdəki xaçlı döyüşləri və s. misal verilə bilər (Yılmaz 2004, 40). Folklor və

dinin qarşılıqlı münasibətlər kontekstində tədqiqi mürəkkəb problemdir. Belə ki, hər iki sosial-mədəni özünüifadə kodu tarixən ictimai şüurun sinxron struktur vahidləridir. İstənilən xalqın, o cümlədən Azərbaycan xalqının ictimai şüur tarixində folklor və din, demək olar ki, eyni tarixi başlanğıca malikdir. Diaxron-tarixi baxımdan hər ikisi mifoloji şüurun parçalanıb tarixi şüura keçidi kontekstində meydana çıxır. Bu halda dinin istər politeist, istərsə də monoteist formalarının necə meydana çıxması əhəmiyyət kəsb etmir. Yəni din və folklor həmişə yanaşı şüur formalarıdır. Din istər politeist inanc, istərsə də monoteist vəhy kimi bütün hallarda insanın "nitqindən keçərək" verballaşır (sözə çevrilir). Bu halda istənilən hadisənin nəql edilməsi onu artıq folklorlaşdırır. Çünki "folklor" anlayışının bütün mahiyyəti fikrin şifahi ifadələnməsi ilə bağlıdır. **Şüurda olanın şifahi nitq vasitəsilə ifadə olunaraq "variantlaşması", "kollektivləşməsi" və "improvizasiyalaşması" onu həm də folklor mətninə çevirir.** Demək, dinin vəhy bilgisi, yəni teokosmik informasiya kimi şifahi nitqlə ifadə olunması onu folklorla birləşdirir. Beləliklə, dinlə folklorun mürəkkəb münasibətlərinin bir səviyyəsini də məzmunla (din) formanın (şifahi ifadə olunma) münasibətləri kimi də təsəvvür etmək olar. Lakin bütövlükdə götürdükdə din və folklor ictimai şüurun müstəqil formalarıdır.

## Dini-mədəni müxtəliflik və tolerantlıq ictimai şüur konseptləri kimi

**"İctimai şüur" konsepti.** İctimai şüur fərdlərdən təşkil olunan cəmiyyəti bütövlükdə əhatə edən total düşüncə sistemidir. Bu sistem laylı struktura malikdir. Din, fəlsəfə, folklor,

ədəbiyyat, elm, incəsənət və s. ictimai şüurun formalarıdır. Həmin formalar eyni bir ictimai şüuru müxtəlif kodlar vasitəsi ilə ifadə edir. Məsələn, dövlətçilik ideyası dastanlarda epik-tarixi kodla, cəmiyyətlərarası münasibətlərdə sosial-siyasi təşkilolunma modellərində, dini mətnlərdə Allahın yer üzünə verdiyi mənəvi-əxlaqi modellərdə və s. ifadə olunur.

**İctimai şüurun diaxron inkişaf mərhələləri: mifoloji və tarixi şüur.** İctimai şüur tarixi kateqoriyadır. Elmdə ictimai şüurun iki mərhələsi fərqləndirilir: mifoloji və tarixi şüur.

Mifoloji və tarixi şüur məkan-zamana baxışlarına görə fərqləndirilir.

Gerçəkliyi inikasın mifoloji konsepsiyasında məkan-zaman qapalı-təkrarlanan struktura malikdir. Varlıq istər bütövlükdə (tam olaraq), istərsə də onun tərkib hissələri səviyyəsində bir nöqtədən başlanır, qapalı trayektoriya üzrə hərəkət edir və həmin nöqtədə də öz varlığını başa vurur. Bundan sonra yeni qapalı dövrə başlanır. Beləcə mifoloji dünya modelində gerçəklik qapalı, təkrarlanan kontinuum (məkan-zaman sistemi) şəklində təsəvvür olunur.

Tarixi şüur modelində məkan və zamanın qapalılığı dağılır və düzxətli kontinuuma keçir.

**Mifologiya – ictimai şüurun başlanğıc mərhələsi kimi.** Mifologiya bəşər tarixinin ilkin şüur mərhələsi hesab olunur. Mədəniyyətin bu gün gördüyümüz bütün mənalı elementləri öz başlanğıcını bu və ya digər şəkildə mifologiyadan götürür. Mifologiya ilkin mədəniyyətin beşiyidir. Bu cəhətdən din və folklor da mifologiya ilə sıx şəkildə bağlıdır.

**Mifoloji şüurun sinkretik strukturu.** Mifologiyanın əsas xarakterik cəhətlərindən biri onun sinkretik struktura malik olmasıdır.

Sinkretizm – hərfi mənada "qovuşma", "çarpazlaşma" anlamındadır. Yəni bu gün müstəqil ictimai şüur formaları olan din, fəlsəfə, elm, ədəbiyyat, siyasət, folklor və s. mifologiyada bir-birinə qovuşmuş, birləşmiş haldadır. Bunları şərti olaraq rüşeym halı da hesab etmək olar. Ona görə də mifologiyada dini görüşlərlə folklora aid təsəvvürlərin sərhədləri çox vaxt bilinmir.

**Mifoloji şüurdan tarixi şüura keçid.** Mifoloji şüur tarixi bəşər düşüncəsinin tarixində ilkin mərhələ hesab olunur. Bu mərhələnin sonuna doğru mifoloji şüur parçalanmalar dövrünə daxil olur. Onun parçalanaraq dağılması ilə din, folklor, elm, incəsənət bir-birindən ayrılmağa, müstəqilləşməyə başlayır. Bununla da mifoloji şüur öz yerini tarixi şüur formalarına verir.

**Folklor və din mifoloji şüurdan üzvlənən tarixi ictimai şüur formaları kimi.** Mifoloji şüurun parçalanması ilə ondan bir çox şüur formaları inkişaf edir. Din və folklor da mifoloji şüurdan aktual üzvlənmə keçirərək müstəqil tarixi şüur formalarına çevrilir. Bu şüur formaları həm oxşar, həm də fərqli cəhətlərinə malikdir. Oxşarlıq onların ortaq mərhələsi – sinkretik mifoloji başlanğıcı ilə bağlıdır.

**Folklor – etno-kosmik düşüncə modeli, bədii özünüifadə və davranış kodu kimi.** İctimai şüurun formalarından biri olan "folklor" düşüncə konsepti kimi geniş məna sistemini təşkil edir. Folklor haqqında çoxlu sayda təriflərin olması bundan irəli gəlir.

Keçmiş sovet elm məkanında "folklor" anlayışı şifahi xalq ədəbiyyatı ilə eyniləşdirilirdi. Sonralar folklora şifahi ədəbiyyatı (sözlü folkloru) da öz içərisinə alan geniş sistem kimi yanaşılmağa başladı. Azərbaycan folklorşünaslığında folklor artıq "etno-kosmik düşüncə modeli, bədii özünüifadə və davranış

kodu kimi" kimi nəzərdən keçirilir. Bu tərif folklor anlayışının strukturunu bütövlükdə əhatə edir. Bu cəhətdən, **folklor:**

– **"etno-kosmik düşüncə modeli kimi"** xalqın gerçəklik haqqında ənənəvi təsəvvürlərini özündə birləşdirən düşüncə sistemi, dünya modeli;

– **"bədii özünüifadə kodu kimi"** şifahi ədəbiyyat, bədii söz yaradıcılığı, bədii-estetik düşüncə forması;

– **"davranış kodu kimi"** sosial təşkilolunmanın simvolik sistemidir. Buraya xalqın kütləvi-mərasimi davranış formulları olan adətlər-ənənələr, toylar, yaslar və s. ritual formaları aiddir.

**Din – yaradılış ideologiyası, dünyagörüşü və sosial-mədəni davranış sistemi kimi.** Dinə yanaşmada müxtəlif mövqelərin olmasına baxmayaraq, onu ən ümumi halda yaradılış ideologiyası, dünyagörüşü və sosial-mədəni davranış sistemi kimi götürmək olar. Bu cəhətdən, **din**:

– **yaradılış ideologiyası kimi** bütün varlıq aləmin yaradılışından bəhs edən ideoloji düşüncə sistemi;

– **dünyagörüşü kimi** varlıq haqqında tam (bütöv) təsəvvürlər sistemi;

– **sosial-mədəni davranış sistemi kimi** insanlığın həyatını tarix boyunca sakral davranış sxemləri əsasında təşkil edən total davranış modelidir.

İslam tolerantlığında həm məzhəblərarası, həm də dinlərarası birgə yaşamdan bəhs edilir. Məşhur İslam alimi Əbusəttar İbrahim əl-Heyti "Fərdin özü-özü ilə və başqası ilə dialoqu" əsərində yazır ki, əgər dinlər və mədəniyyətlərarası dialoq bir çoxlarına müasir həyatın, şəraitin diqtə etdirdiyi zərurətdirsə, İslama görə bu, dini vəzifə və mükəlləfiyyətdir. Allah-Təala bu vəzifəni müsəlmanlara ona görə yükləyib ki,

onlar bəşəri cinsin birliyi çərçivəsində həmrəylik və tolerantlıq dəyərlərini yaşasınlar.

İslamın bəşəri bir din olmasını, nəticədə bütün insanların İslama gəlişini qeyri-müsəlman alimləri dəfələrlə öz cahanşümül əsərlərində qeyd etmişlər. Hətta bir çox ağıllı və qeyri-dinə mənsub insanlar İslamın mahiyyətini başa düşdükdən sonra islam dinini qəbul etmişlər.

“Every Man” ensiklopediyası İslam və müsəlmanlar haqqında, onların multikulturallığa münasibətini şərh edərək yazır ki, islamiyyət həyatın bütün məsələləri üçün qaydalar qoyur. O, qüsursuz bir qanunlar toplusudur. Bəli, İslam əxlaq normasıdır. O, bütün bəşərə göndərilib, ona görə ki, fani dünyanın malına görə insanlar vəhşi cildini soyunub atsınlar və bir-birinə qarşı – insanlığa qarşı ədalətli olsunlar.

## Nəticə

Azərbaycan etnik məkanında dini-mədəni müxtəliflik və tolerantlıq problemi üzrə aparılmış müşahidə və təhlillərimiz bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Azərbaycanın etnik-mədəni mühiti mürəkkəb struktura malikdir. Bu strukturun nüvəsini türk etnosu təşkil edir. Bütün digər etnik elementlər bu nüvə ətrafında düzülməklə funksional sistem yaratmışdır.

2. Tədqiqat göstərdi ki, Azərbaycan etnik məkanında dini-mədəni müxtəliflik dərin köklərə malikdir. Azərbaycan tarixən qədim sivilizasiya mərkəzlərindən biri olmuş, bu ərazidə daim antropoloji-mədəni tarix yaşanmışdır. Bu tarixə nəzər saldığımızda dini müxtəlifliyin iki əsas layını aşkarlayırıq:

a) mifik-dini sistemlər;

b) səmavi dini sistemlər.

3. Azərbaycan etnik məkanında dini-mədəni müxtəliflik və tolerantlığın əsasında islam konsepsiyası durur. İslamın sonuncu vəhy dini olması, özündən əvvəlki vəhy dinlərini qəbul etməsi və onların funksionallaşmasına şərait yaratması Azərbaycan etnik məkanını dini-mədəni müxtəliflik və tolerantlıq mərkəzinə çevirmişdir.

## ƏDƏBİYYAT


1. Aydın 2016 – Aydın Mülayim. Kuran da Din adamları. İstanbul, 2016

2. Bayındır 2014 – Abdulaziz Bayındır. Kuran işığında doğru bildiyimiz yalanlar. İstanbul, 2014

3. Coşkun 2012 – Mehmet Kamil Coşkun. Din Kültürü və Əxlaq. Dumlupinar Ünivers. Sos. Bil. Der., 2012

4. Draz 1974 – M. Abdullah Draz. Din və Allah inancı. İstanbul, 1974

5. Əl-Qədidi 1995 – Əhməd əl-Qədidi. İslam və sivilizasiyaların mübarizəsi. Doha, 1995

6. Haife Hasan 2010 – Mühammüd Halife Hasan. Dialoq. Qahirə, 2010

7. Hakan 2008 – Hakan Gündoğdu. Çox mədəniyyətli cəmiyyətlərdə digərləri ilə yaşamaq və xoşgörü. EKEV elmi dərgisi, 2008, s. 37

8. İncil (Tərcümə edəni: Mirzə Xəzər). Stokholm: Bibliya Tərcümə İnstitutu, 1996

9. İslam Peyğəmbəri. Bakı, 2013

10. Karpat 2001 – Kemal Karpat. Osmanlı və Dünya. İstanbul, 2001

11. Qarayev 2002 – Yaşar Qarayev. Min ilin sonu. Bakı, 2002

12. “Qurani-Kərim” və Tərcüməsi. Ankara, 2016

13. Locke 1990 – Jhon Locke. Aletter Conseming Tolerantion. Nev York: Prometeus Books, 1990, s.19-21

14. Niyazov 2014 – Əhməd Niyazov. Aktual Dini Məsələlər. Bakı, 2014

15. Niyazov 2016 – Əhməd Niyazov. XIX əsr Azərbaycanın Şimal-Qərbində Dini həyat, elm və mədrəsələr. Bakı, 2016

16. Öztürk 2013 – Muammar Öztürk. Mən inanıram. Bakı, 2013

17. Perşenbe-Karai 1943 – Erkan Perşenbe, Enver Ziya Karai. Çox mədəniyyətli Avropaya müsəlmanların inteqrasiyası. Ankara, 1943

18. Sami 1991 – Şəmsəddin Sami. Kamusi Türki. İstanbul: Dərasədət c.1-11, s. 645-1404

19. Samuel 2002 – Hintington Samuel. Mədəniyyətlərin Toqquşması və Dünya sistemlərinin Yenidən Qurulması. İstanbul, 2002

20. Şimel 2000 – Anna Mari Şimel. İslam bəşəriyyətin dinidir. Doha, 2000

21. Tarhan 2012 – Nevzat Tarhan. Toplum Psikolojisi. İstanbul, 2012

22. Vəzin 2008 – Fəzlullah Vəzin. Qurana görə dialoqun əsas prinsipləri. Karaçi, 2008

23. Yılmaz 2004 – Ömer Yılmaz. Çox mədəniyyətli Osmanlı dövlət təcrübəsinin çox dinli və mədəniyyətli Avropaya təsiri. Ankara, Diyanet Elmi Dərgiləri, 2004, s.40

## Multiculturalism and tolerance: folklore and religious relations model formed on the base of the islamic values


### Summary

In the article it is said that Islam is the only religion that there is no need for violence and suggests the people the exemplary moral. Today the correct meaning of the concept multiculturalism is characterized with coming from Islam.



**Key words:** epochal, integration, ethnic, Islam, multi-culturalism


## Мультикультурализм и толерантность: модель фольклора и религии формировавшиеся на основе исламских ценностей


### Резюме

В статье указывается на то, что Ислам является единственной религией, в которой нет места насилию и внушает людям образцовую мораль. Сегодня правильное значение понятия мультикультурализм характеризуется его происхождением от сущности Ислама.



**Ключевые слова:** эпохаль, интеграция, этнический, ислам, мультикультурализм

**Ləman Vaqifqızı (Süleymanova)**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi,*
*lemansuleymanova@rambler.ru*

# AVARLARDA DAMBIR İFAÇILIĞI[1]

**Giriş.** Azərbaycanda vaxtilə geniş yayılmış tənbur sənəti hal-hazırda yalnız Zaqatala-Balakən bölgəsində yaşayır. Bu bölgədə tənbura dambır[2], dambırla oxunan mahnılara isə hayla deyirlər. Bölgədə həm qadın, həm də kişi dambırçılar olmuşdur. Bəs hayla sözünün etimologiyası nədir? Hayla deyəndə yada ilk əvvəl "haylamaq", "haraylamaq", "səsləmək", "çağırmaq" feilləri düşür. Maraqlıdır ki, xakaslar, altaylar, şorlar, tuvalılar, başqırdlar dastana "kay", "kayla", yaxud "hay", "hayla", dastan söyləyənə isə "kayçı", "hayçı" deyirlər. "Hayla" sözünün bir mənası da "boğazda oxuyan", yaxud da "boğaz oxuması" anlamını verir. Prof. Metin Ergin "Hakas hayçıları və hayçılık sanatı" adlı tədqiqatında qeyd edir ki, "Hakaslar arasında nimax, yaxud da alıptıx nimaxlar söyləməyə hayla deyilir" (Ergin 1993).

Dambır ifaçılığı Zaqatala rayonunun Tala kəndlərində, Balakən rayonunun Tülü, Gülüzanbinə, Qazma, Qullar, Talalar kəndlərində daha çox yayılmışdır. Azərbaycan türklərinə məxsus olan bu sənət birgə yaşayış zamanı bu bölgədə yaşayan di-

------------------------------

[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/51/5**

[2] Balakən-Zaqatala bölgəsində tənbur dambır adlandırıldığı üçün biz də belə verməyi məqsədəuyğun saydıq.

gər xalqların da nümayəndələrinə keçmiş və onlar da bu sənətin daşıyıcılarına çevrilmişlər. Bu gün demək olar ki, bu bölgədə yaşayan bütün xalqların nümayəndələri arasında dambır çalıb hayla oxuyanlar vardır. Azərbaycan türklərindən fərqli olaraq, azsaylı xalqların dambır ifaçıları arasında deyişməyi bacaran dambırçılarla rastlaşmadıq. Onlar yalnız solo ifa edirlər. Azsaylı xalqların arasından çıxmış dambır ifaçıları haylaların böyük əksəriyyətini Azərbaycan dilində oxusalar da, arasıra öz dillərində dedikləri haylalarla da üzləşirdik. Onların bir çoxunun etirafına görə, bu haylalar da Azərbaycan dilində olan haylanın öz dillərindəki tərcümələridir.

Biz demək olar ki, rastlaşdığımız bütün söyləyicilərdən dambırın yaranması ilə bağlı hər hansı bir mətnin olub-olmadığını soruşmuşduq. Amma heç kəs bu haqda bir şey danışa bilməmişdi. Yalnız Zaqatala rayon Maqov kənd sakini Məmmədkamil Yaqub oğlu Qardaşovdan dambırın yaranması ilə bağlı iki rəvayət qeydə ala bildik. Söyləyici bizim sualımız cavabsız qalmasın deyə bu mətnləri danışdı: “Üz-üzə yerləşən dağda iki ailə yaşayırmış. Bir ailənin oğlu o birinin qızını sevirmiş. Onlar tez-tez görüşürlərmiş. Bir gün qar uçqunu qızı və ailəsini aparır. Bu vaxtadək musiqi ilə heç işi olmayan oğlan bu hadisədən sonra dəliyə dönür, yay, qış demədən çay yatağı boyunca gəzməyə başlayır. Buna bir at bağışlayırlar ki, piyada gəzməsin. Bir müddət sonra at da qocalır, oğlan da zümzümə eləməyə başlayıbmış. O, atın quyruğunu kəsir, ondan ip kimi düzəldir, onu ağaca bağlayır, ilk dəfə onda çalır. İlk dəfə onda sevgi musiqiləri çalırmışlar”.

“Dağıstanda dağlarda iki tayfa yaşayırmış. Dağın birindəki oğlan tez-tez çıxıb hərəkətlər edirmiş. Qız da o biri dağda ona bənzər hərəkətlər edir. Oğlanın hərəkətlərini görən

ailəsi qıza elçi düşür. Onların hərəkətlərini toya yığışanlar da yamsılamağa başlayırlar. Buradan da avar rəqsləri yaranıb". Onu da qeyd edək ki, Məmmədkamil Yaqub oğlu Qardaşov özü də yaradıcılığa maraqlı şəxs idi.

Avar dambırçılarının daha çox oyun havaları ifa etməyə üstünlük verdiklərini müşahidə etdik. Avarlar dambır havalarını makam adlandırırlar. Təəssüf ki, əksər avar dambırçıları ifa etdikləri havaların adlarını bilmir, "Kişilər oynayan makam", "Qadınlar oynayan makam", "Kişilərlə qadınlar oynayan makam", "Gəlin gələndə çalınan makam" (Bu hava gəlin evə girəndə çalınırmış) kimi adlandırırlar. Yalnız "Akkoş" və ya "Ərqoç" adlı havanın adını bildilər. Onu da qeyd edək ki, bu hava bölgədə yaşayan Azərbaycan türkləri arasında da məşhurdur.

Avar dambırçıları dambırda ifa zamanı daha çox müasir avar şairlərinin şeirlərini oxumağa üstünlük verirlər. Onlar arasında dambırın müşayiəti ilə bu gün müasir şeirlərin oxunması özü də bir folklor hadisəsidir, yəni folklor ifaçılığının davamıdır.

Zaqatala rayon Maqov kənd sakini Qardaşov Məmmədkamil Yaqub oğlu avarlar arasında söz kasadlığının olduğunu dedi və qeyd etdi ki, avarlar daha çox rəqs etməyə meyillidirlər. Bu üzdən də avar dambırçıları mahnı oxumaqdan çox, rəqs havaları ifa edirlər. Yaşlı söyləyicilər bu gün gənc avarların rəqs etmə tərzindən duyduqları narazılıqları da dilə gətirirlər. Onların dediklərinə görə, əvvəllər avarlar dambır havalarının müşayiəti ilə rəqs edərkən və yaxud da ümumiyyətlə, rəqs edərkən çox yumşaq oynayar, sanki quş kimi süzərmişlər. İndiki cavanlar isə daha sərt əl-qol hərəkətləri edirlər. Yaşlılar bu oyun tərzini "çeçenski" adlandırır, onların dediklərinə görə, bu rəqs etmə forması avarlara yox, çeçenlərə məxsusdur.

**Dambırın auditoriyası.** Bölgənin Azərbaycan türklərində olduğu kimi avarlarda da dambır daha çox iməciliklərdə çalınarmış. İməciliklər yalnız Zaqatala və Balakən rayonlarına xas deyil, həmçinin Qax və Şəki rayonlarında da müxtəlif iməciliklər keçirilirdi. Bölgədə tütün yığmaq, tütün düzmək, qarğıdalı dənləmək, baramanı şaxdan ayırmaq, yun didmək, ev tikmək, ot çalmaq, fındıq yığmaq və s. kimi çox vaxt aparan işlər ümumi kənd camaatının birgə əməyi ilə edilərdi. İməcilikdə iştirak edənlər adətən dəvət almazdılar. Kənddə kimin belə işi var idisə, yaxın qonşular, qohumlar müəyyən olunmuş vaxtda yığışıb gələr və ev sahibinə kömək edərdilər. Ev sahibi gələnlər üçün yemək hazırlayar, iməciliyə yığışanlar isə lazım olan işi görüb qurtarardılar. Belə məclislərdə maraqlı söhbətlər edilər, müxtəlif oyunlar oynanılar, çalğı və rəqslər də olardı. Yeri gəlmişkən qeyd edək ki, iməciliklər yalnız ayrı-ayrı şəxslərin evində deyil, kolxoz işləri üçün də təşkil olunardı. Kolxoz iməcilikləri ev iməcilikləri ilə müqayisədə daha geniş şəkildə təşkil olunar, daha təmtəraqla keçirilərdi.

Dambırın daha çox çalındığı yerlərdən biri də bölgədə həm türklər, həm də avarlar arasında vaxtilə dəb olmuş *gap (söhbət) məclisləri* idi. Gap məclisləri xüsusilə, uzun qış gecələrinin yaraşığı idi. Kənd yerlərində axşamüstü toyuq-cücəni, mal-qaranı yemləyəndən, əl-ayaq yığışandan sonra qonşular ailəlikcə bir evə yığışar, səhərə kimi oturardılar. Bu məclislər demək olar ki, hər gecə keçirilirdi. Gap məclisləri həmin dövrün insanlarının xatirələrində o qədər dərin iz buraxıb ki, həmin məclislərin xiffəti ilə kövrələn söyləyicilərlə də qarşılaşdıq. Gapa yığışan kişilər xalçanın üstünə salınmış döşəklərdə oturar, yaşlılar həm də mütəkkələrə dirsəklənərdilər. Onlar cürbəcür mövzularda söhbət edər, qadınlar isə otağın bir küncündə ye-

mək hazırlaya-hazırlaya bu söhbətlərə qulaq asardılar. Söhbətlərin mövzusu əsasən kənddəki aktual mövzulara həsr olunardı. Qardaşov Məmmədkamil Yaqub oğlu öz uşaqlıq dövrünün gaplarını təsvir edərkən əsas mövzunun o dövrün qaçaqları olduğunu xüsusi vurğuladı. Gap məclislərində cürbəcür oyunlar da oynanılarmış; "Dəyirmançı"[1] oyunu, "Üzük-üzük", "Siçan-pişik".

Dambır da gap məclislərinin vazkeçilməz aləti imiş. Məclis iştirakçıları söhbət səngiyəndən sonra dambır musiqisinə qulaq asar, həm də rəqs edərmişlər. Borayev Murtuzəli Mohuma oğlunun dediyinə görə, bəzən gənclər dambır havasına elə oynayardılar ki, hətta polu sındırardılar. Burada yarışmalar olardı: kim yorulmadan daha çox çalar, kim oyunda qarşısındakını yorar və s.

İməcilikləri və gap məslislərini bir növ bölgənin folklor məclisləri də adlandırmaq olar. Zaqatala və Balakən iməcilikləri, gapları dambırsız keçməzdi. Bu bölgədə yaşayan Azərbaycan türklərinin, avarların, saxurların, ingiloyların arasından dambırçılar çıxmışdır. Düzdür, bu xalqların hər biri dambırı eyni səviyyədə yaşada bilmir, amma dambır ifaçılığında hər kəsin özünəxas yeri vardır. Dambır yalnız iməciliklərdə, gaplarda deyil, xınayaxdılarda, toydan sonra təşkil olunan məclislərdə, əsgər qonaqlıqlarında, sünnət məclislərində, müasir dövrdə həm də ad günlərində və s. məclislərdə ifa olunur. "Dambırla toy keçirilirdimi?" sualına bölgədə yaşayan bütün millətlərin nümayədələrindən, bir-iki söyləyici istisna olmaqla, mənfi cavab aldıq. Deyilənlərdən belə anlaşıldı ki, bölgə toyları daha çox qara zurnanın iştirakı ilə keçirilərmiş, yalnız toyun müəyyən mərhələlərində (xınayaxdı, toydan son-

-----------------------------

[1] Söyləyici oyunu təsvir etsə də, adını deyə bilmədi. Adlandırma bizə məxsusdur, məzmunundan çıxış edərək belə adlandırdıq.

ra gəlinin üzə çıxarılması məclisində və s.) dambırçalanlar gətirilərmiş. Borayev Murtuzəli Mohuma oğlunun dediyinə görə, əvvəllər toylara dambırçalanları çağırmasalar da, son dövrlərin toylarında bir-iki dambır havası çalmaq dəb düşüb.

**Avarlarda tənbur ifaçılığı.** Bölgədə bu gün professional avar dambırçı ilə rastlaşmaq mümkün deyil. Biz bu bölgədə yaşayan və əlinə dambır almağı bacaran hər kəslə görüşməyə çalışdıq. Düzdür, bəzən arada bizdən asılı olmayan səbəblər ucbatından istisnalar da oldu. Balakən rayonunun Şambul kəndində Xalayev Əli ilə dəfələrlə görüşməyə çalışsaq da, hər dəfə onun Rusiyaya mövsümi işlərlə bağlı getməsi səbəbindən bu görüşü reallaşdıra bilmədik. Zaqatala rayonunda da Hacıyev Hudul ilə də eyni səbəbdən görüşümüz alınmadı. Deyilənlərə görə, vaxtilə avarlar arasında da ustad dambır ifaçıları olmuşdur, ancaq təəssüf ki, biz professional ifaçı ilə rastlaşmadıq. Bu gün avarlar arasında dambır ifa edənlərin aşağıdakı məlumatlardan da görəcəyimiz kimi çoxu cavan adamlardır. Onların bir qismi də dambır çalmağı öyrənib bu gün toylara gedir və bununla öz güzəranını təmin etməyə çalışır.

Biz bir məqaləmizdə avar dambırçıların havanı loğat adlandırmasını yazmışdıq (bax: Vaqifqızı (Süleymanova) 2016). Ancaq bölgəyə etdiyimiz son səfərlərimizdə bu məlumatın yanlış olduğunu dəqiqləşdirdik. Məlum oldu ki, avar dambırçıları dambırda ifa olunan havaları loğat deyil, makam adlandırırlar.

Keçmiş dambırçılarla bağlı xatirələri qeydə alarkən Zaqatalanın Maqov kəndindən olan Murad kişinin, İsa kişinin, Muxtar kişinin, Patimat arvadın adlarını qeyd elədilər. Patimat arvad həm də Azərbaycan dilində haylalar oxuyurmuş.

Qardaşov Məmmədkamil Yaqub oğlunun dediyinə görə, avar dilində dambır üçün mahnı sözləri seçərkən çox uzun

hecalı misralardan istifadə edəndə yaxşı alınmır, dilə yatımlı olmur. Gərək misralarda hecaların sayı az olsun. Yeddi hecalı, ən uzağı doqquz hecalı misralar seçilərsə, mahnı daha yaxşı alınır.

Söyləyicilərin verdikləri məlumatlara görə, hayla deməyi bacaranlar hətta sini (məcməyi) də çalıb oxuyarmışlar. Meşəşambul kənd sakini 1951-ci il təvəllüdlü Hacı Nurmuhammed oğlu Osbanovun dediyinə görə, Ömər Qaysayev özü diş həkimi olsa da, həm dambır çala bilirmiş, həm də yaxşı sini çalırmış.

*Əli Həybullah oğlu Qaralov* 1940-cı ildə Balakən rayonunun Şambul kəndində doğulub. O, hal-hazırda mollalıq etdiyi üçün dambırda çalıb oxumur. Bizim israrlı xahişimizdən sonra bir neçə dambır havası ifa etdi. Deyilənlərə görə, vaxtilə yaxşı dambır çalan imiş. Amma hal-hazırda mollalıq etdiyi üçün dambır çalmağa çox da həvəsi yox idi.

*Eldar Ömər oğlu Hatıyev* 1975-ci ildə Balakən rayonunun Mahamalar kəndində doğulub, hal-hazırda da bu kənddə yaşayır. O, ailəsini dolandırmaq üçün usta işləyir, ev tikir. Hatıyev Eldar yaxşı dambır çalıb hayla deməklə bərabər, həm də dambır düzəldib satır. O, dambıra simlər əlavə edərək onu müasirləşdirmişdir. Bu tip dambırlara lazım olanda mikrofon taxmaq üçün yer də düzəldir. Pərdələri artırılmış dambırın səsi ənənəvi dambırdan fərqlənir, gitara səsinə daha çox bənzəyir. Bu cür dambırın ifa imkanları da çoxalır, belə ki, bu dambırda ənənəvi dambır mahnıları ilə yanaşı, digər mahnıları da ifa etmək mümkün olur. O, "müasirləşdirdiyi" dambırda "Sarı gəlin" mahnısını da ifa etdi. Eldar Hatıyevin dediyinə görə, atası Ömər kişi də dambır düzəldirmiş. Burada onu da qeyd etmək yerinə düşər ki, bölgə dambırçılarının əksəriyyətinin nəsil şəcərəsi bu sənətlə bağlıdır. Hatıyev Eldar həm

Azərbaycan, həm də avar dilində mahnılar oxuyur. Azərbaycan dilində oxuduğu mahnıların əksəriyyətinin sözləri bölgədə məşhur olan haylalardır. Oxuduğu mahnıların bir qisminin sözləri və müsiqisi özünə məxsusdur. O, dambırda Balakəni mədh edən mahnılar oxumağı daha çox sevir:

Gözəldi təbiəti,
Həm rayon, həm kəndləri,
İçməyə suyu sərin,
Ay mənim Balakənim.

Budur gözəl yurdum mənim,
Sevincim, həm fəxrim mənim.
Səninlə döyünür bu ürəyim,
Ay mənim Balakənim.

Bir yanı uca dağların,
Bir yanı meyvə bağların,
İgid qız-oğlanların,
Ay mənim Balakənim.

Dambırın iki simi,
Xoş edər hər məclisi.
Allah qorusun səni,
Ay mənim Balakənim.

O, bizə özünün bəstələdiyi bir havanı da ifa etdi[1]. Havanın adını soruşduqda zarafatla "Eldarın havası" adlandırdı. Hava çox sürətlidir, oyun havasıdır. Özünün dediyinə görə, bu havada sağ əlin iki barmağı işləyir: şəhadət və orta barmaq. Digər barmaqlarla işləmək çox çətin olur, çünki digər barmaq-

----------------------------

[1] Avar dambırçıları hava bəstələmək deyəndə hansısa şeiri dambır havalarına uyğunlaşdırmağı nəzərdə tuturlar.

ların iştirakı qolu çox hərəkət etdirir. Orta templi rəqs havalarını ifa edərkən isə yalnız şəhadət barmaq işləyir. Hərdən o biri barmaqlardan da havaya "gözəllik qatmaq üçün" istifadə olunur. Hava daha aşağı tempdə çalınırsa, dambırın simlərində yalnız şəhadət barmaq hərəkət edir. Məsələn, "Gürcü havası" bu cür ifa olunur. Eldar Hatıyev demək olar ki, bütün ifalarını gözüyumulu etdi. O, ifa etdiyi zaman sanki qarşısında oturanları görmür, ətraf aləmlə əlaqəsini tamamilə kəsirdi.

*Şamil Hacımahama oğlu Terçiyev* 1984-cü ildə Balakən rayonunun Meşəşambul kəndində doğulub. Yaşının az olmasına baxmayaraq yaxşı dambır ifa edir. Ancaq təəssüf ki, digər avar dambırçıları kimi o da ifa etdiyi havaların adlarını bilmir. Başqa avar məsləkdaşları kimi o da ancaq oyun havaları çalmağa meyillidir. Şamil Terçiyevdən oxumağı xahiş etdiyimiz zaman çətinlik çəkdi, hətta ətrafımıza yığışan qadınlardan hayla sözləri demələri üçün yardım istədi. Sonra Balakəndə və Dağıstanda yaşayan şairlərin avar dilində yazdıqları şeirləri oxumağa başladı. Mahnı kimi oxuduğu şeirlərin bir qismini kağızdan baxıb oxuyurdu. Ondan oxuduqlarını Azərbaycan dilinə tərcümə etməyini xahiş etdiyimiz zaman bölgədə yaşayan şairlərin sözlərini tərcümə etdi, amma Dağıstan şairlərindən oxuduğu şeirlərin sözlərini tərcümə etdiyi zaman çətinliklə üzləşdi və bir sıra hallarda tərcümə edə bilmədi. Eyni halla yalnız Şamilin yaradıcılığında deyil, bölgədə yaşayan demək olar ki, bütün avar dambırçıların repertuarında qarşılaşdıq. Onlar Dağıstanda yaşayan şairlərin repertuarına müraciət etdikləri zaman tərcümədə əziyyət çəkirdilər.

*Feyzullah Muslim oğlu Qallayev* 1949-cu ildə Zaqatala rayonunun Maqov sovetliyinin Höytala kəndində doğulub. Halhazırda Zaqatala şəhərində yaşayır. Sürücü işləyir. Feyzullah

Qallayev deyilənə görə, Zaqatala avarları arasında ustad dambırçılardan biri sayılırmış. Onunla görüşümüz zamanı qonaqlıq təşkil edildi. Dəfələrlə müşahidə etmişik ki, dambırçılar yaxşıca yeyib-içəndən sonra daha yaxşı çalıb-oxuyurlar.

Feyzullah Qallayevin də bəstələdiyi dambır havası var, bu havanın üstündə "Beral bersinay" ("Gözəl gözlü qız") adlı mahnını bizim üçün ifa etdi. Bu mahnını ifa etdiyi zaman sözlərini gah avar, gah da Azərbaycan dilində oxudu. Bir bənd avar, ikinci bəndi Azərbaycan, nəqarət hissəsini isə yenə də avar dilində oxudu. Azərbaycan dilində oxuduğu bəndlər bayatı mətnləri idi.

Feyzullah Qallayev dambırda "Tərəkəmə" havasını da çaldı. Dediyinə görə, əvvəllər oyun havası kimi "Tərəkəmə"ni də çalardılar. Bu hava yavaş templə çalındığından ona "Yavaş hava" da deyərmişlər. O, "Tərəkəmə"nin arxasınca hiss olunmadan "Ləzginka"ya keçid etdi. Feyzullah Qallayev ifa zamanı özünə qapanır, ifadan sonra isə suallara cavab verməyi elə də sevmirdi.

Onun dediyinə görə, "Arkuş" (Feyzullah Qallayev "Akkoş" havasını belə adlandırdı), yaxud "Ərqoç" havası Dağıstan havasıdır. Toylarda, bayramlarda çalınanan bu havaya daha çox qadınlar oynayarmış. Əgər qadınla kişi birgə oynayardısa, rəsq zamanı kişi qadının hərəkətlərini izləyər, ona uyğun hərəkət edərmiş.

Feyzullah Qallayevin dediyinə görə, əvvəllər dambır havalarının adı yox imiş. Oynamaq istəyənlər "Yavaş hava" makamını çal", – deyərmişlər. O, çaldığı havaların əksəriyyətinin adını bilmir. Avar dilində oxuduğu mahnıları tərcümə etməkdən isə imtina etdi. Feyzullah Qallayevə görə, Dağıstan avarlarının dili ilə Azərbaycanda yaşayan avarların dili arasında çox böyük fərq vardır. Ona görə də burada Dağıstan

avarlarının dilində oxuyanda alınmır, çox adam (avarları nəzərdə tutur) başa düşmür.

Yuxarıda da qeyd etdiyimiz kimi, avar dambırçılar ifa zamanı söz oxumağı o qədər də sevmir, daha çox rəqs havaları çalmağa üstünlük verirdilər. Bizim suallarımızdan və xahişlərimizdən sonra dambır havaları üstündə oxuduqları sözlər isə müasir avar şairlərinin sözləri idi. Bununla belə, onlar arasında dambırda ifa olunan az sayda xalq mahnılarının da olduğunu müşahidə etdik. Belə mahnılardan birini də bizə Feyzullah Qallayev oxudu. O, əvvəlcə bizə "Kaniyo yo buba" ("Gedərəm, ana") adlı xalq mahnısı haqqında məlumat verdi, amma mahnının sözləri qızın dilindən oxunduğu üçün "bunu oxumaq kişiyə yaraşmaz" deyə ifa etməkdən boyun qaçırdı. Bizim təkidimizdən sonra barmağının ağrımasını səbəb gətirərək mahnını dambırda çalmaqdan imtina etdi və qarmonda çaldı. O, oxuduqca yanımızda oturanlar gah gülür, gah da onunla birgə oxumağa cəhd edirdilər. Mahnının sözləri zarafat xarakterli idi, ana qızına ərə getmək üçün namizəd seçməyi tələb edir, oğlanları sadalayır, qız isə hər oğlanın adı çəkiləndə müxtəlif səbəblər gətirərək (çirkinlik, zəngin olmamaq) anasına etiraz edir, sonuncu oğlanın adı çəkiləndə isə onu bəyənir, çünki onun qoyunları çox, özü isə yaraşıqlıdır. Maraqlıdır ki, bu mahnını oxuyan hər ifaçı sonuncu bənddə öz adını çəkirdi, Feyzullah Qallayev də elə etdi. Yeri gəlmişkən qeyd edək ki, bu mahnını Güney Azərbaycan müğənniləri də oxuyurlar.

*Məhəmməd Mikayıl oğlu Məhəmmədov* 1962-ci ildə Zaqatala rayonunun Dardoqqaz kəndində doğulub. Onun dediyinə görə, dambırla yalnız haylaları deyil, bəzi başqa mahnıları da oxumaq mümkündür. Onun ifalarına qulaq asdığımız zaman bu mahnıların da əslində bayatı üzərində qurulduğunu

müşahidə etdik. Bəzən bayatı olmasa da, heca vəznində yazılan şeirlərin dambırla oxunduğunu gördük.

Məhəmməd Məhəmmədov gözəl dambır çalmağı bacarır, olduqca ürəyə yatımlı səsi var. Canlı xarakteri oxuduğu haylalarda da özünü göstərir. Məhəmməd Məhəmmədovun oxuduğu haylaların böyük əksəriyyəti Azərbaycan dilində idi. Əvvəlcə bizə hayla ilə "xoş gəldin" deyən Məhəmməd dayı hamımızın ümumi vətəni olan Azərbaycanı mədh etdi:

Kim gəlibdi, xoş gəlib,
Bu yerlərə xoş gəlib.
Bizim bu Ləman xanım
Zaqatalaya xoş gəlib.

Şöhrətim, şanım mənim,
Vətənim, canım mənim.
Gözəlliklər məskəni
Azərbaycanım mənim.

Sərvətimiz var bizim,
Qüdrətimiz var bizim.
Dövlətlərin içində
Hörmətimiz var bizim.

Vətənimin hər yanı,
Məftun edər insanı.
Cənnət görmək istəyən
Gəzsin Azərbaycanı.

Məhəmməd Məhəmmədov haylaları ilə Zaqatala rayonunu vəsf etməyi də unutmadı. O, Zaqatalanın sözlə sanki rəsmini çəkdi:

Ulduz dönüb Ay olmaz,
Yaz keçməsə, yay olmaz.
Bütün dünyanı gəzsən, *ay Ləman xanım,*
Zaqatalaya tay olmaz.

Bir tərəfi Tala çay,
Bir tərəfi Katex çay.
Olarmı heç sənə tay,
Oy mənim Zaqatalam.
Heç olarmı sənə tay,
Oy mənim Zaqatalam.

Uca, qarlı dağların,
Bol məhsullu bağların.
Mehriban insanların
Var sənin, Zaqatala.

Qınamayın siz məni,
Eşidin bu kəlməmi.
Hər kəsə öz vətəni,
Mənimçün Zaqatala.
Hər kəsə öz vətəni,
Bizimçün Azərbaycan.

O, avar məclislərinə getdiyi zaman Azərbaycan dili ilə yanaşı, avar dilində də oxumağa çalışır. Özünün də etiraf etdiyi kimi, bəzən kitablarda çap olunmuş bayatıları da avar dilinə çevirib oxuyur. Hətta "Ana" adlı şeiri də avar dilinə çevirib avarların çox olduqları məclislərdə səsləndirir və dediyinə görə bu şeir məclis iştirakçılarını çox təsirləndirir. Məhəmməd Məhəmmədov haylaları hətta rus dilinə çevirərək Belorusiyada

keçirilmiş tədbirdə səsləndirib. O, bu barədə məlumat verəndə gülə-gülə dedi ki: "Düşündüm ki, indi mən tutaq ki, azərbaycanca, avarca oxudum. Bunlar mənim oxuduqlarımdan nə qanacaqlar. Samalyotdaca bir-iki haylanı rus dilinə çevirdim. Bizə bələdçilik eliyən Qalinaya dedim ki, indi mən rus dilində bir şeir yazmışam, qulaq as, əgər səhv varsa, sən də ora-burasını düzəlt". Məhəmməd Məhəmmədovun dediyinə görə, o gün nəticədə aşağıdakı haylalar meydana çıxıb:

Асаламалейкум Белорусия,
Привет вам из Азербайджана.
Испасибо вам за тюплые приуом,
От радости для вам песни пайом.

Белорусия города красивые,
Люди гости приемные, добрые.
Эти мы не забудем никогда,
Вспоминат будем мы вас всегда.

*Məmmədov Məmmədnuri Şaban oğlu* 1932-ci ildə Zaqatala rayonunun Maqov sovetliyinin Paşan kəndində doğulub. Əvvəllər sürücü, sonra isə kənd məscidində imam vəzifəsini icra edib. Bizə ustad dambırçılardan biri kimi təqdim olunmağına baxmayaraq nə yaxşı dambır çala, nə də suallarımızı cavablandıra bildi. Ondan sadəcə bir neçə dini mətn qeydə ala bildik.

*Mahmudov Əsabəli Məhəmməd oğlu* 1944-cü ildə Zaqatala rayonunun Danaçı kəndində anadan olub. Hazırda Car kəndində yaşayır. Ali təhsilli incəsənət işçisidir. Dambır düzəldir, düzəltdiyi dambırları cürbəcür şəkillərlə bəzəyir. Bəzəklərin arasında qadın təsvirləri və rəqs edən cütlüklər çoxluq təşkil edir. Qadın təsvirlərinin bir hissəsi milli geyimdə əks olunmuş, bir hissəsi isə hind təsvirlərini xatırladırdı. Onun düzəltdiyi

dambırların uc hissəsi adi dambırlardakı kimi deyil, qadın başı formasında idi. Əsabəli Mahmudov yalnız dambır düzəltməklə kifayətlənmir, taxtadan müxtəlif oyma işləri də hazırlayırdı.

"Neçə yaşından dambır çalmağa başlamısınız?" sualına "boyum dambır boyda olanda" deyə cavab verdi. Əsabəli Mahmudovun çalğısı bizə bir qədər fərqli təsir bağışladı. "Ödoseri" (Yer oyunu kimi tərcümə olunur) adlandırdığı havada dediyinə görə, kişilər yerə çöməlib oynayarmışlar. O, dediyinə görə, uzun illər Zaqatala toylarında akardion çalmışdır.

Bir neçə hava çaldıqdan sonra dambırda mahnılar da oxumağa başladı. Oxuduğu mahnıların sözlərini də özü yazıb.

*Borayev Mütəllib Murtuzəli oğlu* 1989-cu ildə Zaqatala rayonunun Maqov sovetliyinin Paşan kəndində doğulub. Mahaçqalada "Dağıstan mədəniyyət və incəsənət" kollecini bitirib. Xaraktercə olduqca utancaqdır. Bəzi suallarımızı utandığı üçün cavablandıra bilmədi. Onun nəsil şəcərəsində dambır çalan olmayıb, dambır çalmağı öz-özünə öyrənib. Aradabir isə Maqov kəndinə dambırçalan İsa kişinin yanına havaları öyrənmək üçün gedirmiş. İsa kişiyə istinadən deyir ki, avar dambırında cəmi 5 not var. İlk dəfə dambır çalanda Borayev Mütəllibin təxminən 24-25 yaşı varmış. "İsa kişidən hansı havanı öyrənmisən?" sualının qarşılığında "Umumızıl makam" (Tərcüməsi əcdadlardan qalan hava deməkdir) adlı dambır havasını İsa kişidən öyrəndiyini dedi. "Umumızıl makam" qadınlarla kişilərin bir yerdə oynadıqları oyun havasıdır. "Ərqoç" havasını ifa edir. İfa etdiyi əksər havanın adını o da bilmir. Bizim xahişimizdən sonra dambırda həm də oxudu. Digər avar həmkarları kimi o da ürəyinə yatan sözləri götürür, sonra da dambır havasına uyğunlaşdıraraq oxuyur. Azərbaycan dilində oxuduqları mahnı mətnləri isə, adətən, bayatı mətnləri

olur. Avar dilində isə İmam Şamildən bəhs edən mahnı oxudu. Mütəllib bir hava dambır üçün, bir hava da sintizator üçün bəstələyib. Sintizator üçün bəstələdiyi hava "Zaremadi rekara keç" (tərcüməsi: "Zarema üçün qoşulan mahnı") adlanır. Bəstələdiyi havanı ifa edərkən Dağıstanın əməkdar artisti Qurban Qulizanovun yazdığı şeiri seçdi, amma sonra sözlərini tərcümə etməyə çətinlik çəkdi.

Mütəllib Borayev "Cücələrim" adlı uşaq mahnısını dambırda ifa etdi.

Dambırının üstündə səsgücləndirici quraşdırılıb, toyda dambır çalarkən bundan istifadə edir.

*Arıyev Əhmədəfəndi İlyas oğlu* 1995-ci ildə Zaqatala rayonunun Makov sovetliyinin Paşan kəndində doğulub. Çaldığı havaların heç birinin adını bilmir. Suallarımızı cavablandıra bilməsə də, bir neçə hava ifa etdi. Dambır çalarkən söz oxumağı sevmir və bacarmır. Ara-sıra bölgənin toylarında da iştirak edir. "Bul gətir" adlı türk mahnısını da dambırda ifa etdi.

**Sonuc.** Xalqların mədəniyyəti birgə yaşayış zamanı bir-birindən bəhrələnir. Bu zaman, adətən, böyük xalqların mədəniyyəti və yaxud böyük mədəniyyətlər dominant rol oynayır. Türk mədəniyyəti mənşəcə türk olmayan xalqların da mədəniyyətinə əsaslı təsir göstərmişdir. Bu təsir hətta o qədər güclü olmuşdur ki, bu xalqlar mənşəcə türk olmasalar da, türk mədəniyyəti çevrəsinə daxil olduqlarından mədəniyyət baxımdan türk sayıla bilərlər.

## ƏDƏBİYYAT

1. Ergin 1993 – Metin Ergin. Hakas hayçıları ve hayçılık sanatı. Milli Folklor, 3-9 Cüz, 1993, səh.71-76

2. Vaqifqızı (Süleymanova) 2016 – L.Vaqifqızı (Süleymanova). Azsaylı xalqlar arasında dambır ifaçılığı və hayla yaradıclığı (Zaqatala-Balakən rayonlarından topladığımız folklor materialları əsasında) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, 2016/1 (48), səh. 23-27

## Avar'S Tanbur Perfomance

### Summary

Right now tanbur is only alive in Zagatala-Balakan region of Azerbaijan. Tanbur performance and hayla creativity are popular among national minorities which is characteristic for Azerbaijani Turks. Every nations which are living in this region have own role in progress of tanbur creativity. Creativities of different dambirchies from avars discussed in the article.

**Key words:** dambir, hayla, makam, avar

## Исполнительство дамбура у аваров

### Резюме

В Азербайджане танбур сохранился и существует по сей день только лишь в Закатало – Балаканском регионах. Исполнительство на тамбур и творчество хайла присущее Азербайджанским тюркам широко распространено среди малочисленных народностей. Каждая народность, живущая в регионах, способствуют развитию и жизнеустойчивости тамбурского искусства, отличается самобытностью. В статье рассказывается о творчестве различных исполнителей на дамбыре аварского происхождения.

**Ключевые слова:** дамбыр, хайла, макам (дамбырская мелодия), авар

**Mehparə Rzayeva**
*Sabunçu rayonu F.Bayramov adına*
*22 saylı tam orta məktəbin müəllimi*

# "OĞUZNAMƏ" EPOSUNDA MULTİKULTURAL DÜŞÜNCƏ VƏ DAVRANIŞ MODELLƏRİ[1]

## Giriş

"**Multikulturalizm** – ayrıca götürülmüş bir ölkədə və bütövlükdə dünyada mədəni fərqliliklərin qorunması və inkişafına yönələn siyasət və bu siyasəti əsaslandıran nəzəriyyə, yaxud ideologiyadır (Мультикультурализм).

Azərbaycan multikultural düşüncə və davranış modelinin folklor-mifoloji köklərinin öyrənilməsindən ötrü digər mühüm qaynaqlardan biri çoxlu variantlara malik olan "Oğuznamə" eposudur. Oğuznamələr iki tipə ayrılır:

1. Tarixi-xronoloji oğuznamələr;
2. Ədəbi oğuznamələr (Bayat 2004, 255-274).

"Oğuznamə"lər ideoloji-dini tipinə görə isə müsəlman oğuznamələri və "Oğuznamə"nin uyğur versiyası deyə iki tipə ayrılır.

Qeyd edək ki, tarixi-xronoloji oğuznamələr içərisində "Oğuznamə"nin uyğur versiyası istisna olunmaqla bütün digərləri müsəlman oğuznaməsi hesab olunur. Dastanın yalnız uyğur versiyası islami görüşlərdən uzaq olub, mifik inanclarla zəngindir.

"Oğuznamə" adı altında ümumiləşən variant və versiyalar böyük bir epos sistemini təşkil edir. Prof. Ramazan Qafarlı

-----------------------------------

[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/51/5**

variantlarla onların birləşərək yaratdığı epos sistemi arasındakı münasibətlər haqqında yazır: "Oğuznamələrin özünün eposdan fərqlənən ayrıca janr ölçüləri yoxdur, məzmun daşıyıcıları isə fərqli və rəngarəngdir" (Qafarlı 2002, 574). "Oğuznamə türk xalqlarının oğuz qrupunun şifahi epik ənənəsinin nəzm və nəsr-lə yaranan eposlarına orta çağların əvvəllərində yazıya alınar-kən verilən addır. Hər bir xalqa aid epos yaradıcılığının spesi-fik cəhətləri olduğu kimi, oğuzların da dastanlarında başqala-rından seçilən əlamətlər mövcuddur. Başlıcası ondan ibarətdir ki, xalq arasında yaşadığı çağlarda ötənlərə nəzər salıb nəticə çıxarmaq, tarixi hadisələrdən ibrət götürmək ön plana çəkilmiş, bu səbəbdən də mifoloji qatlardan gələn motivlərə də gerçəklik donu geydirilmişdir. "Oğuznamə" deyəndə hər şeydən əvvəl folklorla yazılı ədəbiyyatın bir nöqtədə birləşdiyi məqam yada düşməlidir. Ulu bir elin böyük zaman çərçivəsində düzüb-qoş-duğu epik söyləmələr bir qələm sahibinin təxəyyülündən keçə-rək həmişəlik yazı yaddaşına köçürülür. Uzun əsrlər boyu on minlərin yaddaşından süzülə-süzülə gəlib qəlibləşən, daha doğ-rusu, xüsusi poetik formalara salınıb dastanlaşan mifoloji və tarixi əhvalat, əfsanə, rəvayətlər şifahi yaşama dövrünü başa çatdırır, bir fərdin istedadı, yaradıcılıq imkanları vasitəsi ilə ki-tablaşdırılmaqla əbədi yaşama imkanı əldə edir. Faktlar göstə-rir ki, türkün təkcə eposları deyil, başqa folklor əsərlərindən ibarət əlyazma mətnləri də Azərbaycanda XVII-XVIII yüzil-liklərdə "oğuznamə" adlandırılırdı" (Qafarlı 2002, 577).

"Oğuznamə" eposunda qədim oğuzların multikultural düşüncə və davranış modellərinin qorunması təsadüfi deyidir. Prof. K.V.Nərimanoğlu və F.Uğurlunun yazdıqları kimi:

"Oğuznamə – türk xalqının həyatını, mübarizəsini, mə-nəviyyatını əks etdirən ədəbi-tarixi qaynaqdır.

Oğuznamə – oğuz eposudur.

Oğuznamə – oğuz tarixidir.

Oğuznamə – oğuz mədəniyyətinin nəsildən-nəslə keçə-keçə yaşayan həyat kitabıdır" (Oğuznamələr 1993, 3).

"Oğuznamə" eposunda qədim oğuz-türk həyatının, demək olar ki, bütün mənalı hadisələri epos söyləyiciliyinin qayda-qanunlarına uyğun şəkildə bədiiləşmişdir: "Türk xalqlarının tarixini və mədəniyyətini əks etdirən qaynaqlar daha çox şifahi yaddaşla ağızdan-ağıza keçə-keçə yaşayan söz sənəti örnəkləri ilə bağlıdır. Yazdırılan salnamələr, yasalar, kitabələr, bitiklər, unudulan qayaüstü cizgilər və rəsmlər, damğa və yazı gələnəyi folklorla çiyin-çiyinə yaşayaraq xalqın tarixini, mənəviyyatını yaşatmışdır. Bu abidələrin sırasında oğuznamələr ayrıca yer tutur. Oğuznamələr türk xalqının həyatını, mübarizəsini, mənəviyyatını obrazlar, bədii lövhələrlə əks etdirən ədəbi-tarixi qaynaqlardır. Oğuz tarixi, oğuz düşüncəsi ilə oğuz epik ənənəsini üzvi şəkildə birləşdirən oğuznamələri yaradan qam-şaman-ozan-baxşı-akın deyilən qədim söz ustaları, mənəviyyat aləmini sənətdə yaşadan "Haqq-Taala könlünə ilham etmiş" ustadlar olub" (Nərimanoğlu 2004, 78).

## Eposda multikultural düşüncə və davranış modelləri

"Oğuznamə" dastanı bütövlükdə oğuzların ulu əcdadı Oğuz kağanın (xanın) həyatı, dünyanı necə fəth etməsi və ölənə yaxın imperiyanı öz oğlanları arasında necə bölməsi kimi mövzulardan bəhs edir. Oğuz kağan hərbi yürüşləri zamanı çoxlu tayfalar, xalqlar və dövlətlərlə qarşılaşır. Bu zaman onlara göstərdiyi münasibət oğuzların multikultural düşüncə və davranışlarının necəliyini öyrənməyə imkan verir.

Eposda oğuzların özlərindən fərqli xalqlara münasibəti bütün mənalı elementləri ilə əks olunub. Məsələn, “Oğuznamə”nin uyğur versiyasında Oğuz kağan İtil çayının sahilində Urum kağanla vuruşaraq onu məğlub edir:

Oğuz kağan düşməni basdı,
Urum kağan qaçdı.
Oğuz kağan Urum kağanın məmləkətini,
elini, gününü aldı.
Onun düşərgəsinə çoxlu canlı,
cansız qənimət daxil oldu (Bayat 1993, 130).

Göründüyü kimi, Urum kağan Oğuz kağana müqavimət göstərib vuruşur və onun xalqı hərbi məğlubiyyətin bütün acısını yaşamalı olur. Ancaq bu epizod oğuzların başqa xalqlarla yalnız belə rəftar etdiyini göstərmir. Onların multikultural düşüncəsinin əsasında dost-düşmən modeli durur. Urum kağan oğuzlara düşmən münasibət bəslədiyi üçün onunla vuruşurlar. Lakin kim oğuzlara dost münasibəti bəsləyirsə, oğuzlar da onunla dostcasına rəftar edir və Oğuz siyasi-inzibati sisteminə daxil edirlər. Elə həmin dastanda Oğuz kağanın öz düşməni Urum kağanın doğma qardaşı Urus bəyin oğluna göstərdiyi münasibət bu baxımdan səciyyəvidir.

Urum kağanın Urus bəy adlı bir qardaşı vardı.
Bu Urus bəy oğlunu dərin çay arasında
yaxşı möhkəmləndirilmiş bir şəhərə göndərdi.
Ta ona dedi ki, şəhəri qorumaq gərəkdir.
Sən şəhəri saxlayıb, vuruşdan sonra qayıdıb gələrsən.
Oğuz kağan bu şəhərin üstünə yürüş etdi.
Urus bəyin oğlu Oğuz kağana çoxlu
qızıl-gümüş göndərdi.

Dedi ki, sən mənim kağanımsan.
Atam mənə bu şəhəri verdi,
Dedi ki, şəhəri qorumaq gərəkdir.
Sən şəhəri mənə saxlayıb,
vuruşdan sonra qayıt gəl.
Əgər atam sənə qarşı çıxıbsa,
məni suçlu bilmə. Sənin yarlığını
özümə böyüklük, bilgi kimi bilirəm.
Bizim xoşbəxtliyimiz sənin xoşbəxtliyindir.
Bizim uruğumuz sənin uruğ ağacının toxumudur.
Tanrı sənə: "Yer üzünü al", - deyə buyurmuş.
Mən sənə başımı da, xoşbəxtliyimi də verərəm.
Vergi verib, dostluqdan çıxmaram.
Oğuz kağana igidin sözü xoş gəldi, sevindi, güldü.
Ta belə dedi: – Mənə çox qızıl göndəribsən,
Şəhəri də yaxşı saxlayıbsan.
Buna görə də ona Saklab adını verdi,
Onunla dostluq etdi (Bayat 1993, 130).

Bu mətn parçası oğuzların epik-mifoloji ənənədə qorunub qalmış multikultural düşüncə və davranış modellərinin öyrənilməsindən ötrü çox qiymətli faktlar təqdim edir. **Multikulturalizm mahiyyəti etibarilə mədəni fərqliliklərin qorunması deməkdir.** Yəni burada söhbət mədəni fərqliliklərə münasibətdən gedir. Dünya politoloji düşüncəsində mədəni fərqliliklərin məhz qorunması multikulturalizm adlanır. Dastandan verdiyimiz bu parçada biz sözün hərfi mənasında multikultural düşüncə və davranış faktları ilə qarşılaşırıq. Yəni biz burada üç etnik elementin (urum, urus və saklab) Oğuz etnik-mədəni sisteminə məhz multikultural əsaslarla daxil edilməsi ilə qarşılaşırıq. Beləliklə, bu parçanın təhlili ilə aşağıdakı nəticələr meydana çıxır:

1. Dastandakı dörd obraz, əslində, dörd xalqı – etnosu təmsil edir:

Oğuz kağan – oğuz xalqının obrazı;

Urum bəy – rum xalqının obrazı;

Urus bəy – rus xalqının obrazı;

Saklab – qədim saklab xalqının obrazı.

Göründüyü kimi, burada obrazlar arasındakı münasibət xalqlar arasındakı münasibəti təmsil edir. Oğuz kağan Urum kağanın ölkəsini aldıqdan sonra burada əmin-amanlıq yaradır. "Rum/Urum" – "Roma" sözünün Şərqdəki tələffüz formasıdır. Urum xalqı Oğuz dövlətinin tərkibinə daxil olduqdan sonra müəyyən şərtlər daxilində öz milli kimliyini, mədəni fərqliliyini qoruya bilir. Eləcə də ruslar və saklablar da mədəni fərqliliklərinin saxlanılması şərti ilə Oğuz etnik-mədəni məkanına inteqrasiya olunurlar.

2. Dastanda Oğuz kağanın dünyanı istila etməsi, müxtəlif dövlətləri və xalqları Oğuz imperiyasının tərkibinə qatması ilahi hökm kimi təqdim olunur. Bu, Urus bəyin oğlunun Oğuz kağana dediyi "Tanrı sənə: "Yer üzünü al", - deyə buyurmuş // Mən sənə başımı da, xoşbəxtliyimi də verərəm" sözlərində aydın şəkildə ifadə olunub. Buradan görünür ki, Urus bəyin oğlu Oğuz kağanın imperiya yaratmasını ilahi təqdir hesab edir və bu təqdirin həyata keçirilməsində şəxsi iştirakını xoşbəxtlik sayır.

3. İmperiya tərkibinə qatılan hər bir xalqın öz etnik-mədəni kimliyinin qorunmasının əsas şərti vergi verməkdir. Urus bəyin oğlu da vergi verməklə mənsub olduğu etnosun Oğuz imperiyası tərkibində bütün etnik-mədəni atributlar sistemini qorumağa nail olur.

4. Dastandaklı faktlar göstərir ki, Oğuz kağanın bu ölkələri döyüşlə tutaraq, imperiyanın tərkibinə qatması heç də mürtəce işğalçılıq deyildir. Oğuzun imperiya qurması, sözün həqiqi mənasında, mifik dünya modeli ilə müəyyənləşən multikultural mexanizmə (düşüncə və davranış modelinə) əsaslanır. Bunu Urus bəyin oğlunun "Bizim xoşbəxtliyimiz sənin xoşbəxtliyindir. // Bizim uruğumuz sənin uruğ ağacının toxumudur" sözləri aydın şəkildə göstərir. Bu sözlərdə çox qiymətli məlumatlar şifrələnmişdir. Şifrə sözlər bunlardır: "Uruğ ağacı" və "xoşbəxtlik".

**"Uruğ ağacı" şifrəsi:** "Uruğ ağacı" – hərfi mənada nəsil, soykök ağacı deməkdir. Urus bəyin oğlunun "Bizim uruğumuz sənin uruğ ağacının toxumudur" deməsi onların özlərini Oğuz kağanın nəslindən hesab etməsi mənasına gəlir. Yəni Rus/Urus xalqı könüllü şəkildə Oğuz etnik-mədəni sisteminə daxil olur. Burada heç bir mürtəce işğalçılıqdan söhbət gedə bilməz. Urus xalqı Oğuz dövlətinə tabe olub, vergi verməklə, sadəcə, onun vassalına çevrilmir. Urus bəyin oğlunun sözlərindəın göründüyü kimi, Rus/Urus xalqı həm də Oğuz etnik-mədəni sisteminin ("Uruğ ağacının") üzvi elementinə çevrilir.

**"Xoşbəxtlik" şifrəsi:** Burada "xoşbəxtlik" Oğuz etnik-mədəni sisteminə daxil olmaqla tam əmin-amanlıq içərisində olmağı, etnik-mədəni kimliyi bütün göstəricilər üzrə qoruya bilməyi bildirir.

5. Dastanda Oğuz kağanın Urus bəyin oğluna Saklab adını verməsi burada məhz multikultural düşüncə və davranış modelidir. Advermə mifologiyada yaradılış hadisəsidir. Dünya modelinin hər hansı elementinin yaradılması advermə ilə başa çatmalıdır. Adlı olmaq – var olmaqdır. Cəlal Bəydilinin yazdığı kimi: "Mifoloji görüşlərə əsasən, bir kimsənin və ya nəs-

nənin adının olması onun mövcudluğunun balıca nişanıydı” (Bəydili 2003, 13).

Oğuz kağan Urus bəyin oğluna və onun simasında xalqına ad verməklə onları bütöv bir etnik-mədəni toplum statusunda Oğuz etnik mədəni sisteminə daxil edir. Əgər Oğuz kağan onlara ad verməsə idi, bu, onların məhvi demək olardı. Lakin saklablar ad almaqla mədəni fərqliliklərə malik etnik vahid kimi təsdiq olunurlar.

“Oğuznamə” eposunda multikultural düşüncə və davranış modelinin müxtəlif şəkillərinə rast gəlinir. Məsələn, XVII əsr türkmən tarixçisi Əbülqazi Bahadır xanın “Şəcəreyi-Tərakimə” (“Türkmənlərin soy kitabı”) əsərində deyilir ki, Oğuz xan yetmiş iki il ərzində bir kökdən olmalarına baxmayaraq, moğol və tatarlarla vuruşdu. Yetmiş üçüncü ildə onların hamısını özünə tabe etdi və islamı qəbul etdirdi (Əbülqazi 2002, 56).

Buradan göründüyü kimi, moğol və tatarlar vuruş yolu ilə Oğuz etnik-mədəni sisteminə daxil edilirlər. Bu prosesdə onlar öz etnik kimliklərini, yəni moğol və tatar olmaqlarını qorusalar da, dini kimlikləri dəyişdirlir və onların hamısı islam dininə gətirilir. Yəni moğollar və tatarlar yalnız dini fərqlilikləri dəyişdirilməklə Oğuz etnik-mədəni sisteminin tərkib hissəsinə çevrilirlər.

## Nəticə

Beləliklə, apardığımız tədqiqatda aşağıdakı nəticələrə gəlirik:

1. Müasir dünyada “ayrıca götürülmüş bir ölkədə və bütövlükdə dünyada mədəni fərqliliklərin qorunması və inkişafına yönələn siyasət və bu siyasəti əsaslandıran nəzəriyyə,

yaxud ideologiya" olan multikulturalizm bir düşüncə və davranış hadisəsi kimi həm də qədim köklərə malikdir. Qədim dövrlərdə yaranmış imperiyalarda müxtəlif xalqlar vahid dövlət, vahid siyasi-inzibati məkan daxilində yaşamalı olurdular. Bu zaman tam indiki mənasında olmasa da, multikultural yanaşma təzahürlərinə, yəni bir etnos daxilində digər xalqların mədəni fərqliliklərinin qorunması hallarına da rast gəlinirdi.

2. Tədqiqat göstərir ki, multikulturalizm insan təfəkkürünün məhsulu kimi həm də mifik köklərə malik hadisədir. Mədəni fərqliliklərin qorunması etnik-mədəni kimlik haqqında düşüncə modelinin mövcudluğu ilə şərtlənir. İnsan düşüncəsində etnik-mədəni kimliyin fərqləndirilməsi mifik düşüncə çağından başlanır.

3. Mifdə etnik-mədəni kimliyin fərqləndirilməsi biz-onlar, dost-düşmən, doğma-yad kimi dual qarşıdurma modellərinə əsaslanır.

4. Azərbaycan multikultural düşüncə və davranış modeli də folklor-mifoloji köklərə malikdir. Qədim "Oğuznamə" eposunda multikultural düşüncə və davranış modelinin əsas göstəricilərini təsdiq edən faktlar mövcuddur. Həmin faktlar göstərir ki, qədim oğuzlar hərbi yürüşləri zamanı onlara dost münasibət bəsləyən digər xaqları həmin xalqların mədəni fərqlilik əlamətlərini qorumaqla Oğuz etnik-mədəni sisteminə daxil edirdilər.

## ƏDƏBİYYAT

1. Bayat 1993 – Bayat F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.

2. Bayat 2004 – Bayat F. Oğuznamə(lər) / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 255-274

3. Bəydili 2003 – Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.

4. Əbülqazi 2002 – Əbülazi Bahadır xan. Şəcəreyi-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002, 146 s.

5. Qafarlı 2002 – Qafarlı R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 2002, 758 s.

6. Мультикультурализм // https://ru.wikipedia.org/wiki/Мультикультурализм

7. Nərimanoğlu 2004 – Nərimanoğlu K.V. Dastan, «Kitabi-Dədə Qorqud» / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 77-81

8. Oğuznamələr 1993 – Oğuznamələr. İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, 94 s.

## Multicultural thinking and behaviour models in the “Oghuzname” epos

### Summary

Multiculturalism is also a product of human thinking, with mythical roots. The protection of cultural differences is conditioned by the existence of a meditative mentality of ethnic-cultural identity. Differentiation of ethnic-cultural identity in human thought begins with mythical thinking. The differentiation of ethnic and cultural identity in the myth is based on dual conflict models, such as we-they, friends-enemy, and native-alien. Azerbaijan's multicultural thinking and behavior model also has folk-mythological roots. There are facts confir-

ming the key indicators of the multicultural thinking and behavior model in the epic “Oguzname”. These facts show that the ancient Oghuzs included other nations to Oghuz ethnic-cultural system by protecting the cultural diversity of those peoples which were friendly to them during the military campaigns.

**Key words:** Multiculturalism, folklore, mythology, “Oghuzname”, cultural diversity

## Мультикультуралные модели мышления и поведения в эпосе “Огузнаме”

### Резюме

Мультикультурализм является также продуктом человеческого мышления уходящая корнями в мифологию. Сохранение культурного разнообразия обусловлена существованием модели мышления об этническо-культурной идентичности. Этнокультурное различие в человеческой мысли начинается с зарождением мифологического мышления. Различие в этнокультурной идентичности в мифологии основывается на модели противопоставления, такой как мы-они, друзья-враги и родные-чужые. Мультикультуралная модель мышления и поведения в Азербайджане имеет фольклорно-мифологические корни. Ключевые факторы модели мультикультурального мышления и поведения находят свое подтверждение в эпосе “Огузнаме”. Эти факты демонстрируют, что древние огузы, защищая культурное разнообразие народов, которые были дружественны им во времена военных кампаний, включали различия присущие этим народам в этнокультурную систему огузов.

**Ключевые слова:** Мултикультурализм, фольклор, мифология, “Огузнаме”, культурное разнообразие

**Mahir Qəribov**
*Tarix üzrə fəlsəfə doktoru, İctimai TV "Çarçı film"Yaradıcılıq Birliyinin aparıcısı,*
*mahir_garibov@yahoo.com*

## AZƏRBAYCAN – ŞƏRQİN MƏDƏNİYYƏT İNCİSİ

Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin kəsişməsində, şərqlə qərbin qovşağında yerləşir. Məhz bu mövqe ölkəmizin mədəni müxtəlifliyinə, xalqımızın dini tolerantlığına öz dəyərli töhfəsini bəxş edib və əsrlər boyu Azərbaycanda heç vaxt milli, dini zəmində ayrı-seçkilik, qarşıdurma baş verməyib. Dəyərlərə hörmət və ehtiramın nəticəsidir ki, 2017-ci il Azərbaycanda ***"İslam Həmrəyliyi İli"*** elan edilib və bu, ***"Multikulturalizm İli"***nin davamı olmasından dolayı Azərbaycanın mənəvi gerçəkliklərinin dünyaya çatdırılması baxımından yeni imkanlar yaradır. Bu ali ideya insanları sülhə, əmin-amanlığa, qarşılıqlı hörmət və dostluğa, səsləyir. Dünyada təlatümlərin artdığı, irqçiliyin şiddətləndiyi bir dövrdə XX əsr Azərbaycan ədəbiyyatının böyük ustadı Hüseyn Cavidin bu misraları artıq bəşəri şüara çevrilir.

"Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü!"

İslam dininin müqəddəs kitabı olan "Qurani-Kərim"də deyilir ki:

– "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..."[1]

--------------------------------
[1] "Qurani-Kərim, Hucurat surəsi, 13-cü ayə"

Regionda tarixən dini sabitlik mühitinin formalaşmasında islamın Azərbaycanda yayılmasının böyük rolu olmuşdur. Çünki mərhəmət, sevgi və əxlaq dini olan islamda tolerantlıq, xoş niyyət yüksək mənəvi dəyər və mədəniyyət nümunəsi kimi qiymətləndirilir. Elə bu səbəblə əsrlər boyu müsəlmanlarla yanaşı yaşayan digər dinlərin mənsubları da burada dinc və ayrı-seçkiliyə məruz qalmadan yaşamışlar.

Bu gün Azərbaycan xalqı müsəlmanların, yəhudilərin və xristianların eyni ölkədə sülh və qarşılıqlı hörmət şəraitində dinc və yanaşı yaşamaq imkanlarını sübuta yetirir. Hazırda ölkəmizdə 2 mindən çox məscid, 13 kilsə və 7 sinaqoq fəaliyyət göstərir və bu azərbaycanlıların digər dinlərə olan münasibətinin göstəricisidir. Ölkəmizin bütün milli və dini azlıqları da millətlərarası və dinlərarası münasibətlərə, vətəndaş cəmiyyəti quruculuğuna öz layiqli töhfələrini verərək ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edirlər.

Tarixi mənbələrdə Bakı təbii alovların yandığı Odlar diyarı kimi təqdim olunur və ehtimal olunur ki, bu "abidə" Bakı ərazisində bizim eradan əvvələ aid ilk məbəddir. "Atəşgah" sırf ibadət yeri kimi 1880-ci ilədək fəaliyyət göstərib və həmin il buradakı sonuncu kahin Hindistana köçüb[1]. 1975-ci ildə burada aparılan bərpa işlərindən sonra "Atəşgah" yenidən qapılarını ziyarətçilərin üzünə açıb. Atəşpərəstlik məbədinin qalıqları üzərində inşa olunmuş "Atəşgah" Dövlət Tarixi-Memarlıq Qoruğu hazırda YUNESKO-nun tərtib etdiyi "Dünya İrsinin İlkin siyahısı"na daxil edilib. 2015-ci ildə ölkəmizdə keçirilən Bakı İdman oyunlarında Avropa İdman Oyunlarının məşəli ilk olaraq Atəşgah məbədində alovlandırıldı və bu bütün dünyaya birlik mesajı oldu.

----------------------------------

[1] Aşurbəyli S., Şirvanşahlar dövləti, Bakı 1997, s. 47

Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunur. Şəkidə *"Şərq kilsələrinin anası"* sayılan və günümüzə qədər qorunub saxlanılan ***"Kiş kilsəsi"*** Qafqazda ilk xristian məbədidir.[1] Şəki, Zaqatala, Qax, Balakən rayonlarında mövcud olan çoxsaylı Alban məbədlərinə görə antik Yunan coğrafiyaşünası Strabon bu ərazini "Məbədlər diyarı" adlandırmışdır. Burada Qafqaz Albaniyası dövrünə aid məbədlərin sayı kifayət qədərdir. Bakıda Pravoslav kilsələri arasında ən böyüyü Rus Pravoslav kilsəsidir. Bu kilsə 1815-ci il yanvarın 1-də Şamaxı quberniyasının general-qubernatoru N.F.Rtişevin sərəncamı ilə ucaldılmışdır. Məbədin tikintisi üçün xristianlardan ianə yığılmış və sadə dindarlar hamılıqla bu işə cəlb olunmuşdur. Bu kilsəyə "Müqəddəs Nikolay" adı verilmiş və Tiflisdən olan David İvanov burada ilk keşiş təyin edilmişdir.[2] Hələ XIX əsrin ikinci yarısında incilçi-lüteran kilsəsinin ardıcılları Bakıya neft yataqlarının istismarında iştirak edən alman sənayeçiləri sırasında gəlmişlər. Bununla yanaşı XIX əsrin 20-ci illərində Qafqaza köçən almanların bir hissəsi Şəmkir, Göygöl və Gədəbəy rayonları ərazisində məskunlaşmış və burada həm yaşayış evləri, həm də kilsələr inşa etmişlər. Göygöl və Şəmkir rayonlarında dövlətimiz tərəfindən yüksək səviyyədə bərpa olunan Lüteran kilsələrinin qapıları indi qonaqların üzünə açıqdır.

Azərbaycanda dini tolerantlığın tarixi kökləri baxımından yəhudilərə olan münasibətin də özünəməxsus yeri vardır. Onların Azərbaycanda məskunlaşmasının tarixi qədim dövrlərə gedib çıxır. Bu tarixi dövr ərzində yəhudilərlə azərbay-

-----------------------------------

[1] Moisey Kalankatuklu, Albaniya Tarixi, Bakı 2006, s. 17

[2] Gündüz İsmayılov, "Tolerantlıq", Bakı 2014, s. 70

canlılar arasında hər hansı bir ayrı-seckilik faktı olmamışdır. Hazırda Bakıda, Oğuzda və Qubada dağ yəhudilərinin sinaqoqları fəaliyyət göstərir və onlar sərbəst şəkildə öz dini ayinlərini yerinə yetirirlər. Göründüyü kimi, xalqımızın tarixən keçdiyi böyük mənəvi təkamül yolu Azərbaycana zəngin mədəniyyət çalarları qazandırıb. Ölkəmizdə zərdüştlük, xristian abidələri bu gün də qorunub saxlanılır və dövlətimiz tərəfindən onlara lazımi diqqət göstərilir.

Sovetlər Birliyi dağıldığı dövrlərdə baş verən hadisələr Azərbaycanı dini və milli tolerantlıq ənənələri baxımından ən ciddi sınaq qarşısında qoydu. Ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal edərək etnik təmizləmə siyasəti həyata keçirdiyi zaman bir milyon məcburi qaçqın və köçkün problemi yarandı. Dinc əhalinin qətlə yetirilməsinə və doğma yurdlarından qovulmasına baxmayaraq, birgə yaşamaq prinsipi Azərbaycan cəmiyyətinin səciyyəvi cəhəti olaraq qaldı. (Qeyd edim ki, Bakıya pənah gətirmiş didərginlərin arasında başqa millətlərində nümayəndələri var idi). Hətta Dağlıq Qarabağda müharibə başlayandan sonra da Azərbaycan cəmiyyəti dini və etnik qruplar arasında harmoniyanı dəstəkləməkdə davam etdi.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörməti təmin edir. Azərbaycan Respublikasının suverenliyi haqqında Konstitusiya aktı Azərbaycan Respublikasının bütün vətəndaşlarının Qanun qarşısında bərabərhüquqlu olduğunu təsdiq edir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin III bəndinə görə "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara,

həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".[1] Konstitusiyada qeyd olunduğu kimi, milli və ya dini azlığın nümayəndəsi olmasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan hər bir kəs ölkəmizdə eyni hüquqlara malikdir. Bu baxımdan, ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün və ya aşağı tutmaq kimi ideyaları aşılamaq yolverilməzdir və bu qanunda öz əksini tapır.

Ölkəmizdə fəaliyyət göstərən Bakı İslam Universiteti 1991-ci ildə Bakı İslam Mədrəsəsinin bazası əsasında formalaşmış, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdində fəaliyyətə başlamışdır. 1991-ci ilin yanvarında Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Qazilər Şurasının qərarı ilə Bakı İslam Mədrəsəsi Bakı İslam İnstitutuna çevrilmişdir. Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə 1992-ci ilin axırlarında bu institut Bakı İslam Universiteti adını almış və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən rəsmi olaraq təsdiq olunmuşdur.[2]

Hazırda Bakı İslam Universiteti xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərinə yiyələnən gəncləri tərbiyə etməklə yanaşı, son zamanlarda istər dini, istərsə də dünyəvi təhsil sahəsində təşəbbüskarlığı, apardığı islahatlar, ölkəmizin ictimai-dini həyatında və sosial inkişafında göstərdiyi fəallıq, yeni

---------------------------------

[1] Azərbaycan Respublikasının konstitusiyası, Bakı 2005, s. 10

[2] Azərbaycan Milli Ensikopediyası: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007. S. 47

mütərəqqi tədris texnologiyalarının tətbiqi, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində apardığı bir sıra dəyişikliklərlə nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da layiqli bir təhsil ocağı kimi təmsil olunur.

Azərbaycan Respublikasında dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını nəzərə alaraq Ulu öndər Heydər Əliyev 21 iyun 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasını xüsusi fərmanla təsdiq etdi. Həmin fərmanla müəyyən edildi ki, yeni yaranmış Dövlət Komitəsinin əsas vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının dini əqidə azadlığını təmin edən 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan digər qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etməkdən, dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməkdən ibarətdir.[1]

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədəki dini icmalar arasında gərginliyin mövcud olmaması, dini ayrı-seçkilik meyillərinin milli münasibətlər səviyyəsinə yüksəlməsinə yol verilməməsi, dini mərasim adı altında müxtəlif antidövlət meyilli şəxs və qrupların qarşıdurma yaratmaq cəhdlərinin qarşısının alınması, ictimai təhlükəsizlik və sosial sabitliyin qorunması, din-dövlət münasibətlərinin normal səviyyədə tənzimlənməsi üçün mövcud dini duruma lazımi nəzarəti təşkil edir və bu yolda hər cür neqativ halların qarşısının alınması işində müvafiq beynəlxalq təşkilatlar ilə əməkdaşlıq edir. Bununla da Azərbaycan dövləti dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox

--------------------------------

[1] Azərbaycan Respublikasının konstitusiyası, Bakı 2005, s. 16

mühüm addımlar atıb. "Dini etiqad azadlığı haqqında" qanun qəbul edilib. Bu qanuna görə, Azərbaycan Respublikasında vətəndaş hüququna malik olan "Hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir".

Azərbaycanda dövlət siyasətinin tərkib hissəsinə çevrilən multikulturalizm siyasəti ölkəmizdə yaşayan bütün xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir. Prezident İlham Əliyevin 15 may 2014-cü il tarixli fərmanı[1] ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ölkəmizin tolerantlıq prinsiplərinə sadiq qalmasının əyani nümunəsidir.

Azərbaycanda müxtəlif dinlərin mərhəmət və qarşılıqlı hörmət anlayışından əlavə buradakı müxtəlif məzhəblərin də bir-birinə yaxınlaşması praktikası hazırda dünyaya nümunə göstərilməkdədir. 2016-cı il yanvarın 15-də fəaliyyətə başlayan, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan "Heydər Məscidi"ndə məzhəbindən asılı olmayaraq, bütün müsəlmanlar bir araya gəlib vəhdət namazı qılır və Yaradana dualar edirlər.

Bu gün Azərbaycan həm Avropa Şurasına, həm də İSESCO-ya üzv olan yeganə müsəlman ölkəsidir. Təsadüfi deyildir ki, 2009-cu il oktyabrın 13-dən 15-dək Azərbaycanın uğurla ev sahibliyi etdiyi İslam ölkələri mədəniyyət nazirlərinin konfransı çərçivəsində "Mədəniyyətlərarası dialoq" mövzusunda keçirilmiş dəyirmi masada "Bakı Prosesi – sivilizasiyalar arasında dialoqa yeni çağırış" adlı rəsmi sənəd qə-

-----------------------------------

[1] Mədəniyyət və Turizm Nazirliyi, "İslam Həmrəyliyi ili və kitabxanalar" Bakı 2017, s. 10

bul edilmişdir. Bakı Forumu mədəniyyətlərarası dialoqun, sülhün, əməkdaşlığın təşviqində, irqi və dini dözümsüzlük hallarının aradan qaldırılmasında, digər məsələlərin müzakirəsində qlobal brend statusu qazanmışdır.

Ölkəmiz dini konfesiyalar arasında dostluq və qardaşlıq ənənələrinin inkişaf etdirilməsi, bu siyasətin yeni keyfiyyət mərhələsinə yüksəlməsi, dinlərarası dialoq və əməkdaşlığın beynəlxalq səviyyədə tanınmasına imkan yaradır. Bu səbəblə Azərbaycanda keçirilən beynəlxalq tədbirlərə turistlərin marağı da ildən-ilə artmaqdadır.

2017-ci ildə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunları müstəqil Azərbaycanın istər idman, istərsə də siyasi-iqtisadi sahədə qazandığı böyük uğurları nümayiş etdirdi. Dövlət başçısı cənab İlham Əliyevin vurğuladığı kimi; “Biz İslam Həmrəyliyi Oyunlarında da yeni yanaşmanı ortaya qoyduq, yeni standartlar tətbiq etdik. Əlbəttə ki, bu, bizim qonaqlara olan hörmətimizin əlamətidir, məsuliyyətin təzahürüdür. Eyni zamanda, bu, ümumiyyətlə, bizim siyasətimizi göstərir. Çünki biz istəyirik ki, Azərbaycanda hər bir tədbir ən yüksək səviyyədə keçirilsin. Ona görə də ölkəmiz inkişaf edir, ona görə də Bakıya gələn bütün xarici qonaqlar şəhərimizə heyran qalırlar. İslam Həmrəyliyi Oyunlarının uğurlu təşkili belə nüfuzlu tədbirləri keçirməyə qadir olduğumuzu bir daha sübut etdi.”[1]

Ölkəmizin ictimai-siyasi həyatında, Azərbaycan mədəniyyətinin təbliği və inkişafı yolunda Heydər Əliyev Fondunun fəaliyyətini, o cümlədən, onun rəhbəri birinci Vitse-prezident, xanım Mehriban Əliyevanın fəaliyyətini xüsusilə qeyd etməliyik. Onun İslam Həmrəyliyi Oyunlarının təşkili sahə-

-------------------------------
[1] “İslam Həmrəyliyi Oyunlarının Azərbaycan nümunəsi”. Xalq qəzeti, 01.06.2017-ci il

sindəki xidmətləri bütün xalqımızı, idmançılarımızı ruhlandırdı. Dövlətimizin bu oyunlara göstərdiyi diqqətin nəticəsi olaraq idmançılarımız komanda hesabı üzrə 75 qızıl, 50 bürünc və 37 gümüş medalla Birincilik qazandılar. Bu bütün Azərbaycanın qələbəsi və sevinci idi.

Müasir dövrdə İslam dünyasının həmrəyliyə, birləşməyə çox böyük ehtiyacı vardır. Çünki İslam dini sülhün və humanizmin tərəfdarı, hər cür qarşıdurma və nifaqın əleyhinə olsa da, təəssüf ki, dünyada İslama qarşı aparılan qara piar kompaniyası getdikcə artmaqdadır. "İslami terror" anlayışı İslam dəyərlərinə çox böyük zərbə vurur. Mahiyyət etibarilə İslam hər zaman şiddətin, zorakılığın əleyhinə olmuş, ədaləti, sülhü təbliğ etmişdir. Bu mənəvi dəyərləri özündə yaşadan Azərbaycan Respublikası müsəlman aləmində, eyni zamanda Qərb dünyasında etibarlı tərəfdaş, dost və qüdrətli dövlət kimi tanınır. Bu gün Azərbaycanın malik olduğu dini dəyərləri milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi, onun ən qiymətli incisidir.

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın zəngin mədəni və mənəvi irsinə verilən yüksək qiymətin təzahürüdür. Müasir infrastrukturu, xarici qonaqları qarşılaya biləcək müasir tipli otelləri ilə Naxçıvan Muxtar Respublikası dünya səviyyəli tədbirlərin keçirilməsinə tam hazırdır. Tarixi abidələr diyarı olan Muxtar Respublikada 110 mindən çox maddi-mədəniyyət nümunəsi muzeylərdə dövlət tərəfindən qorunub saxlanılır.[1] 1157 abidə Muxtar Respublika ərazisində

---------------------------------

[1] "Naxçıvan- İslam mədəniyyətinin incisi", Xalq qəzeti, 5 may 2017-ci il

qeydiyyata alınıb, onlardan 56-sı dünya əhəmiyyətli abidədir. Əcəmi Əbubəkr oğlu Naxçıvan memarlıq məktəbinin banisi və ən görkəmli nümayəndəsi olmaqla Şərq aləmində bir sıra şah əsərlərin müəllifidir. Dahi Nizaminin yazdığı xəmsə milli ədəbiyyatımız üçün nə qədər dəyərlidirsə, Əbubəkr Əcəminin Naxçıvanda tikdiyi Mömünəxatun türbəsi milli arxitektura sənətimiz və Şərq mədəniyyət incisi baxımından bir o qədər dəyərli və qiymətli abidədir. Bu abidə 1186-cı ildə Atabəylər dövləti zamanında inşa olunub. O, Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin həyat yoldaşı, Atabəy Cahan Pəhləvan və Qızıl Arslanın anası Zahidə xatunun şərəfinə ucaldılıb.[1] Hündürlüyü 26 metr olan türbənin maraqlı cəhətlərindən biri də onun üzərində 500 metr uzunluğunda Quran ayələrinin yazılmasıdır. Belə ki, "Qurani-Kərim"in "Yasin" surəsi bütünlüklə abidənin səthi boyunca dalğavari şəkildə yazılıb və bu yazıda Quran ayələrindən bir vergül belə əksik deyil. Diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, bu yazılar sonradan yox, məhz tikili gedən vaxt yazılıb. Ayənin əvvəli aşağı səthdən başlanıbsa, orta hissəsi abidənin yuxarı səthində birləşib və yazılar tikilinin aşağı hissəsində tamamlanıb. Müasir texnologiyaların inkişaf etdiyi bir dövrdə belə zərgər dəqiqliyi ilə memarlıq sənəti yaratmaq olduqca çətin bir işdir.

Müqəddəs "Qurani-Kərim"də adı keçən və xalq arasında geniş yayılmış rəvayətdə bəhs olunan "Əshabi-Kəhf" ziyarətgahı da Muxtar Respublikaya qədəm qoyan hər bir insana müsbət təsir edir və uzun müddət o ruhaniyyət insanların xatirələrindən, yaddaşlarından silinmir. Bu ziyarətgah neçə əsrlərdir ki, müqəddəs ocaq sayılır. Bura gələn hər bir insan sanki

---------------------------------

[1] Əkbər. N. Nəcəf, "Səlcuqlu Dövlətləri və Atabəylər tarixi", Bakı, 2010, s. 28

dünyəvi aləmdən ayrılıb, rəbbani məqama daxil olur. Bu gün "Əshabi-Kəhf" təkcə ziyarətgah kimi deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biri kimi dövlət tərəfindən qorunur. Burada ilk abadlıq işləri Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə aparılıb. 2006-cı ildə isə Muxtar Respublika rəhbərliyi tərəfindən burada geniş bərpa və quruculuq işləri həyata keçirilib.

İnanırıq ki, Naxçıvanın 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olması Azərbaycanın müasir tarixinə şərəf və qürurla yazılacaq, islami dəyərləri, humanizmi və zəngin mədəni irsi ilə Naxçıvan İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının konstitusiyası, Bakı 2005
2. Azərbaycan Milli Ensiklopediyası: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007.
3. Moisey Kalankatuklu, Albaniya Tarixi, Bakı 2006
4. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı 1997
5. İslam Həmrəyliyi ili və kitabxanalar. Bakı 2017
6. Gündüz İsmayılov. Tolerantlıq. Bakı, 2014
7. Əkbər Nəcəf. Səlcuqlu Dövlətləri və Atabəylər tarixi. Bakı, 2010
8. İslam Həmrəyliyi Oyunlarının Azərbaycan nümunəsi. Xalq qəzeti, 2017
9. Naxçıvan – İslam mədəniyyətinin incisi. Xalq qəzeti, 2017-ci il

## Azerbaijan is the pearl of the eastern culture


### Summary

The philosophical basis of the national and religious tolerance in Azerbaijan is the mutual respect and respect for all people not depending on their race, gender and ethnicity. This policy creates the background for the formation of the national- cultural and religious relations. In the article it is said about the historical development stages of multicultu-ralism which has become a state policy in our country and the factors conducive to the lifestyle of citizens.



**Key words:** Multiculturalism, Islamic solidarity, National-moral values, Tolerance, Religious beliefs, Culture-study


## Азербайджан - жемчужина культуры Востока


### Резюме

Философскую основу национальной и религиозной толерантности в Азербайджане составляет взаимное ува-жение ко всем людям, несмотря на их расовую, половую и этническую принадлежность. Эта политика создает основу для правильного формирования национально-культурных и религиозных отношений. В статье рассказывается об исторических этапах развития мультикультурализма в нашей стране, которая превратилась в государственную политику, а также о факторах обуславливающих традицию жизненного уклада граждан в нашей стране.



**Ключевые слова:** мультикультурализм, исламская солидарность, национально-духовная ценность, толерант-ность, религиозные верования, культуроведение

**Könül Baxışova**
*İsmayıllı rayon Mərkəzləşdirilmiş kitabxana sistemi, direktor, konul.baxishli@mail.ru*

# ƏSKİ TÜRK EVTİKMƏ MƏDƏNİYYƏTİNİN İSMAYILLIDA QALIQLARI

Hələ ta qədimdən Ismayıllı ərazisində türklər yaşadıqları üçün özlərinə məxsus əski evtikmə memarlıq ənənələrini də əsrlər ötdükcə itirməmiş və bu mədəniyyəti müasir dövrlərə qədər gətirib çıxarmışlar. Ev insanların əsas yaşayış vasitələrindən olub, onların təbii və zəruri istirahətini, təsərrüfat, məişət və həyati tələblərini təmin edən mühüm mədəniyyət abidəsidir (Nəsirli 1977).

Qədim ev. Tikilmə tarixi etibarı ilə digər evlərlə müqayisədə köhnə olan, əski texniki üsulla inşa edilmiş evlərə qədim ev deyilir. Bəzı qədim (əski) evlərin inşa edilmə özəllikləri olur .

Qədim (əski, köhnə) evlər məhdud imkanlara görə hesablandığından, çox güman ki, onların daha kiçik və yaşamaq üçün münasib tikildiyini güman etmək olar. Çöl qapıdan (məhəllə qapısından) içəriyə girdiyiniz ev önünün adı “həyət“ adlanır. Yəni evin ətrafında olan torpaq mülkiyyəti həyət hesab olunur ki, bu söz də məna etibarı ilə “həyat” sözündən götürülmüşdür. Çünki insan dünyaya gələndən ta ömrünün sonunadək bu həyətdə və burada yerləşən evində yaşayır.

Miladdan öncəki minillikdə Azərbaycana hücum edən asur, urartu və rumlular öz yazılarında burada rast gəldikləri yüzlərlə şəhər və kəndin adını çəkmişlər. Müxtəlif bölgələrdə ev, məbəd, saray, qala, hamam və sair tikintiləri əhatə edən şəhər-kənd mədəniyyəti inkişaf etdikcə tikintidə ağac və daşişləmə sənətləri də irəli getmişdir.

İnsanların eyni məskəndə davamlı oturaq həyat tərzinə keçməsi eneolit çağında yaşayış evlərinin tikilməsi ilə nəticələndi.

Hələ miladdan öncəki dövrlərdə evin divarları yığma daşlardan hörülmüş, tavanı konusvari ocaq bacaları ilə bitirdi. İsinmək üçün evin ortasında ocaq yeri hazırlanmış və tüstünün çıxması, eləcə də günəş işığının düşməsi üçün tavanın ortasından dəlik açarlarmış.

Tikinti işləri tunc dövründə yeni çalarlarla fərqlənir. Belə ki, yaşayış məskəni divarlarla dairəyə alınır, daş özül üzərində çiy kərpicli dairəvi və sonralar düzbucaqlı ev tipləri, nal şəkilli ocaqlar çoxalır (http://bao.az/categories_ Medeniyy%C9%99t/).

Üç nəslin bir arada yaşadığı qədim türk ailə tipinə uyğun olaraq inşa edilmiş evlərin bəzi özünəməxsus xüsusiyyətləri bu günümüzə qədər gəlib çıxmışdır.

Qədimdən inşa edilən evlər əsasən bir qatlı olmuşdur. Əgər daha artıq qatlı ev tikilirdisə, yenə də üst qat əsas yaşam qatı hesab edilirdi.

Ev tikilərkən iqlimin xüsusiyyətləri, adət-ənənələr, vərdişlər, sosial və iqtisadi vəziyyət, ənənəvi memarlıq xüsusiyyətləri əsas götürülürdü.

Yaşayış evlərinin müxtəlif tiplərinin formalaşmasında inşaat materialları mühüm əhəmiyyət kəsb etmişdir (AE2007, 45).

İsmayıllı rayonunun təbii-coğrafi və iqlim şəraitinin, həmçinin, topoqrafik quruluşunun müxtəlifliyi, burada inşaat materialının ayrı-ayrı növlərindən səmərəli istifadə etməyə imkan vermişdir. Əhalinin istifadə etdiyi ənənəvi inşaat materialları daş, ağac, gil, kərpic və s. olmuşdur.

Biz məruzəmizdə bu tikintilərin yaranıb inkişaf etmə tarixindən danışmaq fikrində deyilik, çünki bu məsələlərin ço-

xu alim-arxitektor, professor Davud Axundovun və başqa memarların əsərlərində geniş verilmişdir. Burada məqsədimiz yalnız islamaqədər Azərbaycana qayıdan Bozqır türklərindən fərqli olaraq, oturaq yerli türk boylarının meydana gətirdiyi tikinti mədəniyyətinin İsmayıllı rayonundakı izlərini araşdırmaqdı. Doğuya miqrasiya edən türk boylarının oturaq yaşama keçənləri də Ön Asiyadan apardıqları öz evtikmə ənənələri əsasında yeni ata yurdlarında tikinti mədəniyyətini inkişaf etdirmişlər (http://bao.az/categories_ Medeniyy%C9%99t/).

IX-XIII əsr tikililəri keçmiş ənənəsinə dayansa da, artıq yeni Türk-İslam tikinti çalarları ilə seçilirdi. Yaşayış məskənlərilə bağlı Türk dillərində düşərgə, oba, yurd, şenlik, kənd, ordu, balıq kimi söz və terminlər yarandığı kimi, tikintinin təyinatı, növü və elementinə görə də bir sıra sözlər yaranmışdır: ev, dam, koma, xaqan otağı, saray, ağotaq, qaradam, ağdam, qala, it damı, toyuq hini, samanlıq, ağıl, dəyə, körpü, bürc, tapınaq, özül, qurşaq, divar, çəpər, dam, çatma, atma, artırma, sındırma, döşəmə, qapı, eşik, baca, tağ, taxca, çadır, alaçıq, köşk, tikmə, daşqura, qazma, kərtmə, ocaq, oda, otaq və sair. Qədim Türk dilində şəhərə balıq deyilmişdir. Palçıq sözü ilə eyni kökdən olan bu söz Doğu türklərinin Beşbalıq, Sarıbalıq, Toğubalıq, Ordubalıq, Baybalıq şəhərlərinin adında da qorunmuşdur (http://bao.az/categories_ Medeniyy%C9%99t/).

Yeri gəlmişkən onu da qeyd etmək istərdim ki, filologiya üzrə fəlsəfə doktoru Sevda Qasımovanın "İsmayıllı – etnolinqvistik yaddaş" kitabında qeyd olunduğu kimi, İsmayıllı rayonunun Balik kəndinin adının formalaşması da bu sözlə bağlıdır.

Rayonumuzun kənd ərazisindəki tikililərdə əsasən gildən (palçıqdan) və çiy kərpicdən geniş istifadə olunmuşdur.

Gildən inşaatda istifadə olunması təcrübəsinin tarixi çox qədimdir. Gildən suvaq və hörgü işlərində də istifadə olunurdu. Çiy kərpicdən tikilmiş bütün evlərin hörgüsü gil məhlulu ilə aparılıb. Divarın hər iki tərəfi isə içərisinə saman qatılmış palçıqla suvanırdı. Bundan başqa, evin damına və döşəməsinə də suvaq çəkilirdi. Evin içəri tərəfdən divarları və döşəməsinin üzəri xüsusi növ gillə şirələnirdi (Nəsirli 1977, 47).

İsmayıllı rayonu ərazisində evlər əsasən "Şirvani" inşaat quruluşunda tikilirdi. Hazırlanma üsulu olduqca bəsit olduğundan, əsrlər boyu İsmayıllı kəndlərində çiy kərpicdən geniş istifadə olunmuşdur. Kərpic kəsmək üçün ayrılmış torpaq sahəsini bu məqsədlə belləyir və oraya su buraxırdılar.Torpaq yumşaldıqdan sonra üzərinə doğranmış saman səpərək "ayaqlama"ya başlayardılar. Kərpic ustalarının dediklərinə görə saman qatılmış palçıq daha davamlı olur, çatlayıb ovxalanmır. Palçıq tam qarışdıqdan sonra bir müddət acıdılmaya qoyulurdu. Sonra qəliblərə doldurularaq üstünü əllə hamarlayıb, təmizlənmiş sahəyə gətirir və ehmalca üzü üstə yerə çevirirdilər. Palçıq torpağa yapışmasın deyə qəlib tez-tez suya salınıb çıxarılırdı. İsmayıllı şivələrində belə kərpiclərə "ayıbalası" da deyilir.

Türkiyə Anadolu köylərindəki əski evtikmə ənənəsinə də nəzər saldıqda görürük ki, evlər eynilə bizim kəndlərdə olduğu kimi, çiy kərpicdən tikilir və üzəri gillə (palçıqla) suvanır. Bizim evtikmə ənənəsinə görə əgər evlər şirələnirsə, bu zaman evi ya Xorasan harcı, ya da Muğla harcı deyilən gillə şirələyirlər. Bu baxımdan, şəhərləşmə mədəniyyətini təkcə atayurdda qalan prototürklər deyil, başqa ölkələrə köçüb orada məskən salan türk boyları da yaşatmışdır.

Evlərin tikintisində çiy kərpic və möhrə ilə yanaşı çay daşlarından da istifadə edilir. Bunu da İsmayıllı ərazisindən

keçən dağ çaylarının yataqlarının daşla zəngin olması şərtləndirmişdir. Meşə zolağının olması ilə əlaqədar evtikmə ənənəsində ağac materialından bir qayda olaraq evin dirək, kətil, pərdi, qapı, dam örtüyü, pencərə, sütun, sürahı, bağdadı – yəni aradoldurma kimi ev inşası işlərində istifadə edilmişdir.

Əvvəllər bağdadı evlərə də rast gəlmək mümkün idi. Belə evlərin divarları ağac tirləri ilə hörülür və arası sarı torpaq deyilən palçıqla doldurulurdu. Belə baxsaq, qədim türk inşaat ənənəsində də daşdan, kərpicdən və taxtadan istifadə olunmuşdur. Bütün türk evləri eyvandan və otaqlardan ibarət olmuşdur. Ümumilikdə "qonaq otağı"nın olması ənənəsi türklərə məxsusdur. Evə köməkçi tikililər içərisində (su və kanalizasiya sistemi olmadığından) mətbəx, əl-üz yuyulan yer, hamam, ayaqyolu, axur və s. evdən kənarda yerləşirdi (http://eskievler.nedir.com/). Bu xüsusiyyət İsmayıllı ərazisində tikilmiş evlərdə də özünü göstərir.

Əski evtikmə ənənəsinə uyğun olaraq bu günə gəlib çatmış köhnə yaşayış binaları birbaşa yerdən tikilir və ya kürsülü olurdu. Birbaşa yerdən tikilən evlərin inşası zamanı təməl (İsmayıllı şivəsində buna binə də deyilir) atılmırdı.

Kürsülü evlərin isə inşasında evin yeri dərin qazılaraq, çay daşından təməl atılır və torpaqla doldurulurdu. Sonra çiy kərpicdən divar hörülərək əsas qat tikilir. Alt qat adətən alçaq zirzəmidən ibarət olurdu.

Evtikmə memarlıq ənənəsində biz açıq eyvanlı (eşikli), bağlı eyvanlı (eşikli), qarşısında başmaqları çıxarmaq üçün xüsusi yer olan başmaqçıxanlı (İsmayıllının bəzi kəndlərində başmaqçıxana varantur da deyilir) evlərə, bundan başqa tərsavandlı, çəpçidar evlərə də rast gəlirik. Əski türk evtikmə memarlıq ənənəsinə görə müxtəlif memarlıq üsulu ilə evlər- ey-

vansız, çöl eyvanlı, iç eyvanlı, orta eyvanlı tikilidi (http://eskievler.nedir.com/#ixzz46UFB9hoX).

İsmayıllı rayonunda mövcud evtikmə mədəniyyətində əsasən eyvanlı ( İsmayıllı şivəsində buna eşik deyilir ki, bu da bayır, dışarı, çöl və eləcə də bayır tərəfə baxan, çıxan, eşiyə tərəf olan mənaları daşıyır) evlər üstünlük təşkil edir ki, bu cür eyvanlı evlər "qolsuz eyvanlı", "təkqollu eyvanlı", "qoşa-qollu eyvanlı" olmaqla üç müxtəlif formada salınırdı.

Memarlıq ədəbiyyatında eyvanlı evlər "antlı evlər" kimi təqdim olunur. Antlar evin yan divarının çıxıntısı olub, eyvanı yanlardan dövrələyir. Bu cür evlər yerli iqlim şəraitinə uyğun olaraq meydana çıxmışdır. İlin müxtəlif fəsillərində evin və eyvanın daxilini səmt küləklərindən, yağışdan və günəş şua-larından mühafizə etmək üçün ant divarları xüsusi əhəmiyyət kəsb edir. Qollu eyvanlar isti iqlim şəraitinə görə dincəlmək, müxtəlif məişət işlərini həyata keçirmək məqsədilə, hətta mətbəx kimi də istifadə olunurdu. Yay aylarında ailənin bütün güzəranı burda keçirdi (Nəsirli 1977, 71).

Əski türk memarlıq ənənəsinə uyğun olaraq acıq eyvanlı evlər də tikilmişdir ki,bu evlərdə bütün otaqların girişi eşikdə cəmlənir. Otaqların pəncərələri eyvana (eşiyə) açılır. Eşik tavana taxta sütunlar vasitəsi ilə birləşdirilir.

İsmayıllıda tərsavand evlər də mövcuddur ki, bu evin qarşı və eyni zamanda arxa tərəfində ikinci eyvan yerləşir. Yəni otaqlar iki eyvanla əhatələnmiş olurdu. Çəpçidar isə otaqları eyni mütənasib formada olmayan evlərdir.

Mən əsasən bu sahədəki təhqiqatımı Quşencə kəndində aparmışam. İsmayıllının əksər kəndlərində olduğu kimi Qu-şencədə də əski evlər mövcuddur. Həmin evləri araşdırarkən aşağıdakı faktorları görürük. Belə ki, Quşencə kəndindən olan

yaşlı informatorların məlumatına görə əski evlər yuxarıda qeyd etdiyimiz üslubda tikilmişdir. Divar çiy kərpic – xam palcıqla hörülürdü. Divarın möhkəm olması üçün kərpiclərin arasına evin hündürlüyündən asılı olaraq kətillər atılırdı. Alt qat əsasən alçaq zirzəmidən ibarət olur.

Ev inşa olunduqdan sonra onun divarları və döşəməsi şirələnirdi. Şirə Diyallı kəndindən gətirilən gildən hazırlanırdı. Gildən palçıq düzəldilir və suda əzdikdən sonra onu duru hala salırdılar (şirənin göy rəng alması üçün tərkibinə sinka qatılırdı). Şirə qoyun dərisi ilə evlərin divarlarına və eləcə də döşəməsinə çəkilərdi.

Divarların qalınlığının özünə məxsus özəlliyi var idi ki, bu da divar içərisində oyuqların açlması – yəni taxçaların qoyulması ilə bağlı idi. "Taxça" sözü fars sözüdür. Hansısa əşya qoyulması üçün divarda açılan oyuq mənasını daşıyır. "Camaxadon" da (lahıcda cüməxatun deyilir) fars sözüdür . Əsasən yük və sandıq yığmaq üçün nəzərdə tutulur. Pəncərə və qapılar taxtadan hazırlanır, evin divarlarında ocaq yerləri, taxça, camaxadon yerləri qoyulurdu ki, bu da evin divarılarının qalın, yəni 1 metrdən 1,5 metrə qədər olmasını şərtləndirirdi. Taxça əsasən ocağın sol hissəsində yerləşir. Əsas lazım olan əşyalar ora qoyulurdu (məs: çıraq, qablar və s.). Taxçaların üst hissəsinə taxtadan pərdi atılaraq rəf yeri düzəldilirdi. Rəf ərəb sözüdür. Qab-qacaq düzmək üçün evin divarına və ya şkafa şaquli vəziyyətdə vurulan taxta parçası, yaxud divar tikiləndə qoyulan şaquli çıxıntıdır.

Çiy kərpicin aralarına taxta kətil atılırdı. Tavanda iki taxta ortasına bir ədəd taxta vurularaq tavan qurulurdu ki, buna da el şivələrində "ləmpə" deyilir. Sonra tavanın üstü və ümumi tikilinin üzəri əl üsulu ilə yoğurulub acıdılmış samanlı palçıqla

suvaqlanırdı. Üstu saxsı kirəmit ilə örtülürdü. Çardaq evin forması memarlıq xüsusiyyətinə görə düzbucaqlı və balıqbeli üslubda, mərkəz hissəsi isə hündür və maili olurdu.

Hər otaqda nal şəkilli ocaqlar inşa edilir ki, ocağın da bacası divar içi ilə salınırdı. Çardaqdan çölə çıxarılan baca kərpiclə hörülürdü. Firudin Cəlilov "Azərbaycan türklərinin şəhərləşmə mədəniyyəti" adlı məqaləsində yazır: "Tikinti işləri tunc dövründə yeni çalarlarla fərqlənir. Belə ki, yaşayış məskəni divarlarla dairəyə alınır, daş özül üzərində çiy kərpicli dairəvi və sonralar düzbucaqlı ev tipləri, nal şəkilli ocaqlar çoxalır" (Ağasıoğlu 2014, 83). Burdan da belə məlum olur ki, artıq Tunc dövründə bu ərazilərdə nal şəkilli ocaqlar mövcud idi.

Türk evtikmə ənənəsində hamam, sanitar qovşağı evdən kənarda olmuşdur. Mal-qara saxlamaq insanlar üçün önəmli olduğu üçün tövlə, samanlıq, anbar isə evin ayrılmaz bir hissəsi olmuşdur. İsmayıllı rayonu evtikmə ənənəsində hamam və ayaqyolu, anbar evin içərisində yox, evdən kənarda inşa olunur. İri və xırda heyvanlar üçün həyət ərazisində çiy kərpicdən tövlə (yerli şivələrdə pəyə adlanır) tikilir. Tövlədə heyvanları yemləmək üçün axırlar olurdu.

Basqalda və Lahıc qəsəbəsində əhali oturaq olduğu üçün burada şəhər ənənələri daha erkən təşəkkül tapmışdır. Belə ki, burada ikimərtəbəli və ikinci mərtəbəsi asma eyvanlı, evin küncündə bir nəfərlik hamamı olan evlərə indi də rast gəlmək olur. İsmayıllı kəndlərində evə yaxın ərazidə yay evi olan təndirxana da mövcuddur. Əvvəllər yerdən olan döymə təndirlərə, indi isə ayaqüstü təndirlərə daha üstünlük verilir.

XX əsrin əvvəllərinə qədər İsmayıllı kəndlərinin iqtisadi vəziyyətinin ağırlığı, mədəni səviyyəsinin ümumən aşağı olması, ictimai-iqtisadi inkişafın ləng sürəti yeni tipli evlərin

yaranmasını uzun müddət ləngitmiş, bir sıra arxaik ev tiplərinin son zamanlara qədər qalmasına imkan yaratmışdır.

XX əsrin II yarısında sement Azərbaycana gəldikdən sonra artıq hər yerdə olduğu kimi İsmayıllıda da evtikmə metodunu dəyişdirdi. Belə ki, artıq sosial imkanlara görə evlər çay daşından, sonralar isə daşdan olmaqla ikimərtəbəli tikildi.

Apardığım təhqiqatdan belə qənaətə gəldim ki, insanlar məişət, sosial həyatlarını yaxşılaşdırmaq və öz rahatlıqlarını təmin etmək üçün son dövrlərdə müasir avropa üslublu evtikmə mədəniyyətindən istifadə edirlər. Belə ki, qədim tikililərdə də bəzi dəyişikliklər edərək evi Avropa memarlıq üslubuna əsasən qururlar ki, bu da əski evtikmə mədəniyyətinin tarix səhnəsindən çıxmasına gətirir.

Odur ki, İsmayıllı və onun bəzi kəndlərində yaxşı saxlanılmış qədim evlərdən bir necəsinin dövlət tərəfindən mühafizəyə alınmasını zəruri hesab edirəm. Çünki bu, əski türk evtikmə mədəniyyətinin gələcək nəsillərə çatdırılması yolunda ali bir missiyadır!

## ƏDƏBİYYAT


1. AE 2007 – Azərbaycan Etnoqrafiyası, II cild, Bakı: Şərq-Qərb, 2007
2. Nəsirli 1977 – Nəsirli M.H. Yaşayış evinin mənşəyinə dair. AEM, III bur., Bakı, 1977, s. 90.
3. http://bao.az/categories_Medeniyy%C9%99t/subcategories_azerbaycan-medeniyyet/product_4511108439
4. Qasımova 2011 – Qasımova S. İsmayıllı – Etnolinqvistik yaddaş, Bakı, 2011. s. 93
5. http://eskievler.nedir.com/#ixzz46UFB9hoX

6. http://gercektarihimiz.blogcu.com/klasik-turk-evlerinin-ozellikleri/4508895

7. Ağasıoğlu 2014 – Ağasıoğlu F. Azərbaycan türklərinin islamaqədər tarixi. I bitik, Bakı, 2014, s.83

## The remnants of the old Turkish house-building culture in Ismayilli

**Summary**

This article is about available still uneven, constructions in Ismailly and house building that hasn't gone from the stage of history, the culture and history of each monument embodies. The research involved the construction of the facilities being built in the same household and the buildings are nearly a century years old, sometimes it gives more historical traditions. Such kinds of houses are still present in Ismayilli that immortalize the old house-building traditions.

**Key words:** house, balcony, shire, nice, fire

## Остатки культуры старого турецкого домостроительства в Исмаиллы

**Резюме**

В настоящей статье рассказывается о существующих, еще неразрушенных и нестертых со страниц истории постройках и культуре старого домостроительства. Постройки, привлеченные к исследованию, являются постройками домашнего хозяйства. В них живут следы истории одного столетия и более. В Исмаиллы существуют такие дома, в которых видны традиции старого домостроительства.

**Ключевые слова:** дом, балкон, шире, ниша, очаг

# ƏLAVƏ MATERİALLAR

**Elçin Qaliboğlu (İmaməliyev)**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Folklor İnstitutunun böyük elmi işçisi,*
*elcin.galiboglu@gmail.com*

## HAPITLAR: TARİXİ, MƏDƏNİYYƏTİ, DİLİ
*(Jurnalistin qeydləri)*

Bu yazıda İsmayıllı rayonunda yaşayan hapıtlar haqqında söhbət açılır. Ümumiyyətlə, Azərbaycan türkləri ilə yanaşı bu rayonda bir sıra xalqların və etnik qrupların nümayəndələri də hazırda güzəranlarına davam etməkdədirlər.

Hapıt kəndlərinin yaranma tarixi ilə bağlı belə bir qənaət var: Molla İsaq və Hacı Hətəm qardaşları bir vaxt Quba rayonundan köçüb İsmayıllıya gəlib, burada yurd salıb, maldarlıqla məşğul olublar. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə həmişəlik bu yerlərdə məskunlaşıblar. Məhz Mollaisaqlı və Hacıhətəmli kəndlərinin adı da həmin qardaşların adı ilə bağlıdır. Əslən İsmayıllı rayonunun Hacıhətəmli kəndindən olan yazıçı-publisist Xeyrulla Ağayev məlumat verir ki, Azərbaycan tarixinin böyük bir dövrünü əhatə edən Qafqaz Albaniyasınının günümüzə gəlib çatan əhalisindən biri də hapıtlardır: “Tarixdən məlumdur ki, Albaniyada 26 tayfa yaşayıb. Tarixi tədqiqatlara görə, hapıtlar herlərlə bağlıdır. Alban tarixi kifayət qədər obyektiv araşdırılmadığından bu gün hapıtların haradasa başqa prizmadan təqdimi müşahidə olunur”.

Müəllif Kürün şimal sahilində – Ağdaşın, Qəbələnin, Oğuzun, Zərdabın, Şəkinin müəyyən kəndlərində vaxtilə hapıt

dilində danışanların olduğunu daha sonra bildirir: “İndi tək-tük danışanlar bu dili xatırlayırlar. Ancaq hapıtların kompakt halda yaşadıqları yerlərdə – İsmayıllının və Qubanın kəndlərində bu dil yaşadılır”.

İsmayıllının Hacıhətəmli və Mollaisaqlı kəndlərində aparılan arxeoloji qazıntılar zamanı iki, üç min il yaşı olan qəbirlər aşkar edilib. Bu faktlar əsasında sözügedən məsələyə dair arxeoloq-tarixçilərimiz artıq qənaətlərini söyləyiblər. Arxeoloq Fazil Osmanov bu iki kənd, habelə Həftəran vadisi boyunca aparılan arxeoloji qazıntılarla bağlı maraqlı açıqlamalar ortaya qoyub. Sonradan Qafar Cəbiyev bu mövzunu tədqiq etmiş, Qiyasəddin Qeybullayev arxeoloji araşdırmalarla bağlı fikirlərini söyləmişdir. Yenidən X.Ağayevin fikirlərinə qayıdaq. O, belə hesab edir ki, hapıtlar xarakter, psixologiya, məişət baxımından türklərə çox yaxındırlar. Bu, onların vətənpərvər və mübariz ruhda olmaları ilə bağlıdır: “Xalq hərəkatı, Qarabağ savaşı zamanı bu kəndlər fədakarlıqları ilə seçiliblər. Bu gün hapıtları türkə yaxınlaşdıran ilk növbədə xarakterləridir. Tanrıçılıq inamı camaat arasında indi də yaşamaqdadır. Dil sarıdan da müəyyən uyğunluqlar, oxşar sözlər nəzərə çarpmaqdadır. Məsələn, Türkiyə türklərində sənədə “kahat” deyirlər, bizdə də bu eynən sənəd anlamındadır. Bizdə Allaha “qoq” deyirlər. “Qoq” isə “yüksəklik”, “göy” mənasındadır. Yüksəkliyə “qoq ki qağa” deyirik və bu da “Allahın yüksəkliyi” anlamındadır”.

Qafqaz Albaniyası ilə bağlı araşdırmalardan hələ ki, lazımi nəticə çıxarmağın mümkün olmadığını qeyd edən X Ağayev bildirir ki, bu gün dünyada Qafqaz Albaniyasını hətta ermənilərlə bağlamaq cəhdləri də var. Ancaq bu iddiaların heç birinin əsası yoxdur: “Həmişə bizim kəndlərin əhalisində

türklüyə, Türkiyəyə güclü meyl olub. Bizim camaat həmişə deyir ki, türklər bizi xilas etməyə gəlmişdilər. Bu gün İsmayıllıda Türkiyə türklərinin Azərbaycanı 1918-ci ildə xilas etmələrinə həsr olunmuş abidə mövcuddur. Kəndimiz (Hacıhətəmli) 1918-ci ildə ermənilər tərəfindən tamamilə məhv edilə bilərdi. Molla Qurbanın Dadaş adlı bir erməni nökəri olub. Bu, mal-qara otarırmış. Ermənidən çıxmayan iş, türkün verdiyi çörək görünür, ürəyini yumşaldıb, camaata xəbər verib ki, ermənilər gecəynən kəndi basacaq, sizi də məhv edəcəklər. Kəndin camaatı təpədən-dırnağa kimi silahlanmış ermənının qabağında nə edə bilərdi? Məcbur olublar, Göyçay istiqamətində kəndi tərk ediblər. Ermənilər kəndə hücum edib, olan-olmazı soyub ararıb, apara bilmədiklərini də yandırıblar. Ermənilər bizim kənddən 1918-ci ilin iyulunda qovulub. Qafqaz İslam Ordusunun əsgərləri bu ərazilərdə gedən döyüşlərdə əsl qəhrəmanlıq göstəriblər. Bir türk zabiti, iki əsgər qəhrəmancasına həlak olub. Kəndin mollası Həmid Ağayev həmin türk qəhrəmanların qəbirlərini o çətin zamanlarda qoruyub saxlayıb. Baxmayaraq ki, ətrafda ermənilər yaşayırdı. Ruslar, o qəbirlərə insanların diqqəti azalsın deyə, xeyli kənardan yol çəkmişdilər. Hətta qəbir daşını da oğurlayıblarmış. 1967-ci ildə Süleyman Dəmirəl Türkiyənin baş naziri kimi SSRİ-yə gələrkən iki dövlət (Kosıginlə Dəmirəl) arasında anlaşma olur ki, Azərbaycandakı türk qəbirlərinə toxunulmasın. Dəmirəlin adından kəndimizdəki qəbirləri qoruyan şəxsə viza da verilib. Molla, milis işləyən oğullarına görə Türkiyəyə getməkdən vaz keçib ki, barəsində başqa cür fikirləşərlər".

Hapıtların Azərbaycan-türk mədəniyyətindən bolluca bəhrələndiyini deyən X. Ağayev bildirir ki, bu mədəniyyətin birləşdirici qüdrəti var: "Xarakter sarıdan türk mədəniyyəti ilə

qaynayıb-qarışmışıq. Dilimizdə “iməclik” sözü var. Bir vaxtlar, indiki Sankt-Peterburqda yaşamış bir akademikin Albaniyaya aid kitabında oxumuşdum ki, “iməcilik” sözü alban dilində “pulsuz kömək” deməkdir. Kür çayının adı alban dilində “çay” deməkdir. Bizdə indi də görməzsən ki, kimsə kiməsə pulla iş görsün. Kimsə ev tikəndə deyirlər ki, filankəs iməci (yəni iməcliyə) çağırır. Bizlərdə alver psixologiyası o qədər inkişaf etməyib. Türk ruhundakı halallıq indi də bizdə yaşayır (Yaxud da, alban dilində “kür” çay adlanır)”.

Hapıt dilinin yazılı xüsusiyyətinin olmamasına gəlincə, bu haqda da müəllifin maraqlı fikirləri vardır: “Dünyada 3 min dil var, onun cəmi 200-nün yazılı xüsusiyyəti var. Vaxtilə 52 hərfdən ibarət alban əlifbası olub. Təəssüf ki, hələ də alban əlifbasını oxuya bilən mütəxəssis bizdə yoxdur. Mingəçevirdə su elektrik stansiyası tikilərkən ilk dəfə bütün hərfləri olduğu mətn üzə çıxdı. Kəndimizdə də məktəb tikilərkən belə bir abidə tapılıb, hansı ki, Mingəçevirdə tapılan abidədən qədimdir. Bu gün gürcülərin və ermənilərin istifadə etdikləri qrafik işarələrin çoxu alban əlifbasından götürülüb”. Daha sonra hapıtlarda Novruz bayramı ilə bağlı bütün ritualların keçirildiyi, oda müqəddəs münasibət bu qeydlərdə öz əksini tapmışdır: “Oda, suya münasibət türk ruhunda necədirsə, bizdə də elədir. Camaat and içəndə qoq – yəni günəşə and içirəm” deyər. Yaxud da, müəllifin dil haqqında belə bir mülahizəsi də vardır ki, bu gün hapıtlar dillərini öz aralarında məişət səviyyəsində qoruyub yaşadırlar: “Bizim dildə ədəbiyyat yaradılmayıb. Elmi-ədəbi dildə danışanda istər-istəməz Azərbaycan türkcəsinə müraciət etməli oluruq”.

X.Ağayev bu gün hapıtlara xas folkloru da toplamaqla məşğuldur: “Lətifələri, başqa janrlardakı folklor materiallarını

toplamış və bunların müəyyən hissəsini çap etmişik. Bu işi yenə də davam etdirəcəyik”.

Hapıt dilində qadın, kişi cinsləri, üstəgəl canlı, cansız cinslər də vardır. X.Ağayevin dediyinə görə, hapıt dili fransız alimi tərəfindən araşdırılıb: “Beş-altı il həmin fransız alimi gəlib hapıtların dilini araşdırıb, burada bir neçə ay qalıb, sonra da doktorluq dissertasiyası müdafiə edib”.

Hapıtlara aid çoxlu bədii nümunələr vardır. Hapıtların yaşadığı Hacıhətəmliyə həsr olunmuş həmin şeirlərdən bir neçəsinə diqqət çəkək:

Bu el Hacıhətəmli,
Zamanın sınağında,
Xoş üzlü, xoş qədəmli,
Hapıtlar oylağında,
Oğlu şəhid analar
Dilimin əlifbası
Yol gözlər qəmli-qəmli.
Cavanşir yarağında.

Aran üçün dağdı, dağ üçün aran,
Havası təravət qoxar mehindən,
Vətən torpağını qanla suvaran
Kəndim qürur duyur şəhidlərindən.

Bu kənddə dilimin heykəli durur,
Bir üzü güləndə bir üzü qəmli.
Yazısız-pozusuz bir dil qoruyur,
Açıq bir muzeydi Hacıhətəmli.

**İndi də hapıt lüğətindən sözləri təqdim edək:**

Alqənuvun - düşürsən
Azar - xəstə
Ağacuvun - gətirdin
Aralıcaar - uzaqdan
Axri - axrı
Asxunu - süzür
Axuric - yatmaq
Axur qirxəri - yuxum gəlir
Askoravın - düşürsən
Ayağqəbı - ayaqqabı
Abcın - otur
Azqanadabızın - oturmuram
Bəlkən - at
Bağəy - gedək
Belic - böyük
Bəy - ata
Bız - dodaq
Bəğriyər - qorxmaq
Bılmə - nəlbəki
Bəse - bəsdi
Bustan - bostan
Bıdırkən - böyürtkan
Belic - böyük
Bəci - keçi
Basmışər - bas
Car - tük
Cəlibi - sözlər
Cuqnu - yaşıl
Cənqəri - göy
Cic - gül
Cəl - söz
Çikarayi - nə qədərdir?
Çoru - gedir
Çibəreb - gedirlər
Çuqud - nə qədər?
Çuğoru - gedir
Çoradabı - getmir
Çibərib - gedirlər
Çeri - gedir
Dəy - ana
Darnak - dərnək
Dulad ac - dul arvad
Debıx - qaç
Dahar - daş
Dil - barmaq
Duqqa - dərvaza
Duqqayı suva - qarının ağzı
Ey - hə
Əbırd - qoz
Əzqın - otur
Əyəy - qoyun
Ər - elə
Əmcıb - onlar
Ədiqul - üst
Əc - arvad
Əyar - gözəl

Əy - qoy
Əzqın - otur
Əmi - əmi
Əynə - güzgü
Əy bay - ay ana
Əyəl - uşaq
Funduq - fındıq
İbır - qulaq
İcin - sifət
İruc - qırmızı
İcə əmi - onun əmisi
İrən – o yana
İcə su - onun ağzı
İxəc - eşitmək
İxrizin - eşidirəm
İxrədazın - eşitmirəm
İcə rub - onun iynəsi
İçic - başqası
Kar - iş
Kum - kənd
Kur - çay
Kıs - toyuq
Kurkoro - gəzir
Kurkəri - gəzir
Kurkorədəbı - gəzmir
Kurkorədər - gəzmir
Qədır - qazan
Qil - ayaq
Qəli - boğaz
Qəyin - al
Qubzur - dur
Qətə - sabah
Qəyin - götür
Qaməynu - götürmə
Qənə - çubuq
Qədə - oglan
Qul - buğda
Qusud - qoca
Qətxice - çıxıb
Qəyvun - öləsən
Qabdıl - dayan
Qabdıl kədəy - dayan görüm
Qım - torpaq
Qel - duz
Qıl - baş
Qit - gey
Qənikul - alt
Quq - göy (ərzaq)
Qəy - soyuq
Qənikəc - aşağıda
Qənik - aşağı
Qriş - palçıq
Qərə - yağ
Quzur - dur
Qomuş - camış
Qəzəlqəni - kök
Qəşqun - saqqız
Qodi - it

**Cəfər Bağırov**
*Xızı Rayon Təhsil Şöbəsinin*
*metodkabinəsinin müdiri, əməkdar müəllim*

# "AZSAYLI XALQLARIN FOLKLORU" KİTABI HAQQINDA TƏƏSSÜRATIM

"Azsaylı xalqların folkloru" kitabında əsas materialların lahıclara aid olduğunu və özümün də lahıc olduğumu nəzərə alaraq aşağıdakıları qeyd etməyi özümə borc bildim.

1. Azsaylı xalqların dil və foklorunun öyrənilməsinin əhəmiyyəti çox böyükdür:

Lahıc dilini möhkəm, davamlı və uzunömürlü dil hesab etmişəm. Görkəmli alimlərimiz Əkrəm Cəfər (bir neçə dil bilirdi), Manaf Süleymanov, Asəf Rüstəmov və bir çoxları bu dildə danışmaqdan həzz alırdılar. Ömürlərinin axırına qədər hətta ləhcələrini belə itirmədilər. Bütün bunlarla bərabər hər biri öz sahəsində sözlərini dedi.

Lahıcda uşaqlar bir qayda olaraq məhz bu dildə danışmağa başlamışlar.

Bu gün təəssüf ki, əksər ailələrdə ünsiyyət üçün Lahıc dilindən az istifadə olunur. Vaxtilə Lahıc dilində bildiyimiz bir sıra tapmacalar, atalar sözləri, müəyyən şeirlər az qala yaddaşlardan silinmək üzrədir.

*Belə bir vaxtda məhz bu kitabın böyük zəhmət hesabına ərsəyə gəlməsi xüsusilə təqdirəlayiqdir.*

2. Lahıcla bağlı xeyli sənədli filmlər çəkilmişdir. Təqdimat öncəsi nümayiş olunan Folklor İnstitutu və İctimai televiziyanın hazırladığı "Girdiman qalası" filmi mənə zövq verdi. Burada xüsusilə Lahıc ətrafındakı qala və qədim şəhər qalıqları haqqında məlumatlar həm elmi, həm də maarifləndirmə cəhətdən çox əhəmiyyətlidir.

3. Lahıcda nağıl bilən və onu böyük coşqu ilə danışan (nəql edən) kişilər var idi. İkisinin nağıllarına mən də qulaq asmışam. Biri mənim babam Nəsib Mahmudov (o həm də Dadaş müəllimin babasıdır, 10 ildən çox Lahıcda molla kimi fəaliyyət göstərib), digəri Qəzənfər Qəniyev olub (hamı ona "Bircəmi" kimi müraciət edərdi, övladları olmasa da, həm özü, həm də həyat yoldaşı kənd camaatının bütün xeyir işlərində, iməciliklərdə yaxından iştirak edər, imkansızlara əl tutardılar). Yadımdadır ki, 50-ci illərin axırlarında bir qrup şəxslər Lahıca gələrək onlardan nağıl danışmalarını xahiş etdilər və stenoqrafçılar yazıya aldılar (o vaxtlar maqnitofon və ya diktofon yox dərəcəsində idi). Sonralar həmin nağıllar "Azərbaycan nağılları" adı altında ayrı-ayrı cildlərdə nəşr olundu.

4. Kitabın hazırlanmasında iştirakı olan müəlliflər – Atəş Əhmədli və Dadaş Əliyev böyük məsuliyyətin altına girmiş, lakin fərəhləndirici və sanballı uğura imza atmışlar. Dadaş müəllim rayondakı azsaylı xalqların və etnik qrupların nümayəndələri ilə onların yaşadıqları kəndlərdə görüşmüş, məlumatların toplanmasında xeyli zəhmət sərf etmişdir. Xüsusilə Atəş müəllimin Lahıc ətrafında yerləşən Fit qalasına getməsi, bu qala haqında maraqlı fikirlər söyləməsi, müəyyən təhlillər aparması təqdirəlayiqdir. (Xarici turistlərin xəritə əsasında həmin qalanı həvəslə görmək istəyi ilə müqayisədə qala ətrafında yerləşən kəndlərin əhalisinin çox az qisminin bura maraq göstərməsi təəssüf doğurur).

5. Kitabda azsaylı xalqların (həmçinin etnik qrupların) respublikamızda, o cümlədən rayonumuzda yayılmasının tarixi-coğrafi təhlilinin verilməsi, onların azərbaycanlılarla son dərəcə mehriban, qarşılıqlı hörmət şəraitində yaşaması və fəaliyyət göstərməsi, çoxsaylı qohumluq əlaqələrinin yaranması, bir sıra adət və ənənələrin "ümumiləşməsi" (toylar, milli bayramlar, dini mərasimlər və s.) konkret nümunələrlə göstərilmişdir.

6. Lahıc və İsmayıllının digər yaşayış məntəqələrinin tarixi və orada yaşayan əhalinin məşğuliyyətləri barədə verilən məlumatlar kitabın məziyyətlərindən sayılmalıdır.

7. Kitaba daxil edilmiş məlumatların maraqlı başlıqlarla verilməsi də diqqətçəkici faktdır. Kitabda verilmiş inanclar və sınamalar, cinlər haqqında əhvalatlar – Musa və Xızır peyğəmbərlər, I Keyxosrov haqqında rəvayətlər, Qurban dayı, Seyfulla Nəcim və Hacı Molla Hüseyn, Hüseyn və Zülfüqar qardaşlarının ata tərəfindən satılmasının camaat tərəfindən qarşısının alınması ilə bağlı və digər əhvalatlar ayrıca maraq doğurur.

8. Qulu dayı ilə bağlı lətifələr ən maraqlı bölmədir. Düşünürəm ki, kitabı oxuyan hər kəs hazırcavab, baməzə, həm də hər deyimində dərin məna olan bu el ağsaqqalının lətifələr dünyasına heyran olacaq.

Xatirə: 1970-ci ildə ali təhsili başa vurduqdan sonra Əhən kəndində müəllim kimi fəaliyyətə başladım. Bəzi günlərdə dərsdən sonra Qulu dayı ilə yol yolaşı olurdum. Həmin ilin sentyabr ayında ilk dəfə olaraq İsmayıllı – Lahıc yolu ilə avtomobil Lahıca gəldi. Yolda Qulu dayıya dedim ki, gözün aydın, ay Qulu dayı, Lahıca maşın gəldi. Qulu dayı: “Rahtı suzı sovet hökuməti, ven kühon bi Löyijiş maşin miyo”. Tərcüməsi: “Yolun yansın sovet hökuməti, bu dağlardan Lahıca da maşın gələrmiş”.

Bir gün Əhəndən gələndə mağazalarda işləyən satıcıların camaatı aldatmasından söhbət düşdü. Qulu dayı bir satıcı haqqında belə dedi: “Sənə qurban olum, “filankəs” tərəzinin ağır-yüngüllüyü ilə bir saray tikib. Əşşi, qəndi tərəzinin gözünə elə vurur ki, yazıq tərəzinin altı saat ağlı başından çıxır”.

9. Vücudnamə də maraqlı bir janr kimi diqqətimi çəkdi: “Beş yaşında qız gözəlləşir, gözəl bir qız olur. On yaşına çatanda gözəlliyə çatır. On birdə türmə örtər başına. On ikidə siqəl verər qaşına. On üçdə şəmamələr düzülər. On dörddə qoy-

ma qonşiyə, o da söz olar. On beşdə elçilərə satılar. On altıda şirin toyı tutular. On yeddidə tapar əndamını. On səkkizdə açılar qızılgül kimi. On doqquzda gələr dəminə, igirmidə sərvnaz olar. Otuzda bir oğul, qız yetirər. Qırxda ər zülmü götürər. Əllidə utanmaq bilməz, üz-üzə oturar. Atmışda taqət gəlməz dizinə. Yetmişdə tor çəkilər gözünə. Həşdatda oğul-qız baxmaz sözünə. Doxsanda bel bükülər, diş tökülər, zülf ağarar. Yüz yaşında ağaclar başında yalquz qalar bı gözəl gəlin". Bu janrda nümunəni kitabda gördüyümə görə müəlliflərə təşəkkür edirəm.

10. Piyərnamələr – Atalar sözləri. Bu bölmədə verilmiş nümunələr əslində bir sıra xalqlarda ya eyni, ya da oxşar şəkildə işlənir. Məsələn: "Dilinin altında qənd islanmır" (xəbərçilik barədə); Lahıcda: "Gəşde dihə, vəkire bihə". Tərcüməsi: Kəndi gəzib, heyvanı dərib."Ərəb nədir, corab nədir", "Eşşək nə bilir zəfəran nədir". Lahıcda: "Xər əgə, məxmər əgə". Tərcüməsi: Eşşək hara, məxmər hara. "Yanan da mən, yaman da mən" – Lahıcda: "Rafdum bı boğ Baboli, be man mund həmmoli". Tərcüməsi: "Getdim Babalı bağına, mənə hamballıq qaldı" (buna digər yerlərdə rast gəlməmişəm).

11. Tapmacalar – Lahıc Qurban dayı ilə indiki yaşlı insanların yaxşı söhbəti tutardı. Həm şirin, həm ciddi, həm də baməzə danışığı hamını cəlb edərdi. Xeyli atalar sözləri və tapmacalar bilirdi. Bunları xüsusi ahənglə deyərdi, sanki ali təhsilli aktyor idi (İndi aktyorların əksəriyyəti səhnədə belə ifadəli danışmaqda çətinlik çəkir). Bir dəfə belə bir tapmaca dedi:

Bir tapmaca deyərəm,
Tapmasan, gənə deyərəm.

Biz ondan tapmacanın cavabını deməsini xahiş etdik. O, bunu sabaha qoydu. Fikirləşdik ki, görəsən hansı tapmacadır. Sonradan bildik ki, tapmacanın cavabı əslində "Gənə"dir. Lahıca məxsus tapmacaların verilməsi kitabın əhəmiyyətini artırır:

| | |
|---|---|
| Sər firəh pişd tənginə, | Baş enli, kürək dar, |
| Xişg bireyi ənginə. | Qurusu qax adlanar. |
| Köyrihoni zərd mitı, | Yaşılları sarılıq verər, |
| Qe mıxori dərd mitı. | Çox yeyərsən, dərd verər. |
| | *Cavabı: (Əmürü - armud)* |

12. Kitabda verilmiş yer adları, yağıntı və quraqlıqla bağlı xalq inancları, Novruz adətləri haqqında məlumatlarla yanaşı toy mərasimlərinin mərhələlərinin verilməsi məndə həm razılıq hissi yaratdı, həm də təəssüfləndim ki, indi bu mərhələlərə məhz Lahıc qaydası ilə demək olar ki, əməl olunmur.

13. Lahıc mətbəxinə aid məlumatlara unudulmuş və bir çoxlarına az məlum olan yemək növləri (misalçün, tərək) daxil edilə bilərdi. Sonda isə təklifləriimi vermək istərdim:

a. Bəzi tərcümələrdə müəyyən diqqətsizliklər var: Məsələn, “Arafta götı” (Getdiyin yoldan xeyir görəsən) ifadəsinə diqqət yetirək: Burada “arafta” “rahtı”, “yoldan” isə “yerdən”, digər halda “Xudo be man ömür do” (Ömrü Allah verdi) ifadəsi “Allah mənə ömür verdi” kimi tərcümə olunmalıydı.

b. Kitabda müəllifi olan nümunələr verilmişdir. Mənə belə gəlir ki, sonrakı nəşrlərə digərlərinin, məsələn Rəhim Bağırovun və Kamil Sərbəndinin Lahıc dilində yazdığı şeirləri daxil etmək olar. Rəhim müəllimdən bir nümunəyə diqqət yetirək:

| | |
|---|---|
| Bırafdəni, umorəni, | Gedirəm, gəlirsən. |
| Hişkileyi navordəni. | Heç nə gətirmirsən. |
| Ruzi həş rah bıxordəni, | Gündə səkkiz dəfə yeyirsən |
| Tı hə ve gil işqamtıyi. | Sən elə qarnının dərdindəsən |

Kitabın bədii tərtibatında rəssam işi zəifdir. Adı çəkilən Qurban dayı, Qulu dayı, digər baməzə şəxslərin şəkillərini daxil etnək olardı.

Bütövlükdə kitab dəyərlidir. Hamımızın, xüsusilə gənclərin belə kitabları mütaliə etməsi vacibdir. Müəlliflərə yeni-yeni uğurlar arzulayıram.

**Olqa Radayeva**
*İvanovka kənd icra nümayəndəsinin müavini*

## СЕЛО ИВАНОВКА – ПРИМЕР ТОЛЕРАНТНОСТИ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА В АЗЕРБАЙДЖАНЕ

Азербайджан, на протяжении многих веков прославился как край, где сформировалась атмосфера национально-культурного многообразия, где представители различных национальностей и концессий проживают в атмосфере мира и благополучия, взаимопонимания и диалога. Мультикультурализм и толерантность, исторически присущие образу жизни азербайджанцев, сегодня стали неотъемлемыми чертами повседневной жизни каждого гражданина азербайджанского государства, независимо от национальной принадлежности, языка и религии. О богатом мультикультуральном прошлом азербайджанского народа свидетельствуют не только сегодняшний толерантный образ жизни нашего народа, но и созданные этим народом литературно-художественные, научно-философские, политико-правовые источники и документы.

Благодаря мудрой политике нашего Президента, этнические меньшинства свободно пользуются всеми правами, наряду с азербайджанцами, включая право на образование на родном языке. В Азербайджане проживают более 40 национальных меньшинств и испокон веков народы. относящиеся к различным религиям и этносам проживают в условиях мира и гармонии.

Религии должны нести добро и быть щедрыми, народы должны прислушиваться друг к другу и искать сходство в религиях.

Азербайджан входит в пятёрку самых толерантных государств. Мультикультурализм представляет собой необходимый инструмент диалога культур и цивилизаций. Атмосфера толерантности в Азербайджане всегда находится на самом высоком уровне. По этой причине, здесь проводятся многие мероприятия международного уровня, научные конференции, посвященные вопросам мультикультурализма, межнациональным и межконфецциональным отношениям и диалогу.

Ярким примером толерантности и мультикультурализма является село Ивановка Исмаиллинского района. Молокане, прибывшие около 2-х веков назад в дружелюбный солнечный Азербайджан, проживают здесь и сейчас, несут свою культуру, свою веру, говорят и обучаются на родном языке. Ощущают помощь и заботу со стороны руководства района и страны, пользуются равными возможностями, являются полноправными гражданами страны. Скажу по факту, что мы дружим, заводим семьи, изучаем языки друг друга, ходим в гости, знаем музыку и разбираемся в кинематографе наших народов, вместе обожаем природу районов и архитектуру городов, развиваемся, образовываемся. Да что говорить! Одинаково любим отведать пахлаву на Новруз и угоститься пирогами на Пасху, перенимаем некоторые традиции и трансформируем менталитет. И все это даётся нам так легко по одной простой причине – общая Родина.

Сегодня я хочу выразить свою глубокую благодарность руководству нашего района, всем присутствующим за вашу толерантность, за ваше внимание и доброту, тёплое отношение, за понимание и терпимость. Благодаря вашей доброте малочисленные народы чувствуют себя здесь дома, чувствуют поддержку и помощь во всём!

Благодаря вам моя Родина самая лучшая в мире!

**İldırım Məsimov**
*Mollaisaqlı kənd orta məktəbinin müəllimi*

## HAPUTLAR

İyirmi il əvvəl Ulu öndər Heydər Əliyevin dediyi sözlər yaddaşıma həmişəlik həkk olunub: "Biz Azərbaycan deyəndə onun sərvətini, gözəl təbiətini nəzərdə tuturuq. Bütün bunlarla yanaşı ən başlıca sərvətlərindən biri, bəlkə də, ən başlıca sərvəti bu torpaqda yaşayan müxtəlif xalqlardan olan, müxtəlif dinlərə qulluq edən adamlardır"

Respublikamızda türkdilli azərbaycanlılarla yanaşı ləzgilər, avarlar, talışlar, tatlar, qrızlar, buduqlar, kürdlər, yəhudilər, haputlar və başqa azsaylı xalqlar yaşayır. Adlarını sadaladığım xalqlardan biri də nümayəndəsi olduğum haput xalqıdır. Qədim tarixə malik haputlar ləzgi dil qrupunun Şahdağ yarımqrupuna daxildirlər. Hal-hazırda haputlar İsmayıllı rayonunun Hacıhətəmli, Mollaisaqlı, Aşıqbayramlı, Haputlu, Quba rayonunun Cek, Əlik və Haput kəndlərində yaşayırlar. Qəbələ rayonunun Şileyli, Məlikli, Ucar rayonunun Çiyni, Ağdaş rayonunun Haput, Goranboy rayonunun Harhaput kəndlərinin əhalisi isə bu dili itiriblər.

Azərbaycanın görkəmli coğrafiyaşünas alimi Məhəmmədhəsən Baharlının 1921-ci ildə çap olunmuş "Azərbaycan" adlı kitabında haputlar haqqında məlumat verilmişdir.

Müasir elmi ədəbiyyatda səhvən qrız və haput etnosları qarışdırılır. Haputların qrız və buduqlarla qohumluğu və yaxınlığı var, amma haput dilini qrız dilinin ləhcəsi adlandırmaq səhvdir.

Ali məktəbdə mənə dərs demiş tarix elmləri doktoru Qiyasəddin Qeybullayevin "Azərbaycan türklərinin təşəkkülü tarixindən" kitabında belə yazılır: "V əsrdən gürcü mənbələrində adı çəkilən haputlar "her", qrızlar isə özlərini "qer" adlandırırlar". 2010-cu ildə "Şəms" nəşriyyatında nəşr olunmuş "Haputlular" kitabında buna münasibət bildirmişəm.

Müasir dövrdə haputlar öz qədim adət-ənənələrini saxlasalar da, bu dilin tamamilə unudulmaq təhlükəsi var. Odur ki, bu haqda birgə səy göstərməliyik. Şeyx Şamil deyirdi: "Kiçik xalqlar böyük xalqların xəncərləridir, böyük xalqların özlərini kiçik xalqların vahid birliyi yaradır".

Bəzi alimlər haputların Quba rayonundan digər rayonlara yayıldığını yazırlar. Əslində, bu səhv fikirdir. Düzdür, Qubadan başqa yerlərə haputlar köç ediblər. Amma hələ Qafqaz Albaniyası zamanı haputların Gürcüstanla sərhəddə – indiki Alazan və İori çayları arasında Hereti dövləti olmuşdur. Ərəblərin Azərbaycana yürüşündən sonra həmin dövlət ləğv olunmuşdur.

Mollaisaqlı kəndi ərazisində ilk dəfə 1974-cü ildə qazıntılar aparılmış və tapılan eksponatlar çox əhəmiyyətli olduğu üçün haputlara aid maddi sübut kimi Tarix Muzeyinə təhvil verilmişdir. Deyilən faktlardan məlum olur ki, bir zamanlar haputlar ayrıca xalq olmuş, həm də onlar Azərbaycanın siyasi həyatında mühüm mövqeyə malik olması ilə seçilmiş, türklərlə birlikdə ümummilli mədəniyyətin inkişafında təməl daşlarını qoymuşlar.

Akademik Ziya Bünyadov yazırdı: "Hər bir alim, jurnalist, bütünlükdə qələm çalanlar öz kəndlərinin, qəsəbələrinin tarixini yazmaqla təşəbbüs göstərsinlər. Doğrudur, bu, çətindir, lakin faydalıdır, çünki bu həqiqətdir ki, tarixçilər ümumi

tarix yazırlar və hər bir yaşayış məntəqəsinin tarixini həmin yerin sakinləri qədər bilməzlər”.

Hacıhətəmli və Mollaisaqlı kəndlrində yaşayan haputlar öz dillərini qorumaqla bərabər, adət-ənənələrini, folkor nümunələrini də yaşatmaqda davam edirlər. Mollaisaqlı kənd tam orta məktəbi və kənd mədəniyyət evi tərəfindən yaradılmış “Haput folklor qrupu” rayon tədbirlərində və respublika televiziyasında çıxışlar edirlər.

Mən bütün azsaylı xalqları vətənimiz Azərbaycanın gələcəyi uğrunda çalışmağa çağırıram!

**Bəxtiyar Rəhimov**
*Qalacıq kəndinin təqaüdçüsü, keçmiş müəllim*

## MULTİKULTURALİZM İLİNİN TÖHFƏSİ

Məlum olduğu kimi multikulturalizm ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının 11 yanvar 2016-cı il tarixli sərəncamı əsasında ölkəmizdə “Multikulturalizm ili” elan edilmişdir. Bu məqsədlə prezident kitabxanasında Azərbaycan, ingilis və rus dillərində vebsayt və elektron kitabxana yaradılmışdır. Vebsayt altı bölmədə qruplaşdırılmışdır. Saytın “etnik rəngarənglik”, “mədəni müxtəliflik”, “sənədlər”, “multikulturalizm” bölmələrində Azərbaycanda yaşayan bütün xalqları birləşdirən azərbaycançılıq ideologiyasının mahiyyəti, ölkəmizin etnik rəngarəngliyi, mədəni müxtəlifliyi, milli azlıqların təhsili, tolerantlıq ənənələri, etnik qrupların tərkibi, məskunlaşma arealları, hüquq və azadlıqlarının, dil və mədəniyyətlərinin qorunması haqqında materiallar və sərəncamlar öz əksini tapmışdır.

Azərbaycanın dilbər guşəsi olan, təbiətin ona bəxş etdiyi gözəlliyi ilə fərqlənən İsmayıllı rayonu müxtəlif xalqların nümayəndələrinin mehriban ailə kimi yaşadığı, multikulturalizm dəyərlərinin bərqərar olduğu və qorunduğu bir məkandır. Ərazisi 2074 kv. km və dəniz səviyyəsindən 200-3629 m (Babadağ) hündür olan bu məkanda bir şəhər, iki qəsəbə, 106 kənd vardır. 80 mindən artıq əhalinin yaşadığı bu məkanda müxtəlif xalqların, milli azlıqların, etnik qrupların: ləzgilərin, rusların, kürdlərin, tatların, hapıtların, lahıcların və s. millət-

lərin nümayəndələri azərbaycanlılarla çiyin-çiyinə işləyir, zəhmət çəkir və mehriban dolanırlar.

Ulu öndərimiz Heydər Əliyevin təbirincə desək, “Respublikamız çoxmillətli dövlətdir. Bu, respublikamızın üstünlüyüdür, milli sərvətidir, ümumi sərvətidir. Biz bununla fəxr edirik və bu tərkibi qoruyub saxlamalıyıq” Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir: “Vətəni sevmək imandandır”.

Etnoqrafiya baxımından böyük maraq doğuran Azərbaycanda qədim dövrlərdən yaşayan müxtəlif xalqlar ölkənin mədəniyyətinə, adət-ənənələrinə, incəsənətinə layiqli töhfə vermiş, əlvan bir xalçanın naxışları kimi bir-birinə uyuşmuşlar. Cığırlar yollara, çaylar dənizlərə qovuşduğu kimi eyni torpağın qoynunda, eyni səmanın altında yaşayan ayrı-ayrı xalqlar da birləşərək vahid Azərbaycan əmələ gətirmişlər. İndiki qloballaşma, ultramüasirləşmə dövründə hər bir xalq etnik kökünə, milli dəyərlərinə, etnoqrafik özünəməxsusluğuna qayıdış yollarını axtarır. Burada milli yeməklərdən tutmuş həyat tərzinə, adət-ənənələrə kimi hər şey maraq doğurur. Azərbaycanda yaşayan xalqlar arasında sayca ikinci yer tutan ləzgilərin sevimli şairi, xalqın tarixinə mayak kimi nur saçan, iliyinə kimi xalqına vurğun olan Zabit Rizvanov “Vəsiyyət” əsərində yazırdı: “Tarixlə ədəbiyyat qardaşdır, biri “yaz” deyir, o birisi yazdırır. Tarix öyrədir, ədəbiyyat bilgiləri hamıya paylayır. Tarix güzgüdür, ona tez-tez bax, öz tarixini dərindən bilməyən xalq dünyanın digər xalqları ilə eyni sırada dayana bilməz”. Təbii ki, belə əqidəyə malik olan şair ləzgi xalqına “Ləzgi tarixi” və “Lazvili” eposunu, 10 roman, 20 povest, yüzlərlə şeir, şifahi xalq ədəbiyyatının gözəl nümunələri olan minlərlə bayatı, lətifə, rəvayət və nağılları miras qoyub

dünyasını dəyişmişdir. Öz xalqına, elinə-obasına xidmət etmiş hər bir şəxs dəyərləndirilməli və xatirəsi əziz tutulmalıdır. Bu, bizim hər birimizin mənəvi və vicdan borcumuzdur.

Bu gün biz multikulturalizm ilinə töhfə olaraq Folklor İnstitutu və onun əməkdaşlarının Lahıc qəsəbə tam orta məktəbin müəllimi Dadaş Əliyevlə ərsəyə gətirib çap etdirdikləri "Azsaylı xalqların folkoru" kitabının təqdimat mərasiminə gəlmişik. Kitabda İsmayıllı rayonunda məskunlaşmış lahıc, ləzgi, hapıt və molokan ruslarına aid folklor nümunələri toplanmış və sistemləşdirilmişir. Hər şeydən əvvəl uzun müddət əziyyət çəkib, axtarışlar apararaq zəhmətinin bəhrəsinə nail olmuş bütün adamlara can sağlığı, könül xoşluğu və yaradıcılıqlarında yeni-yeni uğurlar qazanmalarını arzulayıram. İnanıram ki, Dadaş müəllim təmsil olunduğu Folklor İnstitutu ilə birgə bu istiqamətdə daha səmərəli işlərin görülməsinə toparlanacaq.

Azərbaycanda yaşayan, Azərbaycanı özünə doğma Vətən bilən, onu göz bəbəyi kimi qorumağı mənəvi borc hesab edən bütün xalqları bir gül çələnginə bənzədərdim. Bu gül çələngində olan güllər ayrı-ayrı ətrə malik olsa da, bütövlükdə bir çələngdir.Bu çələngin uca, şərəfli, dünyaya səs salan möhtəşəm bir adı var: AZƏRBAYCAN.

Əminəm ki, həmişə olduğu kimi bundan sonra da İsmayıllı əhalisi Azərbaycanın hərtərəfli inkişafina, müstəqilliyimizin möhkəmlənməsinə öz dəyərli töhfəsini verəcək, Azərbaycan Respublikasının Prezidentinin yürütdüyü siyasəti müdafiə edəcəkdir!

**Şahməmməd Dağlaroğlu**
*“İsmayıllı xəbərləri”qəzetinin redaktoru, şair*

# MƏDƏNİ İRSİMİZİ QORUYAQ

İsmayıllıda yaşayan azsaylı xalqların folkloruna həsr olunmuş kitabın AMEA Folklor İnstitutunun dəstəyilə çap olunmasını ümumazərbaycan mədəni irsinin qorunması sahəsində görülən təqdirəlayiq bir iş kimi qiymətləndirərdim. Düzdür, bundan əvvəl İsmayıllıda azəri türklərlə yanaşı kompakt şəkildə yaşayan azsaylı xalqların folklor nümunələri məhdud formada toplanıb nəşr edilsə də, bu, daha çox fərdi qaydada və şəxsi təşəbbüslərin nəticəsi olaraq meydana çıxmışdır. Məsələn, bu çıxışın müəllifinin, yaziçi-alim Manaf Süleymanovun, folklorşünas Dadaş Əliyevin, mərhum şairimiz Ağami Bağırlının, jurnalist Məhbubə Hacıyevanın, Mollaisaqlı məktəbinin müəllimi İldırım Məsimovun və başqalarının işləri bu istiqamətdə əhəmiyyətli addımlardır. Lakin bu kitabın çap olunması 2016-cı ildə elan olunmuş “Multikulturalizm ili” çərçivəsində nəzərdə tutulmuş silsilə tədbirlərin məntiqi davamı və dövlətin azsaylı xalqların dil və mədəniyyətinin inkişafına göstərdiyi qayğının bariz təzahürü kimi qiymətləndirilməlidir. Bu məsələnin belə həlli bir elmi hadisədən daha çox önəmlidir, belə ki, kiçik etnosların mədəniyyət və folklor ənənələrinin öyrənilməsi, bununla bağlı çap materiallarının hazırlanması və geniş ictimaiyyətə təqim olunması iki baxımdan dəyərlidir:

Birincisi, azsaylı xalqların dil və mədəniyyətinə təkcə sözdə deyil, həm də gerçək əməldə göstərilən diqqət və qay-

ğıdır. Bu da ölkəmizin beynəlxalq aləmdə tolerant və multikultural dəyərlərə sadiq bir ölkə imicini bir daha əsaslandırır.

İkincisi, bu hadisə ölkə əhalisinin sayca az olan millətlərinin dil və mədəniyyətinin qorunmasına və inkişafına, bu xalqların nümayəndələrinin özlərini bu ölkənin tamhüquqlu vətəndaşları və ümumazərbaycan mədəniyyətinin tərkib hissəsinin yaradıcıları kimi hiss etmələrinə təminat verir.

Kitabın nəşrinin əhəmiyyətini qeyd etməklə yanaşı onun tərtibçilərinə və nəşrində göstərdiyi dəstəyə görə Foklor İnstitutuna təşəkkür edir və daha mühüm nəşrləri həyata keçirməsini arzulayıram.

**Validə Ağabalayeva**
*filologiya üzrə fəlsəfə doktoru,dos.*

## "AZSAYLI XALQLARIN FOLKLORU" KİTABININ II CİLDİ HAQQINDA

Ulu öndər Heydər Əliyevin milli azlıqlara qayğısı XX əsrin sonunda verdiyi sərəncam və tövsiyələrdə öz əksini tapmış və azsaylı xalqların dilinin, mədəniyyətinin, folklorunun, adət-ənənələrinin, mətbəxinin inkişafına təkan vermişdir.

Azsaylı xalqların: ləzgilərin, hapıtların, molokanların, tatların, xınalıqların, lahıcların, dağlıların və udinlərin yaşadığı bu əsrarəngiz məkan dünyanın hər yerindən gələn turistlərin marağına səbəb olur və onlar həmin yerləri ziyarətə gedirlər. Uzaqgörən siyasətçinin, dahi rəhbərin Azərbaycanın bütün bölgələri haqqında geniş və müfəssəl təsəvvürü var idi.

Azərbaycan Respublikasının prezidenti, Ulu öndərin ideallarının davamçısı cənab İlham Əliyev də həmin ənənələrə sadiq qalaraq onların inkişafına öz töhfələrini verməkdədir. Cənab prezidentin son 2 ildə verdiyi sərəncamlarda tolerantlıq, multikulturalizm, islami həmrəylik əlahiddə il kimi dəyərləndirilmiş və bu illər ölkəmizdə əlamətdar tarix kimi qeyd olunmuşdur.

Həmin sərəncamların biri də Azərbaycanda yaşayan milli azlıqların ana dilinin öyrənilməsi, doğma dillərində yazıb-oxuması və onların mədəniyyətlərinin qorunub inkişaf etdirilməsi zəminində qəbul olunmuşdur.

Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu tərəfindən nəşr olunan "Azsaylı xalqların folkloru" kitabı Azərbaycanda mövcud olan tolerantlıq və

multikulturalizm ili çərçivəsində görülmüş çox maraqlı və dəyərli işlərdən biridir. Kitabda toplanmış materiallarının böyük hissəi lahıcların folklor örnəkləridir. Məhz bu səbəbdəndir ki, kitabın tərtibçilərindən biri AMEA Folklor İnstitutunun doktorantı, əslən lahıc olan Dadaş Əliyevdir. Heç təsadüfi deyil ki, Ulu öndər Lahıcı doğma Azərbaycanın incisi adlandırmışdı.

Kitaba İsmayıllı rayonunda yaşayan lahıcların, molokanların, ləzgilərin və hapıtların folklor nümunələri daxil edilmişdir.

Bu maraqlı tədqiqat işinin "Ön söz"ündə İsmayıllı rayonunun inzibati ərazisi haqqında geniş məlumat verilir və ayrı-ayrı azsaylı xalqların məskunlaşdığı yaşayış məntəqələri sadalanır.

Daha sonra kitabda inanclar və sınamalar, rəvayətlər, bayatı və ağılar, nəğmələr, ayrı-ayrı azsaylıların mərasim folkloru, mətbəxi, müxtəlif bayramların necə qeyd olunması maraqlı və oxunaqlı nümunələrdə öz əksini tapmışdır. Tədqiqat işinə lətifələr və ayrı-ayrı yaşayış məntəqələrinin toponimləri də daxil edilmişdir.

Əsərin sonunda istinad olunmuş mənbələrin siyahısı verilmişdir.

"Azsaylı xalqların folkloru" seriyasından olan ikinci kitab həm elmi, həm də bədii nöqteyi-nəzərdən maraqlı və oxunaqlıdır. Müəlliflərə uğurlar və gələcəkdə bu işi davam etdirmələrini arzulayıram!

**Hikmət Haqverdili**
*İsmayıllı rayonu, Lahıc qəsəbə*
*tam orta məktəbin direktoru, əməkdar müəllim*

# AZSAYLI XALQLARIN FOLKLORU

"Azsaylı xalqların folkloru" kitabının II hissəsi işıq üzü gördü. Bu kitab İsmayıllı rayonunda yaşayan azsaylı xalqlara həsr olunmuşdur. Kitabın ərsəyə gəlməsində AMEA Folklor İnstitutu əməkdaşlarının, o cümlədən, filologiya üzrə fəlsəfə doktoru Atəş Əhmədli və doktorant, İsmayıllı rayonu Lahıc qəsəbə tam orta məktəbin müəllimi Dadaş Əliyevin böyük əməyi olmuşdur.

Mən şəxsən Atəş müəllimlə Dadaş müəllimin bu sahədə çəkdikləri zəhmətin şahidiyəm. Atəş müəllim dəfələrlə Lahıca gəlmiş, araşdırmalar aparmışdır. Dadaş müəllim isə İsmayıllı rayonunda azsaylı xalqların nümayəndələri yaşayan kəndlərdə olmuş, orada yaşayan ailələrlə görüşmüş, ziyalılarla iş aparmışdır. Bu zəhmətin nəticəsidir ki, dəyərli bir vəsait meydana çıxmışdır. Kitab multikulturalizm baxımından çox qiymətlidir, xalqlarımızın multikultural dəyərlərə hörməti mənasında dövlətimizin dünya dövlətlərinə tanıtımıdır. Yəni bizim dövlət burada yaşayan bütün xalqların vətənidir və onların hamısı özlərini bərabərhüquqlu vətəndaş kimi hiss edir.

15 dekabr 2017-ci il tarixində İsmayıllı şəhərində İsmayıllı rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən təqdimat bir daha bu işin əhəmiyyətli olduğunu sübut etdi. Tədbirdə akademik Muxtar İmanovun çıxışı və söylədiyi təkliflər həm də bu işin davamlı olacağından xəbər verirdi.

Bu kitabın meydana çıxması həm də bizim tariximizi dərindən öyrənmək baxımından qiymətlidir.Tədbirdə indiyə qədər haqqında çox az məlumat verilmiş Niyal (Girdiman) qalası haqqında film də nümayiş etdirildi. Film alqışlarla qarşılandı. Qənaətim budur ki, biz tariximizi daha dərindən öyrənməliyik.

Mən Folklor İnstitutuna təşəkkürümü bildirirəm və gələcək işlərində onlara uğurlar arzulayıram!

















# İÇİNDƏKİLƏR

## MƏRUZƏLƏR

**Sevil Əhmədova**
Əlamətdar il ........................................................................ 3
**Muxtar Kazımoğlu – İmanov**
Xalq ədəbiyyatında azərbaycançılıq və multikulturalizm .... 5
**Ramazan Qafarov**
Azərbaycançılıq ideologiyası tarixi və ədəbi mənbələrdə.... 39
**İlkin Rüstəmzadə**
Azərbaycan domları: yayıldığı coğrafiya,
təsərrüfatı və məişəti ........................................................ 55
**Atəş Əhmədli, Cabbar Süleymanov**
Azərbaycanlı azsaylılar və Azərbaycan folkloru
(Şimal-Şərq bölgəsi örnəkləri əsasında) ............................ 100
**Dadaş Əliyev**
Hapıtlar və onların folklor ənənələri ................................. 114
**Qalib Sayılov**
Multikulturallıq və tolerantlıq: islami dəyərlər əsasında
formalaşan folklor və din münasibətləri modeli ................ 141
**Ləman Vaqifqızı (Süleymanova)**
Avarlarda dambır ifaçılığı ................................................. 164
**Mehparə Rzayeva**
"Oğuznamə" eposunda multikultural düşüncə və
davranış modelləri ............................................................ 181
**Mahir Qəribov**
Azərbaycan – Şərqin mədəniyyət incisi ............................ 192
**Könül Baxışova**
Əski türk evtikmə mədəniyyətinin İsmayıllıda qalıqları .... 204

## ƏLAVƏ MATERİALLAR

**Elçin Qaliboğlu (İmaməliyev)**
Hapıtlar: tarixi, mədəniyyəti, dili *(jurnalistin qeydləri)* ..... 214
**Cəfər Bağırov**
"Azsaylı xalqların folkloru" kitabı haqqında
təəssüratım ........................................................................ 221
**Olqa Radayeva**
Село Ивановка – пример толерантности и
мультикультурализма в Азербайджане .......................... 226
**İldırım Məsimov**
Haputlar ............................................................................. 229
**Bəxtiyar Rəhimov**
Multikulturalizm ilinin töhfəsi........................................... 232
**Şahməmməd Dağlaroğlu**
Mədəni irsimizi qoruyaq.................................................... 235
**Validə Ağabalayeva**
"Azsaylı xalqların folkloru" kitabının
II cildi haqqında ................................................................ 237
**Hikmət Haqverdili**
Azsaylı xalqların folkloru ................................................. 239

**“Gücümüz birliyimizdədir” mövzusunda**
**Elmi Konfransın materialları.**
Bakı, “Elm və təhsil“, 2018.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d. Səbinə İsayeva**

Kompüterdə yığan:
**Kəmalə Zeynalova**

Korrektorlar:
**Aynur Cəlilova**
**Könül Əliyeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Səfa Əliyeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 248 səh
Tirajı: 350

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.